AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *RESEARCH PAPERS*

**2014, №2**

**BAKI – 2014**

*Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Elmi Şurasının 20 fevral 2014-cü il tarixli iclasının (protokol № 1) qərarı ilə nəşr edilir.*

***Təsisçi: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu***

***"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır***

***Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir***

***Baş redaktor:*** Qulu Novruzov

***Redaksiya heyəti:***
Yəhya Kərimov (*baş redaktorun müavini*), Akif Abbasov (*baş redaktorun müavini*), Əjdər Ağayev (*baş redaktorun müavini*), Zahid Qaralov, Gültəkin Hüseynova, Şəmistan Mikayılov, Ənvər Abbasov, Rəfiq Qəndilov, Mirzəli Murquzov, Fərahim Sadıqov, Camal Mustafayev, Seyidağa Həmidov, Talıb Paşayev, Müdafiə Mahmudov *(məsul katib).*

© ARTPİ, 2014

# ***TƏHSİLİN ÜMUMİ MƏSƏLƏLƏRİ***

## MÜƏLLİMİN KARYERA İNKİŞAFINDA VƏ İNNOVATİV FƏALİYYƏTƏ HAZIRLIĞINDA PEDAQOJİ MONİTORİNQİN İMKANLARI

**Abdulla Mehrabov,**
*texnika üzrə elmlər doktoru, professor,*
*Rusiya Təhsil Akademiyasının xarici üzvü,*
*əməkdar müəllim*
E-mail: mehrabov.abdulla@mail.ru

*Fikirləşmək, asan iş görmək çətindir,*
*fikri fəaliyyətə gətirmək isə dünyada ən ağır məsələdir.*
**İ.Höte**

***Açar sözlər:*** *pedaqoji monitorinq, innovativ fəaliyyət, öyrənənlərin ümumi kompetensiyaları, səviyyə şkalası, sistemli yanaşma, səmərəlilik meyarı, diaqnostika*

***Ключевые слова:*** *педагогический мониторинг, инновативная деятельность, общие компетенций обучающихся, уровневая шкала, системный подход, критерии эффективности, диагностика*

***Key wods:*** *pedagogical monitoring, general competences of feamer, level scale, estimation, system approach; criteria of efficiency, diagnostic*

Təhsildə səriştəlilik – sərəf, ləyaqət, məsuliyyət; mükəmməl bilik; aldığı biliyi həzm etmək; ondan istifadə edərək xeyir vermək və bunu başqalarına çatdırmaq; bunlara mane olan əməllərə qarşı barışmaz mövqe tutmaq bacarıqlarını formalaşdırır. Deməli, yüksək səviyyədə səriştəlilik geniş bilik, bacarıq və vərdişlər toplusunun, müəllimin karyera (karyera – xidməti, sosial, elmi və başqa fəaliyyət sahələrində müvəffəqiyyətlə irəliləmə, başqa sözlər xidməti pilləkənlə yuxarıya doğru irəliləmə) inkişafında və innovativ fəaliyyətə hazırlığında şəxsi, institusional və ictimai inkişafın əsas faktoru kimi, tədris-təlim prosesinin səmərəliliyinin əsas göstəricisi hesab edilir. Hazırda təhsildə öyrənənlərdə ümumi kompetensiyaların (səriştəliliyin) formalaşması tədris-təlim prosesinin keyfiyyətinin yüksəldilməsi vasitəsi olub, dünya təhsil sferasında təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir. Competense sözü yunanca to compete felindən əmələ gəlib, yarışmaq mənasını verir, daha dəqiq desək, yarışmaq bacarığı, səriştəlilik kimi tərcümə olunur [1, 2].

Təhsil alanların (öyrənənlərin) gələcək karyera inkişafında ümumi kompetensiyaların formalaşmasında və təlim nəticələrinə nəzarətdə tədris-təlim prosesinin təşkilinin ən vacib kompetenti *pedaqoji monitorinq* hesab edilir. Pedaqoji monitorinq təlim prosesinin təhlili, alınmış nəticələrin qiymətləndirilməsi, pedaqoji təcrübənin ümumiləşdirilməsi və yayılmasının son mərhələsi olub, nəticə etibarı ilə pedaqoji prosesin məqsədyönlü qurulmasını təşkil edir. Bu halda təhsil alanlarda ümumi kompetensiyaların formalaşması üçün müvafiq informasiyanın toplanması, təhlili, saxlanılması, korrektə edilməsi, işlənilməsi, proqnozlaşdırılması həyata keçirilir. Eyni zamanda pedaqoji monitorinq təlim fəaliyyətinin səmərəliliyinin yoxlanılması və nəticələrin müəyyən edilməsi üçün aşağıdakı funksiyaları da yerinə yetirir [2, 4, 5].

- fəaliyyətin son nəticələrinin ümumi səriştəliliyin səviyyə şkalasına uyğunluğunun qiymətləndirilməsi;

- problemli zonaların müəyyənləşdirilməsi, seçilmiş strategiyanın korreksiyası.

Qeyd etmək lazımdır ki, ümumi səriştəlilik çoxplanlı, mürəkkəb quruluşlu olduğundan onun yekun nəticəsinin qiymətləndirilməsini tamamilə standartlaşdırmaq mümkün deyil. Onların ölçülməsi çoxlu çətinliklərlə müşahidə olunur. Buna baxmayaraq, ümumi səriştəliliyin formalaşması üçün yeni yanaşmaların işlənilməsi və tətbiqi, təhsil alanlarda belə şəriştəliliyin formalaşma səviyyəsinin müəyyən edilməsi xüsusi əhəmiyyət daşıyır. Ona görə pedaqoji monitorinqin metodoloji əsasına aşağıdakı yanaşmaları qoymaq olar [3, 6]:

- *meyar-qiymətləndirmə tipli yanaşma.* Belə yanaşma təcrübənin, eksperimentin fərziyyəsinə uyğun təhsil alanların qazandıqları bilik və bacarıqların səviyyəsini qiymətləndirməyə imkan verir.
- *səviyyəni müəyyən edən tipli yanaşma.* Belə yanaşma nəticələrin ümumi səriştəliliyin səviyyəsinə uyğunluğunu müəyyən etməyə imkan verir.
- *kompleks tipli yanaşma.* Belə yanaşma təhsil alanların nailiyyətlərinin müxtəlif tərəflərinin, karyera inkişafının vahid göstəricilər formasında inteqrasiya imkanlarını müəyyən etməyə imkan verir.
- *real prinsiplərə uyğun yanaşma.* Belə yanaşmanın əsasını obyektivlik, bütövlük (nəticələrin hər bir meyara uyğun təqdim edilməsi), əldə olunmuş məlumatların etibarlılığı, vahidlik, sistemlilik, inteqrativlik, dinamiklik və s. təşkil edir.

Pedaqoji monitorinqinin tətbiqinin əsas istiqamətlərini belə qruplaşdırmaq olar:

- təhsil alanların ümumi səriştəliliyinin formalaşdırılmasında pedaqoji fəaliyyətin nəticələrinin ekspert qiymətləndirilməsi;
- təhsil alanların ümumi səriştəliliyinin, karyera inkişafının formalaşma səviyyəsinin ekspertizası və dinamik inkişafının müəyyən edilməsi;
- ümumi səriştəliliyn innovativ formalaşma fəaliyyətinə müəllimlərin peşəkar hazırlığı;
- pedaqoji proqnozlaşdırma.

Araşdırmalar göstərir ki, istənilən təhsil müəssisəsində pedaqoji monitorinqin strukturunu üç bloka ayırmaq olar [5, 7]:

- təhsil alanlarda ümumi kompetensiyaların formalaşma səviyyəsinin qiymətləndirilməsi (blok I);
- müəllimlərin təhsil alanlarda ümumi kompetensiyaların formalaşdırılması ilə bağlı innovativ fəaliyyətə hazırlıq səviyyəsinin qiymətləndirilməsi (II blok);
- əvvəlcədən hazırlanmış təlim mühitində təhsil alanlarda ümumi səriştəliliyin və karyera inkişafının formalaşdırılması ilə bağlı fəaliyyətə pedaqoji proses iştirakçılarının münasibəti (III blok).

Bu blokların hər birini ayrılıqda daha geniş təhlil edək. I blok təhsil alanlarda ümumi səriştəliliyin formalaşma səviyyəsini diaqnostik qiymətləndirmə üsulu ilə açmağa imkan verir və onun əsasına aşağıdakı parametrlər qoyulur:

- ümumi kompetensiyaların nəticə etibarı ilə səmərəlilik göstəricisi (nəyi ölçməli);
- qiymətləndirmə metodikası (ümumi kompetensiyaların formalaşma səviyyəsini necə ölçməli);
- qiymətləndirmə meyarı və ümumi kompetensiyaların formalaşma səviyyəsi (nəticə).

Bunlar göstərir ki, təhsil alanlarda tədris prosesi ilə bağlı kompetensiyaların öyrənilməsi vacib hesab edilməlidir. Yəni təhsil alanların dünyagörüşü, sosial-şəxsi, qnostik, informasiya-kommunikasiya, peşəkar-əmək, özünü təkmilləşdirmə səriştəliliyi ilə bağlı göstəricilərinin dərindən öyrənilməsi tələb olunur. Bunun üçün təhsil alanların yuxarıda göstərilmiş hər bir açar göstəriciləri aşağıdakı parametrlərlə (meyar göstəriciləri ilə) qiymətləndirilməlidir:

**1. Dünyagörüşlə (ümummədəni) bağlı səriştəlilik:**

- ümumbəşəri mədəniyyətin dəyərlərinin mənasının başa düşülməsi;
- təhsil alanın hərəkət və qərarları əsasında ətraf aləmdə gedən proseslərin dəyər-məna ilə bağlı göstəriciləri və karyera inkişafı ilə bağlı innovativ fəaliyyətin seçilməsində rolunu dərk etməsi;

- insan həyatında ictimai hadisələrin və ənənələrin rolunun mənimsənilməsi;
- müasir cəmiyyətə adaptasiya olunma bacarığı.

**2. Sosial-şəxsi səriştəlilik:**

- siyasi-vətəndaş fəallığı;
- tibb və sanitar sahədə bilik və bacarıqlara yiyələnmə;
- məişət sahəsində bilik və bacarıqlara yiyələnmə;
- sosial qarşılıqlı təsirlərdə fəal iştirak etmə.

**3. Qnostik (ümumtədris və idraki) səriştəlilik:**

- səmərəli tədris, dərketmə fəaliyyətinin təşkili ilə bacarıqlara yiyələnmə;
- analitik düşünmə bacarığına malik olma;
- özünütəhsilə hazır olma bacarığı;
- funksional savadlılıq.

**4. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində səriştəlilik:**

- informasiya mühitində öz yerini dərketmə;
- müasir informasiya texnologiyalarına, internetə, audeovideo vasitələrinə yiyələnmə;
- şifahi və yazılı nitq bacarıqlarına, sənədlərlə işləmə bacarıqlarına yiyələnmə;
- özünü və kollektivini təqdimetmə bacarığı.

**5. Peşəkar-əməklə bağlı səriştəlilik:**

- əmək bazarının durumunu, onun iqtisadi-hüquqi əsaslarını və sosial-iqtisadi vəziyyətini təhlil etmək bacarığı;
- mülki-əmək qarşılıqlı münasibətlərin etikasına yiyələnmə;
- peşəkarcasına öz müqəddəratını müəyyən etmə bacarığı;
- əmək hüquq və vəzifələrinin reallaşdırılmasına hazır olma.

**6. Özünü təkmilləşdirmə ilə bağlı səriştəlilik:**

- fiziki, mənəvi, intellektual özünüinkişaf və şəxsi refleksiya ilə bağlı dəyərlərin mənimsənilməsi;
- fəaliyyətin planlaşdırmaq və təşkil etmək, öz müqəddəratını müəyyən etmək, biliyini inkişaf etdirmək, fasiləsiz özünü dərketmə bacarığı;
- ictimai işlərə cəlb oluma bacarığı.

Araşdırmalar göstərir ki, müəllimin karyera inkişafı və innovativ fəaliyyətlə bağlı ümumi səriştəliliyin formalaşma səviyyəsinin obyektiv qiymətləndirilməsi üçün kvalimetrik və ekspert qiymətləndirmə metodlardan istifadə məqsədəmüvafiq hesab edilməlidir. Bu halda qiymətləndirmə prosesi aşağıdakı mərhələləri özündə birləşdirir [10,11]:

*1. Qiymətləndirmənin planlaşdırılması.* Qiymətləndirmə prosesinin planlaşdırılmasında, birinci növbədə, qiymətləndirmənin verilmiş modula uyğun forma və metodları müəyyən edilməli və aşağıdakı ardıcıllıqla həyata keçirilməlidir:

- qiymətləndirməyə rəhbərlik formasında rəsmiləşdirilmiş ümumi prinsiplər hazırlanmalı;
- nümunəvi qiymətləndirmə metlarının (layihənin qısa məzmunu, praktik məşğələlər və ya qiymətləndiməyə dair hazırlanmış nümunəvi suallar) siyahısı tutulmalı;
- meyarları göstərməklə nümunəvi yoxlama cədvəllərinin (Yoxlama cədvəllərində hansı metodlardan istifadə olunması və son nəticələr dəqiq göstərilməlidir) tətbiqi.

*2. İnformasiyaların toplanması.* Təhsil alanlar və imtahan edənlər informasiyanı toplayır və materiallar əsasında "dəlillər portfeli"ni formalaşdırırlar. İnformasiyalar eyni zamanda yekun qiymətləndirmə prosesində də formalaşdırıla bilər.

*3. Qiymətləndirməyə dair qərarın qəbul edilməsi.* Bu halda ekspert, qarşıya qoyulmuş məsələnin həlli ilə bağlı səriştəliliyin formalaşmasına dair informasiyanın kifayətedici olmasına dair qərar qəbul edir. Ayrı-ayrı bacarıqların verilmiş kompetensiyalar çərçivəsində qiymətləndirilməsi uyğun modulun mənimsənilməsi prosesində həyata keçirilir. Qiymətləndirməyə dair qərarın qəbul edilməsi etibarlılıq və kafilik meyarlarına əsaslanır.

Təhsil alanlarda həll edilən problemlə bağlı səriştəliliyin formalaşma səviyyəsi fazalar üzrə - reproduktiv (I faza), transformativ (II faza), kreativ (III faza) müəyyən edilir və hər fazaya uyğun ballarla qiymətləndirmə müvafiq indektorların köməyi ilə aparılır. Qiymətləndirmə prosesində göstərici olaraq aşağıdakı parametrlərin götürülməsi təklif olunur [8, 10].

➢ stabillik, başqa pedaqoji kadrların çox sayda işdən getməsinin səviyyəsinin (beyinlər axınının) qarşısının alınması;

➢ tədris alanların tədris planını yerinə yetirmədiklərinə, başqa tədris müəssisəsinə köçürüldüklərinə, yaşayış yerini dəyişdiklərinə görə yayınma səviyyəsi;

➢ tədris-təlim prosesinin nəticələrinin ictimaiyyət tərəfindən qəbuledilmə səviyyəsi.

Məlumdur ki, istənilən metodikanın əsasında sistemli yanaşma durur. Belə yanaşma tədqiqata cəlb olunmuş problemə, xarici və daxili faktorların sistemyaradan xarakterini nəzərə alaraq struktur elementlərini müəyyən etməyə imkan verir. İ.P Podlası pedaqoji sistemin strukturunu müəyyən etmək üçün vahid məntiqi ardıcıllıqla sıraya düzmə meyarından istifadə edərək məqsəd, məzmun, fəaliyyət, nəticə kimi sistemyaradan komponentləri nəzərə almağı təklif etmişdir [12].

İstənilən sistemin strukturunun təşkili, hökmən sistemyaradan əlaqələrin – genetik, səbəb-nəticə, təşkilati, kommunikativ və s. nəzərə alınmasını vacib hesab edir.

Araşdırmalar göstərir ki, sistemli yanaşmadan istifadə edərək təhsil alanların karyera inkişafının, karyera fəaliyyətinin, bilik səviyyəsinin və tədris-təlim prosesində idrakı fəaliyyətin yüksəldilməsi üçün biliyin diferensial nəzarət metodundan istifadə məqsədəmüvafiq hesab olunmalıdır. Bunun üçün aşağıdakılar yerinə yetirilməlidir:

- təhsil alanların bilik səviyyəsinə və praktik bacarıqlarına nəzarət prosesində idrakı fəaliyyətin idarəolunması üçün fərdi yanaşmanın realizasiyası;
- təhsil alanların bilik səviyyələrinə və bacarıqlarına nəzarət prosesində yeni yanaşmaların rolunun gücləndirilməsi;
- təlimin yekun nəticələrinə orientasiya;
- təhsil alanın idraki fəaliyyət prosesində işinin müntəzəm stimullaşdırılması [6, 7].

Beləliklə, təhsil müəssisəsində tədris-təlim prosesinin planlaşdırılması və təşkili zamanı öyrədən hər bir öyrənin karyera ilə bağlı inkişaf səviyyəsini hərtərəfli təhlil etməli, onun dərketmə fəallığını diaqnostik metodla qiymətləndirməlidir. Diaqnostikasız tədris prosesinin tam mənzərəsini və gedişini, onun müsbət dinamikasının idarə olunmasını təsəvvür etmək mümkün deyildir. Diaqnostikanın əsas məqsədi öyrənmə prosesinin effektivliyinə dair obyektiv informasiyanın alınmasından ibarətdir. Beləliklə, karyera və innovativ fəaliyyətlə bağlı dərketmə fəallığının qiymətləndirilməsi meyarlarının müəyyən edilməsi, tədris prosesində təhsil alanların fəallıq səviyyəsinin ölçülməsi üçün şkalanın yaradılmasına imkan verir.

Tədqiqatlar nəticəsində karyera və innovativ fəaliyyətlə bağlı biliyin və bacarıqların diferensial nəzarət modelinin əsasına dərketmə fəaliyyətinin beş səviyyəsinin qoyulması müəyyən edilmişdir: nisbi, icraedici, reproduktiv, səmərəlilik (məhsuldarlıq), yaradıcılıq. Belə yanaşma təhsil alanların təhsil prosesində qazandıqları biliyin və praktik bacarıqların keyfiyyətinə əsasən, bütövlükdə prosesin qiymətləndirilməsinə imkan verir:

➢ *reproduktiv* səviyyədə (Bu səviyyənin keyfiyyət göstəricisi $0,2< k<0,6$ intervalında dəyişir) materialın öyrənənlər tərəfindən mənimsənilməsi uzunmüddətli, müntəzəm təlim nəticəsində həyata keçirilir. Bu halda prosesə müəllimin daimi nəzarəti tələb olunur;

➢ *səmərəlilik* (məhsuldarlıq) səviyyəsində (Bu səviyyənin keyfiyyət göstəricisi $0,6<k<0,8$ intervalında dəyişir) təlim materialının mənimsənilməsi ardıcıl təlim məşqləri nəticəsində həyata keçirilir;

➢ *yaradıcılıq* səviyyəsində (Bu səviyyənin keyfiyyət göstəricisi $0,8<k<1,0$ intervalında dəyişir) təlim materialının mənimsənilməsi sərbəst həyata keçirilir. Bu halda təhsil alanlar materialın əsas hissəsini, qanunauyğunluqları aşkar edib, materialın ən mühüm hissəsini müəllimin köməyi olmadan sərbəst təhlil etməyi bacarır. Eyni zamanda, onlar xüsusi yaradıcı yanaşma tələb edən qeyri-standart vəziyyətlərdə sərbəst hərəkət edir və müvafiq təkliflər hazırlamağı bacarırlar [6, 9].

Bu hallarda təhsil alanların karyera və innovativ fəaliyyətlə bağlı modeli, əsasən, dörd ardıcıl proseduru özündə birləşdirir:

- təhsil alanların bilik səviyyəsinə və qazanılmış bacarıqlarına nəzarətin qoyuluşu;
- təhsil alanların bilik səviyyəsinə və qazanılmış bacarıqlarına diferensial nəzarətin həyata keçirilməsinə istiqamətlənmiş tapşırıqların seçilməsi;
- təhsil alanların bilik səviyyəsinə və qazanılmış bacarıqlarına diferensial nəzarətin həyata keçirilməsi üçün metod və priyomların seçilməsi;
- idraki fəaliyyət prosesində bilik səviyyəsinin formalaşmasının diaqnostikası və korreksiyası.

Öyrənənlərdə karyera və innovativ fəaliyyətlə bağlı ümumi səriştəliliyin formalaşmasında pedqoji monitorinqin imkanlarını genişləndirmək üçün diferinsial yanaşmadan, sadədən mürəkkəbə prinsipinin əsaslarından, idraki fəaliyyətin stimullaşdırılması imkanlarından, tədris fəaliyyətində təhsil alanların bilik səviyyələrindən və pedaqoji prosesdə qazanacaqları praktik bacarıqlardan geniş isitfadə olunmalıdır.

Beləliklə, müəllimin karyera inkişafı və innovativ fəaliyyətlə bağlı pedaqoji monitorinqə dair təklif olunan prosedura təhsil alanların ümumi səriştəliliyin formalaşma səviyyələrini və inkişafını qiymətləndirməyə, onların bilik səviyyələrini, alınmış nəticələrin etibarlılığını müəyyən etməyə, pedaqoji eksperimentin nəticələrinə dair mükəmməl informasiyanın alınmasına imkan verdiyinə görə tədris-təlim prosesində onun tətbiqi gücləndirilməli və bununla bağlı mükəmməl bir sistem yaradılmalıdır.

## ƏDƏBİYYAT

1. Mehrabov A.O. Təhsildə səriştəli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri // Azərbaycan məktəbi, 2007, №1
2. Mehrabov A.O. Təhsildə konseptual kompetensiyaların formalaşmasının mahiyyəti və məzmunu // ARTPİ-nin elmi əsərləri, Bakı: 2007, №1
3. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı: Mütərcim, 2012.
4. Антипова В., Богомолова Г. Система школьного педагогического мониторинга // Инновационного школа, 1997, №2
5. Майоров А. Мониторинг в образовании. М., 1998.
6. Антипова В. и др. Мониторинг в образовательной системы современной школы. Ростов-на-Дону, 1999.
7. Давыдов В.В. Теория развивающего обучения. М., 1996.
8. Нейматов Я.М. Образование XXI веке: тенденции и прогнозы. М.: Алгоритмы, 2002.
9. Слободчиков В.И. Инновационное образование // Школьные технологии, 2005, № 5.
10. Тюрин Ю.Н. Статические методы анализа экспертных оценок. М.: Наука, 1977.
11. Яковлев Е.В. Квалиметрический подход в педагогическом исследовании // Педагогика, 1999, № 3.
12. Подласый И.П. Педагогика. Новый курс. М.: Владос, 1999.

**А.Мехрабов**

## ВОЗМОЖНОСТИ ПЕДАГОГИЧЕСКОГО МОНИТОРИНГА В РАЗВИТИИ КАРЬЕРНОГО РОСТА И ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ ПЕДАГОГА

### РЕЗЮМЕ

В статье конкретизируется понятие педагогического мониторинга, раскрывается его сущность, направление и структурные компоненты применительно к процессу формирования общих компетенций обучающихся, описан критериально-диагностический инструментарий его проведения. Кроме того, в статье проанализированы основы дифференциального контроля, диагностика знаний и умений учащихся и их коррекция в процессе познавательной деятельности.

**A.Mehrabov**

**POSIBLE PEDAGOGIKAL MONITORING IN FORMATION GENERAL COMPETENCIES OF THE TRAINEES**

**SUMMARY**

The article is concretized concept pedagogical monitoring, revealed its essence reveals its essence, direction and structural components for the process of the formation of general competencies of students, described criterial and diagnostic tools of meeting. In addition, the paper analyzes the basis differential control, diagnostics knowledge and skills of students and their correction in the cognitive activity.

*Redaksiyaya daxil olub: 22.01.2014*

# PEDAQOJİ KADR HAZIRLIĞININ BƏZİ MƏSƏLƏLƏRİ

**İntiqam Cəbrayılov,**
*pedaqogika üzrə elmlər doktoru*
E-mail: intiqamcebrayilov@mail.ru

**Rəyçilər:** *prof.* **A.N. Abbasov,**
*ped.elm.dok.* **H.H. Əhmədov**

***Açar sözlər:*** *təhsil islahatı, müəllim, tələbə, pedaqoji kadr hazırlığı, səriştəlilik, rəqabətəqabillik, şəxsiyyət, keyfiyyətin idarə olunması, konsepsiya*

***Ключевые слова:*** *реформы в области образования, преподавателъ, студент, подготовка педагогических кадров, опыт, конкурентноспособный, личностъ, управление качеством, концепция*

***Key words:*** *educational reforms, teasher, student, training of pedagogical staff, skills, concurable, personality, control of guality, consept*

Ölkəmizdə uğurla həyata keçirilən təhsil islahatları təhsilin bütün pillə və səviyyələrində köklü dəyişikliklərin həyata keçirilməsinə imkan yaratmışdır. Müasir dövrdə təhsilin şəxsiyyətyönümlüyü, nəticəyönümlüyü hər bir vətəndaşın milli və bəşəri dəyərləri qorumağı bacaran, rəqabətəqabil şəxsiyyət kimi formalaşmasına geniş imkanlar açır. Bu baxımdan təhsil müəssisələrinin, rəhbər pedaqoji işçilərin, müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Təcrübə göstərir ki, kadr hazırlığı, ilk növbədə pedaqoji kadr hazırlığı cəmiyyətin mənəvi ehtiyac və tələbatlarının ödənilməsində böyük rol oynayır. Belə ki, məhz pedaqoji kadr hazırlığının nəticəsi kimi yeni nəsil-mütəxəssis gənclər formalaşır və onların nəzəri və praktik bilik və bacarıqları həyata tətbiq olunaraq cəmiyyətin inkişafında təsirli vasitəyə çevrilir. Müəllim öyrədən, tərbiyə edən, cəmiyyət üçün layiqli vətəndaşlar yetişdirən şəxsiyyətdir. O özü şəxsiyyət olmaqla bərabər, həm də təhsilalanın şəxsiyyətini formalaşdırır. Bu baxımdan müəllim şəxsiyyətinə, onun pedaqoji kadr kimi səriştəliliyinə xüsusi əhəmiyyət verilir. Müəllimin yüksək şəxsi keyfiyyətlərə, peşə səriştəliliyinə malik olması təbii ki, təlim-tərbiyə işinin də keyfiyyətinə müsbət təsir göstərəcək, təhsilalanın müasir tələblərə cavab verən şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayacaqdır.

Qeyd etmək lazımdır ki, müəllim hazırlığı tarixin bütün mərhələlərində cəmiyyəti düşündürən əsas məsələlərdən biri olmuşdur. Eyni zamanda hər bir tarixi dövrdə bu məsələyə münasibətdə fərqli düşüncə, fərqli yanaşmalar olmuşdur. Etiraf etməliyik ki, müasir dövr əvvəlki tarixi dövrlərdən kəskin şəkildə fərqləndiyindən hazırda müəllim kadrları hazırlığının məzmunu və problemin həlli istiqamətləri daha ciddi elmi yanaşmalar tələb edir.

Bu gün Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz milli mənəvi dəyərlərini qorumaqla yanaşı Avropaya, dünyaya inteqrasiyaya həssaslıqla yanaşır. Qloballaşma, inteqrasiya prosesləri dünya təcrübəsinin öyrənilməsinə, bu təcrübədən bəhrələnməyə müəyyən imkanlar açsa da xalqımızın, vətənimizin, ölkəmizin inkişafının əsasında ilk növbədə milli mədəniyyətin, milli mənəvi dəyərlərin qorunması prinsipi dayanır. Ona görə də pedaqoji kadr hazırlığında bu məsələlərə xüsusi diqqət yetirilməsi məqsədəuyğun sayılır.

Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması ən vacib problemlərdən biridir. Təcrübə və araşdırmalar göstərir ki, keyfiyyətin idarə olunması problemlə bağlı aşağıdakı məsələlərə təminat verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir:

-pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsi;

-müəllimlərin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi;

-təlim və tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi.

Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması təkcə təhsil sahəsinə deyil, bütövlükdə ölkənin sosial-iqtisadi inkişafına ciddi təsir baxımından diqqəti cəlb edir. Bu baxımdan aşağıdakı məsələlərin həllinə imkanlar yaranır:

-pedaqoji kadr hazırlığının tələbata uyğun düzgün planlaşdırılması və idarə olunması nəticəsində maliyyə vəsaitinin səmərəli istifadə edilməsinə;

-müəllimlik sənətinin nüfuzunun yüksəlməsinə və müəllimliyin peşəkar fəaliyyət növünə çevrilməsinə;

-müəllimlərin sosial statusunun möhkəmlənməsinə və maddi vəziyyətinin yaxşılaşmasına;

-əmək bazarının inkişafının sürətləndirilməsinə;

-bazar iqtisadiyyatının tez-tez dəyişən tələblərinə və yeni sosial –iqtisadi şəraitə uyğunlaşmaq üçün fasiləsiz təhsil almalarına və s.

Qeyd etməliyik ki, son illərdə ölkəmizdə pedaqoji kadr hazırlığı aparılan ali və orta ixtisas təhsili müəssisələrinin şəbəkəsi xeyli genişlənmişdir. Hazırda Azərbaycanda pedaqoji kadrların fasiləsiz hazırlığı 22 ali (10 dövlət, 12 qeyri-dövlət), 26 orta ixtisas (23 dövlət və 3 qeyri-dövlət) və 1 ixtisasartırma təhsili müəssisəsində aparılır. Bütün bunlarla yanaşı məktəbəqədər təhsil, ümumi orta, orta ixtisas, ali və əlavə təhsil proqramlarını həyata keçirən elmi-pedaqoji tədris komplekslərinin yaradılması prosesi davam edir.

Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması təlimin məzmunu və metodlarına, eyni zamanda bu və ya digər ixtisaslaşmanın məzmununa yeni yanaşmalar tələb edir. Müəllim yalnız bilavasitə ixtisası ilə bağlı biliklərlə kifayətlənməməli, daim peşə səriştəliliyini artırmağa çalışmalı, innovasiyaları mənimsəməli və tətbiq etməyi bacarmalıdır. Pedaqoji kadr hazırlığı prosesində bu məsələlərə ciddi diqqət yetirilməlidir.

Ümumiyyətlə, pedaqoji kadr hazırlığı və keyfiyyətin idarə olunması problemi ilə bağlı bir sıra tədqiqatlar aparılmışdır. Araşdırmalar göstərir ki, dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda ali təhsil almaq imkanlarının genişləndirilməsinə xüsusi əhəmiyyət verilir. İlk növbədə maddi durumu aşağı səviyyədə olan ailələrin övladlarının ali təhsil ala bilməsinə əlverişli şərait yaradılır, ali məktəblərin əsas maliyyələşmə mənbələrindən biri kimi dövlət maliyyələşməsinə də ciddi diqqət yetirilir. Bununla yanaşı dünya təcrübəsində ali təhsil almağın maraq doğuran, yeni formaları da özünü doğrultmuş, tədricən inkişaf etməkdədir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) beynəlxalq tələbə qiymətləndirmə proqramı (BTQP) və İƏİT-in öyrətmə və öyrənmə üzrə beynəlxalq araşdırma (ÖÖBA) qrupunun hesabatları əsasında hazırlanmış Andreas Şleyxerin məruzəsində müəllim hazırlığı ilə bağlı məsələlərə diqqət yetirilmişdir (7, 8, 9). Burada ilk növbədə aşağıdakı məsələlər əhatə olunmuşdur: 1) müəllimlərin pedaqoji peşə sahəsinə cəlb edilməsi və onlara ibtidai pedaqoji təhsilin verilməsi; 2) iş yerlərində müəllimlərin püxtələşməsi üçün yaradılmış imkanlar və bu sahədə onlara göstərilən dəstək; 3) müəllim əməyinin qiymətləndirilməsi və mükafatlandırılması; 4) müəllimlərin təhsil islahatlarında iştirakı; 5) müəllim kadrlarının seçilməsi və onların ibtidai peşə hazırlığı; 6) müəllimlik peşəsini cəlbedici karyeraseçimi etməyin yolları.

Beynəlxalq təcrübə göstərir ki, təqaüdə gedən müəllimlərin yeni kadrlarla əvəz olunması üçün ciddi tədbirlərin həyata keçirilməsi təklif edilir (11, 12, 13). Belə ki, islahatların aparılmasında onların geniş iştirakının təmin olunması, peşəkarlıq səviyyəsinin inkişafı üçün şəraitin yaradılması, səriştəliliyə uyğun müvafiq əmək haqqı sisteminin müəyyənləşdirilməsi, müəllimlərin ictimai statusunun qaldırılması vacib məsələlər kimi nəzərdə tutulur. Bütün bunlar isə müəllimin qarşısında innovasiyaları mənimsəmək, yaradıcılıq qabiliyyətlərini daim inkişaf etdirməyə kömək edən pedaqoji təhsil almaq şərtini irəli sürür.

Araşdırma göstərdi ki, müəllimlərin peşə səriştəliliyinin artırılması üçün iş yerlərində yaradılmış imkanlar da mühüm əhəmiyyət kəsb edir. Müəllimlərin peşə səriştəliliyinin inkişafına xidmət edən kurslar bir çox hallarda qısamüddətli olduğundan burada müəllimlərin tələbatlarını tam şəkildə ödəmək olmur və prosesin natamamlığı əldə olunan nəticələrə də təsir göstərir. Müəllimlərin uzunmüddətli ixtisasartırma proqramlarına üstünlük verməsləri, burada tədrisin, təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsi üçün innovasiyaların, səmərəli yolların müzakirə edilməsinə və daha dərindən mənimsənilməsinə imkan verən şəraitin olmasıdır. Əksər hallarda müəllimlər peşə səriştəliliyinin inkişafına xidmət edən ixtisasartırma proqramlarının maliyyə

xərclərini özləri ödəyirlər. Bu, eyni zamanda müəllimin tədris metod və texnologiyalarının təkmilləşdirilməsi ilə bağlı bilik və bacarıqlarını daha dərindən mənimsəməyə müəyyən stimul yaradır, onun məsuliyyətini artırır. Yeni bilik və bacarıqlar qazanmış müəllim iş yoldaşları ilə fikir mübadiləsi aparır, əldə etdiyi nəzəri nəticəni və praktik təcrübəni onlarla bölüşür, beləliklə, kollektivdə keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaranır.

Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması müəllim kadrlarının seçilməsinə də diqqətli yanaşma tələb edir. Xüsusilə pedaqoji kadrlar az olan ərazidə bu problemə həssas münasibət daha çox vacibdir. Dünya təcrübəsi göstərir ki, pedaqoji təmayüllü ali məktəbləri bitirmiş məzunlar arasından müəllim kadrları seçilərkən aşağıdakı perspektiv amillər nəzərə alınır: 1) rəqabət qabiliyyətli əməkhaqqı; 2) karyera yüksəlişi; 3) bir peşəkar kimi müəllimlərə müəyyən səlahiyyətlərin verilməsi.

Bəzi ölkələrdə müəllimlərin statusunu qaldırmaq üçün ilk növbədə bu peşənin yüksək statuslu fəaliyyət növü hesab edilməsi nəzərə alınır və kadrların cəlb edilməsində müsabiqə prinsipinə üstünlük verilir. Müəllimliyin yüksək statuslu fəaliyyət növü hesab edilməsi bu işə cəlb olunanlar arasında rəqabəti xeyli artırır və nəticə etibarilə karyera yüksəlişində böyük uğur qazanıldığı qənaətinə gəlinir.

Müəllim peşəsinin statusunun qaldırılması pedaqoji kadr hazırlığı prosesində mənimsənilmiş nəzəri biliklərin, o cümlədən məktəb-ailə-ictimaiyyət əlaqələrilə bağlı nəzəri biliklərin praktikaya tətbiqi, məktəblərin ictimaiyyətlə əlaqələrinin dərinləşdirilməsi və genişləndirilməsindən də xeyli dərəcədə asılıdır.

Araşdırmalar göstərir ki, pedaqoji kadrların peşə səriştəliliklərinin üzə çıxarılmasında Sinqapurun təcrübəsi maraq doğurur. Bu ölkədə bir qayda olaraq müəllimlərin hazırlanması, seçimi prosesi ilk növbədə ümumtəhsil məktəblərinin yuxarı siniflərindən başlayır. Belə ki, ümumtəhsil məktəbi məzunlarının üçdə biri-yuxarı sinif şagirdlərinin ən bacarıqlıları seçilir və onlara gənc müəllimlərin aldığı maaş qədər aylıq təqaüd verilir. Əvəzində həmin şagirdlər üç il müəllimlik edəcəkləri barədə öhdəlik götürürlər. Bu şagirdlərə müəllimlik peşəsi çevik proqramlar vasitəsilə öyrədilir. Sinqapurda müəllimlər də yüksək peşə sahibləri kimi nüfuzlu şəxslər sayılır və onların karyera yüksəlişinə hər cür şərait yaradılır. Müəllimlik peşəsi qarşısında qoyulan ciddi tələblər, ilk növbədə peşə səriştəliliyi, peşə mədəniyyətinin inkişaf zəruriliyi pedaqoji kadrların nüfuzunun qorunmasına, müəllimlərin statusunun qaldırılmasına, karyera yüksəlişinə müsbət təsir göstərir. Sinqapurda üç il müəllim işləyəndən sonra hər ildə bir dəfə attestasiyadan keçmək tələb olunur. Attestasiyadan keçən müəllim üç karyera inkişafı yolundan birini seçə bilər. Belə ki, o, ya baş müəllim, ya tədqiqatçı-metodist, ya da məktəb direktoru vəzifələrini gələcəkdə tutmaq şansı qazanır. Bu zaman daha səriştəli müəllimlər yaradılmış işçi qrupunun tərkibinə qatılır və gələcəkdə göstərilən vəzifələrdən birini tutmaq üçün təlimlərdə iştirak edir, mütəmadi olaraq testlərdən keçir və qiymətləndirilirlər (7, 8, 9, 10).

Son illərdə dünyada gedən ictimai-siyasi proseslər, cəmiyyətin sosial-iqtisadi inkişafı təhsil paradiqmasının da dəyişməsinə təsir göstərmişdir. Qeyd etmək lazımdır ki, hələ 1962-ci ildə elm tarixçisi Tomas Kun "Elmi inqilabların strukturu "əsərində paradiqmaların dəyişməsilə bağlı mülahizələrini bildirmişdir. Paradiqma anlayışı hər şeydən əvvəl, istənilən ilkin konseptual sxem, problemin qoyuluşu və həll modeli mənasında başa düşülür. Təhsildə, pedaqogika elmində əvvəllər "bilikli adam" (bilik, bacarıq və vərdişlər sisteminə yiyələnmiş) paradiqması əsas götürülürdüsə, müasir dövrdə "həyati fəaliyyətə hazır adam" (fəal, yaradıcı düşünən, yaradıcı fəaliyyət göstərə bilən, özünüinkişafa, intellektual, mənəvi və fiziki özünütəkmilləşdirməyə qadir) paradiqması qəbul edilir. Cəmiyyətin, dünyanın inkişaf dinamikası, sürətlə dəyişməsi, informasiyanın inkişafda mühüm rol oynaması təhsil paradiqmasının yeni məzmun daşımasına və dəyişməsinə təsir göstərmişdir.

Dünya təcrübəsi göstərir ki, universitetlər, o cümlədən pedaqoji kadrlar hazırlayan universitetlər ölkənin gələcəyinin cəmləşdiyi məkan kimi cəmiyyət həyatında böyük rol oynayır. Bu da universitet təhsilinin paradiqmasının əsaslı şəkildə dəyişilməsi, bu paradiqmanın bilavasitə innovasiya fəaliyyətinin məzmunu ilə bağlılığından xeyli dərəcədə asılıdır. Əslində universitetlərin mövcud vəziyyətinə uyğun o ölkənin gələcəyinin proqnozlaşdırılması mümkündür. Ona görə də

dünyanın qabaqcıl ölkələrində, o cümlədən Azərbaycanda universitetlərin inkişafına strateji məsələ kimi baxılması təqdirəlayiqdir.

Araşdırmalar göstərir ki, Azərbaycan Respublikasında təhsil strategiyası çox ciddi, elmi şəkildə əsaslandırılmış aşağıdakı konsepsiyalara əsaslanır:

"Azərbaycanda qara qızılın insan qızılına çevrilməsi", "Elektron Azərbaycan", "Maddi kapitalın insan kapitalına çevrilməsi", "İnsan potensialının aşkara çıxarılması", "Azərbaycanın regionda lider dövlət olması", "Azərbaycanın Avropa təhsil məkanına inteqrasiyası". Bu məsələlər ölkə prezidenti İlham Əliyev cənablarının məruzə və çıxışlarında konseptual müddəalarla əsaslandırılmışdır. Respublika prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiyasında da (maddə 7.2-Müasir təhsil sisteminin formalaşdırılması) və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında Sərəncamında ölkə təhsilinin inkişaf perspektivləri ilə bağlı konseptual problemlər, onların həlli yolları əhatə olunmuşdur. Burada göstərilir ki, 2013–2020-ci illərdə təhsil sahəsinə ayrılan vəsaitlərin ümumi həcminin ÜDM-dəki payı ilbəil artırılaraq, inkişaf etmiş ölkələrin müvafiq göstəricisi səviyyəsinə çatdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün stimullaşdırıcı mexanizmlərin yaradılması, xüsusən, adambaşına maliyyələşdirmə prinsipinin, həmçinin təhsil sahəsində tətbiqi tədqiqatların, eləcə də innovativ fəaliyyəti təşviqləndirən qrant maliyyələşdirməsinin tətbiqinin genişləndirilməsi nəzərdə tutulmuşdur.

Pedaqoji kadr hazırlığı prosesində keyfiyyətin yüksəldilməsində idarəetmənin xüsusi rolu vardır. Bu məsələnin həlli üçün təhsildə idarəetmənin təkmilləşdirilməsinin davam etdirilməsi, maraqlı tərəflərin bu işə cəlb olunmasını təmin edən idarəetmə modelinə üstünlük verilməsi vacib şərtlərdən biridir. Konsepsiyada bu problemlər əsaslandırılmışdır. Hesab edirik ki, zamanın tələblərindən doğan aşağıdakı məsələlərə xüsusi əhəmiyyət verilməsi vacibdir:

- bütün növ təhsil müəssisələrinin müstəqilliyinin artırılması;
- ictimaiyyətin (valideyn, şagird, tələbə, yerli icma və s.) geniş cəlb olunması vasitəsilə təhsil ocaqlarının dövlət-ictimai xarakterdə idarə edilməsi;
- digər müasir idarəetmə texnologiyalarının tətbiqi və s. kimi istiqamətlərdə tədbirlərin həyata keçirilməsi;
- təhsili idarəetmə orqanlarının səlahiyyətlərinin qabaqcıl beynəlxalq təcrübəyə uyğun müəyyənləşdirilməsi;
- təhsili idarəetmə orqanlarının fəaliyyətinin səmərəli əlaqələndirilməsi üçün müvafiq mexanizmlərin yaradılması;
- bütün ümumi təhsil müəllimləri üçün fəal (interaktiv) təlim texnologiyaları və inklüziv təhsil üzrə məqsədli ixtisasartırmanın təmin edilməsi;
- hər bir müəllimin İKT bacarıqlarına yiyələnməsi üçün çevik sistem yaradılması.

Bütün bunlarla yanaşı müəllimlərin peşə səriştəliliyinin inkişafı, onların ardıcıl və sistemli təkmilləşdirilməsi daim diqqətdə saxlanmalıdır.

**Problemin aktuallığı.** Müasir dövrdə cəmiyyətin inkişafı, respublikamızda məqsədyönlü təhsil islahatlarının aparılması təhsilin məzmununda, pedaqoji kadr hazırlığı məsələlərində köklü dəyişikliklərin həyata keçirilməsini tələb edir. Bu baxımdan sistemli pedaqoji tədqiqatların aparılması vacibdir.

**Problemin elmi yeniliyi.** Məqalədə pedaqoji kadr hazırlığı ilə bağlı dünya təcrübəsi öyrənilmiş, elmi araşdırmalar təhlil edilərək ümumiləşdirilmiş, əsaslandırılmış nəticə verilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə əksini tapmış elmi nəticələrdən tədris vəsaitlərinin hazırlanmasında, pedaqoji fənlərin tədrisində, mühazirə və seminar məşğələlərində istifadə oluna bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiyası. "Azərbaycan" qəz., 2012.

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı (24 oktyabr 2013-cü il). "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr.
3. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008.
4. 25 iyun 2007-ci il tarixdə Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası". "Azərbaycan müəllimi" qəz., 2007, iyun.
5. Azərbaycan Respublikasının Təhsil naziri Mikayıl Cabbarovun məruzəsi (Azərbaycan müəllimlərinin XIV qurultayının materialları). "Azərbaycan müəllimi" qəz., 2013, 20 dekabr.
6. Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. Azərbaycan Ensiklopediyası NPB. Bakı, 1997.
7. Sədirxanov R. Azərbaycanın ali təhsil sistemində keyfiyyət təminatının özünü tənzimləyən mexanizminin yaradılmasına dair bəzi praktiki təkliflər // Ali təhsil və cəmiyyət, 2012, №1.
8. Cəfərov C. Cəmiyyətin elitası ali məktəbdə formalaşır // Ali təhsil və cəmiyyət, 2012, №1.
9. Məcidov K. Azərbaycanın ali təhsili islahat yollarında // Ali təhsil və cəmiyyət, 2012, № 3.
10. Mahmudov M.C. "Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı: Elm və təhsil, 2010.
11. "Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnoloji innovasiyalar" mövzusunda ikinci Beynəlxalq elmi konfransın materialları. Bakı, 2012.
12. "Müasir təhsilin aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransının materialları. Bakı: Mütərcim, 2013.
13. "Müəllim hazırlama siyasəti və problemləri" beynəlxalq simpoziumun materialları. Bakı: Copyright, 2013.
14. Платонова Т.Е. Подготовка педагогических кадров к управлению качеством обучения на диагностической основе. Успехи современного естествознания. 2010, № 1.
15. Адольф В.А., Ильина Н.Ф. Инновационная деятельность педагога в процессе его профессионального становления // Агентство образования адм. Краснояр. края, Краснояр. краев. ин-т повышения квалификации и проф. переподгот. работников образования. Красноярск: Поликом, 2007.

**И. Джабраилов**

## НЕКОТОРЫЕ ВОПРОСЫ ПОДГОТОВКИ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ

### РЕЗЮМЕ

В статье обосновываются вопросы реформы в подготовке педагогических кадров, ссылаясь на мировой опыт в данной области. Большое внимание уделяется вопросам, связанным с профессиональным опытом и контролем качества. Особо подчеркивается важность социальной подготовки педагогических кадров.

**I. Jabrayılov**

## SOME PROBLEMS OF TRAINING PEDAGOGICAL STAFF

### SUMMARY

In the article the educational reforms in training pedagogical staff are well-based, necessary allusions are made to world experience in the given to the question connected with professional skills and controlling the quality. The social importance pedagogical staff training is well-based.

*Redaksiyaya daxil olub: 22.01.2014*

# PEDAQOJİ DƏSTƏK, ONUN MAHİYYƏTİ VƏ TƏŞKİLİ YOLLARI

**Müseyib İlyasov**,
*pedaqogika üzrə elmlər doktoru,*
*ADPU-nun kafedra müdiri*
E-mail: museyib-11@hotmail.com

**Rəyçilər:** *prof.* **A.N. Abbasov,**
*prof.* **H.H. Əhmədov**

***Açar sözlər:*** *dəstək, əməkdaşlıq, inam, müdafiə, yardım*
***Ключевые слова:*** *поддержка, сотрудничество, доверие, защита, помощь*
***Key words:*** *support, co-operation, belief, defence, assistance*

Müşahidələr və həyati faktlar göstərir ki, şagirdlərin, xüsusilə ehtiyacı olan şagirdlərin müəllimlər, valideynlər və sinif rəhbərləri tərəfindən dəstəklənməsi, onlara pedaqoji dəstək verilməsi pedaqoji prosesdə həmişə öz müsbət nəticəsini göstərir. Şagirdlərə özünəinam, gələcəyi proqnozlaşdırmaq hisslərini gücləndirir, ona bir şəxsiyyət kimi yanaşıldığını dərk edir, göstərilən etimadı doğrultmağa çalışır. Pedaqoji dəstəyin pedaqoji cəhətdən düzgün təşkili və verilməsi vacib metodlardan olduğundan hər bir müəllim bu sahədə müəyyən səriştəyə malik olmalı və onun metodikasına yiyələnməlidir. Belə bir problemə həsr olunmuş məqalədə pedaqoji dəstəyin mahiyyəti açıqlanmış, onun həyata keçirilməsi metodikası verilmişdir.

Bəzən məktəbdə tədris və tərbiyə metodlarının müəyyən situasiyalarda təsirsizliyindən, şagirdlərin daha yaxşı olmaları üçün edilən cəhdlərin səmərəsizliyindən şikayətlər eşidilir. Gah müasir dövrün sosial şəraiti, gah valideynlərin pedaqoji səriştəsizliyi, uşaqların tərbiyəsinə düzgün münasibət bəsləməmələri, gah da uşaqların təlim tərbiyəsində məktəbin rolunun azalması səbəb kimi göstərilir. Bizcə şagirdlərin, elə tələbələrin də təhsil və tərbiyəsində rast gəldiyimiz qüsur-ların olmasının başlıca səbəblərindən biri, bəlkə də birincisi təhsil və tərbiyə prosesində müəllimlər və valideynlər tərəfindən pedaqoji dəstəyin olmaması, belə bir mühüm təsir alətinə böyüklərin laqeyd münasibətinin olması, ona lazımi dərəcədə fikir verilməməsidir. Halbuki sınanmış metod olan pedaqoji dəstək təhsil və tərbiyə prosesində xüsusən indiki dövrdə olduqca mühüm təsir gücünə malikdir.

Pedaqoji dəstək nədir, bu sadəcə olaraq uşaqların haqlı-haqsız müdafiə olunmaları, yoxsa onlara həqiqətənmi dayaq olmaqdır?

Qeyd edək ki, respublikamızda bu sahədə xüsusi tədqiqatlar aparılmasa da, ayrı - ayrı problemlərə həsr olunan belə münasibətlərin vacibliyini vurğulayan yazılılara rast gəlinir. Bu sahədə daha çox qərb və rus pedaqoq və psixoloqlarının əsərləri vardır. Bu əsərlərdə də pedaqoji dəstək haqqında, onun mahiyyətinin nələrdən ibarət olması haqqında müxtəlif fikirlərə rast gəlinir ki, bunlar da problem baxımından bir sıra fərqli baxışların yaranmasına səbəb olmuşdur. Əslində bu fikirlər pedaqoji dəstəyin müxtəlif aspektlərini qabartmaqla bunun haqqında tam bir təsəvvürün yaranmasına səbəb olmuşdur. Belə ki, pedaqoji dəstəyi "insana onun fiziki və psixi sağlamlığı, təlimi, həyat və peşə seçimi ilə bağlı problemlərin həllinə yönəlmiş operativ yardım kimi" (Anoxina T.V. və b.); "insan fərdiyyətinin formalaşma proseslərini təşkil edən pedaqoji fəaliyyət kimi" (V.P.Bederxanova, O.S.Qazman və b. ); "davranışın çətinliklərinin aradan qaldırılmasına səbəb olan xüsusi qarşılıqlı təsir növü kimi" (S.A.Rasçotina) və s. aspektlərdə nəzərdən keçirirlər. Bu baxışların hər biri pedaqoji dəstəyin müxtəlif aspektlərini qabartmaqla onun əsas mahiyyətini ifadə etmək baxımından da faydalıdır. Bu fikirləri ümumiləşdirərək pedaqoji dəstəyin ilk növbədə şagirdin öz qüvvəsinə inam yaradılması, onun gücünə, bacarıq və qabiliyyətinə təkan verilməsi, çətinliklərin aradan qaldırılmasında onlara yardım göstərilməsi, həmçinin müəllim və tərbiyəçilərin təlim tərbiyə prosesinin şəxsiyyətyönümlüyünü və inkişafyönümlüyünü təmin etməkdən ibarətdir. Bu baxımdan pedaqoji dəstəyi obyektinə görə bir neçə istiqamətdə nəzərdən keçirmək mümkündür:

1) yaşından, cinsindən və xarakterik xüsusiyyətlərindən asılı olmayaraq bütün uşaqlara (şagirdlərə) ümumi halda pedaqoji dəstəyin göstərilməsi; 2) dəstəyə, yardıma və xüsusi qayğıya ehtiyacı olan uşağa (şagirdə) pedaqoji dəstəyin göstərilməsi; 3) tərbiyənin və təhsilin ayrı-ayrı problemləri (məsələn, peşə özünütəyini zamanı, əxlaqi mədəniyyətin formalaşdırılması məsələsində, müəyyən psixoloji-pedaqoji situasiyaları düzgün həll etməkdə və s.) üzrə problemlərdə pedaqoji dəstəyin göstərilməsi və s.

Pedqoji dəstək pedaqoji səriştəlilik, məharət tələb edən bir prosesdir. Görkəmli pedaqoq V.A. Suxomlinski qeyd edirdi ki, "Həyat məni inandırmışdır ki, çətin uşaqları tərbiyə etmək - son dərəcə diqqət, ustalıq, takt, səmimi və qayğıkeşlik, mehribanlıq tələb edən, olduqca mürəkkəb işdir" ( 2, 5). Qeyd edək ki, bu təkcə çətin uşaqlarla deyil, ümumiyyətlə tərbiyə prosesinin bütün cəhətlərinə aiddir. Təcrübə göstərir ki, nəinki tərbiyə, həmçinin təlim və təhsil prosesinin də səmərəliliyi pedaqoji dəstəyin düzgün təşkilindən çox asılıdır.

Pedaqoji dəstək sadəcə olaraq şagirdi (uşağı) yerli-yersiz müdafiə etmək və ya tərifləmək, çüzi bir müvəffəqiyyətini şişirtmək demək deyildir. Həmçinin yersiz yardım və ya uşağın yerinə yetirməli olduğu hər hansı bir işi onun əvəzinə görmək də deyildir. Pedaqoji dəstək uşaqda (şagirddə) yüksək mənəvi keyfiyyətlərin formalaşdırılması və həyatın müxtəlif sahələrində nəzərdə tutulan nəticələrə müstəqil surətdə çatmaq istiqamətində qarşıya çıxan maneələrin aradan qaldırılması və müəyyən situasiyaların düzgün həlli istiqamətində "müəllim - şagird", "tərbiyəçi - uşaq" əməkdaşlığı şəraitində reallaşan təsir prosesidir. Belə dəstək zəruri hallarda, xüsusən uşaqlar bir sıra vacib problemlərlə üzləşdikdə, onların həllində müəllimin və valideynlərin çətinliklərinin ola biləcəyini qabaqcadan dərk etməsində və belə çətinliklər meydana çıxdıqda verilməli və düzgün qərarlar qəbul edilməlidir. Əlbəttə, əməkdaşlıq və qarşılıqlı hörmət şəraitində. Görkəmli Azərbaycan mütəfəkkiri, əxlaq nəzəriyyəçisi N. Tusi yazırdı: "Uşağı mehribançılıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə ağıla, şüura, idraka təsir edən başa salmaq yolu ilə..." ( 1, 157).

Pedaqoji dəstək "müəllim - şagird", "valideyn - uşaq" münasibətlərinin formalaşmasında əvəzsiz vasitədir. Onun düzgün təşkili və aparılması tərbiyə prosesinin elə mühüm tərəflərinin formalaşmasına səbəb olur ki, onu başqa vasitələrlə əvəz etmək bundan alınan nəticələrlə müqayisədə çox zəif təsirə malik olur. Buna görə də pedaqoji dəstəyin nə zaman, hansı şəraitdə və hansı vasitə və tərzlərlə aparılmasının onun təsirliliyi baxımından çox böyük əhəmiyyəti vardır.

N. Tusi yazırdı: "Uşaqdan xoşagələn bir hərəkət baş verdikdə onu tərifləyib həvəsləndirmək lazımdır, lakin əks halda hər dəqiqə danlayıb başına vurmaq doğru deyildir: "qəbahətli iş görübsən", bəlkə belələrinin səhv, bilməmək üzündən etdiyini demək yaxşıdır ki, sırtılmasın. Bir daha təkrar etməsə, üstü vurulmamalıdır, təkrar edilsə, möhkəm danlamalı, belə işlərin yaramazlığı şişirdilməli və qadağan edilməlidir" ( 1, 158).

Şagird istər təlim, istərsə də tərbiyəvi təsirlərdə özünü psixoloji cəhətdən rahat hiss etməli, heç bir gərginlik keçirməməlidir. O aydın surətdə müəllimin, tərbiyəçinin xeyirxahlığını, ona etimad göstərdiyini, onun qarşılaşdığı maneələri aradan qaldırmaqda ona yardım etmək istədiyini dərk etməlidir. Bu işdə ilk növbədə şagirdlərin (uşaqların) hüquqlarının qorunması, onların şəxsiyyətinə hörmətlə yanaşılması mühüm yer tutur.

"Uşaq Hüquqları Konvensiyası"nda deyilir: "Uşaq öz baxışlarını azad ifadə etmək hüququna malikdir, özü də həmin uşaqla bağlı hər hansı məsələlərin həlli zamanı bu baxışlara diqqət yetirilməlidir... Uşaq öz rəylərini ifadə etmək və sərhədlərdən asılı olmayaraq, informasiya almaq, informasiya və ideyalar vermək hüququna malikdir". Bu və bu qəbildən olan digər hüquqların təkcə qorunmasında deyil, həmçinin onların müdafiəsində, bu sahədə uşaqlara dəstək olunmasında dövlətlə bərabər, valideynlərin, tərbiyəçilərin və müəllimlərin üzərinə böyük vəzifələr düşür. Müəllimlər bütün imkanlardan istifadə etməklə uşaqların bütün qanuni hüquqlarının qorunmasında onlara dəstək olmaqla, həm də "Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu" ilə müəyyənləşdirilmiş bir sıra aktların həyata keçirilməsinin də fəal müdafiəçisi olmalı, bu sahədə

dövlətin müəyyənləşdirdiyi "Uşaq və ailə", "Uşaq və cəmiyyət" münasibətlərinin formalaş-masında da fəal iştirak etməlidir.

Pedaqoji dəstək yalnız nəsihətçilik yolu ilə aparılan və çox vaxt nəticəsiz qalan belə tərbiyə metodundan fərqli olaraq, şagirdlərdə özünəinamın formalaşmasında, müstəqilliyin inkişaf etdirilməsində, tərbiyəçinin təsirlərinin xoşməramlılığının dərk edilib qəbul edilməsində mühüm rol oynayır. Buna görə də onun bir sıra müxtəlif formalarda təşkil edilməsi və həyata keçirilməsi olduqca mühüm əhəmiyyət daşıyır. Bu zaman müəllim empatiya bacarıqlarından düzgün istifadə etməli, tərbiyəolunanlarla xoşrəftar olmalı, uşaqlara etimad göstərməli, onların nailiyyətlərini qiymətləndirməkdə "xəsislik" eməməli, uşaqları dinləməıyi bacarmalı, onların daxili gərginliyini aradan qaldırmağı bacarmalı, yeri gəldikcə onlara məsləhətlər verməli və yol göstərməlidir.

Pedaqoji dəstək kortəbii şəkildə deyil, düşünülmüş şəkildə təşkil edilməli, sistemli, ardıcıl təşkil edilən müəyyən pedaqoji situasiyalar kimi (Q.A.Davıdov) həyata keçirilməlidir. Müəllim-şagird əməkdaşlığının elə müsbət münasibət formasına nail olunmalıdır ki, burada şagirdlər özlərini psixoloji cəhətdən olduqca rahat hiss edə bilsinlər, maneələri birlikdə dəf edə bilməyə maraqlı olsunlar, özlərinin problemlərini tərbiyəçilərdən, müəllimlərdən gizlətməsinlər, ehtiyaclarının təmin olunması üçün onlardan məsləhət almaqdan çəkinməsinlər.

Pedaqoji dəstəyin verilməsi şagirdlərin zəruri ehtiyacları ilə sıx bağlıdır. Obyektiv və subyektiv səbəblərdən yaranan bu ehtiyacların müəllimlər, tərbiyəçilər tərəfindən düzgün qiymətləndirilməsi və onların ödənilməsinə istiqamətlənən iş növlərindən istifadə edilməsi olduqca zəruridir. Bu baxımdan onun hansı hallarda zəruri olması müəllimlərə və tərbiyəçilərə aydın olmalıdır. Onları aşağıdakı kimi qeyd etmək olar:

- şagirdlərin öz "Mən"ini təyin etmələri, "Mən" obrazının dərk edilməsi prosesində;
- yeniyetmə və yuxarı sinif şagirdlərinin peşə özünü təyininin müəyyənləşdirilməsində;
- yetim və valideyn hüqiuqlarından məhrum olan uşaqların təlim və tərbiyəsində;
- sosial reablitasiyaya ehtiyacı olan uşaqların cəmiyyətə adaptasiya olunmalarında;
- şagirdlərin sağlamlığının qorunması və sağlam həyat tərzinin formalaşdırılmasında;
- şagirdlərin mənəvi –psixoloji tərbiyəsinin formalaşdırılmasında;
- təlim prosesində geridə qalan uşaqlarla təlim prosesində;
- "şagird - şagird", "fərd - kollektiv", "kollektiv – fərd", münasibətlərinin formalaşdırılmasında;
- uşaqların sağlamlıq durumunun aşağı olması zamanında;
- ailə tərbiyəsində müəyyən çatışmazlıqlar olan uşaqların şəxsiyyətinin sosiallaşmasında
-uşaqlarda özünəqapanma halları tez-tez müşahidə edildikdə və s.

Təcrübə göstərir ki, uşaqların valideyn və müəllimlərdən narazı qalmaları hallarının başlıca səbəbi çox hallarda onların dedikləri kimi "böyüklərin uşaqları başa düşməmələridir" .

Pedaqoji dəstək yalnız şagirdlərin müdafiə olunması ilə məhdudlaşmır. Onun təsiri ilə şagirdlərin fəaliyyəti genişlənir, inkişaf meyilləri güclənir. Bu elə bir prosesdir ki, onun ardınca sosiallaşma prosesi sürətlənir, şagirdlərin müəyyən bacarıqları və qabiliyyətlərinin inkişafına da dəstək verilmiş olur. Şagirdlərdə özünəinam, özünə qarşı tələbkarlıq, müvəffəqiyyətə can atma, hədəfə çatma kimi meyllər güclənir. Burada əsas məsələlərdən biri müəllimin bu prosesdə neçə hərəkət etməsi, daha doğrusu pedaqoji taktının necə olmasıdır.

İki nümunəni nəzərdən keçirək.

Məktəbə yeni təyin olunmuş gənc tarix müəllimi VII sinifdə keçdiyi ikinci dərsdə də arxada oturan hündürboylu oğlanın heç bir sual-cavabda iştirak etməməsini, dərs danışmaq üçün əl qaldırmamasını müşahidə edirdi. Oğlanın adının Zaur olduğunu öyrəndi və dərs danışmağa dəvət etdi. Sinifdə uşaqların istezalı gülüşü ilə rastlaşdı. Niyə və nəyə güldüklərini soruşdu. Cavab bir oldu: "Ondan heç kim dərs soruşmur, çünki oxumur." "Necə yəni oxumur"- deyə müəllim fikirləşdi və dərhal qərarını bildirdi: "Uşaqlar öz vətəninin, xalqının tarixini bilməmək heç kimə bağışlana bilməz. Bizim hər birimiz onu mükəmməl bilməli, yaxşılarla öyünməli, səhvlərdən nəticə çıxarmalıyıq. Bu, bizim bir xalq kimi varlığımız üçün olduqca vacibdir. Bu gündən məktəbimizdə

tarix dərnəyi yaradırıq. Kim üzv olmaq istəyirsə ərizə ilə müraciət edə bilər. Mən Zaurun da ərizə yazacağını gözləyirəm. Elə bu gündən işə başlayırıq.”

Müəllim Zaurun dərsdən sonra onun yanına gəlməsini tapşırdı. Dərsdən sonra görüşərkən müəllim heç nə soruşmadan ona inandığını və ərizələri yığmağı, dərnəyin təşkilində ona köməkçi olmağı Zaura tapşırdı.

Qısa bir müddətdə dərnəyin məşğələsi hazırlandı. İlk məşğələ uşaqların çox xoşlarına gəldi. Hər bir uşaq gələçək məşğələlərdə çıxış etmək arzusunda olduqlarını bildirdilər. Maraqlıdır ki, bunların arasında Zaur da vardı. Bu ilk başlanğıc idi. Müəllim buna sevinirdi. Deməli nələrə isə nail olunmuşdu.

Təcrübə göstərir ki, pedaqoji dəstəyin müəllimin şagirdə, şagirdin özü özünə inamı və etibarı zəminində təşkili şagirdlərdə fəallığın yaranmasına, özünütəhrikə və motivlərə yol açır. Buna görə də müəllimin vaxtında və məzmunlu şəkildə belə metoddan istifadəsi son dərəcə faydalıdır.

İkinci nümunəyə baxaq. Müəllim IX sinifdə riyaziyyatdan evə çox çətin bir tapşırıq vermişdi. Heç də həmişə dərsdə yüksək göstəricilər nümayiş etdirməyən Natiq bu tapşırığın üzərində xeyli işləmiş və onu düzgün həll etmişdir. Müəllimin onu yaxşı qiymətləndirəcəyini, hətta tərifləyəcəyini gözləyirdi...

Lakin belə olmadı. Sinifdə çoxları tapşırığı düzgün yerinə yetirməmişlər. Hətta əla oxuyan şagirdlərdən də bir neçəsi tapşırığı düzgün həll etməmşlər. Müəllim Natiqin tapşırığını nəzərdən keçirdi və - “Onu sən həll edə bilməzsən, kimlərinsə köməyindən istifadə etmisən” – deyə ona öz inamsızlığını bildirdi. Natiqin onu özünün həll etdiyi cavabına da məhəl qoymadı. Bu, pedaqoji dəstəyə ehtiyacı olan bir şagirdə qarşı etimadsızlıq, laqeydlik idi. Təəssüf ki, belə hallar məktəblərdə heç də az-az baş vermir.

Nəzərdən qaçırmaq olmaz ki, belə etimadsızlıq şagirdin fənnə marağının zəifləməsi ilə yanaşı, müəllimə də qarşı inamı, etibarı azaldır, uşaqların qəlbində olan ümid qığılcımlarını söndürür. Buna görə də müəllimlər həssas uşaq qəlbinə həssaslıqla da yanaşmalıdırlar.

**Problemin aktuallığı.** Respublikamızda təhsilin humanistləşdirilməsi istiqamətində aparılan islahatlar müəllim-şagird münasibətlərinin humanist əsaslar üzərində qurulmasını və müəllimin, tərbiyəçinin, valideynin uşaqlara pedaqoji cəhətdən dəstək olmalarını önə çəkir. Pedaqoji dəstək şagirdlərdə özünəinam, gələcəyi proqnozlaşdırmaq hisslərini gücləndirir, ona bir şəxsiyyət kimi yanaşıldığını dərk edir, göstərilən etimadı doğrultmağa çalışır.

**Problemin elmi yeniliyi.** Pedaqoji dəstək metodu məqalədə təlim-tərbiyə prosesində mühüm təsir gücünə malik olan bir metod kimi əsaslandırılır, onun mahiyyət və məzmunu şərh edilir.

**Tədqiqatın nəticəsi.** Yeniyetmə və gənclərə təhsilverənlər tərəfindən pedaqoji dəstəyin verilməsi onları təlim-tərbiyə prosesinə daha da stimullaşdırır, müəllimə, tərbiyəçiyə onların inamlarını artırır. Daha yüksək nailiyyətlər qazanmağa sövq edir. Təcrübə göstərir ki, pedaqoji dəstək əmrdən, göstərişdən, cəza və qadağalardan daha təsirli, daha güclüdür.

**Tədqiqatın praktik əhəmiyyəti.** İfadə olunan metoddan təlim və tərbiyə prosesində müəllimlər, tərbiyəçilər, valideynlər istifadə etməklə “müəllim - şagird”, “valideyn – övlad” münasibətlərinin humanist müstəvidə qurulmasında və daha uğurlu nəticələr əldə edilməsində nailiyyət əldə edə bilərlər.

## ƏDƏBİYYAT


1. N. Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989.
2. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. Bakı: Maarif, 1979.

**М.Ильясов**

**ПЕДАГОГИЧЕСКАЯ ПОДДЕРЖКА, ЕЕ СУЩНОСТЬ И ПУТИ ОРГАНИЗАЦИИ**

**РЕЗЮМЕ**

Наблюдения и жизненные факты указывают на то, что поддержка ученикам, в особенности нуждающимся в ней со стороны учителей, родителей и классных руководителей в педагогическом процессе всегда показывает положительный результат. В учениках усиливается уверенность в себе, чувство прогнозирования будущего, осознает, что к нему относятся как к личности, старается оправдать оказанное ему доверие. Являясь одним из необходимых методов, каждый учитель должен изучить и иметь определенные навыки в области правильной, с педагогической точки зрения организации и подачи педагогической поддержки. Посвященная данной проблеме статья раскрывает сущность педагогической поддержки и дает методику ее осуществления.

**M.İlyasov**

**PEDAGOGICAL SUPPORT, ITS ESSENCE AND METHODS OF ORGANIZATION**

**SUMMARY**

Observations and vital facts indicate that support for students, especially students who need it from teachers, parents and class teachers in the pedagogical process always shows a positive result. Enhances self-confidence, a sense of predicting the future, realizes that he is treated as a personality, tries to justify the trust placed in him. Being one of the essential methods every teacher should study and have certain skills in the proper, from a pedagogical point of view organization and fulfilling of pedagogical support. Devoted to this issue, the article reveals the essence of pedagogical support and gives the method of its implementation.

*Redaksiyaya daxil olub: 24.01.2014*

# EKOLOJİ TƏHSİL VƏ TƏRBİYƏNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFININ TARİXİ-PEDAQOJİ TƏHLİLİ

**Xudayar Sultanlı**,
*elmlər doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: xudayarsultanly@mail.ru

**Rəyçilər:** prof. **A.N. Abbasov,**
prof. **H.Ə. Əlizadə**

***Açar sözlər:*** *təbiəti mühafizə fəaliyyəti, ekoloji təhsil, təhsilin keyfiyyətinin yüksəldilməsi, ekoloji tərbiyə*

***Ключевые слова****: деятельность по охране природы, экологическое образование, повышение эффективности образования, экологическое воспитание*

***Key words:*** *activities for nature protection, environmental education, improving the efficiency of education, pedagogical issues, environmental upbringing*

Ölkəmizdə vətəndaşların, o cümlədən tələbələrin ekoloji təhsili, maarifləndirilməsi, və ekoloji tərbiyəsi dövlət siyasətinin ətraf mühitin mühafizəsi sahəsində ən zəruri istiqamətlərindən biri hesab edilir.

Respublikamızda ekoloji təhsilin, ekoloji maariflənmənin təşkili və ekoloji mədəniyyətin yaradılması, bütün bunların isə təhsilalanların şəxsiyyətinin formalaşdırılmasına təsiri məsələləri diqqət mərkəzindədir. Təbiətin mühafizəsi və ekoloji təhsilin təşkili ilə əlaqədar qəbul olunmuş ekoloji qanunçuluq və qərarlar problemin həlli istiqamətində görülən etibarlı tədbirlərdir. Əhalinin ətraf mühitə neqativ münasibəti mövcud problemin meydana gəlməsini şərtləndirmişdir.

Hələ 2002-ci ildə problemin aktuallığını nəzərə alaraq, ümummilli liderimiz Heydər Əliyev "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanununu" imzalamışdır. Həmin Qanunda vətəndaşların ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsasları müəyyənləşdirilmiş bu istiqamətdə münasibətlər tənzimlənmişdir.

Qanunun dördüncü maddəsində dövlət siyasətinin əsas prinsipləri öz əksini tapmışdır. Həmin prinsiplərə aiddir:

"- ümumi ekoloji biliklərə yiyələnməsi üçün hər kəsə bərabər şəraitin yaradılması;
- orta təhsil sistemində ekoloji biliklərin tədrisinin icbariliyi;
- ekoloji təhsil və maarifləndirmə prosesinin fasiləsizliyi;
- ekoloji təhsil və maarifləndirmə sahəsində aşkarlığın təmin olunması;
- ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin həyata keçirilməsində əhalinin və qeyri-hökumət təşkilatlarının iştirakına şərait yaradılması" (1).

"Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 yanvar tarixli 847 nömrəli Fərman imzalamışdır.

Həmin Fərmandan irəli gələn vəzifələrlə bağlı Azərbaycan Respublikasi Nazirlər Kabinetinin 2003-cü il iyunun 2-də "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları"nın və "Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə 75 nömrəli qərar vermişdir. Bu qərarda ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi qaydaları müəyyənləşdirilmişdir. Haqqında danışılam "Qaydalar" ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının hazırlanması, qəbul və dərc edilməsi qaydalarını özündə ehtiva edir.

"Qaydalar"da məqalədə nəzərdən keçirdiyimiz problemlə bilavasitə bağlı olan məsələlər öz ifadəsini tapmışdır: "Dövlət proqramları hazırlanarkən ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən, o cümlədən qeyri-ənənəvi enerji mənbələrindən səmərəli istifadə, biotexnologiya, ekoloji

proseslərin və biosistemlərin riyazi modelləşdirilməsi, ekoloji idarəetmə və s. sahələr üzrə elmi-texniki nailiyyətlərə dair, habelə əhalinin ekoloji təhsili və maarifləndirilməsi istiqamətində estetik zövq və vətəndaş mövqeyinin formalaşmasına, bu sahədə emosional və intellektual həssaslığın tərbiyə olunmasına dair təkliflər nəzərə alınır” (2).

“Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları haqqında Əsasnamə”də təhsilalanlar, o cümlədən tələbələr arasında ekoloji təhsil və tərbiyənin səmərəli şəkildə aparılmasına yardımçıdır. “Əsasnamə”də deyilir: “Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları (bundan sonra – məsləhət şurası) ekoloji təhsilin və maarifləndirmənin təşkili və icrası ilə məşğul olan müvafiq hüquqi şəxslərin, icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının nəzdində yaradılır” (2).

“Əsasnamə”də məsləhət şurasının məqsədi aşağıdakı kimi müəyyənləşdirilmişdir:

“-Ekoloji təhsil və maarifləndirmə sahəsində hüquqi və fiziki şəxsləri ekoloji təhsil, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə məsələləri üzrə məlumatlandırmaq, onlara elmi-metodiki məsləhətlər vermək;

-Azərbaycan Respublikasında ekoloji təhsilin və maarifləndirmənin inkişafı məsələlərinə dair təkliflər hazırlamaq” (2).

Məsləhət şurasının funksiyalarına isə daxil edilir:

“- Məsləhət şurasının funksiyalarına aşağıdakılar daxildir:

- Azərbaycan Respublikasında ekoloji təhsil və maarifləndirmə sisteminin davamlı inkişafının təmin edilməsi məsələləri üzrə layihələr, tövsiyələr və təkliflər hazırlamaq;

- istehsalat və digər fəaliyyət sahələri mütəxəssislərinin (pedaqoji kadrların, rəhbər kadrların, dövlət qulluqçularının, ictimai birliklərin nümayəndələrinin və s.) ekoloji hazırlığı, ekoloji təhsilin vəziyyətinin təhlili və qiymətləndirilməsi, monitorinqinin təşkili üzrə təkliflər vermək;

- müvafiq dövlət hakimiyyəti orqanlarının müraciəti əsasında ekoloji təhsil və maarifləndirmənin inkişafı ilə bağlı proqramlara dair təkliflər vermək;

- Azərbaycan Respublikasında əhalinin ekoloji təhsili və maarifləndirilməsi, mütəxəssislərin ekoloji hazırlığının inkişafı üzrə konkret tədbirlərin həyata keçirilməsində iştirak etmək” (2).

Konseptual əhəmiyyətli digər sənəd “Ekoloji təhsil və maarifləndirilməsi üzrə Sahələrarası Komissiya yaradılması və Komissiya haqqında Əsasnamə”dir. Bu Əsasnamə respublika Nazirlər Kabineti tərəfindən 22 2003-cü ilin sentyabr 22-də, 120 nömrəli qərarla təsdiq edilmişdir (3).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ekoloji təhsilin səmərəli təşkili və ekoloji mədəniyyətin formalaşdırılması məqsədilə 2010-cu il ölkəmizdə "Ekologiya ili" elan edilmişdi.

Ali məktəbdə ekoloji təhsilin və tərbiyənin keyfiyyətinin yüksəldilməsinə nail olmaq üçün onun təşəkkülünün və inkişafının tarixi-pedaqoji təhlilinin aparılması lazım bilinir. Bu zaman, təbii ki, onun meydana gəlməsinin başlıca şərtlərini müəyyənləşdirmək, əsas ziddiyyətlərini aşkara çıxarmaq və ekoloji təhsil, ekoloji maariflənmə və ekoloji tərbiyənin daha da təkmilləşdirilməsinə imkan verən yollar barədə zəruri təsəvvürə yiyələnmək mümkün olur. Hazırda ali məktəbdə ekoloji təhsil və tərbiyənin modernləşdirilməsinin strategiyasını müəyyənləşdirmək son dərəcə aktual bir vəzifədir.

Ekoloji maarifçiliyə ehtiyac böyükdür. Odur ki, əhalinin ekoloji biliklərlə olunması, ekoloji dünyagörüşün formalaşdırılması, ekoloji təhsilin məqsədyönlü, sistemli təşkili, institut və universitetlərdə tələbələr arasında ekolji tərbiyənin aparılması vacibdir.

Respublikamızın da daxil olduğu keçmiş SSRİ-də təbiəti mühafizənin əsasları ötən əsrin 60-cı illərində formalaşmağa başlamışdır. Təbiəti mühafizə fəaliyyətinin əsasında ekoloji təhsil təşəkkül tapmışdır. Ekoloji təhsilin inkişafına 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən Stokholmda keçirilən insanı əhatə edən mühitin problemlərinə həsr olunmuş konfrans və 1977-ci ildə ətraf mühit sahəsində təhsil üzrə Tiflisdə keçirilən Hökumətlərarası Konfrans böyük təsir göstərmişdir. Həmin konfransda bir neçə onillik ərzində dünyada ekoloji təhsilin inkişafına yönələn qərar qəbul edilmiş, sənədlər imzalanmışdır.

1987-ci ildə Moskvada ekoloji təhsilə aid YUNESCO-YUNEP tərəfindən təşkil olunmuş beynəlxalq konfrans keçirilmişdir (36). Burada Tiflis konfransının qərarlarının həyata keçirilməsinin

bəzi nəticələri müzakirə olunmuş və ekoloji təhsilin daha da inkişaf etdirilməsinin yolları müəyyənləşdirilmişdir. Göstərmək lazımdır ki, Stokholmda, Moskvada və Tiflisdə keçirilmiş aksiyalar bütün dünyada çoxlu yazıların, məqalələrin meydana çıxmasına, ekoloji şüurun və ictimai fəallığın yüksəlməsinə səbəb olmuşdur.

1992-ci ildə BMT-nin konfransında (Braziliyanın Rio-de-Janeyro şəhərində) ətraf mühit və onun inkişafı ilə bağlı qəbul olunan Strategiya ali təhsil sistemində ekoloji təhsil və tərbiyənin təşəkkülünü və inkişafını sürətləndirdi. Strategiya planetin bütün ölkələri üçün fəaliyyətə rəhbərlik kimi dəyərləndirildi. Sabit inkişafın strategiyası, başlıca ideyası bundan ibarətdir: sosial iqtisadi və ekoloji inkişafın yaradılması; təbiət mühitinin problemlərinin sosial-iqtisadi proseslərlə vəhdətdə nəzərdən keçirilməsi. Belə halda insanlar üçün sağlam və keyfiyyətli həyata hüququn təmin olunması, dünya xalqlarının həyatında uyğunsuzluğun azaldılmasına hüquqlarının təmin edilməsi üçün əlverişli şəraitin yaradılması vacibdir.

Konfransda göstərilmişdir ki, hazırda ekoloji böhran kəskin həddə çatıb, böhranın aradan qaldırılmasında təhsil və tərbiyənin mühüm roluna diqqəti yönəltmişlər.

Haqqında danışılan konfransda 170-dən artıq dövlətin nümayəndələri tərəfindən imzalanmış “XXI əsrin gündəliyi” adlı sənəddə öz ifadəsini sabit, dayanıqlı inkişaf ideyası özünə yer almışdır (4).

Xoşbəxt və sabit gələcəyi təmin etmək üçün dünya iqtisadiyyatı, demokratik siyasəti dəyişməli, bir sıra dəyərləri yenidən nəzərdən keçirmək və ilkin həyat tərzindən imkan daxilində daha çox imtina etmək. Bütün bunlar çox vaxt ekoloji mədəniyyətlə bağlanır.

Həmin vaxtdan etibarən ekoloji təhsil iki istiqamətdə həyata keçirilir: fundamental (*təbiət elmləri üzrə*) və tətbiqi (*texniki*). Burada əsas yeri fundamental istiqamət tutur. Bu, səbəbsiz deyildir. Fundamental istiqamət yenidən müxtəlif fənlərin inteqrasiyası əsasında yaranmışdır.

Respublika ali məktəblərinin bəzilərində ekologiya tədris planlarına salınmaqla öyrənilir. Ekologiya fənləri üzrə dərsliklər də mövcuddur. Belə ki Bakı Dövlət Universitetində “Ümumi ekologiya”, “İnsan ekologiyası”, ”Atmosferin ekoloji xüsusiyyətləri”, “İnsan, ətraf mühit və davamlı inkişaf”, “Heyvanların ekologiyası” “Coğrafi ekologiya”, “Mikroorqanizmlərin ekologiyası”, “Biosferin ekoloji xüsusiyyətləri və mühafizəsi”, “Hidrosferin ekoloji xüsusiyyətləri və mühafizəsi”, “Biomüxtəliflik və onun qorunması” tədris edilir.

Azərbaycan Mühəndis İnşaat Universitetinin və Azərbaycan Dövlət Aqrar Universitetinin fakültələrinin hamısında ekologiya əsas baza fənni kimi keçilir.

Lakin indiyə kimi ali məktəbdə elmi-təbiət istiqaməti üzrə hələ də ekoloji təhsilin inkişafının ziddiyyətləri təhlil olunmamış, bu sahədə məzmun lazımi səviyyədə həll edilməmişdir. Etiraf etmək lazımdır ki, hazırda ekoloji təhsilin və maarifləndirmənin inkişafı prosesi tələb olunan səviyyədə deyildir.

Fəqət ekologiya bir ali məktəb fənni kimi hazırda nədənsə institut və universitetlərinin idarəçilik, diplomatiya, humanitar, politologiya, siyasi, hüquq, fəlsəfə, filologiya, pedaqogika, psixologiya, tarix, ədəbiyyat, dilçilik, jurnalistika, ilahiyyət, riyaziyyat, fizika, informatika və başqa fakültə və ixtisaslarında tədris edilmir. Halbuki Avropa və Qərb ölkələrində, o cümlədən Rusiyada bu ixtisasların təmayülünə müvafiq olaraq ekologiya əsas fənn kimi keçilir.

Prof. F. Əliyev yazır: “Ölkəmizin pedaqoji, psixoloji, mədəniyyət, incəsənət, hüquq, jurnalistika, filologiya, tarix, dilçilik və s. təmayüllü fakültə və ixtisaslarının heç birində “Sosial ekologiya” fənni tədris olunmur və bu həyati vacib məsələ sanki tamamilə unudulub. Unutmaq olmaz ki, bu fənnin tədrisi tələbələrdə və gələcək mütəxəssislərdə ekoloji mədəniyyət, psixologiya, şüur, əxlaq, etika və s. formalaşdırır, onların ekoloji sivilizasiyaya və Davamlı İnkişafa inteqrasiya prosesini stimullaşdırır, tənzimləyir, təbiət-cəmiyyət münasibətlərində pozitiv situasiya yaradır” (5).

Təhsil modelinin inkişafı təhsilin sabit inkişafı üçün ekoloji təhsilin üzərinə böyük məsuliyyət qoyulur. 2005-ci ildə “BMT-nin Sabit inkişaf məqsədilə təhsil üçün Avropa İqtisadi Komissiyanın Strategiyası” qəbul edildikdən sonra ali məktəbdə ekoloji təhsilin təbiət-elmi istiqaməti sabit inkişafın elmi əsaslarının işlənib hazırlanması üçün baza rolunu oynayır.

Təbiətə qayğılı münasibətin tarixi qədimdir. Müxtəlif mədəniyyətlərin və etnosların şifahi və yazılı abidələrində, xalq ədəbiyyatında öz əksini tapmışdır. Lakin, ümumiyyətlə götürdükdə, insan

sivilizasiyasının ümumi fonunda təbiətə qayğısızlıq və hörmətsizlik halları, təbiətə ziyan vurmaq, onun ehtiyatlarından səmərəsiz istifadə, çayların və göllərin çirkləndirilməsi, meşələrin qırılması, ehtiyatsızlıq nəticəsində onların yanmasına bais olmaq və s. müşahidə olunur. İnsanlar, nəhayət, anlamışlar ki, təbiəti məhv etmək, ekoloji tarazlığı pozmaqla, ekologiyanı korlamaqla öz-özlərini məhv edir, yaşayışı çətinləşdirir, sağlamlıqları üçün təhlükə yaradırlar.

Odur ki, təbiətin, ekologiyanın mühafizəsi üzrə inkişafda olan hərəkat bütün dünyanı əhatə edib. İnsanın ətraf aləmə münasibəti necə olmalıdır? Bəşəriyyəti ekoloji böhrandan necə xilas etmək olar? Bu suallar hər bir şəxsi düşündürməlidir.

Ekoloji təhsilə cəlb olunma və ekoloji mədəniyyətin formalaşdırılması tələbələrdə ölkəmizin ekologiyası, ekoloji təmizliyi, təbiətə qayğılı münasibət və onun mühafizəsi, yaşıllıqların artırılması, "təmiz şəhər", "təmiz rayon", "təmiz kənd", "təmiz məhəllə", "təmiz həyət" uğrunda mübarizə, başqalarından da təbiətin qorunmasını tələb etmək və s. bu kimi keyfiyyətlərin yaradılmasını və inkişaf etdirilməsini tələb edir.

Bütün bunlara nail olmaqdan ötrü tələbələrdə insanın, cəmiyyət və təbiətin qarşılıqlı proseslərinin və nəticələrinin dərk edilməsinə; təbiətə münasibətlərdə ekoloji dəyərli yönəlmələrə, norma və qaydalara istiqamətlənmə; elmi biliklər sisteminin formalaşdırılması üzrə ali məktəbin məqsədyönlü iş lazım gəlir.

Ekoloji təhsil və maarifləndirmə zamanı qazanılan biliklər və əldə olunan təcrübə ekoloji mədəniyyəti meydana gətirir. Ekoloji təhsil dedikdə, ümumi ekoloji mədəniyyətin və məsuliyyətin təşəkkül tapmasına istiqamətlənən fasiləsiz təhsil, tərbiyə və inkişaf prosesi anlaşılır. Ekoloji təhsilin məqsədi təbiətə məsuliyyət hissinin yaradılmasından ibarətdir. Ekoloji təhsilə tələbat, şəxsiyyətin həyatı üçün münasib şəraitin təmin edilməsinə zərurətdən irəli gəlmişdir.

Ölkə Prezidenti İlham Əliyevin 31 yanvar 2008-ci ildə imzaladığı "Azərbaycan Respublikasının Ali Təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncam respublikamızda təhsilin Avroatlantik inteqrasiyası baxımından diqqəti cəlb edir. Həmin sərəncamdan irəli gələn vəzifələr tələb edir ki, Azərbaycan təhsil sisteminin dünya standartına uyğun şəkildə ekologiyalaşması ilə bağlı islahatların aparılsın.

21 oktyabr 2011-ci ildə "Hilton Baku" otelində Heydər Əliyev Fondu ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Anlaşma Memorandumu imzalanmışdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə İDEA (İnternational Dialogue for Environmental Action) Ətraf Mühitin qorunması naminə Beynəlxalq Dialoq Kampaniyasına start verilmişdir. Ətraf Mühitin qorunması naminə Beynəlxalq Dialoq Kampaniyası ((İnternational Dialogue for Environmental Action)) İDEA adlanır.

Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsünün - İDEA-nın ölkə miqyaslı ekoloji maarifləndirmə layihəsinə əsasən həyata keçirilən "Yaşıl Azərbaycan naminə" layihəsinin iştirakçıları tez-tez respublikamızın rayonlarında olurlar. Həmin tədbirlərdə əhali, təhsilalanlar, o cümlədən tələbə gənclər dünyadakı ekoloji fəlakətlər, Yer kürəsinin, xüsusən respublikamızın ekoloji vəziyyəti, Böyük Qafqazın cənub-şərq hissəsində qərarlaşan, zəngin flora və faunaya malik Şamaxı və onun təbiəti haqqında zəruri bilik və məlumatlar alırlar.

Pedaqoji ədəbiyyatda tələbələrin ekoloji təhsilinin və ekoloji tərbiyəsinin əsas prinsipləri öz ifadəsini tapmışdır. Onlara ekoloji mədəniyyətə intizamlı yanaşma; ekoloji materialın sistemli və fasiləsiz öyrənilməsi; ətraf mühitin öyrənilməsi və yaxşılaşdırılması üzrə tələbələrin fəaliyyətində əqli və emosional-iradi əsasların vəhdəti; təlim prosesində ekoloji problemlərin aşkarlanmasında qlobal, milli və diyarşünaslıq səviyyələrinin qarşılıqlı əlaqəsi və s. daxildir. Ekoloji təhsilin təşkili və ekoloji tərbiyənin formalaşdırılması problemi üzrə ədəbiyyatla tanışlıqdan görünür ki, hər bir tələbədə ekoloji mədəniyyətin yaradılmasına və ekoloji maariflənməsinə cəmiyyətin obyektiv tələbləri ilə ekoloji təlim-tərbiyə prosesinin təşkili arasında ziddiyyət mövcuddur. Bu ziddiyyətdən də tədqiqatın problemi meydana çıxır. Həmin problemi aşağıdakı şəkildə ifadə etmək mümkündür: tələbələrin ekoloji təhsilini səmərəli şəkildə necə təşkil etmək olar? Tələbələrdə ekoloji mədəniyyəti formalaşdırmağın optimal şərtləri, metodları və vasitələri hansılardır?

Biz bütün bu suallara cavab tapmağa çalışdıq.

**Problemin aktuallığı**. Mövzu bir tərəfdən yaranmış ekoloji böhran, digər tərəfdən, əhalinin, o cümlədən təhsilalanların sağlamlığının təmin olunması, ekoloji şüura və təfəkkürə yiyələnmələri zərurətindən, təbiətin, ətraf aləmin mühafizəsinin vacibliyindən, ən əsası isə, dövlət səviyyəsində bu problemə diqqət yetirilməsi baxımından aktuallıq daşıyır.

**Yenilik**. Ekoloji təhsil və tərbiyənin təşəkkülü və inkişafının tarixi-pedaqoji təhlili verilir.

**Praktika üçün əhəmiyyəti**. Ekoloji təhsil və tərbiyənin təşəkkülü tarixi ilə tanış olmaqda bu istiqamətdə tələbələr arasında iş aparan müəllimlərə məlumat verir.

## ƏDƏBİYYAT


1. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanununu". http://www.edu.gov.az/view.php?lang=az&menu=72&id=732

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il iyunun 2-də "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları"nın və "Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə 75 nömrəli qərar. http://e-qanun.gov.az/files/framework/data/2/f_2184.htm

3. Ekoloji təhsil və maarifləndirmə üzrə Sahələrarası Komissiyanın yaradılması və Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə 120 nömrəli qərar. Bakı şəhəri, 22 sentyabr 2003-cü il.

4. Программа действий: «Повестка дня на XXI век» и другие документы конференции в Рио-де-Жанейро / Сост. М.Китинг. Женева, Швейцария: Центр «За наше общее будущее», 1993.

5.http://www.respublica-news.az/index.php/elm-v-t-hsil/item/2038-taehsil-vae-elm-sistemindae-ekolozhiya


**Х.Х. Султанлы**

## СТАНОВЛЕНИЕ ЭКОЛОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ И ВОСПИТАНИЯ: ИСТОРИКО-ПЕДАГОГИЧЕСКИЙ АНАЛИЗ РАЗВИТИИ

### РЕЗЮМЕ

Актуальность проблем экологического образования и воспитания возрастает. Это вызвано: необходимостью повышения экологической культуры человека; низким уровнем восприятия человеком экологических проблем как лично значимых; необходимостью постоянного сохранения и улучшения условий жизни человека на Земле; необходимостью решения актуальных проблем, связанных с уменьшением жизненного пространства; необходимостью сохранения и восстановления, рационального использования и приумножения природных богатств; недостаточно развитой у человека потребностью практического участия в природоохранной деятельности.

**Kh.Kh. Sultanly**

## FORMATION OF ENVIRONMENTAL EDUCATION: HISTORICAL AND PEDAGOGICAL ANALYSIS OF THE DEVELOPMENT

### SUMMARY

Recent events problems of environmental education increases. This is due to the need to improve the ecological culture of human rights; low level of human perception of environmental problems as personally meaningful; the need for continued conservation and improvement of human life on Earth; the need to solve actual problems connected with the decrease of living space; the need to preserve and restore the management and enhancement of natural resources; underdeveloped humans need practical participation in environmental activities.

*Redaksiyaya daxil olub: 26.05.2014*

# ПОДГОТОВКА ПЕДАГОГИЧЕСКИХ КАДРОВ: ЗАРУБЕЖНЫЙ ОПЫТ

**Нигяр Мурадова,**
*доктор философии по педагогике,*
*доцент, ИПОАР*
E-mail: rita-nigar@mail.ru

**Рецензенты**: *проф.* **А.Н. Аббасов,**
*докт. пед. н.* **Г.Г. Ахмедов**

***Açar sözlər****: peşə təhsil, müəllimlərin hazırlığı, beynəlxalq təcrübə, ekspertlər, ali məktəblər*
***Ключевые слова:*** *профессиональное образование, подготовка преподавателей, зарубежный опыт, эксперты, высшие школы*
***Key words:*** *vocational education, teacher training, international experience, the experts, of higher school*

Сегодня западные эксперты настойчиво подчеркивают приоритетность педагогической подготовки и формирования преподавательского состава высшей школы. В современной американской педагогической литературе по-разному интерпретируются основные педагогические черты эффективного преподавателя. Однако обобщая их, можно сформулировать следующий вывод: настоящий преподаватель не только должен быть компетентным в своей области, но и обладать интегрированными знаниями. Именно этим критерием руководствуются западные эксперты, занимающиеся проблемами продолжения контрактов с преподавателями, претендующими на то или иное звание. Зарубежная практика также показывает, что новые теоретические разработки по общей и вузовской педагогике внесли существенные изменения в систему педагогической подготовки преподавательских кадров, повышения их квалификации, способствуя росту авторитета педагогических знаний. Если до некоторого времени университетский диплом давал право заниматься преподавательской деятельностью в вузе, то сейчас в большинстве стран Запада для этого необходимо получить специальную педагогическую подготовку, подтвержденную соответствующим документом. В соответствии с этим в рамках данной статьи в этом направлении представляем мнение американских экспертов, которые дали характеристику как рекомендации для того, чтобы специальная профессиональная подготовка преподавателей была эффективной и ее модернизация носила реальный, а не задекларированный характер. Представляем рекомендации зарубежных экспертов в форме краткой характеристики:

Ведущие организационно-педагогические условия, определяющие высокий уровень деятельности вузовского преподавателя являются: а) четкая конкретизация заданий за тот или другой период работы преподавателя; б) жесткий контроль администрации университета относительно выполнения преподавателем своих обязанностей; в) «борьба» за студентов в условиях чтения курса несколькими преподавателями; г) комплексное оценивание педагогической деятельности педагога; д) прямая зависимость решений из персональных вопросов от результатов оценивания педагогической деятельности преподавателя (решение о повышении в должности; решение о постоянном найме; годовая оценка персонала; рекомендации относительно надбавки к окладам).

Из вышесказанного следует, что преподаватель высшей школы США находится в условиях жесткой конкуренции с коллегами, постоянно оценивается, причем, сразу с разных позиций - администрации, коллег, студентов. Тем самым преподаватель лично заинтересован в повышении своей квалификации, в совершенствовании методов обучения, так как от этого

зависит, насколько успешно он сможет привлечь студентов на свои курсы и, каким будет его заработок.

Главные факторы, стимулирующие преподавателей вузов к повышению дальнейшей квалификации, следующие: а) поиск методов квалифицированного отбора учебной и научной информации и трансляции ее в интересной для будущих специалистов, оригинальной, профессионально адаптированной форме; б) осознание потребности в установлении партнерских отношений со студентами, в развитии культуры общения; в) личная ответственность за персональную профессиональную готовность студентов; г) контрактная система и профессиональная конкуренция, существующая в вузах.

Основные формы повышения педагогической квалификации преподавательских кадров в странах Западной Европы и США могут быть такие: а) практикумы и семинары для молодых преподавателей; б) дополнительные курсы педагогической направленности; в) работа начинающих преподавателей по индивидуальным планам; индивидуальное консультирование начинающих преподавателей; г) повышение педагогической квалификации на базе специализированных центров в университетах; д) дополнительные курсы педагогической направленности. Также среди форм, используемых в европейских странах, можно отметить: а) занятия, имеющие периодический характер (лекции, методические семинары, конференции); б) консультации по рекомендуемым литературным источникам, сочетающиеся с дискуссиями; в) ознакомление начинающих преподавателей с современными методами обучения на основе новых аудиовизуальных и комплексных средств обучения; г) организация междисциплинарных научных исследований по проблемам преподавания и усвоения знаний; д) выполнение кандидатских диссертаций на стыке двух наук (педагогики и физики, математики, иностранных языков); е) проведение оценки работы ФПК вуза в аспекте педагогического мастерства (как коллегами, так и студентами); ж) организация углубленной психолого-педагогической подготовки преподавателей; з) обмен педагогическим опытом между вузами одного типа и между учебными заведениями разных профилей и др.

Зарубежные эксперты отмечают, что в странах Западной Европы и США нет обязательной системы повышения квалификации, однако осуществляется она по мере необходимости или потребности вуза.

В США можно выделить два основных направления подготовки преподавателей высшей школы: первое направление - национальная программа «Подготовка будущих преподавателей» (Preparing Future Faculty - PFF); второе направление по повышению качества обучения - работа с новыми преподавателями.

Основные направления педагогических курсов США и Великобритании следующие: а) изучение опыта педагогической деятельности; б) овладение педагогической инновацией; в) подготовка учебных планов; г) продолжение педагогической практики; д) работа по индивидуальным планам.

При реализации программы зарубежные эксперты рекомендуют применить следующие формы по использованию стратегий обучения - это организация лабораторных работ, тренингов и других активных технологий обучения, занятий case-studies (производственных ситуаций и их разбор), проблемного обучения; проведение интерактивных лекций; организация групповой работы; организация дискуссий. По мнению зарубежных экспертов, мастерские, предназначенные для преподавателей и студентов, и направленные на улучшение эффективности преподавания являются целесообразными и целенаправленными формами в вопросе формирования преподавательского умения как планирование курса, преподавательские стратегии, например, курс «Преподавание в университете».

Россия в этом отношении формирует собственные стратегии дополнительного профессионального образования на основе международных документов, разрабатываемых и составляемых ЮНЕСКО, Европейским союзом, другими международными объединениями и

организациями. Система повышения квалификации научно-педагогических кадров высшей школы России включает: а) творческие научно-педагогические стажировки на предприятиях, в научно-исследовательских институтах, конструкторских бюро, высших учебных заведениях, в том числе зарубежных; б) повышение квалификации или переподготовка профессорско-преподавательского состава высших учебных заведений в институтах и центрах повышения квалификации и переподготовки кадров; в) прикрепление к высшим учебным заведениям для сдачи кандидатских экзаменов и подготовки кандидатских диссертаций; г) творческие отпуска для завершения работы над монографией, учебником или диссертацией; д) аспирантура; е) докторантура.

Принципы организации профессиональной подготовки преподавателей высшей школы в системе вузовского и послевузовского образования России: целостность; реалистичность; рациональность; контролируемость.

Внимание зарубежных экспертов сфокусировано на четырех блоках вопросов в области разделов тематики педагогической мастерской, влияющих на эффективность обучения. Каждому преподавателю необходимо знать следующие блоки: 1) стратегии обучения (методика разработки и проведения лекции; обучение студентов высокому уровню мышления; активное кооперативное обучение); 2) построение учебных курсов (преподавательские задачи; как начинать курс; проверка и оценка эффективности курса); 3) информация о личностных и возрастных особенностях студентов (желающие развить персональные и лидерские качества); 4) стратегии профессионального самосовершенствования (оценка обучения; проблемы преподавателей и пути их решения). Следовательно, следует, что в условиях информационного взрыва обновление содержания последипломной подготовки преподавателя, ее инновационный характер рассматриваются на Западе как средство борьбы с фрагментарностью и быстрым устареванием научных знаний. Усложнение этих знаний, их интеграция обусловили переход к новым программам междисциплинарного типа, объединяющим в себе несколько дисциплин или отраслей знания. Целью таких программ является подготовка специалиста высшей квалификации широкого профиля.

Таким образом, краткий анализ подготовки и переподготовки преподавательских кадров за рубежом позволяет сделать следующие выводы:

1. В развитых странах системе непрерывного повышения квалификации преподавательских кадров придается большое значение. Она расценивается как основное условие реализации высшей школой инновационных функций по отношению ко всем сферам общественной жизни страны.

2. Необходимость повышения квалификации детерминирована постоянно изменяющимися условиями труда. В высшей школе последовательно разрабатываются инновационные технологии, внедряются усовершенствованные технические средства обучения, изменяется образовательная парадигма, т.е. подход к передаче знаний.

3. Для выполнения профессиональной деятельности с учетом возлагаемых на него требований, преподаватель высшей школы должен постоянно перестраивать свою работу, гибко приспосабливая ее ко всем инновациям. Эффективность деятельности оценивается со стороны администрации, коллег, студентов, выпускников вуза. Подобная комплексная оценка является гарантом соответствия уровня профессионализма преподавателя и мотивации к его постоянному повышению.

Интеграция Азербайджана в мировое образовательное пространство усиливает внимание наших экспертов зарубежному опыту по подготовке преподавателей высших школ. В соответствии с этим «нижеследующие причины еще больше актуализируют вопрос по разрешению проблемы обеспечения качества образования в высшей школе Азербайджана: а) совершенствование методов оценивания динамики научно-технического и социально-экономического развития и активизации глобализации общества высших школ; б) на международном уровне обеспечение качества подготовки специалистов в высших школах

Азербайджана» [1]. Азербайджан видит необходимость такого инновационного развития и стремительно разрабатывает свои стратегии дополнительного профессионального образования на основе требований Болонского процесса. «В образовательных учреждениях должна быть создана новая система аккредитации» [2]. Безусловно, «мы признаем, что существует ряд зарубежных вузов очень привлекательных для азербайджанской молодежи в контексте получения знаний для построения собственной карьеры. Но необходимо постоянно повышать уровень азербайджанских вузов» [3]. Потому что «наша цель - чтобы выпускники обладали навыками и знаниями, которые позволят им конкурировать не только в Азербайджане, но и на мировом рынке труда» [4]. С точки зрения системы образования Азербайджана ее структура основана на новых подходах к повышению качества деятельности вузов в этом направлении.

**Актуальность проблемы**. В связи с процессами, обусловившими постепенную интеграцию азербайджанских высших школ в общеевропейскую и мировую образовательную практику, в первую очередь наши эксперты большое внимание уделяют зарубежной практике по организации профессионального образования, и наиболее подробно, подготовке преподавателей высшей школы в зарубежных странах. Азербайджан видит необходимость реформирования вопроса этого направления в высших учебных заведениях страны, его инновационного развития и стремительно разрабатывает свои стратегии профессионального образования на основе требований Болонского процесса.

**Новизна проблемы**. Теоретические основы организационной структуры высшей школы по подготовке педагогических кадров за рубежом рассматриваются как подход экспертов к заимствованию условий и направлений повышения качества подготовки преподавателей в высших учебных заведениях Азербайджана.

**Практическая значимость**. Зарубежная практика в повышении квалификации учителей может стать плодотворной почвой для разработки модели в системе отечественного образования, если ввести в ее систему значимые элементы зарубежного управленческого опыта в подготовке студентов - будущих педагогов в сфере работы по преодолению у них стереотипов в восприятии специфики педагогического мастерства.

## ЛИТЕРАТУРА

1. Abbasov A.N. Ali peşə ixtisas təhsilində keyfiyyətin idarə olunması məsələləri / "Pedaqoji kadrların hazırlıgı: проблемляр, vəzifələr" mözusunda beйнялхалг simpoziumun materialları. Naxчыvan, 2009, с. 29.

2-4. Джаббаров М.Ч. http://www.1news.az/

5. Байденко В.И. Болонский Процесс: нарастающая Динамика и Многообразие (документы международных форумов и мнения европейских экспертов) – М.: Исследовательский центр проблем качества подготовки специалистов, 2005.

6. Бражник Е.И., Барышников С.В. Европейский Союз и Совет Европы: в области образования. М., 2002.

**N. Muradova**

## TEACHER TRAINING: INTERNATIONAL EXPERIENCE

## SUMMARY

The article reflects international experience in the field of the question on preparation of teachers in higher educational institutions. This issue is considered by experts in this area. In their opinion, the main distinctive feature of teacher training of university teachers in the new structures is the purposeful and systematic formation of their educational qualifications, and system of their certification.

*Redaksiyaya daxil olub: 23.01.2014*

# MƏKTƏBDAXİLİ İDARƏETMƏ SİSTEMİNİN TƏŞKİLİNƏ MÜASİR YANAŞMALAR

**Səbinə Əliyeva,**
*ARTPİ*
E-mail: sabina.nasibli@mail.ru

**Rəyçilər:** *dos.* **M. Kazımov,**
*dos.* **B. Ağayeva**

***Açar sözlər:*** *idarəetmə, pedaqogika, təhsil sistemi, pedaqoji proses, pedaqoji kollektiv, məktəb direktoru, demokratik üslub, optimallaşdırma, işgüzar şərait, iş metodu*

***Ключевые слова:*** *менеджмент, педагогика, система образования, учебный процесс, преподавательский состав, директор школы, демократический стиль, оптимизация, условия труда, методы работы*

***Key words:*** *management, pedagogy, education system, pedagogical process, teaching staff, school principal, the democratic style, optimization, working conditions, working methods*

Məktəbin idarə edilməsi pedaqogikanın vacib bir sahəsidir. Müasir məktəbin qarşısında duran vəzifələrin həlli onun necə idarə olunmasından çox asılıdır. Müasir dövrdə məktəbin idarə edilməsi mexanizmi və demokratikləşdirilməsi istiqamətində əsaslı təkmilləşməyə, yeniləşməyə böyük ehtiyac hiss olunur. Bu sahədə həlli tələb olunan məsələlər çoxdur: Müasir məktəb necə olmalıdır? Müəllim və şagird özünüidarə orqanlarını məktəbin idarə olunmasına necə cəlb etməlidir? Onlara hansı funksiya və səlahiyyətlər verilməlidir? Məktəbdə vahid rəhbərliklə kollegiallıq necə təmin olunmalıdır? Məktəbin demokratikləşdirilməsi mexanizi necə həyata keçirilməlidir? və s.

Rəhbərlik və idarəetmənin təşkili istiqamətində həyata keçirilən fəaliyyətlər iş üslubu ilə sıx bağlıdır. Üslub idarəetmə fəaliyyəti prosesində meydana çıxan bu və ya digər vəzifələrin və problemlərin həlli üçün tipik metodların məcmusudur. İdarəetmə nəzəriyyəsi və sosial psixologiya sahəsində mütəxəssislər rəhbərliyə xas olan üç üslub göstərirlər: 1) avtoritar üslub; 2) liberal üslub; 3) demokratik üslub. Bu üslubların hər birinə təbii halda çox az rast gəlmək olar.

Demokratik üslub idarəetmə sistemində ən əlverişli üslub olub, qarşılıqlı əməkdaşlığa əsaslanır. Bu üslub kollegiallıqla vahid rəhbərliyi düzgün əlaqələndirir, ictimai təşkilatların, bütün müəllimlərin məktəbdə qərarların qəbul edilməsində fəal iştirakını nəzərdə tutur.

Bu üslubda insana təlim-tərbiyə prosesinin fəal iştirakçısı - subyekt kimi baxılır. Demokratik üslubun əsas vasitələrini inandırma, xahiş, məsləhət təşkil edir. Bu üslubda qeyri-rəsmi ünsiyyət formasına, dolayı təsir priyomlarına üstünlük verilir. Demokratik idarəetmə üslubundan istifadə zamanı sağlam sosial-psixoloji mühit yaradılır, normal ünsiyyət qurulur, insanın şəxsi ləyaqət hissi qorunub saxlanılır. Bütün bunlar rəhbər işçinin nüfuzunu yüksəldir, ona hörmət hissini artırır. Bu isə öz növbəsində səmərəli idarəetməyə gətirib çıxarır.

Azərbaycanın müstəqilliyi əldə edildikdən sonra cəmiyyətdə sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsi, demokratiyanın genişlənməsi şəraitində bir çox sahələrdə olduğu kimi, respublikanın təhsil sistemi qarşısında da bir çox tələblər qoyulmuşdur. Bu tələblər təhsilin idarə edilməsini yeni məzmunda qurmağa imkan yaradır. Məktəbin idarə edilməsinin müasir tələblərə uyğun təşkili məktəb rəhbərinin işi, onun məsuliyyəti, "məktəb şurası"nın işinin necə təyin edilməsi, pedaqoji kollektivin və şagirdlərin vəzifələri və onların hüquqlarının qorunması və s. kimi məsələləri demokratik üsulla həll etməyi qarşıya məqsəd qoyur.

Təhsilin demokratik şəkildə idarə edilməsi heç də yeni şey deyil. Sadəcə olaraq hazırki dövrdə demokratiya daha geniş şəkildə irəli sürüldüyü üçün bu, bir zərurət kimi meydana çıxmışdır. Müasir dövrdə məktəb rəhbərliyindən şagirdləri gələcək həyata hazırlayarkən onların demokratik ruhda tərbiyə edilmələri, məktəblərdə bunun üçün şəraitin yaradılması tələb olunur.

Respublikada təhsilin məzmununda milli xüsusiyyətlər kifayət qədər nəzərə alınmamış, bu işin elmi pedaqoji strategiyası yüksək səviyyədə işlənməmişdir. Təhsilin təşkili və idarə edilməsində inzibati amirlik metoduna üstünlük verilmiş, məktəb həyatının demokratikləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər qənaətbəxş deyildir.

Bütün bunları nəzərə alaraq, tarixi keçmişimizə sağlam düşüncə ilə nəzər salaraq, inkişafetmiş ölkələrin təhsil sisteminin idarə olunmasını öyrənməklə respublikada təhsilin yeniləşməsində idarəetmənin daha faydalı strukturlarını müəyyənləşdirməyə çalışılmalıdır. Azərbaycanda təhsil sisteminin idarə edilməsi strukturu milli zəminə, türk dünyasının və islam əxlaqının yaratdığı mənəvi sərvətlər və ümumbəşəri dəyərlərə əsaslanmalıdır.

Təhsil sisteminin idarə edilməsində yeniləşmənin müxtəlif istiqamətdə qoyulmasına diqqəti artırmaq lazımdır. Bunun üçün obyektiv şərait nəzərə alınmaqla, təhsilin idarə olunmasının müxtəlif variantlarından istifadə olunmalıdır.

Hazırki dövrdə bəzi tədris müəssisələri rəhbərlərinin bir qrupu şərait olmadığına görə köhnəlikdən əl çəkə bilmir, öz işini əvvəlki kimi davam etdirməyə üstünlük verirlər. Köhnə sistemi dəyişmək və yenilik axtarmaq üçün özlərində cəsarət tapa bilmirlər.

Başqa qrup rəhbərlər isə təhsil müəssisəsində iş üslubunu dəyişmək istəyir, idarəetmədə özünün ideyalarını inandırıcı şəkildə həyata keçirməyə çalışırlar. Elə rəhbərlər də olur ki, fəaliyyətlərini yaradıcı şəkildə həyata keçirməyə çalışırlar.

Aparılan müsahibələrdən, söhbətlərdən təhsilin idarə edilməsi sahəsində maraqlı mülahizələr ortaya çıxarılır.

Fikir söyləyənlərin bir qismi təhsil sahəsində totalitar quruluşun hamısını dağıtmağı, sovet məktəbi sisteminin bütün idarəetmə zəncirinin qırılmasını irəli sürməklə, idarəetməni inkar edir, tam sərbəstliyə; ikinci qismi isə idarəetmə komponentlərinin dəyişməsinə, dövlət ictimai idarəetməni ictimai-dövlət idarəetmə ilə əvəz etməyə üstünlük verirlər. Bunlar məktəb şuralarının işinin təşkilini əsas götürür, təhsilin qlobal məsələlərinin həllində məktəb şurasının daha səlahiyyətli olmasınının fayda verdiyini əsaslandırmağa çalışırlar.

Üçüncülər. görə, idarəetmə təhsilin məzmunundan irəli gəlir. Əvvəlcə təhsilin məzmununu yeniləşdirmək, sonra isə onun idarə edilməsi haqqında fikirləşmək lazımdır. Belə fikirləşənlər birinci növbədə tədris planı, proqram və dərsliklərin yeniləşdirilməsinin ön plana çəkilməsinə üstünlük verirlər (4).

Bu fikirlərin hər birinin üstün cəhətləri vardır, lakin onlardan yaradıcı istifadə etməkdən çox şey asılıdır.

Təhsil müəssisələrində demokratik idarəetmə sistemi çərçivəsində rəhbərlik-pedaqoji kollektiv, rəhbərlik-şagirdlər, rəhbərlik-ictimai təşkilatlar, müəllimlər-şagirdlər, müəllimlər-valideynlər sisteminin roıu qiymətləndirilir. Təhsil müəssisəsində iqtisadi maliyyə müstəqilliyinin və özünümaliyyələşdirmənin inkişaf etdirilməsi, demokratik idarəetmədə maliyyələşmənin qanuniləşdirilməsi, müəllim, şagird, valideyn və ictimaiyyətin nümayəndələrinin idarəetmə sahəsində nəzəri, psixoloji və praktik cəhətdən hazırlanması, təhsil müəssisəsi rəhbərlərinin seçkilərinin aşkarlıq şəraitində keçirilməsi, qəbul olunmuş qərarların kollegial şəkildə həyata keçirilməsi kimi məsələlər də demokratik idarəetmədə öz əksini tapmalıdır.

Demokratik idarəetmə fəaliyyətinin optimallaşdırılması – onun əsas vasitələrindən biri hesab edilir. Demokratik idarəetmə fəaliyyətinin optimallaşdırılması dedikdə, təhsilin meyarlarının aydınlaşdırılması, konkret şəraitin nəzərə alınması, bir neçə imkanı olan optimal variantın (çoxvariantlıq) seçilməsi kimi variantların əsas götürülməsi məqsədəuyğun hesab edilir: Burada seçmənin məqsədi, şərtləri və mexanizmi müəyyənləşdirilməlidir.

Demokratik idarəetmədə hansı komponentlər əsasdır? Bir sıra məsələləri nəzərdən keçə bilərik: idarəetmənin subyektinin müəyyən olunması, fərdi və kollektiv qərar qəbul edilməsi və məktəb rəhbərlərinin fəaliyyəti ilə həyata keçirilməsi; idarəetmədə bir sıra funksiyaların şagird, müəllim və təşkilatçıların ixtiyarına verilməsi; idarəetmədə əməyin elmi təşkilinin diqqət

mərkəzində olması, idarəetmə orqanlarının seçilməsi, yoxsa təyin olunması sualının cavabında seçməyə daha çox üstünlük verilməsi.

Demokratik idarəetmədə təhsil müəssisəsi şurasının fəaliyyəti işin əsasını təşkil edir. Müəssisənin təhsil şurasında məktəbdaxili qaydaların idarəolunması, şagirdlərin maraqlarının öyrənilməsi, ictimai rəyin öyrənilməsi, kadrlarla iş və maddi bazanın möhkəmləndirilməsi və s. komissiyalar yaradılır. Bu komissiyaların hər biri ayrılıqda konkret sahə üzrə iş aparır. Təhsil müəssisələrinin demokratikləşməsinin ilk addımları pedaqoji kollektivlə aparılan iş, onların əməyinin qiymətləndirilməsi və nüfuzunun artırılması üçün görülən tədbirlərdən başlayır. Bütün qruplardan olan müəllimlərin xüsusiyyətlərinin nəzərə alınması, pedaqoji kollektivin kateqoriyalarının müəyyənləşdirilməsi üçün hazırlıq işinin aparılması, attestasiyaların təşkili və keçirilməsində formallığın aradan qaldırılması diqqət mərkəzində olmalı, məqsədyönlü əməli tədbirlər görülməlidir.

Ümumiyyətlə, pedaqoji işdə müasirliyə, yeniliyə üstünlük vermək, işgüzarlıq, birlik, fəal yaradıcılıq axtarışları aparmaq, qazandıqları nailiyyətlərlə arxayınlaşmamaq və s. kollektivin müvəffəqiyyət qazanması üçün başlıca tələbdir. Bu baxımdan məktəbə rəhbərlikdə rəsmiyyətçiliyə, çək-çevirə son qoymaq və pedaqoji kollektivdə işgüzar şərait, yaradıcılıq əhval-ruhiyyəsi yaratmaq başlıca şərtdir. Məktəb rəhbərləri müəllimlərin yeni fikirlərini, yenilik etmək təşəbbüslərini müdafiə etməli və bu yeni fikirlərin həyata keçirilməsində təşkilatçı olmalıdırlar. Məktəb rəhbərləri müəllimlərin yaradıcı fəaliyyət göstərmələri, dərsləri təkmilləşmiş metodlarla keçmələri üçün onlara şərait yaratmalıdırlar. Məktəb direktoru kollektivə rəhbərlikdə müvəfəqiyyət əldə etmək üçün elə xüsusiyyətlərə malik olmalıdır ki, işin səmərəli qurulmasına xidmət etsin.

- Məktəb direktoru, müasir təhsil idarəçisi olaraq, birlikdə işlədiyi direktor müavinləri, müəllimlər və digər işçilərlə səviyyəli, isti və səmimi ünsiyyət qurmalıdır. Hər hansı bir müəllim və ya işçi istədiyi zaman direktorla əlaqə saxlaya, problemini çatdıra bilməlidir. Məktəblərimizdə belə rabitə kanalı qurularsa, bir çox kiçik mövzular problem olmaqdan çıxacaq, məktəbdə birlik, bərabərlik təmin ediləcək, qrup ruhunun təməli qoyulmuş olacaqdır. İdarəedici orqan - müəllimlər və işçilər bir-birinə daha yaxın olacaq, bir ailə mühiti yaranacaq.

- Məktəbdə, direktorla ünsiyyət qurmaq istəyən adam bunu deyə bilməlidir : "Mən bu mövzunu direktora izah edərkən, o mütləq məni dinləyəcək, kömək edəcək, çıxış yolu göstərəcək, problemi həll etmək üçün mənə yol göstərəcək." Direktor məktəbdəki bütün işçilərin problemlərini bacardığı qədər həll etməyə səy göstərməlidir.

- Məktəb direktoru yalnız təhsil və məktəb mövzularında deyil məktəbdənkənar, təhsildənkənar mövzularda da əməkdaşlara kömək göstərməlidir. Məktəblə bağlı və ya məktəbdənkənar mövzu ayrı-seçkiliyi edilməməlidir. Müasir təhsil idarəçisi olaraq məktəb direktoru, müəllim və digər işçilər arasında da əsla ayrıseçkilik etməməli, demokratik, ədalətli olmalıdır. Yəni kiminsə tərəfini saxlamaq, kiməsə güzəştə getmək və s. kimi yanaşmalar kollektiv arasında həm bölünməyə, həm də rəhbərliyə inamsızlığa səbəb ola. Məktəb direktoru inandırmağı bacarmalıdır.

- Məktəb direktoru, şagirdlərə qarşı xoş niyyətli və mehriban olmalı , doğru məsləhət verməlidir. Direktor otağının qapısı yığıncaqlar xaricində daim açıq olmalıdır. Bu, müəllim, digər işçilər və valideynlərə müsbət ismarıc verən bir vəziyyətdir. Yəni məktəb direktoru elə bir şərait yaratmalıdır ki, hər kəs onun qəbuluna rahat şəkildə gələ bilsin. Şagirdin nəzərində müdür ən etibarlı adam mövqeyində olmalıdır. Direktor şagirdlərin ailə vəziyyətini öyrənməli, valideynlərə məsləhət verməlidir.

- Valideynlərə rəhbərlik məktəb direktoru üçün çox əhəmiyyətlidir, çünki valideyn uşağını məktəb müdirinə əmanət edir. Müdir valideynə bu şüurla yanaşmalı, şagirdin inkişafı və müvəffəqiyyətinin artması üçün valideynlərlə daima dialoq qurmalıdır. Valideynə onun uşağını qaralama, günahkar çıxartma kimi səhvə yol verilməməlidir. Məktəbdə şagird hər zaman diqqət mərkəzində olmalıdır. Valideyn-müəllim-məktəb rəhbərliyi, şagirdin sağlam ruhi inkişafı və intellektual müvəffəqiyyəti üçün əməkdaşlıq çərçivəsində işləməlidirlər.

- Valideynləri maraqlandıran bütün suallara cavab verə bilməli, onları razı salmalıdır. Valideynlər direktorla istər üz-üzə, istərsə də telefonla danışa bilməlidirlər.

- Valideynin nəzərində, məktəbin müvəffəqiyyəti və inkişafı müdirin şəxsiyyətindən asılıdır. Məktəb müdiri, özünü daim yeniləşdirən, inkişaf etdirən, şagirdlərin müvəffəqiyyəti üçün daim çalışan, müsbət və konkret səylər ortaya qoyan bir şəxs olmalıdır.

Pedaqoji kollektivin işinə rəhbərlik dərin elmi, nəzəri, habelə pedaqoji hazırlıq tələb edir. Odur ki, hər bir məktəb rəhbəri öz üzərində ciddi çalışmalı, həmişə planlı, yaradıcı şəkildə fəaliyyət göstərməli, iş metodlarını yeniləşdirməli və təkmilləşdirməlidir.

**Problemin aktuallığı.** Müasir dövrdə məktəbdaxili idarəetmə sisteminin təşkilində yaranan problemlər, onların aradan qaldırılması üçün təkliflər və tövsiyələrin verilməsi.

**Problemin elmi əhəmiyyəti.** Müasir dövrdə məktəbin idarə edilməsi mexanizminin demokratikləşdirilməsinin elmi əsaslarla həyata keçirilməsinin tövsiyə edilməsindən, bu istiqamətdə məktəb rəhbərliyinin pedaqoji kollektivə münasibətinin elmi əsaslarla qurulmasından, məktəb rəhbərliyi və pedaqoji kollektivin qarşısında duran əsas vəzifə olan təhsil islahatlarının həyata keçirilməsi və məktəbdə tədrisin təşkilinin elmi əsaslarla tətbiq edilməsindən ibarətdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən fikirlər, təkliflər, tövsiyələr məktəblərin idarə edilməsinə, onun idarə edilməsində ortaya çıxan problemlərin aradan qaldırılmasına və məktəbin demokratik üsulla idarə edilməsinə zəmin yaradcaqdır.

## ƏDƏBİYYAT

1. M.A. İsmixanov, R.Ə.Bəxtiyarova. Məktəbin idarə edilməsi. Bakı: APU-nun mətbəəsi, 2012.
2. A.N. Abbasov, H.Ə.Əlizadə. Pedaqogika. Bakı: Renessans, 2000.
3. Ə.Paşayev, F.Rüstəmov. Pedaqogika. Bakı: Nurlan, 2007.
4. O.H. Rzayev, S.M. Məmmədov, İ.N. İsmayılov. Təhsilin idarə olunmasının əsasları. Bakı: Mütərcim, 2012.

**С. Алиева**

## СОВРЕМЕННЫЙ ПОДХОД К ОРГАНИЗАЦИИ СИСТЕМЫ ВНУТРИШКОЛЬНОГО УПРАВЛЕНИЯ

### РЕЗЮМЕ

В статье обсуждается современный подход к организации системы внутришкольного управления. Исследуются вопросы, стоящие перед современной школой и пути их решения. Показано, что в современной организации системы внутришкольного управления очень важно использование демократического стиля. С этой точки зрения перед директорами школ в организации управления школой стоят такие главные задачи, как положить конец формальности, создать условия труда и творческое настроение для преподавательского состава. Таким образом, директора школ должны поддерживать и реализовывать новые идеи, новые инициативы учителей.

**S. Aliyeva**

## MODERN APPROACHES TO THE ORGANIZATION OF SCHOOL-BASED MANAGEMENT SYSTEM

### SUMMARY

The article is about the modern approaches to the organization of school-based management system. Here are investigated the issues facing the modern school and their solutions. Shown that in the modern school-based management system is important to use a democratic style. From this point of view, putting an end to formality, creating working conditions and a mood of creativity for the teaching staff are the main tasks facing to school principals. Thus, school principals must support and organize a new ideas and initiatives suggested by the teachers.

*Redaksiyaya daxil olub: 26.02.2014*

# *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ*

## MÜASİR MƏRHƏLƏDƏ MƏKTƏBƏQƏDƏR TƏHSİLİN YENİ MƏZMUNU

**Laləzar Cəfərova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
E-mail: l.cafarova@mail.ru

**Rəyçilər:** *dos.* **Ş.A. Baxışova,**
*dos.* **T.B. Sadıqova**

***Açar sözlər:*** *məktəbəqədər təhsil, yeni məzmun, pedaqoji proses, inkişafetdirici mühit, inteqrasiya, inkişaf sahələri*

***Ключевые слова:*** *дошкольное образование, новое содержание, педагогический процесс, развивающая среда, интеграция, области развития*

***Key words:*** *preschool education, new maintenance, teaching process, developing environment, integration, areas of development*

Respublikamızda məktəbəqədər təhsilin müasir sistemi dinamizm prinsipləri üzərində qurulur, müxtəlif iş formaları, cəmiyyətin və şəxsiyyətin tələblərinin nəzərə alınması, uşaqlar üçün təlim-tərbiyə müəssisələrinin yeni növlərinin yaranması, pedaqoji xidmətlərin müxtəlifliyi ilə səciyyələnir.

Məktəbəqədər təhsil sisteminin inkişafı Azərbaycan Respublikasının dövlət təhsil siyasətinin strateji istiqamətlərindən biridir. Dövlət səviyyəsində məktəbəqədər təhsil məsələlərinə əhəmiyyətli dərəcədə diqqət ayrılır.

Bizim ölkəmizin ictimai həyatında baş verən sosial-iqtisadi dəyişikliklər Azərbaycan məktəbəqədər təhsil sisteminə də öz çoxfunksiyalı təyinatı üzrə dəyişiklikləri gətirdi.

Son illər ərzində məktəbəqədər təhsilin inkişafının yeni prioritetlərini müəyyən edən əhəmiyyətli normativ-hüquqi sənədlər (Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu; Məktəbəqədər təhsilin dövlət standartı və proqramı; Məktəbəqədər təhsilin proqramı (kurikulumu); Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası) qəbul edilmişdir.

Dövlət sənədlərinin müasir tələblərinə uyğun olaraq təlimedici-tərbiyəedici sistem uşaqların hərtərəfli inkişafına, onlarda əxlaqı normaların formalaşmasına, onların yaş və fərdi imkanlarına, qabiliyyət və ehtiyaclarına uyğun olaraq sosial təcrübə əldə etmələrinə istiqamətləndirilmişdir.

Təhsildə əsas dəyər - uşaqdır. Məktəbəqədər uşaqlıq isə təkcə məktəb həyatına hazırlıq mərhələsi deyil, eyni zamanda insan həyatının ən məsuliyyətli, ən mühüm yaş dövrüdür ki, bu dövrdə insanda bütün mənəvi dəyərlərin təməli qoyulur. Odur ki, məktəbəqədər təhsilin yeniləşdirilməsi XXI əsrin xüsusiyyətləri və sosial sifariş nəzərə alınmaqla aparılmalıdır. Məktəbəqədər təhsil sisteminin təkmilləşdirilməsi uşağın məktəbəqədər müəssisələrdə psixoloji rahatlığı üçün bir sıra şərtlərin reallaşdırılması olmadan mümkün deyil.

Ancaq biz görürük ki, ənənəvi proqram üzrə pedaqoji prosesin müxtəlif bilik sahələrində məzmunun həcminin genişlənməsi həddindən artıq yüklənməyə gətirib çıxarır ki, bu da ilk növbədə, uşaqda əks olunur. Bu zaman bir növ "uşağa daha çox bilik vermək" arzusu və məktəbəqədər yaşlı uşağın psixi və fiziki imkanları arasında ziddiyyət yaranır. Belə problemlərin həll olunması, yeni dövlət standartları əsasında işə başlanılması üçün ilk növbədə inteqrasiyadan istifadə etmək zərurəti yaranır. Bir çox mütəxəssislər inteqrasiyanı məktəbəqədər təhsilin yeniləşdirilməsi və uşaq şəxsiyyətinin inkişafının səmərəliliyi, uşaq sağlamlığının qorunması, onu keyfiyyətli təhsilə nail olmanın yollarından biri kimi müəyyən edir.

Təhsil sisteminin dünya təhsil məkanına daxil olması onun keyfiyyətindən asılıdır.

Məktəbəqədər təhsilin keyfiyyəti uşaqların təlim və tərbiyə prosesinin vəziyyəti və nəticəliliyi ilə müəyyən edilir.

Məktəbəqədər təhsildə yeni keyfiyyət göstəricilərinə nail olmanın başlıca strategiyası uşaq inkişafının diaqnostikasıdır. Məktəbəqədər təhsil üzrə dövlət standartlarının reallaşdırmasının keyfiyyəti bilik, bacarıq və vərdişlər sisteminin deyil, səriştəlilik inkişafının səviyyəsi ilə hər bir uşağın inkişaf və nailiyyətlərinin yekun diaqnostikası üzrə qiymətləndirilir.

Məktəbəqədər yaşlı uşağın inkişafının gözlənilən nəticələri kimi, əsas bacarıqları sosial mühitin, uşağın fərdi xüsusiyyətlərini, bütövlükdə, onun qabiliyyət, təşəbbüskarlıq, ünsiyyətdə fəallıq, fəaliyyətdə müxtəlif məsələlərin optimal həllini tapmaq bacarıqları nəzərdə tutulur və xarakterizə edilir.

Bu halda, məktəbəqədər təhsilin keyfiyyətinin nəticəliliyinin mühüm göstəriciləri kimi indikatorlar uşağın səriştəli inkişafına, daha doğrusu, məktəbəqədər yaşlı uşağın hərtərəfli inkişafının izlənilməsi səviyyəsini müəyyən edən alət kimi xidmət edir.

Belə yanaşma məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilərə valideynlərlə uşağın fərdi təhsilləndirici trayektoriyasının qurulması üçün əsas olan diaqnostik iş aparmağa imkan verir.

Məktəbəqədər təhsilin kurikulumunda yeni dövlət standartlarına əsasən məktəbəqədər təhsil müəssisələrində məşğələlərin məzmununun müəyyənləşdirilməsi uşaqların meyl, maraq, arzu və bacarıqlarına istiqamətləndirilmişdir. Uşaq fəaliyyətinin belə motivləşdirilməsi daha nəticəlidir, hər bir uşağın bu və ya digər bacarığının inkişafına imkan verir.

Təhsil sisteminin yenidən qurulması üçün həmişə müəyyən çətinliklər qarşıya çıxır. Bu çətinliklərin dəf edilməsi zamanı tərbiyəçilərin öz sosial missiyasının əhəmiyyətini anlamaları çox mühümdür ki, onlar öz səylərini dəyərli tərbiyəyə və uşaqların təhsilinə, onların psixoloji müdafiəsinə yönəltməlidir.

Qrupda "guşələrin" tənzimlənmiş yerləşdirilməsiylə monoton vəziyyət, uşaq masalarının məktəb-sinif tipi üzrə yerləşdirilməsi, tərbiyəçinin yazı masası, təlimin təşkili formaları formal münasibətləri gücləndirir.

Pedaqoji prosesin təkmilləşdirilməsi və uşaqlarla təlimedici işdə səmərəliliyin yüksəlməsi fəaliyyətlərin aşağıdakı istiqamətlər üzrə təşkilini təklif edir:

- uşaqlarla ünsiyyət formasının dəyişdirilməsi (fəaliyyətin avtoritar formasından hər bir uşağın fərdi xüsusiyyətinə uyğun şəxsiyyətyönümlü, tərbiyəçi ilə uşaq arasında inam, etibarlı əməkdaşlıq üzərində qurulan ünsiyyətə keçilməsi);
- ətraf aləmlə tanışlıq zamanı konkret siyasi-ideoloji məlumatların verilməsindən imtina;
- məşğələlərin forma və məzmununun dəyişdirilməsi, onların sayının azaldılması (uşaqların daha səmərəli inkişafı üçün məşğələlərin sayının azaldılması);
- uşaqların həyatının ümumbəşəri mənəvi dəyərlərin formalaşmasına yönəldilmiş klassik və müasir musiqi, təsviri incəsənət əsərləri, uşaq ədəbiyyatının ən yaxşı nümunələrindən istifadə etməklə onların dünyagörüşünün genişləndirilməsi;
- qrup otağında uşaqların sərbəst, müstəqil fəaliyyətinin təmini və onların meyl və maraqları nəzərə alınmaqla fəaliyyət növünün və formasının ( yaşıdları ilə birgə və ya fərdi) seçilməsinə uyğun olaraq yaradıcı əşya mühitinin yaradılması;
- uşağın maraq və arzusu nəzərə alınmaqla idraki, əməli, əmək və məişətdə, oyunda qarşılıqlı əməkdaşlığa cəhdi, oyunlarda əməkdaşlıq bacarıqlarının nəzərə alınması;

Pedaqoji prosesin humanistləşdirilməsi gündəlik həyatda və uşaq həyatının ənənəvi fəaliyyət növlərində tərbiyəçi-uşaq münasibətlərinin, ünsiyyətin dəyişdirilməsi, tərbiyənin şəxsiyyətyönümlü modelinin qurulmasını təklif edir.

Tərbiyəçiylə uşağın gündəlik sərbəst ünsiyyəti prosesində inkişafetdirici vəzifələrin realizəsi xüsusi məşğələlərlə uyğunlaşdırılmalıdır. Odur ki, məşğələlərin təşkili müxtəlif formalarda olmalıdır. Məşğələlərin fəal təlim əsasında keçirilməsi hər bir uşağın idrak fəallığını daha yaxşı təmin edir, əks əlaqəni qurmağa və uşaqların irəliləyişini nəzərə almağa kömək edir.

Həmçinin bağça ilə ailənin qarşılıqlı əlaqəsinin də daha əlverişli qaydada qurulması diqqətdən kənarda qalmamalıdır. Uşaq problemlərinin həlli zamanı valideynləri aktiv müzakirəyə cəlb etmək, onları uşaqlarla birgə yaradıcılıq işinə cəlb etmək məqsədəuyğundur.

Əşya mühitinin və qrup otağının təşkilində də ciddi dəyişikliklər aparılmalıdır.

Sahənin təchizatı, əşya və oyun mühiti pedaqoji stereotip yaradaraq, avtoritar sistemin çatışmazlıqlarını və xüsusiyyətlərini əks etdirir. Bununla da, qeyd edildiyi kimi, formal intizam, uşaqların fəaliyyətinin, xüsusilə də oyunun reqlamenti pedaqoji prosesin mərkəzində dururdu.

Məktəbəqədər təhsilin yeniləşdirilməsi uzun müddətli, məsuliyyətli və mürəkkəb bir prosesdir. Tədqiqatçı alimlər, praktik işçilər, məktəbəqədər təhsil müəssisə rəhbərləri anlayırlar ki, qısa müddətə bu problem həll edilə bilməz. Ancaq onun perspektivlərinin proqnozlaşdırılması, elmi və tətbiqi aspektlərin öyrənilməsi məsələləri tədqiqatçıların daim diqqət mərkəzində olmalıdır və bu böyük əhəmiyyətə malikdir.

Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici mühitin yaradılması və strategiyası uşağın şəxsiyyət kimi yetişməsinə kömək edən təlim-tərbiyənin şəxsiyyətyönümlü xüsusiyyətlərinin müəyyən edilməsi ilə müəyyən edilir. Şəxsiyətyönümlü yanaşmanın əsas qaydaları inkişafetdirici mühitin təşkili prinsiplərində əks olunur:

- qarşılıqlı təsir vaxtı mövqelər;
- fəallıq, müstəqillik, yaradıcılıq;
- sabitlik - dinamiklik;
- mühitin emosional tarazlığı;
- mühitin estetik təşkilində adət edilmiş və qeyri-adi elementlərin uyğunlaşdırılması;
- uşaqların cinsi və yaş fərqlərinin nəzərə alınması.

Uşaqlarla böyüklərin qarşılıqlı fəaliyyətinin onların arzu və maraqlarından asılı olaraq qurulması şəxsiyyətyönümlü təlimin həyata keçirilməsinin, ünsiyyətin ümumi psixoloji sahəsinin tapılması, qarşılıqlı fəaliyyətin rahat distansiyasının mühüm şərtidir.

Əgər böyüklərin və uşaqların mövqeləri dəyişilirsə, sahənin planlaşdırılması, mebelin xüsusi seçilməsi və yerləşdirilməsiylə, oyuncaqların yerləşməsi, metodik vəsaitlər, dekorativ bəzək əşyaları, rəng və işıq dizaynı, fəallıq üçün şəraitin təminatı ilə bu mümkündür.

Hal-hazırda görkəmli alimlərin, pedaqoq və psixoloqların tədqiqatlarında müxtəlif fəaliyyət növlərində uşaqların bacarıqlarını inkişaf etdirən əşya mühitinin əhəmiyyəti inandırıcı surətdə açılır. Bu gün məktəbəqədər müəssisələrdə inkişafetdirici mühitin təşkili məsələsi xüsusilə aktualdır. Bu da məktəbəqədər təhsil üzrə yeni dövlət standartlarının tətbiqinə başlanılması ilə əlaqədardır. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı əsasında hazırlanmış məktəbəqədər təhsilin proqramı (kurikulumu) məktəbəqədər yaşlı uşaqların inkişaf sahələrinin inteqrasiyası nəzərə alınmaqla hazırlanmışdır. Proqramda nəzərdə tutulan vəzifələr təkcə böyüklərlə uşaqların birgə fəaliyyəti zamanı deyil, həm də rejim anları nəzərə alınmaqla uşaqların müstəqil fəaliyyətləri zamanı həll olunur.

Elementar tədqiqatların aparılması, yeniliklərin kəşf edilməsi və fikir mübadiləsinə şərait yaradan mühitin qurulması məsuliyyəti tərbiyəçilərin üzərinə düşür. Belə mühitdə tərbiyəçinin rolu uşaqların özünüifadəsini dəstəkləməkdən, arzu olunan davranış və şəxsi keyfiyyətlərin, ətrafdakılara qarşı hörmət və qayğının göstərilməsi, məsuliyyət hissinin təmin olunmasından ibarətdir.

İnkişafetdirici mühitdə tərbiyəçi uşaqların irəli sürdükləri fikirlərə, təşəbbüslərə hörmət və diqqətlə yanaşır, onları həm təlim, həm də təlimdən kənar vaxtlarda nəzərə alır. Uşaqlar fikir yürütmək, faktlar axtarmaq, səbəb-nəticə əlaqələrini soruşmaq, izah etmək və qurmaq, sadə tədqiqatlar aparmaq, həmyaşıdları ilə ünsiyyət qurmaq, fəaliyyəti marağına görə seçmək və sərbəst davranmaq hüquqlarına malikdirlər.

Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi və uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Tərbiyəçi təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi

çıxış edir. Münasibətlər "subyekt – subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olur. O daha çox qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi uşaqların müstəqil idraki fəaliyyətini, yaradıcılığını təşkil edən subyektə çevrilir, uşaqlar isə müstəqil axtarışlar aparmağa, yaradıcı fəaliyyət göstərməyə sövq edilir (6).

Məktəbəqədərtəhsil üzrə dövlət standartları məktəbəqədər təhsilin proqramının (kurikulumunun) strukturunu, o cümlədən məzmunun həcmi və inkişaf sahələrinin uyğunluğunu müəyyənləşdirir. Məktəbəqədər təhsilin məzmunu aşağıdakı 4 inkişaf sahəsi üzrə realizə olunur:

- Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik;
- Idrakın inkişafı;
- Estetik və yaradıcı inkişaf;
- Sosial-emosional inkişaf.

Bu inkişaf sahələri üzrə məzmun müasir məktəbəqədər təhsil sisteminin konseptual və normativ-hüquqi (2; 3; 4; 5;) sənədlərinə uyğundur.

Müəyyənləşdirilmiş inkişaf sahələrinin hər biri proqramın struktur vahididir və aşağıdakıları özündə ehtiva etdirir:

- Uşaqların əsas inkişaf sahələrinin tam əhatə olunmasını konkretləşdirir;
- Məktəbəqədər təhsilin məzmununda inteqrativlik prinsipi nəzərə alınır;
- Fəaliyyət dar çərçivədə nəzərdə tutulmur.

Ənənəvi təhsil sistemində məktəbəqədər təhsilə təlim bloku (məşğələ cədvəli) nəzərə alınmaqla fənyönümlülük prinsipi kimi baxılırdı. Elə bu forma məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilərə daha yaxın və aydındır. Məhz məktəbəqədər dövrdə uşaq şəxsiyyətinin əsası, onun psixi və şəxsiyyətyönümlü inkişafını xarakterizə edən dəyərlər böyüklərlə birgə fəaliyyət və ünsiyyət zamanı yaranır. Ənənəvidən fərqli olaraq yeni məzmuna görə şəxsiyyətyönümlü təhsil prosesində böyüklərlə qarşılıqlı fəaliyyət prosesində şəxsiyyətin əsas nüvəsini uşağın kommunikativ tələbatı, onun aparıcı motivləri təşkil edir. Odur ki, məktəbəqədər təhsil müəssisələrində çalışan hər bir tərbiyəçi uşaqlarla böyüklərin birgə fəaliyyətinin təşkili və uşaq fəaliyyət növlərinin təşkili prosesində təlimedici fəaliyyətin qurulmasının xüsusiyyətlərini bilməlidir.

Məlum olduğu kimi, məktəbəqədər yaşlı uşaqların əsas, aparıcı fəaliyyət növü oyundur. Elə buna görə də məktəbəqədər müəssisələrdə çalışan praktik işçilər uşaq bağçasında inkişafetdirici əşya mühitinin yeniləşdirilməsinə böyük maraq göstərirlər.

Dövlət standartlarını nəzərə alaraq məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici mühit elə qurulur ki, hər bir uşağın meyl, maraq, fəallıq səviyyəsi nəzərə alınmaqla fərdiliyinin səmərəli inkişafına imkan versin.Ətraf mühiti uşaqların hərəki, idraki və emosional fəallığını stimullaşdıran elementlərlə zənginləşdirmək zəruridir.

Məktəbəqədər müəssisələrdə uşaqları əhatə edən mühit uşaqların təhlükəsizliyini, sağlamlığının qorunması və orqanizmin möhkəmləndirilməsi üzrə işlərin aparılmasını təmin etməlidir.

İnkişafetdirici-əşya mühitinin yaradılması zamanı aşağıdakılar nəzərə alınmalıdır:

1. Mühit inkişafetdirici, təhsilləndirici, tərbiyəedici, təşkilati, kommunikativ funksiyanı yerinə yetirməlidir. Ən başlıcası isə o uşağın müstəqilliyinə və özfəaliyyətliliyinin inkişafına xidmət etməlidir.
2. Məkandan məqsədə uyğun və variativ istifadə edilməlidir. Mühit uşağın maraq və tələbatlarının təmin olunmasına xidmət etməlidir.
3. Əşyaların forma və dizaynı uşaqların yaşına və təhlükəsizliyinə istiqamətlənməlidir.
4. Hər bir qrupda uşağın elementar tədqiqatçılığı üçün şəraitin müəyyənləşdirilməsi zəruridir.
5. Qrup otağında əşya mühitinin təşkili zamanı psixi inkişaflarının qanunauyğunluğu, sağlamlıq göstəriciləri, psixofizioloji və kommunikativ xüsusiyyətlər, ünsiyyət səviyyəsi və nitq inkişafı, həmçinin emosional mühit nəzərə alınmalıdır.
6. Qrup otağında inkişafetdirici mühit yaradarkən uşaq üçün aparıcı oyun fəaliyyəti nəzərə alınmalıdır.

7. Qrupun inkişafetdirici əşya mühiti uşaqların yaş xüsusiyyətlərinə, təlim mərhələsinə uyğun dəyişməlidir.

İnkişafetdirici əşya və oyun mühitinin təşkili prosesində İnkişaf sahələri arasında inteqrasiya nəzərə alınmalıdır. Əşya mühitinin yaradılması zamanı həyat fəaliyyətinin erqonomik tələblərinə: bu mühitin sakininin antropometrik, fizioloji və psixoloji xüsusiyyətlərinə əsaslanmaq lazımdır. Buna aşağıdakılar aiddir:

- əşya mühitinin inkişafetdirici xarakteri;
- fəaliyyət-yaş yanaşması;
- komplekslik, mövzunun, material və oyuncaqların müxtəlifliyi;
- uşaq fəaliyyətinin müxtəlifliyi və yaradıcılığını təmin edən təbii və ictimai mədəni vasitələrin mövcudluğu;
- ənənəvi və yeni komponentlərin uyğunluğu;
- uşaqların fəaliyyətinin makro və mikro məkanının təminatı;
- rahatlığın, etibarlılığının və təhlükəsizliyin təminatı;
- estetik və gigiyenik göstəricilərin təminatı.

Məktəbəqədər müəssisələrdə pedaqoji fəaliyyətin istiqaməti proqram-metodik təminatla bağlıdır. Strategiyaların müxtəlifliyi isə təlimi rəngarəng edir.

Artıq qeyd edildiyi kimi, "məktəbəqədər təhsilin proqramı (kurikulumu)"nun hazırlanmasından sonra müxtəlif təhsil model və texnologiyalarından istifadə üçün geniş imkanlar açılır.

Bu pedaqoqların təşəbbüs və yaradıcılığının inkişafı üçün, həmçinin yeni proqramın tətbiqi üzrə yeni impuls verir. Məzmunun yeniləşməsinə və texnologiyaların tətbiqinə cəhd köhnə iş formalarından uzaqlaşmaq kimi izah olunur.

Ancaq praktik işçilər tərəfindən yeni proqramla işin çətinliyi, onların keyfiyyəti üçün yüksək məsuliyyət kifayət qədər tez hiss edilir. Keçid dövrünün çətinliklərinə, təhsil sahəsində baş verən dəyişikliklərə baxmayaraq, Azərbaycan təhsil sisteminin ən yaxşı ənənələri və şübhəsiz müsbət xüsusiyyətlər saxlanılmalıdır.

Məktəbəqədər təhsilin əsas prioritetləri: sağlamlığın qorunması və möhkəmləndirilməsi, bütün uşaqların inkişafı üçün əlverişli şəraitin təminatı, təlimin və tərbiyənin bazis məzmununun realizəsi zamanı öz fərdiliyinin saxlanılmasına və uşağın hüquqlarına hörmətin təmin edilməsidir. Rejimin qurulması və məktəbəqədər müəssisələrdə oyunun yeri, məşğələlərin, uşaq həyatının və fəaliyyətinin bütün növlərinin təşkilinin gigiyenik şərtləri ona uyğun olan istənilən proqram və pedaqoji prosesin əhəmiyyətli komponentidir.

Yeni məktəbəqədər təhsilin proqramının (kurikulumunun) tətbiqi zamanı tədqiqatçıların nəzəri işlərinin elementlərindən istifadəyə və uşağın inkişafında pozitiv irəliləyişləri təmin etmiş ənənəvi texnologiyaların elementlərindən istifadəyə istinad zəruridir. İnnovativ yanaşmaların və ənənələrin uyğunluğu yeni proqramların üstünlüklərini azaltmır, əksinə pedaqoji fikrin sonrakı inkişafını göstərir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli sərəncamı.
2. Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. Azərbaycan Respublikası Prezidentinin 12 aprel 2007-ci il, 2089 nömrəli sərəncamı.
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 5 sentyabr 2009-cu il.
4. Məktəbəhazırlığın təşkili qaydaları. (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2010-cu il tarıxli qərarı).
5. Məktəbəqədər təhsilin dövlət standartları və proqramı (kurikulumu)". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 iyul 2010-ci il tarixli qərarı.
6. Məktəbəqədər təhsilin proqramı (kurikulumu). Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 iyul 2012-ci il tarixli qərarı.

**Л. Джафарова**

## НОВОЕ СОДЕРЖАНИЕ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ

**РЕЗЮМЕ**

Система дошкольного образования является одним из стратегических направлений государственной политики в сфере образования. Значительное внимание уделено вопросам дошкольного образования на государственном уровне.

Социально-экономические изменения, происходящие в системе государственного образования нашей страны, повлекли изменения в многофункциональном назначении дошкольных учреждениий.

**L. Jafarova**

## THE CONTENT OF THE PRESENT STAGE OF SCHOOL EDUCATION

**SUMMARY**

Preschool education system is one of the strategic directions of the state policy in the sphere of education. Considerable attention is paid to issues of early childhood education at the state level. Socio-economic changes taking place in the public education system of our country, the preschool has been a change in its multi-purpose . Preschool children in preparation for school life, but also the most relevant human life, the most important period of several years, that man is the foundation of all spiritual values. Thus, the properties of pre-school education in the XXI century and the social order should take into account.

*Redaksiyaya daxil olub: 20.02.2014*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ÜMUMİ İNKİŞAFINDA FİZİKİ TƏRBİYƏNİN ROLU

**Könül Şıxəliyeva,**
*AMİ-nin magistrantı*
E-mail: shixaliyevak@mail.ru

**Rəyçilər:** *dos.* **Z. M. Kərimova,**
*dos.* **A. M. Nəzərov**

***Açar sözlər:*** *məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi, fiziki tərbiyə, fiziki hərəkətlər*
***Ключевые слова:*** *дети дошкольного возраста, физическое воспитание, физическая культура*
***Key words:*** *preschool-aged children's physical education, physical education, physical exercise*

Fiziki tərbiyə insanın sağlamlığının möhkəmləndirən, orqanizmin hər bir üzvünün normal inkişafını təmin edən fəaliyyətdir.

Fiziki tərbiyə əxlaqi keyfiyyət və adətlərin də təşəkkülündə, formalaşmasında mühüm rol oynayır. Fiziki fəaliyyətin əsasında əməli hərəkətlər durur. Buna görə də fiziki tərbiyə ilə əmək tərbiyəsi arasında əlaqə daha sıxdır.

Fiziki tərbiyə pedaqoji anlayış olub məqsədi orqanizmin anatomik fizioloji xüsusiyyətlərinə istinad edərək pedaqoji qanunlar əsasında uşağın inkişafını tənzim etməkdir. Fiziki tərbiyə prosesində uşaqda müvafiq bilik, bacarıq və vərdişlər sistemi yaradılır. Fiziki tərbiyənin dörd əsas anlayışı var.

1. Fiziki təhsil.
2. Fiziki inkişaf.
3. Fiziki hazırlıq.
4. Fiziki mədəniyyət.

Fiziki təhsil fiziki tərbiyənin mühüm anlayışlarından biri olmaqla inkişaf sahəsində müvafiq bilik, bacarıq və vərdişlər yaratmaq məqsədini güdür. Tərbiyə ikitərəfli proses olduğu üçün bu prosesin müvəffəqiyyəti tərbiyə olunanın özündən çox asılıdır. Buna görə də tərbiyəçi uşağı tərbiyə prosesinə psixoloji cəhətdən tam hazırlamalıdır. Hər hansı bir hərəkətin mahiyyəti və icra tərzi uşaq üçün tam aydın olmalıdır. Uşağa verilən hərəki tapşırıqların icrası təkcə tərbiyəçinin deyil, həm uşağın arzusu və istəyi əsasında yerinə yetirilməlidir.

Fiziki inkişaf insan orqanizmində gedən təbii və bizdən asılı olmayaraq həyat tərzinin təsiri ilə uşaq orqanizmində baş verən funksional fizioloji dəyişikliklərdir. Fiziki tərbiyənin elmi metodoloji cəhətdən düzgün təşkili uşaqların fiziki inkişafını maksimal səviyyəyə çatdırır. Çəki artımında, bəzən quruluşunda, sinir sistemində, ürək-damar fəaliyyətində və ağ ciyərin həcmində müntəzəm baş verən kəmiyyət dəyişiklikləri ilə əvəz olunur. Bütün bunların nəticəsində insan orqanizminin funksional imkanları yüksəlir və fiziki inkişafda ləngimə aradan qaldırılır.

Fiziki tərbiyənin vəzifələrindən biri də yetişməkdə olan gənc nəsli həyata fiziki cəhətdən tam hazırlamaqdan ibarətdir. Bu, əməyə və Vətənin müdafiəsinə hazır olmaqla dözümlülük, gümrahlıq, qorxmazlıq, cəsurluq, mərdlik və mübarizlik kimi yüksək əxlaqi keyfiyyətlərin formalaşdırılması ilə müəyyənləşdirilir. Fiziki hazırlıq elə yüksək əxlaqi keyfiyyətlərin formalaşdırılması ilə müəyyənləşdirilir. Fiziki hazırlıq elə yüksək iradi qüvvədir ki, hər bir çətinliyə qalib gəlməklə qəhrəmanlıq səviyyəsinə qalxır.

Fiziki mədəniyyət anlayışı fiziki hazırlığa malik olan gənc nəslin sadəcə cismani güclüyü deyil, həm də mənəvi güclüyü kimi başa düşülür.

Yəni fiziki tərbiyə prosesində insanın əzələlərinin inkişafı ilə yanaşı, onlarda yüksək əxlaqi keyfiyyətlər: mədəni davranış qaydaları, qayğıkeşlik, insanpərvərlik, xalqın milli adət və ənənələrinə ehtiram kimi yüksək insani hisslər formalaşdırılmalıdır. Yəni "sağlam bədəndə sağlam

ruh olar" atalar sözü həqiqi təcəssümünü tapmalı, eyni zamanda fiziki qüvvə təfəkkürün gücü ilə idarə olunmalıdır.

Fiziki tərbiyə təhsil sistemində tədris olunduğu üçün, o, elmin bir sahəsi kimi pedaqoji elmlər silsiləsinə daxil edilmişdir. Buna görə də fiziki tərbiyənin, həm nəzəriyyəsi, həm də metodikası əsasən pedaqoji sahə kimi öyrənilməkdədir. Odur ki, nəzəriyyə praktika ilə nə qədər sıx əlaqədə olarsa, o daha çox yeniliklər meydana çıxarar. Əgər biz fiziki tərbiyəni başqa sahələrlə müqayisə etsək, görərik ki, o daha çoxcəhətlidir. Aparılan elmi tədqiqat işlərində də sübut olunmuşdur ki, fiziki tərbiyəni bir çox sosial və bioloji elmlər, məsələn, fəlsəfə, sosiologiya, anatomiya, fiziologiya, pedaqogika, psixologiya, biomexanika və başqa elmlər sistemini öyrənir.

Fiziki tərbiyə həm elmi idraka, həm də praktiki əhəmiyyətə malikdir. Məsələn, həm ictimai həyat amili, həm də pedaqoji proses kimi fiziki tərbiyəni öyrənərkən biz fiziki tərbiyənin cəmiyyətin həyatındakı əhəmiyyətini, fiziki tərbiyənin tarixi və klassik xarakterini, fiziki tərbiyənin şəxsiyyətin formalaşmasındakı yerini, həmçinin fiziki tərbiyəsinin insan orqanizminə və onun psixikasına təsirini müəyyən edirik. Tədris fənni kimi fiziki tərbiyənin nəzəriyyə və metodikası iki hissəyə bölünür:

1. Nəzəriyyə və metodikanın ümumi əsasları: (bura idman məşqlərinin əsasları daxildir);
2. Uşaqların və yaşlıların fiziki tərbiyəsinin (bədən tərbiyəsinin) metodikası.

İndi biz məktəbəqədər yaşlı uşaqların ümumi inkişafında fiziki tərbiyənin rolu haqqında danışaq. Məktəbəqədər tərbiyə müəssisələrində, uşaqların praktiki fəaliyyətinin müxtəlif növlərində, qarşılıqlı münasibətin xarakterinin, uşaqlara öyrədilməsi son dərəcə vacibdir. Kiçik, orta-böyük yaşlı uşaqlar üçün keçirilən bütün fiziki hərəkətlər-tədbirləri və müxtəlif tərbiyə növlərinin məqsədi, uşaqları sağlam, gümrah və şüurlu ümumi təhsil məktəblərinə hazırlamaqdan ibarətdir.

Xalq müdrikləri söyləmişlər ki, uşaqlara hər şeyi beşikdən öyrətməyə çalışın. Fizioloqlar isə demişlər ki, tərbiyə etdiyiniz uşaqlarda möhkəm orqanizm formalaşdırın. Bunu danmaq olmaz ki, fiziki hərəkətlər uşaqların hərtərəfli inkişafına təsir göstərir. Fiziki iş onların bütün orqanlarını inkişaf etdirir və möhkəmləndirir.

Hərəkətsizlik, fiziki işdən uzaqlıq orqanizmin inkişafına, əsasən sinir sisteminin inkişafına mənfi təsir göstərir. Fiziki hərəkətlər təkcə ayrı-ayrı orqanların anatomik inkişafına deyil, eyni zamanda zehni qabiliyyətinin inkişafına kömək edir. Bu o deməkdir ki, həyat üçün zəruri olan vərdişlər, ancaq hərəkət vasitəsilə tərbiyə olunur. Aparılan tədqiqat və müşahidələr bunu deməyə əsas verir ki, onlar kiçik oyuncaqlardan böyüyünə, qeyri-dəqiq hərəkətlərdən daha dəqiqinə doğru inkişaf etməyə başlayır.

Məktəbəqədər yaşlı uşaqlar 6 yaşına kimi uşaq bağçalarında böyüyürlər. Onların sağlam, gümrah və fiziki cəhətdən möhkəm olmaları üçün aşağıdakı amillər nəzərdə tutulur:

1. Uşaqların sağlamlığını qorumaq;
2. Onların orqanizmini hərtərəfli möhkəmləndirmək və fiziki cəhətdən inkişaf etdirmək;
3. Hərtərəfli keyfiyyətləri vaxtlı-vaxtında inkişaf etdirmək, fiziki tərbiyənin əsas məqsədidir.

Bundan sonra məktəbəqədər yaşlı uşaqlara fiziki cəhətcə hərtərəfli inkişafları üçün fiziki hərəkətlərdən, ümumi və şəxsi gigiyenasından, təbiətin sağlamlıq faktorlarından (məsələn, Günəş, hava, su) vaxtında qidalanmalarından və düzgün təsdiq olunmuş gün rejimindən asılıdır. Fiziki tərbiyə forması məktəbəqədər yaşlı uşaqlar üçün müxtəlif formada tətbiq olunur. Gün ərzində uşaqlara fiziki hərəkət məşğələləri, mütəhərrik oyunları, idman növləri ilə məşğuliyyətlər, səhər gimnastikası və gəzintilər keçirilir.

Fiziki hərəkətlərin əsasını təşkil edən amillərdən biri də müxtəlif oyunlar və rəqslərdir. Uşaqlara estetik zövqün inkişafı üçün musiqi məşğələləri də tədris edilir. Uşaqlarda fiziki tərbiyə prosesi vasitəsi ilə düzgün yeriş qaydalarını, qolların, ayaqların ritmik hərəkətini təkmilləşdirir.

Üzməyi öyrənərkən əl və ayaq hərəkətlərinə diqqət yetirməli və orqanizmin kordinasiyasına fikir verilməlidir. Məktəbəqədər yaşda olan uşaqlar üçün keçirilən bütün fiziki hərəkət tədbirləri və müxtəlif tərbiyə növlərinin məqsədi uşaqları sağlam, gümrah və şüurlu, ümumtəhsil məktəblərinə hazırlamaqdan ibarətdir.

Uşaq orqanizminə və şüuruna idman növlərindən məşğuliyyətlər də böyük əhəmiyyətlidir. Uşaqlarda xizəkdə və konkada sürməyi, iki və üç çarxlı velosipeddə gəzməyi, stolüstü tennis və badminton oyununun elementlərində istifadə olunmasına maraq göstərir. Bu idman növləri uşaqlar üçün ən gözəl məşğuliyyətdir. Onlardan idman qayda-qanunu və nəticəsi tələb olunmur. Yalnız məşğul olduğu idman növünü uşaqlara tədricən başa salmaq və mənimsətmək lazımdır.

İdman məşğuliyyəti ilə yanaşı mütəhərrik oyunları da məktəbəqədər yaşlı uşaqların gün rejimində mühüm yer tutur. Mütəhərrik oyunlar uşaq orqanizminə müsbət təsiri ilə yanaşı, onlara mütəhərrik , təşəbbüskarlıq və yaradıcılıq kimi keyfiyyətlər aşılayır.

Mütəhərrik oyunlar bilavasitə, fiziki tərbiyənin və psixoloji tərbiyənin əsas vasitəsi hesab olunur. Mütəhərrik oyunların xarakterinə uyğun olaraq, oyun zamanı istənilən qədər uşaq iştirak edə bilər. Bu işin ən başlıca əhəmiyyəti bundan ibarətdir ki, uşaqlardan heç kim kənarda qalmır və kollektiv surətdə məşğul olurlar. Bu oyunlar tərbiyəçilər tərəfindən həftədə bir və ya iki dəfədən az olmayaraq səhər və axşam gəzintiləri zamanı təşkil olunur.

Gəzintilər məktəbəqədər yaşlı uşaqların gün rejiminin əsasını təşkil etməlidir. Bir qayda olaraq, səhər və axşam gəzintisinə 1,5-2 saat vaxt ayrılır. Gəzintilər zamanı uşaqlar açıq havada müxtəlif fiziki hərəkətlərlə və mütəhərrik oyunlarla məşğul olurlar. Gəzintilərin əsas məqsədi, uşaqların bütün vaxtı, hərəkətdə olmalarından ibarətdir.

*Səhər gimnastikasının* məktəbəqədər uşaqların orqanizminə böyük əhəmiyyəti vardır. Səhər gimnastikası birinci kiçik qruplardan 3 yaşdan başlayaraq hər gün də səhər yeməyindən əvvəl keçirilir. Səhər gimnastikası kiçik uşaqlarda sağlamlıqla yanaşı, tərbiyəvi xarakter də daşıyır.

Fiziki tərbiyə əsasən kollektiv formada həyata keçirilir ki, bu da uşaqlarda kollektivçilik, birlik, dostuq, əməkdaşlıq, insanpərvərlik, təvazökarlıq kimi nəcib əxlaqi hisslərin də inkişafına güclü təsir göstərir. Fiziki tərbiyə uşaqların zahirən gözəlliyinə və estetik baxışına da yaxşı təsir edir, bu zaman uşaqların boyu, qaməti normal inkişaf edir, ümumi estetik baxışı formalaşır.

İdman tədbirləri, orqanizmi möhkəmləndirən güləş, hava, su vannası uşaqlarda dözümlülük, davamlılıq, cəsarətlilik, səliqəlilik, şüursuzluq, intizamlılıq, qayğıkeşlilik və s. əxlaqi keyfiyyətlərin formalaşmasına kömək olur. Fiziki tərbiyə zəif əzələlərin güclənməsinə və möhkəmlənməsinə səbəb olur, uşaqlarda çəldlik, gümrahlıq, dözümlülük və əmək vərdişlərinin yaranmasına faydalı təsir göstərir.

Fiziki keyfiyyətin inkişafı hərəki fəaliyyətin müxtəlif tərzlərlə icrasından asılıdır. Təcrübə göstərir ki, məktəbəqədər yaş dövründə fiziki keyfiyyətlər daha yaxşı formalaşır. Müasir həyat tərzi insanlardan yüksək dərəcədə çəldlik, çeviklik, dözümlülük, sürət, güclülük, şəraiti düzgün görmək və ona uyğun hərəkətlər etmək qabiliyyəti tələb edir. Buna görə də yetişməkdə olan gənc nəsli fiziki cəhətdən həyata hazırlamaq tələbi zərurət kimi meydana çıxır.

Çəldlik mürəkkəb hərəkətləri sürətlə mənimsəmək və onu mövcud şəraitdə tez, həm də bacarıqla icra etmək əlamətidir. Fiziki hərəkətlərin dəqiq icrası sinir sisteminin fəaliyyəti ilə bağlıdır. Buna görə də uşaqlarda fiziki keyfiyyətlər mexaniki deyil, şüurla yaradılmalıdır.

Surətlilik hərəkətin qısa vaxt ərzində icra edilməsi ilə bağlı fiziki keyfiyyətdir. Fiziki təmrinlərin sürətlə həyata keçirilməsi müntəzəm xarakter aldıqda orqanizmin mühüm keyfiyyətlərindən birinə çevrilir.

Çeviklik insan orqanizminin ayrı-ayrı üzvlərinin sürətli hərəkəti ilə bağlıdır. Çeviklik hiss üzvlərinin inkişafı ilə də əlaqədardır. Çevik adamlar həssas olur, elastik hərəkət edir, gücünü qənaətlə sərf etməyi bacarırlar.Çevikliyi formalaşdırmaq üçün öyrədici təmrinlərdən geniş istifadə etmək lazımdır.

Dözümlülük müəyyən hərəkətin uzun müddət fasiləsiz icra edilməsidir. Dözümlülüyü yalnız fiziki tərbiyənin düzgün tətbiqi nəticəsində formalaşdırmaq olar.

Müvazinət bu, elə bir fiziki keyfiyyətdir ki, insan fəaliyyət zamanı onun vasitəsilə öz orqanizmini istənilən vəziyyətdə saxlamağı bacarır. Müvazinəti formalaşdırmaq məktəbəqədər yaşlı uşaqlarda daha çox vacibdir. Uşaqlarda müvazinəti 5-6 aylığından başlayaraq formalaşdırmaq lazımdır. 5-6 aylıq uşağın oturması, sonradan iməkləməsi, 8-9 aylığında yeriməsi bütün bunlar müvazinətliliyi təmin edən ilkin təmrinlərdir.

Müvazinətin saxlanması mərkəzi sinir sistemin fəaliyyəti ilə bağlıdır. Məktəbəqədər yaşlı uşaqlarda sinir sistemi hələ zəif inkişaf etdiyindən onlarda müvazinəti saxlamaq qabiliyyəti də zəif olur. Hərəkət zamanı uşağın tez-tez yıxılması, adamlara, əşyalara münasibəti, sürətli hərəkət zamanı ürək bulanması, baş gicəllənməsi müvazinətin zəif inkişafı ilə əlaqədardır.

Velosiped sürməyi, at çapmağı, tir üzərində yeriməyi, qayıqda gəzməyi, suda üzməyi, yelləncəkdə yellənməyi, gimnastik və akrobatik hərəkətləri icra etməyi bacarmaq müvazinətin inkişafı ilə əlaqədardır. Əlbəttə, bu fiziki keyfiyyətlər öz-özünə yaranmır. Bunlar xüsusi təmrinlərin müntəzəm təkrarı nəticəsində yaranır.

Bütün bu kimi tədbirlər məktəbəqədər yaşlı uşaqların ümumi inkişafında fiziki tərbiyənin əhəmiyyətli rol oynamasını göstərir.

**Problemin aktuallığı.** Məktəbəqədər yaşlı uşaqların ümumi inkişafında fiziki tərbiyənin rolu, uşaqların fiziki cəhətdən tam hazırlanması böyük əhəmiyyətə malik olduğu göstərilir.

**Elmi yeniliyi.** Fiziki tərbiyənin tarixi və klassik xarakterini, fiziki tərbiyənin şəxsiyyətin formalaşmasındakı yerini, həmçinin fiziki tərbiyəsinin insan orqanizminə və onun psixikasına təsirini müəyyən edir.

**Praktik əhəmiyyəti.** Məktəbəqədər tərbiyə müəssisələrində, uşaqların praktiki fəaliyyətinin müxtəlif növlərində, qarşılıqlı münasibətin xarakterinin, uşaqlara öyrədilməsi son dərəcə vacibdir. Kiçik, orta-böyük yaşlı uşaqlar üçün keçirilən bütün fiziki hərəkətlər-tədbirləri və müxtəlif tərbiyə növlərinin məqsədi, uşaqları sağlam, gümrah və şüurlu ümumi təhsil məktəblərinə hazırlamaqdan ibarətdir.

## ƏDƏBİYYAT

1. Qurbanov H. Fiziki tərbiyənin tədrisi metodikası. Bakı, 2010.
2. Qurbanov H. Bağırov S. Quliyev N. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi. Bakı, 2012.
3. Nəzərov A.M. Kərimova Z.M Eminova G.T. Məktəbəqədər pedaqogika Bakı, 2011.
4. Qurbanov H. Fiziki tərbiyə nəzəriyyəsi və metodikası. Bakı, 2001.
5. Ələkbərov H. və b. Mütəhərrik oyunlar. Bakı, 2006.

**К. Шихалиева**

## РОЛЬ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ В ОБЩЕЙ РАЗВИТИИ ДОШКОЛЬНИКА

### РЕЗЮМЕ

Статья показывает роль физического воспитания в развитии детей дошкольного возраста. Кроме того, физическое воспитание молодого поколения способствует развитию физической сферы, готовности защищать страну, выносливости, жизнерадостности, бесстрашия, отваги, мужества и высоких моральных качеств. Физическое воспитание определяется формированием высоких моральных качеств.

**K. Shikhaliyeva**

## THE ROLE OF THE PHYSICAL EDUCATION IN THE GENERAL DEVELOPMENT OF THE SCHOOL -AGED CHILDREN

### SUMMARY

The article will show the role of physical education in the development of preschool age children. Also, the physical education of the young generation in the developing physically, ready to defend the country with their labor and endurance, fitness, fearlessness, bravery, courage and high moral qualities, as shown struggled. Physical education is determined by the formation of high moral qualities.

*Redaksiyaya daxil olub: 17.03.2014*

# *METODİKA: FƏNLƏRİN TƏDRİSİ*

## DİL TƏLİMİNDƏ İNTEQRASİYA VƏ İNTEQRATİV NƏTİCƏLƏR HAQQINDA

**Vaqif Qurbanov,**
*dosent, pedaqogika üzrə fəlsəfə doktoru, AMİ*
E-mail: vaqifqurbanov@mail.ru

**Rəyçilər:** *dos.* **Ə.M. Abbasov,**
*dos.* **A.X. Hacıyev**

***Açar sözlər:*** *ziddiyyətlər, keçmiş zaman, sadə, mürəkkəb, söz birləşməsi, ismi birləşmə, təyini söz birləşməsi*

***Ключевые слова:*** *парадоксы, прошедшее время, простой, сложный, словосочетание, именное словосочетание, определелительное словосочетание*

***Key words:*** *contradictions, past time, simple, complex word-combination, nominal word-combination, defining word-combination*

Azərbaycan dilindən təlimin məzmununda linqvistik biliklər hazırda (I-VI siniflərdə) dil qaydaları hesab olunaraq fəndaxili və fənlərarası inteqrasiya strategiyasına uyğun şəkildə öyrədilir. Əslində inteqrasiya olunan linqvistik biliklər elmi əsaslara söykənməli və tədris işində zidiyyətli məqamlar doğurmamalıdır. Ancaq parodoksal hallar var və bu da ümumiləşmiş anlayışlar formalaşdırmaqda ehtiyatlı olmağı tələb edir. Odur ki, əvvəlcə inteqrasiya strategiyası üzərində dayanaq.

Pedaqoji anlamda inteqrasiya təhsilin strategiyası hesab olunur. Bu da o deməkdir ki, ana dilindən dərs prosesi həm fəndaxili və həm də fənlərarası əlaqələr əsasında qurulur; qazanılan biliklərin bir ümumi anlayışda ifadə olunması, bacarıq və vərdişlərin rabitəli nitqə çevrilməsi nəticəsində şagirdlər dil və nitq haqqında daha ümumiləşmiş fikirlə silahlanırlar.

Differensasiya olunmuş xüsusi mövzuların tədrisindən alınan biliklərin müvafiq anlayışlarda və yaxud da bacarıq və vərdişlərdə ümumiləşməsi təlimdən gözlənilən inteqrativ nəticələr sayılır. Bir sözlə, gözlənilən və son nəticələrin nəzəri və təcrübi əhəmiyyətliliyini nəzərə alınmaqla meydana çıxarmaq dil təliminin başlıca məqsədidir. Kurikulum təhsilində işlər gözlənilən nəticələrə doğru elə motivasiya olunur ki, sonda daha optimal nəticələrə gətirib çıxarır. Bunun üçün dil təlimində son nəticə informativlikdən daha çox kommunikativlik olmalıdır. Artıq inteqrasiya təhsil deyilən yeni bir anlayışda formalaşmışdır. Keçmiş təhsil sistemində inteqrasiyadan danışanda differensasiyanı da nəzərə alar və bunları birlikdə dil təliminin qanunu hesab edərdilər. Azərbaycan linqvodidaklarından professor B.Əhmədov bu məsələni ilk dəfə qaldıran və sistemə salan görkəmli alimlərdən olmuşdur [3]. Hazırda isə inteqrasiya Qərbdən alınaraq ümumiləşmə, çevrilmə, bütövləşmə, tamlaşma kimi traktova olunur və göstərilir ki, "inteqrasiya" – müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir.

ABŞ filosofu və pedaqoqu Parker təhsilin inteqrasiyası ilə bağlı qarşıda duran məsələlərə belə aydınləq gətirir: "Təhsilin inteqrasiyası məqsəd deyil, strategiyadır. Bu strategiyadan istifadə etməklə dərs planlarını zənginləşdirmək, şagirdlərin anlama imkanlarını dərinləşdirmək və onların ideyaları ümumiləşdirmə bacarığına artırmaq mümkündür" [5, s.109-110].

Bu deyilənlərdən ana dili təlimi üçün belə nəticə çıxarıla bilər:

1) Dilin ayrı-ayrı bölmələrinə daxil olan mövzular özünəqədərki mövzularla linqvostruktur əlaqə və vəhdətdə öyrənilməli və buradan ümumiləşmiş nəzəri və təcrübi nəticələr çıxarılmalıdır;

2) Dilin bir bölməsi digər bölmələrdən təcrid olunmuş şəkildə deyil, onlarla əlaqə və vəhdətdə öyrənilməli və buradan ümumiləşmiş nəzəri və təcrübi nəticələr çıxarılmalıdır;

3) Fənlərarası ümumiləşmiş nəticələri həm idraki, həm də təcrübi aspektlərdən çıxarmaq lazımdır.

İndi də fəndaxili əlaqədə qurulan dərslər üzrə bu iki aspektin elmi-metodik şərhini verməklə məsələnin mahiyyətini nəzərdən keçirək.

Nəzəri ümumiləşmiş inteqrasiyaya misal olaraq bunları demək olar:

1. Fonetikada nitqin səs vahidləri öyrənilir. Dildə həmin vahidlər sait, samit, açıq, qalın, kar, cingiltili və s.i.a. adlanır. Fonetika birinci sinifdən öyrənilməyə başlanır, XI sinifdə başa çatır. Bu müddətdə ardıcıl olaraq hər sinifdə ahəng qanununa, vurğuya, intonasiyaya həm mortfologiya, həm sintaksis və həm nitq mədəniyyəti və üslubiyyat şöbələrində istinad olunur. Fonetik vahidlərə dair mövcud biliklər yeni biliklərə təsir edərək onları zənginləşdirir və eyni zamanda həmin mövcud biliklər özü də zənginləşmə prosesi keçirir.

Fonetik vahidlərə dair biliklər cümlənin intonasiya bitkinliyinə malik olması faktının əsası sayılmış olur. Cümlənin oxusu üzrə bacarıq və vərdişlərdə də nəqli, sual, əmr, intonasiya amili nəzərə alınmış olur.Nitqdə alletyerasiya və assimlyasiyahadisəsi də sait və samit prinsipinə görə müəyyənləşən ən ümumiləşmiş fikir isə belədir: səs (fonem) sözün, cümlənin və nitqin əsasını təşkil edir.

2. Sözün kök və şəkilçi tərkibi morfem adlanır. Morfem fonemlərdən ibarətdir. Fonemlər mənalı səslərdir. Mənalı səslər toplusu olan söz leksik vahid kimi və morfem kimi öyrənilir. Morfem "morfos" – forma kimi nitq sözlərinin dəyişməsi morfologiya elmi kimi öyrənilir.

Morfem nitq hissələrindən bəhs edən morfologiya elminin vahididir.

Leksem isə anlayış bildirən sözə deyilir. Leksemdə, yəni anlayış bildirən sözdə vurğu və ahəng amili onu göstərir ki, fonetika sözün həm canı və həm də ruhudur. Bir sözün leksik mənasını müəyyən etməkdə vurğunun forma və mənayaradıcı olması əsasdır: qa□zma – qazma□; qo□şma – qoşma□; a□lma – alma□ və s.

Leksika tədrisindən hasil olunan ən ümumiləşmiş müddəa həm də bundan ibarətdir ki, ahəng qanunu və vurğu sözlərin türk və ya alınma olduğunu müəyyən etməkdə kriteriyadır.

3. Morfologiya 3 əsasda həm tədqiq olunmalı və həm də tədris olunmalıdır; bunlar: nitq hissəsinin leksik mənasının, morfoloji əlamətinin sintaktik zəmininin nəzərə alınmasıdır. əsas və köməkçi nitq hissələri bu üç prinsiplə müəyyən edilir. Omomorfemlərin müqayisə olunmasından və fərqləndirilməsindən bu nəticə çıxarılmalıdır: qrammatika söz birləşməsi və cümlə zəminində öyrənilməli və öyrədilməlidir.

Azərbaycan dili tədrisinin linqvistik əsasları ilə bağlı bəzi həll olunmamış daha bir sıra hallara öz münasibətimizi də bildirək.

1. Təlim işində mübahisə doğuran məsələlərdən ən birincisi felin keçmiş zamanının statusunun aydınlaşdırılması ilə əlaqədardır.

2. Ziddiyyətli olub həllini tapmamış *gəlirdi, yazardı...* tipli sözlərin indiki və gələcək zaman kimi izah olunması ilə bağlı nə deyə bilərik?

Belə sözləri başqa dillərə tərcümə edəndə keçmiş zaman hesab olunur. Elə isə bu necə məntiqdir? Əslində də *gələrdi, yazardı* felləri keçmiş zamana aiddir. Tərkibinə görə təhlil etdikdə, gəl+ir+di – indiki, yaz+ar+dı – gələcək zaman feli hesab olunur. Paradoksdurmu? Əlbəttə! Bəs vəziyyətdən birdəfəlik necə xilas olmalı?

Bu barədə mərhum professor Bəşir Əhmədov vaxtilə yaxşı təkliflərlə çıxış etmişdi, heyif ki, onun bu fikri proqram və dərsliklərdə həyata keçmədi.

Professor keçmiş zamanın sadə və mürəkkəb şəkilçilərlə əmələ gəldiyini göstərmişdi: *-dı*$^4$, *-mış*$^4$, *-ıb*$^4$ şəkilçiləri sadə keçmiş zaman, *-ardı*$^2$, *-ırdı*$^4$, *-armış*$^2$ və s. şəkilçiləri mürəkkəb keçmiş zaman düzəldir.

Çox düzgün və məntiqi əsası olan bu təklif linqvometodist tərəfindən verildiyinə görə nəzəriyyəçi dilçiləri "qane etmədi". Nəzəriyyəçi-dilçilərin bir çoxu bəzən öz adlarından xoşlanaraq göylə gedir və ağıllı metodist təklifinə əks çıxırlar. Halbuki linqvometodist alim faktlardan çıxış edir. Zaman anlayışı bildirən *idi, imiş, isə* ədatları (hissəcikləri) ilə işlənən sözlər fel olmasalar da, hərəkəti, əhvaları və s. keçmişə aid edirlər. Məsələn:

"Bir *uşaqdım* o zaman, soldu, ölüb getdi anam".

*(M.Y.Lermontov)*

Burada uşaq+dı+m ismi əhvalatı, vəziyyəti keçmiş zamana aid edir; o cümlədən yaz+ar+dı+m feli də hərəkətin keçmiş zamanda icra olunduğuna işarədir. Bəs nə üçün dili bu şəkildə şərh etmirik? Bəlkə, ədat nitq hissəsi olduğuna görə? Ədat elə hissəcikdir də. Şəkilçi məgər hissəcik deyil? Bəlkə, hissəcik morfem hesab olunmur, ona görə? Xeyr, *gəlirdi* nümunəsi *gəl+ir+di* şəklində morfem kimi təhlil olunur ki, aypara işarəsi də qrammatik hissəciyin işarəsidir. Buradan hansı nəticəyə gəlirik?

1. Keçmiş zamanı əmələ gətirən şəkilçilər sadə və mürəkkəb quruluşa malik olmaqla iki cür əmələ gəlir: a) sadələr: *-dı*$^{4}$*, -mış*$^{4}$*, -ıb*$^{4}$; b) mürəkkəblər: *-ardı*$^{2}$*, -armış*$^{2}$*, -ırdı*$^{4}$*, -mışdı*$^{4}$*, -ıbdı*$^{4}$*, -ası*$^{2}$ *idi, -malı*$^{2}$ *idi* və s.

2. Dildə işlətdiyimiz **uşaqdım** sözü keçmiş zaman, **uşağam** sözü indikai zaman mənasında anlaşıllır. Hətta **tələbədir** sözündə *-dır*$^{4}$ morfem xəbər şəkilçisi, özü də indiki zamanı bildirir.

Qeyd: Əgər bu mülahizə qəbul edilərsə, həm dilin və həm də təliminin didaktik elmi əsaslar üzrə qurulduğuna bir nümunə ola bilər.

Əlbəttə, bunlar hələlik fakültətiv şərhlərdir, lakin müəllimlərə mütləq çatdırılmalı məsələdir, dərsliklərə salınmaya da bilər.

Beləliklə, yuxarıda deyilənləri dərsliklərdə qeydlər, xüsusiyyətlər şəklində vermək əvəzinə, bəzən dildə axıra qədər formalaşması başa çatmamış hallar verilir ki, bu da bizə görə, məqsədəuyğun deyil.

"Mən gəlirəm" cümlədir (o cümlədən sən gəlirsən, o gəlir...)

"Mənim gəlirim" söz birləşməsidir (o cümlədən sənin gəlirin, onun gəliri...)

Mən gəlirəm – "gəlirəm" şəklində də işlənir (o cümlədən gəlirsən, gəlir... şəklində də)

Bəs necə olur ki, "Gəlirəm" şəxsli cümlə hesab olunur, gəlirim III növ təyini söz birləşməsi yox?! Təktərəfli işlənməsi hər ikisinə aid deyilmi?

Birisinə predikativlik – cümlə statusu verən şəxs şəkilçisi, o birisinə mənsubluq mənası verən mənsubiyyət şəkilçisidir. Bunlar da ikili və ziddiyyətli yanaşma nə ilə əlaqədar ola bilər?

Fikrimizcə, fərqli yanaşma prinsip (kriteriya seçim) vahidinin düzgün müəyyən edilməməsi və yaxud da bu sahənin diqqətdən kənarda qalması ilə bağlıdır. Bəs biz hansı fikirdəyik və nə demək istəyirik? Biz onu demək istəyirik ki, birinci nümunə hər iki halda "Mən gəlirəm" və "Gəlirəm" şəklində də qrammatik əsasa malik olur və cümlə sayılır. Lakin "mənim gəlirim" təktərəfli söz birləşməsi kimi işlənəndə (gəlirim) başlanğıc formasını saxlamır. Məgər III növ söz birləşməsi həmişə təktərəfli işlənə bilmir? Əlbəttə, işlənir. Elə isə "yiyəlik", "mənsubiyyət" strukturunu nəzərdən keçirək:

mənim dostum – dostum
sənin dostun – dostun
onun dostu – dostu
mən dostam – dostam
sən dostsan – dostsan
o dostdur – dostdur

Bunların da biri söz birləşməsi, digəri cümlə sayılmalıdır.

Bəs əgər *bizim dostlar, sizin dostlar* kimi mənsubiyyət şəkilçisiz işlənən birləşmələr xüsusi növ təşkil edə bilirmi? Əlbəttə, yox; onun üçün ki, həmin paradiqma "onların dostlar" şəklində işlənmirsə, bunları xüsusi növ kimi deyil, bizim qəti qənaətimizə görə sıxılmalara düşmüş, elliptik hal almış istisnalar kimi qeyd etmək lazımdır.

"Bəzi hallarda III növ təyini söz birləşmələrinin birinci tərəfi I və II şəxs əvəzlikləri ilə ifadə olunur. Lakin ikinci tərəfdə bunlara uyğun mənsubiyyət şəkilçiləri işlənmir. Məsələn: bizim tərəflər, sizin uşaqlar... Belə birləşmələrdən birinci tərəfini təyin, ikinci tərəfini isə hansı sualına müvafiq cümlə üzvü kimi təhlil etmək lazımdır. Məsələn: "Sizin uşaqlar qalib gəldilər" cümləsində sizin sözü təyin, uşaqlar sözü isə mübtədadır" [1, s.19].

Indi bu qeydə öz münasibətimizi bildirək. Əvvəla, burada *bizim tərəflər, sizin uşaqlar* birləşmələri çox düzgün olaraq mənsubiyyət şəkilçisiz işlənən hallarda da III növ təyini söz birləşməsi sayılır. Həmin birləşmələr cəmdə də, təkdə də bu şəkildə işlənir. Ancaq III şəxsdə nə təkdə, nə də cəmdə işlənir. Elədirsə, burada spesifika təşkil edən nədir? Spesifika yoxdursa, belə söz birləşməsinin birinci tərəfində təyin axtarmağa nə ehtiyac var?!

Söz birləşməsinin cümlədə üzv vəzifəsini müəyyən edən qrammatik cəhətdən müəyyənlik və ya qeyri-müəyyənlik də ola bilər, leksik-frazemiklər də, xəbərin semantikası da (Bu kimi cəhətlər nitq hissələrinin cümlə üzvü məsələlərində də göstərilə bilər).

"Bizim dağlar yada düşəndə ürəyim sızıldayır" cümləsində **bizim** sözü məgər cümlənin təyini ola bilər?

"Sizin tərəflərdə qar yağan kimi də əriyirdi" cümləsində necə? Burada "sizin" sözünü təyin hesab edənə qədər gərək o sözəcən üzvləri düzgün tapmış olaydıq, ancaq "tərəflərdə qar yağan kimi əriyirdi" şəklində cümlə qurulmur və işlənmir.

Problemin aktuallığı. Nəticələrimiz: 1) gəldiyimiz nəticələr, oxuduğumuz kitablar, cızdığımız planlar, açdığımız qapılar, söylənən sözlər "feli sifət+isim" modeli üzrə yaranan birinci növ təyini söz birləşməsi sayılır. Həmin tip birləşmələr "bizim gəldiyimiz nəticələr", "bizim açdığımız qapılar" kimi də işlənir. Əslində isə belə birləşmələrin kökündə "bizim gəldiyimiz nəticələrimiz", "bizim açdığımız qapılarımız" ifadə tərzi dayanır. Deməli, sonuncu potensial formadan yiyəlik hallı birləşmələr kimi danışa bilərik. Onların qrammatik bağlılığı və nominativliyi ayrı-ayrı şərh olunmalıdır. Belə ki, həmin birləşmələrin birinci şəxs - əşya məzmunu bildirən tərəfinə cümlədə təyinin sualının verilməsi əvəzinə yiyəlik halının sualını verib yeni xüsusiyyət çıxarmaq dilçiliyimizi zənginləşdirmir. Əksinə, *bizim dağlar, sizin yerlər tipli* birləşmələri *onların yerlər* işlənmədiyi halda, I növ təyini söz birləşməsi kimi üzvləndirmək "mən gəlirəm" kimi cümləni şəxsli, "gəlirəm"i şəxssiz cümlə hesab etməyə gətirib çıxara bilər.

**Problemin elmi əhəmiyyəti.** Beləliklə, indiki kurikulum təhsili həqiqi elmi yeniliklər, metodik açıqlamalar əvəzinə, dildə mövcud olan elliptik, sıxılma hallarından, sistem təşkil etmədən interaktiv nəticələr çıxarmağı qəbul etmir.

**Problemin praktik və tətbiqi əhəmiyyəti.** Təhsil müəssisələrində mübahisə doğuran hallar varsa, elmi praktik konfransların müzakirəsindən keçirib nəticələrə gəlmək, daha sonra proqram və dərsliklərə gətirmək olar.

## ƏDƏBİYYAT


1. B.A.Əhmədov. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: Maarif, 1973.
2. Yeni kurikulumların hazırlanması və tətbiqi. Bakı: Kövsər, 2008.


**В. Гурбанов**

## ОБ ИНТЕГРАЦИИ И ИНТЕГРАТИВНЫХ ВЫВОДАХ В ОБУЧЕНИИ ЯЗЫКУ

## РЕЗЮМЕ


Интеграция как стратегия образования, в частности родного языка, требует достоверности научных фактов и конкретных результатов.

В процессе изучения азербайджанского языка наблюдаются неопределенности в формулировке глаголов прошедшего времени, как gəlirdi – приходил, gedirdi – уходил, oxuyarmış – якобы читал, danışarmış – якобы рассказывал.

Следующие парадоксы связаны с лингвистической неопределенностью синтактической роли именного словосочетания определительного третьего типа как *bizim dağlar* – наши горы, *sizin şəhərlər* – ваши города и.т.д.

В статье говорится о целесообразности проведения научно-практических конференций для пояснения и уточнения некоторых нерешенных вопросов.

**V. Gurbanov**

**ABOUT INTEGRATION AND INTEGRATIVE FINDINGS IN LEARNING LANGUAGES**

**SUMMARY**

Integration as a strategy for education, in particular the mother tongue requires the reliability of scientific facts and concrete results.

In the course of studying the Azerbaijani language observed uncertainty in the formulation of the past tense of verbs, as gəlirdi - come, gedirdi - left, oxuyarmış - allegedly read, danışarmış - allegedly told.

Sleduyuschie paradoxes associated with the uncertainty of linguistic syntactic role of attributive noun phrase of the third type as *bizim dağlar* - our mountains, *sizin şəhərlər* - your city, etc.

The article refers to the desirability of holding scientific conferences to explain and clarify some of the outstanding issues.

*Redaksiyaya daxil olub: 21.02.2014*

# HƏYATLA ƏLAQƏLİ TƏDRİS ƏSASINDA KİMYANIN ÖYRƏNİLMƏSİNƏ MARAĞIN FORMALAŞDIRILMASI METODİKASI

**Gülşən Piriyeva,**
*Salyan şəhər 7 nömrəli texniki təmayüllü məktəb- liseyin*
*kimya- biologiya müəllimi*
E-mail: g_piriyeva@mail.ru

**Rəyçilər:** *ped. fəlsəfə dok.* **A.Əliyev,**
*ped. fəlsəfə dok.* **M.Fərəcov**

***Açar sözlər***: *həyatla əlaqəli tədris, metodik komponentlər, səbəb-nəticə əlaqəsi, proqnoz situasiyası, «Mətbuat konfransı», «Əqli futbol»*

***Ключевые слова:*** *преподавание в связи с жизнью, методический компонент, причинно-следственные связи, прогноз ситуации, «Пресс конференция», «Интеллектуальный футбол»*

***Key words:*** *Connected educational, methodical components, cause situation of result connection, prognosis, press conference, mental football with by life*

Kimyadan həyatla əlaqəli tədrisin metodik sisteminin əsas komponentləri aşağıdakılardır:

- dərslərdə və dərsdənkənar məşğələlərdə kimyaya marağın formalaşdırıl-ması
- dərslərdə və dərsdənkənar məşğələlərdə gündəlik həyatda lazım olanların öyrədilməsi və tətbiq edilməsi

Bunu həyata keçirmək üçün

- maddələrin və kimyəvi reaksiyaların praktik tətbiqi ilə əlaqədar müstəqil iş və yoxlama işlərindən, ev tapşırıqlarından istifadə etmək;
- şagirdlərin psixi və yaş xüsusiyyətlərini nəzərə almaqla tapşırıqları elə seçmək ki, onlar kimyəvi biliklərinin artdığına inam hiss etsinlər;
- məktəbdənkənar işlərlə dərsdə öyrədilən biliklər arasında əlaqə yaratmaq;
- sinifdəki praktik işlərdə gündəlik həyatda rast gələn kimyəvi maddələrlə əlaqədar tapşırıqları vermək və bu maddələrin istifadə qaydaları haqqında təlimatlandırmaq;
- praktik məzmunlu hesablama məsələlərini həll etdirmək;
- müasir kimyəvi baxışlar əsasında təbiətdə və cəmiyyətdə baş verən hadisələri şagirdlərlə birlikdə izah və təhlil etmək tələb olunur.

Sinifdənkənar işlərdə

- şagirdləri maraqlandıra biləcək, onların bilik və psixi xüsusiyyətlərinə uyğun olan tapşırıqların verilməsi;
- problemlərin qeyri-standart şəkildə həllinə həvəsləndirmə;
- gündəlik həyatdan götürülmüş nümunə və məsələlərin geniş istifadə olunması;
- sinifdənkənar məşğələlərdə problem həllini cavablandırmaq üçün şagirdin müstəqil olaraq üsulları özü seçməsi (səhnəcik, şer, nağıl, şərh və s.);
- referat və ya tədqiqat tapşırığının seçilməsində şagirdlərə sərbəst seçim imkanı yaradılması;
- dərsdə keçirilməsi mümkün olmayan kimyəvi təcrübələrin yerinə yetirilməsi və hesabatın hazırlanması.

Aşağıdakı misallar əsasında metodik üsulların tətbiqinə misallar göstərmək olar.

Səbəb-nəticə əlaqəsi axtarmaqla yeni materialın izahına X sinifdə “Karbon” mövzusunun kompyuter təqdimatı əsasında izahını misal göstərmək olar. Şagirdlər VIII sinifdən allotropiya, karbonun allotropik şəkildəyişmələri haqqında məlumata malikdirlər. Ona görə də, bu mövzunu keçərkən müəllim I dünya müharibəsi zamanı zəhərli kimyəvi maddələrin tətbiqi barədə film nümayiş etdirir, sonra şagirdlərə əleyhqaz və aktivləşdirilmiş kömür arasında məntiqi əlaqə yaratmaq təklif olunur, aptekdən alınmış aktivləşdirilmiş kömürü nümayiş etdirərək, onun tətbiq sahəsi, əleyhqazın

kəşfi haqqında məlumatlar verir. Əvvəlcədən şagirdlərə fulleren və karbonun digər allotropik şəkildəyişmələri, onların tətbiqi haqqında internetdən məlumat toplamaq tapşırılır, müasir vasitələrdən istifadə etməklə həyatla əlaqəli verilən materiallar şagirdlərin mövzuya marağını gücləndirir.

Səbəb-nəticə əlaqələrini praktik işlər əsasında da nəzərdən keçirmək olar. Nümunə 1: VIII sinifdə "İndikatorlar"ın tətbiqi işin səhifələrində nəzərdən keçirilir. Bu zaman sinfə aşağıdakı sualları vermək olar:

- Nə üçün çaya limon əlavə etdikdə onun rəngi ağarır?
- Nə üçün kələm şorbasına tomat pastası əlavə etdikdə rəngi açıqlaşır?

Alınan bilikləri möhkəmləndirmək üçün şagirdlərə aşağıdakı tapşırıqları vermək olar: limon turşusu və şay sodası məhluluna albalı və çiyələk şirəsi əlavə edərək nəticəni təsvir edin.

Kimya dərslərində həyatla əlaqəli materialları proqnozlar əsasında təqdim etmək olar.

Nümunə 2: Məsələn: VIII sinif kimya kursunda "Yanacağın yandırılması. Yanma" mövzusunun tədrisini aşağıdakı kimi aparmaq daha səmərəli nəticə verir. Şagirdlərə aşağıdakı tapşırıqlar verilir: Su və karbon qazı almaqla təbii qazın əsas tərkib hissəsi olan metan- $CH_4$, etan- $C_2H_6$, propan- $C_3H_8$, butan- $C_4H_{10}$, daş kömürün əsas tərkib hissəsi olan C- un yanma reaksiyalarının tənliklərini yazın və bərabərləşdirin. Əgər oksigen çatışmazlığı olarsa, nə baş verə bilər? Oksigen çatışmazlığında aparılan yanma nə üçün təhlükəlidir?

Şagirdlər dəfələrlə eşidiblər və bəziləri görüb ki, rəngsiz, iysiz dəm qazı havaya qarışdıqda zəhərlənmələr, yanğınlar baş verə bilir. Hava soyuq olduqda dəm qazı zəhərlənməsindən baş verən bədbəxt hadisələr çox müşahidə olunur. Şagirdlərə internetdən götürülmüş materiallar əsasında videoçarx nümayiş etdirilir. Daha sonra rollu oyunlardan istifadə etməklə sinif kimyaçılar, xilasedicilər, həkimlər olmaqla qruplara bölünür, bu dərsi daha aktual edir və həyatla əlaqələndirir.

XI sinif şagirdləri ilə "Müasir enerji mənbələrinə əsaslanan kimyəvi reaksiyalar" mövzusunda mətbuat konfransı keçirmək olar, bu zaman videoçarxlar, internet materialları geniş istifadə oluna bilir.

Ekskursiyalarda əldə olunan materiallardan istifadə etməklə proqnoz situasiyası yaratmaq olar.

Nümunə 3: X sinifdə "Silisium birləşmələri. Silikat sənayesi" mövzusunu tədris edərkən şagirdlərin məlumatları əsasında tədqiqat işi, ekskursiya materiallarının təhlilinə əsaslanan təqdimatlar istifadə edilir. Müəllim dərsi silikat sənayesi haqqında anlayışlardan başlayır. Sonra şagirdlər işlərini təqdim edirlər, onlar internetdən götürdükləri və kitabdan istifadə etdikləri materiallardan şüşənin tərkibi və növləri haqqında məlumat verirlər. Sement mövzusu videofraqmentlər və fotoşəkillər əsasında, "Keramika" mövzusu Power Point proqramında hazırlanmış kompyuter təqdimatında dinlənilir, kimya dərnəyinin üzvü olan şagirdlərin apardığı təcrübələr, keçirdikləri ekskursiyalar haqqında məlumatlar bütün şagirdlərə çatdırılır. Müəllimin vəzifəsi tapşırıqların hazırlanması, ekskursiyaların təşkili, təqdim ediləcək materialın redaktəsi və yoxlanılmasından ibarət olur. Yoxlamalar göstərmişdir ki, bu üsulla tədris, materialların yaxşı mənimsənilməsinə səbəb olur.

Məişətdə istifadə edilən materiallar əsasında maddələrin öyrənilməsinə aid praktik işlərin həyatla əlaqəli tədrisini aparmaq olar:

Mövzu: Turşu və əsasların təyininə aid eksperimental məsələ həlli.

Məqsəd: verilən maddələr əsasında hansı sınaq şüşəsində turşu və qələvi olduğunu müəyyən edin.

Vəsait: sınaq şüşələri üçün ştativ, 3-4 sınaq şüşəsi, tərkibində turşu və qələvi olan təmizləyici maddələrə aid təlimatlar.

Reaktivlər: sulfat turşusu (1 : 5), xlorid turşusu (1:2), 5%-li NaOH, lakmus, metiloranj, fenolftalein məhlulları, təmizləyici məhlul "Tiret", təmizləyici qab pastası

Tapşırıq 1: verilən indikatorla hansı qabda turşu və hansında əsas xassəli maddə olduğunu müəyyən edin.

Tapşırıq 2: təmizləyici maddəyə aid təlimat əsasında aşağıdakıları yerinə yetirin.

1. Təlimatla tanış olaraq maddənin adını müəyyən edin və aşağıdakı suallara cavab verin:

- verilən maddə nə üçün istifadə olunur?
- verilən maddənin kimyəvi tərkibi necədir?
- verilən maddə ilə işləyərkən hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır?
- verilən maddənin fiziki və kimyəvi xassələrindən hansı onun istifadəsinə səbəb olur?

Məlumatlar əsasında şagirdlər aşağıdakı cədvəli doldururlar:

Cədvəl 1.

| | adı | tətbiq sahəsi |
|---|---|---|
| Tərkibində qələvi olan maddələr | | |
| Tərkibində turşu olan maddələr | | |

Mövcud vəziyyətdən istifadə məsələlərinə misallar.

1. Maddənin etiketindən istifadə etməklə aşağıdakı suallara cavab verin:

- verilən maddədən istifadə edərkən hansı təhlükəsizlik qaydalarına əməl edilməlidir?
- hansı səthlərin təmizlənməsi üçün onlar istifadə olunur?
- onların kimyəvi tərkibi necədir?
- maddənin saxlanma müddəti nə qədərdir?

2. Yeyinti sənayesi məhsulunun markasına əsasən qida əlavələrini müəyyən edin (xörək duzu, sirkə turşusu, xəmir qabardıcısı və s.).

3. Qablaşdırma materiallarını nəzərdən keçirməklə onların nədən hazırlandığını müəyyən edin? Onların utilləşmə qaydalarını müəyyən edin.

Mövcud vəziyyətlə əlaqədar tapşırıq:

Siz peçenye bişirmək istəyirsiniz və onun reseptində qabardıcı maddələr də vardır, lakin bu sizdə yoxdur, ananız onu çay sodası ilə əvəz etməyi məsləhət gördü, belə əvəzetmə mövcud ola bilərmi?

Məlumat: Xəmir yoğurduqda unun tərkibində olan nişasta və zülallar suyu birləşdirərək şişirlər, yapışqan kütlə əmələ gətirirlər. Xəmirə maya göbələklərinin inkişafı üçün hava daxil olur, maya isə unda olan nişastanı qlükozaya çevirərək spirt qıcqırmasını aparır. Bu məhsullardan başqa çörəyə xüsusi dad və ətir verən sirkə turşusu, mürəkkəb efir və aldehidlər, ali spirtlər və s. alınır. Maya əvəzinə çox vaxt xüsusi qabartma tozları istifadə olunur. Onlardan ən geniş yayılanı çay sodası- $NaHCO_3$ -dır ki, o, süd və ya limon turşusu ilə reaksiyada karbon qazı əmələ gətirir. Kulinariyada "Libix tozu" –çay sodası və limon turşusunun qarışığı, "amerika tozu" -əlenmiş kalsium karbonat və kalium hidrotartratın qarışığı istifadə olunur. Onların da xəmirə təsiri qızdırıldıqda karbon qazının ayrılmasıdır. Xəmirin köpürdülməsi üçün təsirli vasitə ammonium hidrokarbonat - $(NH_4)_2CO_3$ –dır. Şagirdlərə mətni diqqətlə oxuyaraq aşağıdakı suallara cavab vermək təklif olunur:

- xəmir acıdıcı və qabardıcıları haqqında öz hekayənizi hazırlayın;
- mətndə rast gələn maddələrin kimyəvi formullarını yazın;
- mətndə adları çəkilən reaksiya tənliklərini yazın;
- böyüklərdən xəmir yoğurarkən hansı qabardıcılardan istifadə etdikləri haqqında soruşun;
- evdə təcrübə qoyaraq onun nəticələrini yazın;
- 0,5 mol ammonium hidrokarbonatın parçalanması zamanı ayrılan məhsulların həcmini hesablayın.

"Mətbuat konfransı" formasında şagirdlər "jurnalistlər", "elmi işçilər", olmaqla qruplara bölünür. Birinci qrupdan olanlar suallar verir, ikinci qrup nümayəndələri isə onlara cavab verirlər. Müəllim müşahidəçi və məsləhətçi rolunda çıxış edərək şagirdlərin fəallığını və cavabların düzgünlüyünü qiymətləndirir.

"Əqli futbol"dan istifadə etməklə sinfi iki komandaya bölürlər, hər qrupda qapıçı, hücumçular, müdafiəçilər seçilir. Hücumçular sual, müdafiəçilər cavab verir. Qapıçı kimi daha savadlı şagird seçilir, o, suallara digər şagirdlərin cavab verə bilmədiyi zaman cavab verir, müəllim

hakim rolunda çıxış edir, şagirdlərin cavabları ballar yazılmış kartlarla qiymətləndirilir. Hər bir müəllim şəxsi yaradıcılığından istifadə etməklə şagirdlərin biliklərini yoxlaya bilərlər.

Biliklərin göstərilən qaydada öyrədilməsi kimyəvi biliklərin artmasıyla qida, əczaçılıq, yüngül sənaye məhsullarının markalarını ayırd etməyə, onların istifadə qaydalarını lazımi dərəcədə bilməyə kömək edir.

Lakin bu zaman müəyyən çətinlilklər də ortaya çıxır: belə ki, həyatla əlaqəli materialların çox olması, oyun və yarış formalarının tətbiqi bəzi şagirdlərdə fənnin səthi öyrənilməsinə, səbəb ola bilər. Ona görə də müəllim oyunlardan yeri gəldikdə və məntiqi ardıcıllıqla istifadə etməlidir.

**Məqalənin aktuallığı** fəal təlim üsullarından istifadə etməklə, kimyanın həyatla əlaqəsini həyata keçirtməkdir

**Məqalənin elmi yeniliyi** kimyanın həyatla əlaqəli tədrisinin səbəb-nəticə əlaqələri, proqnoz situasiyası əsasında qurulmasının metodikasına aid detalların araşdırılmasından ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti:** Kimya tədrisi metodikasında nisbətən az araşdırılan sahəyə aid müəllimlərin dərsi mənimsətməsinə yardımçı təcrübə mübadiləsidir, adı çəkilən üsullardan istifadə dərsin mənimsənilməsində nəticənin yüksək olmasına səbəb olur.

## ƏDƏBİYYAT

1. Лизинский В.М. Приемы и формы в учебной деятельности. М.: Центр Педагогический поиск, 2004.

2. Z.Veysova. Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.

3. Piriyeva G.Ə. Tədris prosesinin təkmilləşdirilməsinin optimal şərtləri / Ümumi orta təhsilin müasir problemləri mövzusunda elmi-praktik konfrans. Naxçıvan, 2012.

**Г. Пириева**

## МЕТОДИКА ФОРМИРОВАНИЯ ИНТЕРЕСОВ К ХИМИИ

### РЕЗЮМЕ

Статья содержит информацию об основных компонентах методической системы связанной с жизнью. Рассматриваются способы внедрения этого в жизнь, дано объяснение нового материала с причинно-следственными поисками, прогнозными ситуациями. Эти методы развивают эффективность урока и повышают интерес учащихся к нему.

**G. Piriyeva**

## THE PROCEDURE FOR FORMATION OF INTEREST TO CHEMISTRY

### SUMARRY

Of the article contains information on the major components methodical system related to their lives. Is considered ways to introduce the life of this, are the explanation the new material with the search for cause and investigation, looking situations. These methods develop the effectiveness lesson and increases interest in students for the lesson.

*Redaksiyaya daxil olub: 05.03.2014*

# İBTİDAİ SİNİFLƏRDƏ MORFOLOGİYANIN TƏDRİSİ PROSESİNİN NİTQ İNKİŞAFI PROBLEMLƏRİ

**Esmira Məmmədova,**
*Azərbaycan Müəllimlər İnstitutunun müəllimi*
E-mail: esmira.azeri @ box. az

**Rəyçilər:** *prof.* **F. Xalıqov,**
*dos.* **V. Qurbanov**

***Açar sözlər:*** *nitq inkişafı, morfologiya, müəllim, təlim, söz*
***Ключевые слова:*** *развитие речи, морфология, учитель, обучение, слово*
***Key words:*** *speech development, morphology, teacher, training, word*

Yeni təhsil quruculuğu, o cümlədən ana dili təlimi ilə bağlı kurikulum tələbləri son dərəcə aktuallaşmış və nitq inkişafı ilə bağlı qarşıya çoxlu sayda vəzifələr qoymuşdur. Məktəbdə bu işin sistemini qurmaqla baza prinsiplərini yalnız ibtidai təhsildə və təbiidir ki, məhz Azərbaycan dili dərslərində yaratmaq mümkün ola bilər (1, s. 46).

Azərbaycan dili təlimində mədəni nitq vərdişləri o zaman uğurla yerinə yetirilə bilər ki, ana dili müəllimləri nitq inkişafı yönümlü interaktiv metodika ilə işləməyə alışsınlar. İnteraktiv təlim prinsipcə şagirdlərin nitq zənginliklərinə yiyələndirilməsi ilə hesablanır.

İnteraktiv təlimdən istifadə olunması şagirdlərdə hər şeyi öyrənmək həvəsini gücləndirir və təlimin səmərəliliyini artırır (2, s. 194).

R. Həsənov yazır: “Bu yeni inkişaf etməkdə olan fənn təlimi əsasında da müəyyən didaktik prinsiplər durur:

-şagirdə yönəlmiş təlim prinsipləri;
-inkişafetdirici təlim prinsipləri;
-qabaqlayıcı təlim prinsipləri;
-qrup təlim prinsipləri;
-əməkdaşlıq prinsipləri ” (3, s. 282).

Bu kimi təlim prinsiplərinə bələd olduqdan sonra ana dili müəllimləri ədəbi dilin normaları əsasında şagirdlərin nitqini inkişaf etdirmək metodikasına hərtərəfli yiyələnmiş olmalıdırlar. Deməli, buradan belə bir vəzifə də konkretləşir ki, ibtidai sinif müəllimləri həm ədəbi dilin normalarına və onların öyrədilməsi metodikasına yiyələnməli və həm də nitq inkişafı metodikasını nəinki tətbiq etməklə müasir dərsi qurmağı, habelə onu daha da təkmilləşdirməyi bacarmalıdırlar (2; 4; 5).

Ancaq reallıq bundan ibarətdir ki, I-IV sinif müəllimlərinin təcrübəsində diqqəti daha çox cəlb edən başlıca cəhət onların testoloji təmrinlərlə müntəzəm işləmələridir. Testoloji təmrinlər isə, məlum məsələdir ki, nitq bacarıq vərdişlərinə deyil, fonetik, leksik, qrammatik biliyin qiymətləndirilməsinə əsaslanan metodikadır. Şagirdlərin nitqində söz ehtiyatının istənilən səviyyədə olmaması, cümlə və mətn qurmaq bacarıqlarının zəifliyi, ədəbi tələffüzlərinin vurğu, intonasiya və orfoepik cəhətdən normativ tələblərə cavab verməməsi məhz bununla əlaqədardır.

Deməli, indiki dövrdə müəllim hazırlığında və fəaliyyətində başlıca diqqət biliyin verilməsinə, o cümlədən, nitq hissələrinin məna və quruluşu üzrə nəzəri işlərə hesablanır. Nitq hissəsinin nitqdə və ya mətndəki yeri, funksionoloji rolunun nədən ibarət olması isə, demək olar ki, unudulur. Halbuki nitq hissələrinin təcrübi aspekti şifahi, yazılı normalara cavab verəcək nitq qurmağa istiqamətlənməli və bu da təlim fəaliyyətinin çıxış nöqtəsi sayılmalıdır (6; 2; 4; 7;).

Dilin normalarının öyrədilməsini müəyyən edən və müəllimə istiqamət verən proqram və dərsliklərdir. Normaların nitq praktikasına tətbiqi metodikası müəllim üçün asan mənimsənilən məsələ hesab edilə bilməz. Əgər belə olsa idi, dilçi metodistlər müəllimlərimizi bununla çoxdan silahlandırmış olardılar. Belə ki, dil təlimi ilə müntəzəm məşğul olmuş linqvodidaktlar (Y.Ş.Kərimov, Ə.R.Əfəndizadə, A.N.Rəhimov, B.A.Əhmədov, habelə rus dili metodistlərindən V.P.Ozer-

skaya, Q.A.Fomiçova, M.T.Baranov, M.M.Razumovskaya və b.) dil təlimində şagirdlərin nitqini zənginləşdirmək, onların nitq fəaliyyətini universal yollarla gücləndirməklə bağlı bir çox uğurlu tədqiqatlara nail olmaqla yanaşı, bütün problemlərin həll olunmadığını da qeyd edib göstərmişlər ki, bunlar da aşağıdakılardır:

- Azərbaycan dilinin təlimi məzmununa, o cümlədən morfologiya təlimində nitq inkişafı metodikasının təkmilləşdirilməsinə yenidən baxılması;
- dil təlimində nitq hissələrinin rabitəsiz və rabitəli nitqin inkişafına dair çalışmaların növbələşdirilməsi;
- nitq inkişafının məqsədəmüvafiq ölçü meyarları və ya prinsiplərinin müəyyənləşdirilməsi;
- nitq inkişafı sistemində nitq hissələri tədrisinin yeri və rolunun aydın təsəvvür olunması;
- nitq hissələrinin tədrisində lüğət işinin məzmunu və ona ayrılan vaxt həcminin düzgün müəyyənləşdirilməsi;
- nitq hissələrinin tədrisində rabitəli mətn üzrə aparılan şifahi və yazılı işlərin paralel və kəsişən xətlər kimi koordinə edilməsi;
- şagird nitqinin inkişaf dinamikasının ölçü prinsiplərinin dürüstləşdirilməsi;
- şifahi nitqdə, ədəbi tələffüzün dəyərləndirilməsi və qiymətləndirilməsi məsələsi və s.

Göründüyü kimi, qeyd edilənlər morfoloji qaydaların tədrisi metodikasının təkmilləşdirilməsi ilə bağlı tədqiqata ehtiyacın zəruriliyini şərtləndirən amillərdəndir.

İbtidai siniflərdə morfologiyanın tədrisi prosesində nitq inkişafı problemi dövrümüzün ən aktual problemlərindəndir. Belə ki, hazırda ana dilindən kurikulum sənədlərində şagirdlərin nitqinin inkişaf etdirilməsinin zəruriliyi daha çox vurğulanır. Azərbaycan dilindən morfologiyanın tədrisi qarşısında şagirdlərdə nitq zənginliyi və ədəbi tələffüz vərdişlərinin formalaşdırılması tələbləri qoyulur. Habelə nitq hissələrinin üç əsasda – leksik məna, morfoloji əlamət və sintaktik zəmində tədrisi prinsiplərinin bütövlükdə gözlənilməsi nitq inkişafının səviyyəsini yüksəltməyə geniş imkanlar açmış olur. Lakin bu imkanları təcrübi cəhətdən realizə etməyin xeyli problemləri də vardır.

Morfologiya tədrisinin aktual problemləri özünü hansı səviyyələrdə göstərir? Bu suala ətraflı cavab vermək üçün nələrə diqqət yetirməyin vacibliyi üzərində dayanmağı məqsədəuyğun hesab edirik.

Hazırda ibtidai təhsildə şagirdlərin nitqini inkişaf etdirmək və nitq inkişafı zəminində onların təfəkkürünü inkişaf etdirmək başlıca məqsəd sayılır. Ana dilindən müasir Təhsil Konsepsiyasının diktə etdiyi tələblər yaradıcı nitq inkişafını, məqsədli və ya məqsədyönümlü nitq inkişafını nəzərdə tutur. Bu konsepsiya mədəni nitqdə inteqrasiya metodologiyası üzərində qurulur. Şagird yönümlü nitq inkişafı deyilən yeni bir metodik nəzəriyyə formalaşdırmağa başlamışdır. Milli təhsil şagirdin yaşına və anlaq səviyyəsinə uyğun olaraq nitq inkişafı tələblərini qarşıya qoyur.

Milli təhsil konsepsiyasında ana dili kurikulumunun xarakterik cəhətlərinə nəzər yetirdikdə və məzmun standartlarının mahiyyətini araşdırdıqda məlum olur ki, I sinifdən başlayaraq göstərilən məzmun standartlarının hər birində nitq inkişafı zəruri didaktik tələblərə çevrilmişdir. Belə ki, nəticəyönümlü təhsilin məqsəd və məramından gözlənilənlər nitq inkişafıdır. Bu tələbi birinci sinifdən başlayaraq, IV sinif də daxil olmaqla aydın şəkildə müşahidə edə bilərik. I sinfin sonunda şagird:

1. Dinlədiyini və anladığını nitqi ilə nümayiş etdirir.
2. Şifahi nitq bacarıqlarına malik olduğunu göstərmiş olur.
3. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü aydın şəkildə izah etməyi bacarır.
4. Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.
5. Yazı texnikasına və ilkin yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.

"Oxu" standartlarında nitqəyönümlü xarakterik cəhətlər özünü göstərir. Beləliklə də ikinci standarta – oxuya diqqət yetirək. Lüğət ehtiyatının zənginldəşdirilməsi üzrə şagird:

2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.
2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri adlandırır.
2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını sadə formada izah edir.

2.1.3. Yaxınmənalı və əksmənalı sözləri fərqləndirir.
2.1.4. Öyrəndiyi yeni sözləri cümlə içərisində işlədir.
2.1.5. Mətnin məzmununu nağıl edir (8, s. 124-125).

II-IV siniflərdə məhz morfologiyanın tədrisi prosesində nitq inkişafı üzrə işin sistemini əhatə edən problemin bir çox aspektlərinə aydınlıq gətirərək aşağıdakı konkret nəticələrə gələ bilərik:

1. I-IV siniflərdə ana dili üzrə yeni təhsil tələbləri nəticəyönümlüdür, sistematikdir, elmidir və didaktik cəhətlərdən (idraki və təcrübi aspektlərdən) şagirdyönümlüdür.
2. Nitq inkişafında rabitəsiz və rabitəli mətnlərin hər ikisi əhatə olunmuşdur; standartların düzülüş ardıcıllığında və mərhələlərində sadədən mürəkkəbə doğru inkişaf dinamikası prinsip olaraq əsas tutulur.
3. Standartlarda ana dilinin oxu, yazı və danışığın mədəni nitqə inteqrasiyasının həm şaquli və həm də üfüqi xətlərlə qurulma imkanları geniş şəkildə əhatə olunur.
4. I-IV siniflərdə ana dilindən məzmun standartları üzrə didaktik tələblər inkişafetdirici təlimin qurulması və inkişaf istiqamətinin yüksələn xətlə aparılması üçün məqsədəmüvafiq hesab oluna bilər.

Mövcud Azərbaycan dili proqramlarında, habelə ana dili kurikulumunda müəllimin diqqəti daha çox şagirdlərin nitqini inkişaf etdirməyə yönəldilmiş, ayrı-ayrı mövzuların tədrisi prosesində nitq inkişafı üzrə aparılacaq işlər konkret şəkildə verilmişdir.

Vaxtilə bu məsələ ilə bağlı proqramlarda göstərilərdi: "Azərbaycan dilindən keçilən dərslər vasitəsilə şagirdlər qrammatikanın əsaslarını mənimsəməli, yazılı və şifahi nitqə, düzgün qiraətə …dair möhkəm vərdişlər qazanmalıdırlar" (9, s.4).

Həmin proqramda həmçinin qeyd edilirdi ki, "… qrammatikanın tədrisi zamanı şagirdlərin nitqini inkişaf etdirmək, onların lüğət ehtiyatını zənginləşdirmək, qiraət vərdişlərini təkmilləşdirmək, tələffüzlərinin düzgün və ifadəli olmasını, rabitəli nitqə yiyələnmələrini təmin etmək üzrə işlər geniş yer tutmuşdur" (9, s. 5).

Buna uyğun olaraq praktikada hər bir bəhslə əlaqədar nitq inkişafı üzrə aparılacaq işlər, təxminən aşağıdakı şəkildə müəyyənləşdirilməlidir:

Morfologiyanı keçərkən nitqdə düzəltmə sözlərdən yerində istifadə etməyi, ixtisarla yazılan sözləri düzgün oxumağı, xəbərin cümlədə ifadə olunan mübtədalarla kəmiyyətə görə uzlaşıb-uzlaşmamasını öyrətməyi, felin mənaca növlərindən və şəkillərindən nitqdə düzgün istifadə etməyi bacarmaq kimi vərdişlər aşılanır.

Açıq saitlərlə (a, ə) bitən felləri indiki və gələcək zamanda tələffüz etməyi bacarmaq, bu zaman bitişdirici "y" samitindən əvvəl gələn açıq sait qapalı saitə çevrilir. Məsələn, yazıda başlayır – başlayacaq, işləyir – işləyəcək; tələffüzdə başlıyır – başlıyacaq, işliyir – işliyəcək və s. (10, s. 4).

Göründüyü kimi, keçən əsrin proqramlarının izahat vərəqələrində ayrı-ayrı bəhs və mövzuların tədrisi ilə bağlı verilən göstərişlərdə nitq inkişafına müəyyən diqqət yetirilmişdir. Sonrakı illərin proqramlarında da nitq inkişafının əhatə etdiyi məzmun, təxminən yuxarıda göstərilənlərlə məhdudlaşaraq qalmışdır. Halbuki nitq inkişafı rabitəsiz və rabitəli nitqin tədrisi ilə bağlı bütün sferaları əhatə edir.

Əlbəttə, burada söhbət nitqin inkişaf etdirilməsində tətbiq olunan səciyyəvi və ya spesifik metodlardan, yaxud da prosesin özündən də gedə bilər. Çünki bunların hər ikisi anlaşılır.

Beləliklə, Azərbaycan dili müəllimlərinin metodik arsenalını zənginləşdirməkdən ötrü ilk növbədə onların nitq inkişafı metodikasının mahiyyətinə, o cümlədən də təhsilin yeni metodologiyasına bələdliyi mühüm rol oynayır.

**Problemin aktuallığı.** Müasir dövrdə uşaq, yeniyetmə və gənclərin kurikulum tələblərinə uyğun olaraq mədəni nitq vərdişlərinə yiyələndirilmə ilə ümumi mədəniyyətini və intellektual səviyyələrini yüksəldilmə ana dili təlimindən gözlənilən nəticələr sayılır. Təlimdə gözlənilən nəticələr ilə son nəticələrin üst-üstə düşməsi üçün ibtidai baza daha möhkəm metodik əsaslar üzrə qurulması məsələnin aktuallığını təşkil edir. Bu da onu göstərir ki, problemin həllini nitq inkişafı metodikasının həllində axtarmaq lazımdır.

**Problemin elmi yeniliyi:** İbtidai siniflərdə morfologiyanın tədrisi prosesinin nitq inkişafı problemləri araşdırılmış və müəyyən metodik tövsiyələr verilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi:** Məqalədə irəli sürülən fikirlərdən, tövsiyələrdən çıxarılan nəticə və təkliflərdən ibtidai sinif müəllimləri və bu sahə üzrə tədqiqatçılar faydalana bilərlər.

## ƏDƏBİYYAT

1. Balıyev H.B. Şagirdlərin nitqinin üslubca zənginləşdirilməsi. Bakı: Maarif, 1975.
2. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı: Azərnəşr, 2009.
3. Mehrabov A., Abbasov Ə., Həsənov R. Pedaqoji texnologiyalar / R. Qəndilovun redaktəsi ilə. Bakı: Mütərcim, 2006.
4. Kərimova Y.Ş. Təlim metodları. Bakı: R.S. Poliqraf MMC-nin mətbəəsi, 2009.
5. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı: Kövsər, 2008.
6. Cəfərova N.B. İbtidai siniflərdə morfologiyanın tədrisinin nəzəri və praktik əsasları. Monoqrafiya. Bakı: Elm, 2006.
7. Qurbanov V.T., Əmirli A. Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı: Müəllim, 2005.
8. Azərbaycan Respublikası ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum layihəsi). "Azərbaycan müəllimi" qəz., 2006, 01 dekabr.
9. Cəfərov S.A. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: APİ-nin nəşri, 1960.
10. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: ADPU-nun nəşri, 2003.

**Э. Мамедова**

## ПРОБЛЕМЫ РАЗВИТИЯ РЕЧИ В ПРОЦЕССЕ ИЗУЧЕНИЯ МОРФОЛОГИИ В НАЧАЛЬНЫХ КЛАССАХ

### РЕЗЮМЕ

В статье говориться о проблемах развития речи в процессе изучения морфологии в начальных классах. Учителям начальных классов, были приведены соответствующие рекомендации для успешного осуществления навыков культурной речи азербайджанского языка. Были описаны возможные пути и направления для развития речи в процессе обучения морфологии в начальных классах. В то же время раскрыто содержание принципов современного обучения, и на основе этих принципов подчеркнута важность обучения учащихся связной речи.

**E. Mamadova**

## SPEECH IMPROVEMENT PROBLEMS OF TEACHING MORPHOLOGY IN PRIMARY CLASSES

### SUMMARY

This article is about speech improvement problems of morphological teaching process in primary classes.Some recommends were given to primary class teachers to improve polite speech habits successfully in Azerbaijani language training.Available ways and directions of improvement of speech were explained during teaching of morphology in primary classes.As well as the essence of modern training principles were explained and on the basis of these principles the importance of obtaining coherent speech was mentioned.

*Redaksiyaya daxil olub: 17.03.2014*

# FİZİKİ TƏRBİYƏNİN TƏDRİSİNDƏ FƏAL TƏLİM METODLARINDAN İSTİFADƏNİN PSİXOLOJİ ASPEKTLƏRİ

**Baloğlan Quliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, ADPU*
E-mail: baloglan-guliyev@mail.ru

**Rəyçilər:** *ped.f.d., prof.* **Ə.Ə. Mehdiyev,**
*ped.f.d., prof.* **A.Ə. Əmiraslanov**

***Açar sözlər:*** *fəal, interaktiv, idraki fəallıq, hərəki fəaliyyət, tədqiqatçılıq, müstəqillik, ümumiləşdirmə, dərketmə*

***Ключевые слова:*** *активный, интерактивно, мыслительная активность, двигательная деятельность, исследование, самостоятельность, обобщение, осознание*

***Key words:*** *active, interactive, cognitive activity, conscious activity, an investigator, self-dependence, generalization, comprehension*

Pedaqoji ədəbiyyatdan məlum olduğu kimi, şagird fəal təlim metodu vasitəsilə (evristik) müstəqil tədqiqat prosesində idrak fəallığını yüksəltməklə yeni biliklər qazanır. Eyni zamanda, apardığı tədqiqat işlərinə və yaxud yaradıcılıq fəaliyyətinə istinad etmək yolu ilə müəllim-şagird arasında əməkdaşlığa və birgə fəaliyyətə əsaslanaraq bilik və bacarıqların mənimsənilməsi vasitələrini aşkara çıxarır, onları təhlil, müqayisə edir, ümumiləşdirir, hər hansı qənaətə gəlir, nəticə çıxarır. Bir cəhəti də qeyd etməliyik ki, fiziki tərbiyənin təlimində qarşıya qoyulmuş məqsəd və vəzifələri həyata keçirmək üçün yalnız şagirdlərin müstəqil tədqiqat fəaliyyətinin təmini məqsədilə müvafiq şəraitin yaradılması, müəllim-şagirdlərin birgə əməkdaşlıq şəraitində işləməsi, nəticədə yeni bilik, bacarıq və vərdişlərin əldə olunması yollarının aşkarlanması mühüm amil sayılsa da, onların təşkili üçün təlimdə problemli vəziyyətin (problemli-dialoji təlim) yaradılması da xüsusi zərurətdən irəli gəlir. Çünki ümumtəlim nəticələrinə nail olmaqda mövzuya, mətnə, məqsəd və vəzifələrə uyğun problem situasiya imkanlarının yaradılması təlimdə şagirdlərin idrak-fəaliyyəti prosesinin yüksəldilməsi, müstəqil yaradıcılıq qabiliyyətinin inkişafı, öyrədən və öyrənənlərin fəaliyyətinin tənzimlənməsində real imkanlar açır onların çevikliyini, sürətini artırır.

İbtidai siniflərdə fiziki tərbiyənin tərbiyəvi, sağlamlıq və hərbi-tətbiqi əhəmiyyəti, həmçinin təşkili, keçirilməsi və idman fənd elementlərinin icrası texnikası üzrə nəzəri sualların verilməsi və praktik tapşırıqların onlar tərəfindən yerinə yetirilməsi istər-istəməz şagirdlərin təfəkkür fəallığını artırır, onları düşünməyə və müəyyən nəticəyə gəlməyə sövq edir. Belə ki, problem vəziyyətin yaradılmasının köməyi ilə fəal təlimdə müstəqil tədqiqat fəaliyyəti, idrak fəallığının yüksəldilməsi və nəhayət, əməkdaşlıq şəraitinin təşkili sayəsində birgə fəaliyyətlərin yaranması və bunun nəticəsində yeni bilik, bacarıq və vərdişlər aşkarlanır. Bütün bunların təhlili və müqayisəsi və ümumiləşdirilməsi yeni nəticə çıxarmağa imkan verir və müvafiq şərait yaranır.

Fəal (interaktiv) təlimin reallaşdırılması heç də bəzilərinin düşündüyü kimi asan pedaqoji proses olmayıb ciddi araşdırmalar, təhlillər, ümumiləşdirmələr aparmağı tələb edir. Buna görə də fəal təlim prosesində hər bir şəxs çox böyük məsuliyyət daşımalı, təmkinli və səbirli olmalı, sinif yoldaşlarının fikrinə hörmətlə yanaşmalı, onları diqqətlə dinləməli, emosiyalara qapılmamalı, tezliklə nəticə çıxarmamalı, qərara gəlməməli, bu prosesdə həssaslıq nümayiş etdirməlidir.

Təlimin müvəffəqiyyətlə həlli birgə işləmək, nəticə çıxarmaq, ideya və təkliflər irəli sürməklə, bir sözlə əlaqəli fəaliyyətlərin qarşılıqlı təsirinə əsaslanmaq nəticəsində tapılmalıdır. Təsadüfi deyildir ki, fiziki tərbiyə prosesində müəllim və şagirdlərin fəaliyyətinin tənzimlənməsində fəal təlim metodundan istifadə edərkən onu «problemli-dialoji», «problemli» təlim də adlandıranlar vardır. Çünki bu cür təlimin müsbət həlli o zaman tapılar ki, prosesin digər iştirakçıları ilə fəal əməkdaşlıq şəraitində tənzimlənsin. Yəni fiziki tərbiyədə müəllim və şagirdlərin

dialoqu və əməkdaşlığının vacibliyi nəzərə alınaraq onun birgə həyata keçirilməsi təmin olunsun, qarşılıqlı təsirlə başa çatdırılsın.

Fəal təlimin psixoloji xüsusiyyətlərindən biri də təlimə yeni yönəmdə yeni baxışda yanaşılmasındadır. Konkret desək, ənənəvi təlimin gedişi dəyişdirilib, idrak fəaliyyətinin fəallaşdırılması, müstəqil yaradıcılıq fəaliyyəti ön plana keçirilsin. Burada öyrənənlərə təlim zamanı başqa məzmunda, mahiyyətdə yanaşılır, mövqeyi bildirilir. Təlim tədqiqat səciyyəsi, xarakteri daşımaqla şagirdlərin də mənimsəmə zamanı funksiyalarda yeniləşdirilmiş yeni mahiyyət daşımışdır. Bu, biliklərin, bacarıqların mənimsənilməsi və vərdişlərin aşılanmasında şagirdlərin aparıcı rol oynamasına, təlim prosesində bərabər hüquqlu olmasına təminatın təmin edilməsindədir. Həm də təlim dövründə müəllim və şagirdlərin funksiyalarının, mövqelərinin tam demokratikləşdirmə hesabına dəyişdirilməsi deməkdir. Bu, əslində şagirdə imkan verir ki, o, müstəqil olaraq tədqiqat fəaliyyətində olsun, topladığı faktik tədris materiallarını təhlil və müqayisə edə bilsin, sərbəst ümumiləşdirmələr aparsın, digər sinif şagirdləri ilə əlbir fəaliyyət göstərə bilsin. Fənn müəllimi ilə qarşılıqlı əməkdaşlıq şəraitində və birgə işləyə bilsin, çıxarılmış nəticələrə bərabərhüquqlu şəxs kimi sahib olsun. Burada şagirdlərin tədqiqatçı kimi məqsədi, mahiyyəti və vəzifələri düzgün və şüurlu surətdə dərk etməsi, fəallaşması, tapşırıq və göstərişləri heç kəsin müdaxiləsi olmadan yaradıcılıqla yerinə yetirməsi başlıca şərtdir. Bu vaxt onun tutduğu mövqeyi, nə məqsədlə icra etdiyi, nəyi mənimsəməli və nə üçün mənimsəməli və hansı yolla həyata keçirməli olduğundan ibarət olmalıdır.

Yekun nəticə isə ümumtəlim nəticələrinə nə dərəcədə, hansı səviyyədə uyğun olub-olmamasına aydınlıq gətirməlidir. Bundan əlavə, fiziki tərbiyənin tədris prosesində əldə edilmiş müsbət çalarlar, buraxılmış nöqsanlar və bunların baş vermə səbəbləri, həmçinin gələcək arzu olunan təlim fəaliyyətini reallaşdırmaqdan ötrü çıxış yolları, imkanları aşkara çıxarılmalıdır.

Müəllimin təlim prosesində əsas işi isə təlimin qavranılması məqsədilə istiqamət vermək, yol göstərmək bələdçilik etməkdən ibarətdir. Fiziki tərbiyə və ya sinif müəllimi bələdçi kimi, həm də funksiyası təlim üçün əlverişli şərait yaratmaq mövqeyindən çıxış etməlidir.

Fiziki tərbiyəni tədris edən müəllimin vəzifəsi öyrənməyi öyrətməklə bərabər öz nüfuzundan süni şəkildə istifadə etməməli, sadə, təvazökar və təmkinli olmalıdır. O, həm də nüfuzlu, cəmiyyətdə hörmətli bir şəxs kimi öyrənənlər üzərində «hökmdar»lıq etməməlidir. Müəllimin fəaliyyətinə, eləcə də şagirdlərlə ardıcıl, mütəşəkkil təhsil əməkdaşlığı etmək daxildir. O, borcludur ki, şagirdlərlə məşğələləri sistemli və ardıcıl olaraq təşkil etməklə yanaşı, fiziki tərbiyə fənni üzrə təlim nəticələrinə məqsədyönlü nail olsun, tapşırıqların dəqiq icrasına müvəffəq olsun. İlk növbədə yüksək səviyyədə fəal təlim şəraiti yaratsın, şagirdlərə müstəqil tədqiqat aparması məqsədilə düzgün istiqamətləndirilsin. Bədən tərbiyəsi mövzuları üzrə problemli vəziyyəti yaratsın, öyrənənlərin hərəki bilik, bacarıq və vərdişlərə yiyələnməsi, onun daha da möhkəmləndirilməsi, təkmilləşdirilməsi üçün yolları göstərsin, metodik tövsiyələr versin. Bütün deyilənlərə nail olmaqdan ötrü təhsil və özünü təhsilinə müasir tələbat baxımdan yanaşmalıdır. Başlanğıc olaraq öz üzərində ciddi və məsuliyyətlə işləməli, mütaliə etməli, təhsildəki yeniliklərlə tanış olmalı, treninqlərdə, seminarlarda müntəzəm və fəal iştirak etməli, fikir mübadiləsi aparmalı, qabaqcıl müəllimlərin iş təcrübəsini öyrənməli, təhlil etməli və öz iş fəaliyyətində əsas götürməlidir. Məsələyə Milli Kurikulum mövqeyindən yanaşmış olsaq, bu sahədə qazanılmış bilik, bacarıqlarını digər həmkarlarına da çatdırsın, bu mürəkkəb və olduqca çətin bir işdə valideynlərə kömək göstərsin, müvafiq seminarlar təşkil etməklə izahat işləri də aparmağa bir vətəndaş kimi borcludur. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Təhsil Problemləri İnstitutunun hazırlamış və nəşr etdirdiyi «Kurikumların hazırlanması və tətbiqi məsələləri» adlı metodik tövsiyədə (Bakı, «Kövsər» nəşriyyatı, 2008-ci il, səh.158) deyildiyi kimi…. Müəllim biliklərin qazanılması yolunda öz bələdçi roluna yiyələnməklə kifayətlənməməli, həm də öz konkret funksiyalarını bilməli və bunları həyata keçirməyi bacarmalıdır. Bunun üçün o, ilk növbədə, fasilitasiya proseinin mahiyyətini aydın başa düşüb dərk etməlidir: fasilitasiya bir proses kimi yönəldici, köməkçi sualların səmərəli tətbiqinin köməyi ilə diskussiyaların təşkili və şagirdlərin fəallaşdırılması prosesindən ibarətdir.

Fasilitasiyanın mühüm xüsusiyəti ondan ibarətdir ki, yeni bilik müəllim tərəfindən deyil, şagirdlər tərəfindən aşkara çıxarılmalı, əsas funksiyası isə düşüncəni inkişaf etdirməli və onu lazımi məcraya yönəltməlidir. Fasilitasiya yanaşmasının başlıca məqsədi şagirdlərin öyrənmək və yaratmaq tələbatlarını tam ödəmək, onların öz potensialını həyata keçirə bilməsi üçün şərait yaratmaqdır.

Fəal (interaktiv) təlimdə psixoloji amillərdən biri də müəllimin ümumtəlim nəticələrinə yüksək səviyyədə nail olmasında şagirdlərin nüfuzunu, hörmətini qazanmasındadır. Xüsusən dostluq, mehribançılıq əsasında qarşılıqlı hörmətin, etibarın yaranmasındadır. Burada mühüm yanaşma təlimdə demokratikləşməyə riayət edilməsi, fərdi qarşılıqlı münasibətlərin yaranması üçün xüsusi şəraitin olması çox vacibdir. Bütün bunlarla bərabər, müəllimin təlim dövründə və təlimdənkənar vaxtlarda şagirdlərə humanist-mövqeyindən yanaşması hörmətcil, mərhəmətli olması, qayğı, diqqət və maraq göstərməsi də lazımdır. Təlim prosesində həlledici və aparıcı psixoloji momentlərdən biri də ümumsinif mühitinin, şagirdlərin əhval ruhiyyəsinin, təhsil və şəxsi maraqlarının nəzərə alınması da xüsusi əhəmiyyətə malikdir. Lakin yaddan çıxarmamalı ki, bunlar hər bir sinfə aid qoyulmuş təlim, etik və estetik normalardan kənara çıxmamalı, ilk növbədə ümumdövlət və cəmiyyət mənafeyi əsas götürülməli, vətənpərvərlik və ölkənin müdafiəsi mövqeyindən yanaşılmalıdır.

Müəllimin motivasiya, problemin qoyuluşu, sərbəst yaradıcılıq tədqiqat işinin aparılması, onun gedişi zamanı toplanmış faktların informasiya mübadiləsi, onların təhlili, saf-çürük edilməsi, ümumiləşdirilməsi və ya təsnifatı (qruplaşdırılması) tətbiq etməsi, nəticənin qiymətləndirilməsi və sairə fasilitasiya prosesində və fasilitator kimi mövqeyini nümayiş etdirərkən fəal (interaktiv) təlimin göstərilən psixoloji mexanizmlərinin düzgün tətbiqinə nail olmaq vasitəsilə tədrisin səmərəliliyinə müvəffəq ola bilər.

**Problemin elmi yeniliyi**. Fiziki tərbiyənin tədrisində təlimin (interaktiv) metodlarından istifadənin psixoloji amilləri və onların təlimdə nəzərə alınmasının əhəmiyyəti və imkanları araşdırılır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Fiziki tərbiyə prosesində fəal təlimin metodlarının tətbiqi zamanı nəzərə alınmalı, psixoloji faktorlara aydınlıq gətirilir və onlardan ibtidai sinif şagirdlərinin fiziki tərbiyəsində istifadə yolları şərh edilir. Fiziki tərbiyə üzrə ümumtəlim nəticələrinə nail olmaq üçün həmin pedaqoji-psixoloji araşdırmalardan faydalanmaq mümkündür.

## ƏDƏBİYYAT

1. Kurikulumların hazırlanması və tətbiqi məsələləri / Tərtib edənlər: A. Əhmədov və Ə. Abbasov. Metodik tövsiyə. Bakı: Kövsər, 2008.
2. Quliyev B.S. Mütəhərrik və əyləncəli oyunlar. Bakı: ADPU, 2011.
3. Охотина Л.Т. Психологические основы урока. М.: Просвещение, 1977.
4. Онищук В.А. Урок в современной школе. М.: Просвещение, 1998.

**Б. Кулиев**

## ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ИСПОЛЬЗОВАНИЯ АКТИВНОГО МЕТОДА ОБУЧЕНИЯ В ПРЕПОДАВАНИИ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ

### РЕЗЮМЕ

В статье выясняется усвоение новых знаний и умений путем исследовательской работы и творческой деятельности учащихся, а также совместное сотрудничество учащихся с учителями в процессе использования активного метода обучения. Раскрывается возможность повышения мышления и двигательной деятельности в процессе использования активного метода обучения. Для этого важным считается создание проблемной ситуации и организация реальных условий для преподавания физических упражнений и игр в начальных классах. Отмечаются благополучные результаты в зависимости от соответствующих целей и задач, тематики проведенной работы в применении активного метода.

В статье говорится о задаваемых вопросах связанных со значением физического воспитания и выполняемых упражнений. Регулярное выполнение практических заданий повышает активность мышления и двигательной деятельности учащихся.

**B. Guliyev**

## PSYCHOLOGICAL ASPECTS OF USING ENERGETIC INSTRUCTION IN TEACHING OF PHYSICAL TRAINING

### SUMMARY

In Energetic instruction is investigated doing independent research work and creative activity of students, gained new knowledge and ability collaboration with teacher. It is dealt with taking out the suitable result to do analysis, comparison and elasticity in this time. In active training process to achieve general instruction the suitable situation of physical training subject, aim, duty and forming the real condition in activity and increased cognitive and conscious activity chance of students are explained.

The influence of conscious activity is explained giving the questions about execution and importance of physical actions and doing practice exercises by students.

*Redaksiyaya daxil olub: 22.01.2014*

# KİMYANIN TƏDRİSİNDƏ MÜASİR YANAŞMALAR

**Aysəba Məmmədova,**
*kimya üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: aysaba_mammadova@yahoo.com

**Gülzar Şadlinskaya,**
*kimya üzrə fəlsəfə doktoru, baş müəllim*
*ADPU*
E-mail: gulzar.sadlinskaya@mailru

**Rəyçilər:** *dos.* **M. Fərəcov,**
*dos.* **A. Əliyev**

***Açar sözlər:*** *təhsil, kurikulum, strategiya, müasir dərs, məzmun standartları*
***Ключевые слова:*** *образование, курикулум, стратегия, современное обучение, содержательные стандарты*
***Key words:*** *education, curriculum, strategy, modern learning, content standards*

Azərbaycan müstəqillik qazandıqdan sonra təhsildə yenidənqurma işləri aparılmağa və demokratik ölkənin prinsiplərinə uyğun müasir tələblərə cavab verən yeni məzmunlu təhsil sistemi yaradılmağa başlanıldı. Təhsilin məzmununda edilən dəyişikliklər Kurikulum islahatı adı altında aparılır, yeni fənn kurikulumları tədrisdə tətbiq edilir [1].

Ölkəmizdə təhsilin inkişafı istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri də "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədinin qəbul olunmasıdır [2, 3].

Strategiyada keyfiyyət nəticələri və əhəmiyyətliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətlərdə geniş miqyaslı tədbirlər nəzərdə tutulur. Təhsil iştirakçıları da öz fəaliyyətlərini nəzərdə tutulan məsələlərin həlli istiqamətində müəyyənləşdirməlidirlər.

Məqalədə Strategiyanın hədəflərinə uyğun olaraq məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyətin yetişdirilməsində bilavasitə rolu olan müasir müəllim və hazırkı dövrdə mətbuatda müzakirə mövzusuna çevrilən müasir dərslə bağlı fikirlərimizi kimya fənninin tədrisi üzrə bildirmək istəyirik.

Təlimin əsas təşkilat forması olan dərsin müasir tələblər səviyyəsində qurulması üçün ümumi olaraq aşağıdakı vacib amilləri göstərmək olar.

Kimya fənni kurikulumunun məzmununu dərindən bilən müəllimin olması.

**1.** Müasir təlim texnologiyalarından elmi və metodiki cəhətdən yüksək səviyyədə istifadə edilməsi. Şagirdlərin müstəqil olaraq bilik qazanmaları üçün mehribançılığa, qarşılıqlı hörmətə əsaslanan, azad və rahat şəraitli işgüzar təlim mühitinin yaradılması.

**2.** Reaktiv, avadanlıq və təlimin müasir texniki vasitələti ilə təchiz olunmuş kimya laboratoriyasının olması.

**3.** Valideyn və müəllimin birgə səyi nəticəsində bütün fənlərə, eləcə də kimya fənninə həvəsi, marağı olan, əməkdaşlıq etməyi, qarşılıqlı hörmət və etik normalara uyğun davranışla ünsiyyət qurmağı bacaran şagird kollektivinin formalaşdırılması.

**4.** Kurikuluma əsaslanan, Azərbaycan şəraitində istifadə oluna bilən, təfəkkür məktəbinin ehtiyac və tələblərinə cavab verən yeni dərsliklərin olması [4].

Məzmun standartları, təlim strategiyaları və qiymətləndirmə mexanizmlərinin əhatə olunmasına görə kompleks sənəd hesab edilən kimya fənni üzrə təhsil proqramında (kurikulumunda) yeni məzmunun nəticələr formasında verilməsi müəllimlərə fəaliyyətində sərbəst olmağa, müvafiq təlim strategiyaları seçməyə, yaxud öz imkan və şəraitlərinə uyğun yenilərini hazırlamağa imkan yaradır, onları müasir dərsliklərin və digər resursların hazırlanmasına istiqamətləndirir [5].

Kimya fənni üzrə təhsil proqramı (kurikulumu) şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına istiqamətləndiyindən onların inkişafını ardıcıl olaraq izləməyə imkan verən məzmun və strategiyaları əhatə edir. Müxtəlif səviyyələrdə müəyyənləşdirilmiş məzmun standartları şagirdlərin əldə edəcəkləri dəyərlərin göstəricisi rolunu oynayır. Kimya fənni üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün aşağıdakı məzmun xətləri müəyyən edilmişdir:

1. Maddə və maddi aləm. 2. Kimyəvi hadisələr. 3. Eksperiment və modelləşdirmə. 4. Kimya və həyat

Kimya fənni üzrə məzmun xətlərində əks olunan biliklərin əldə edilməsində şagirdə praktik imkan yaradan fəaliyyət xətləri aşağıdakılardır.

*1. Maddələrin adlandırılması. 2. Təyin etmə. 3. Tərtib etmə. 4. Xarakterizə etmə. 5. İzahetmə. 6. Problemlərin həlli. 7. Kimyəvi təcrübələrin yerinə yetirilməsi. 8. Məsələ və çalışma həli, kimyəvi hesablamalar. 9. Ünsiyyətqurma və əlaqələndirmə. 10. Təqdimetmə.* Fəaliyyət xətləri kurikulumun həyata keçirilməsi üçün məzmun standartlarının mənimsənilməsini təmin edir.

Kimya fənni üzrə təhsil proqramında (kurikulumunda) fənlərarası və fəndaxili inteqrasiyanın nəzərə alınması şagirdlərin həmin fənnə aid bilikləri ardıcıl, sistemli və bütöv şəkildə qavramalarına şərait yaradır.

Kimya dərslərinin müasir tələblər səviyyəsində keçirilməsi üçün kurikulumda məzmunun tələbi kimi nəzərdə tutulan planlaşdırma və qiymətləndirmənin də böyük rolu vardır. Müasir müəllim planlaşdırma növlərinin mahiyyətini dərindən bilməli və bu işi yerinə yetirərkən müvafiq qayda və prinsiplərə əməl etməlidir. Gündəlik dərsin planını hazırlayarkən müəllim onun məqsədlərini, standartlarını, növünü, təlim üsullarını, iş formalarını düzgün müəyyən etməli, fəndaxili və fənlərarası inteqrasiyanı nəzərə almalı, müvafiq resursları hazırlamalıdır. Kimya fənnində mövzuların dərindən mənimsənilməsi, biliklərin müstəqil qazanılması, şüurlu surətdə dərk edilməsi, qazanılan biliklərin yaradıcı tətbiq edilməsi üçün əyanilik prinsipinə uyğun olaraq nümayiş təcrübələrinin aparılması, laboratoriya və praktik işlərin icra edilməsi, internet materiallarından istifadə edilməsi vacib olan şərtlərdəndir.

Kimya fənninə aid biliklərin şagirdlər tərəfindən sistemli və dərindən mənimsənilməsində müasir qiymətləndirmə sisteminin, xüsusilə də məktəbdaxili qiymətləndirmənin üsul və vasitələrindən düzgün istifadə edilməsi səmərəli nəticə verər. Beləki, ənənəvi qiymətləndirmədə şagirdlər bir çox hallarda qiymət almaq xatirinə, onların növbəsi çatanda dərsə hazırlaşırlar, yaxud yaxşı oxuyan şagird hər hansı bir səbəbdənsə dərsə hazır olmayanda aldığı aşağı qiymətə görə ruhdan düşür və növbəti dərsə hazırlaşmır. Belə hallar mövzulara aid materialların mənimsənilməsində ardıcıllığı pozur və şagird artıq növbəti bilikləri mənimsəyə bilmir. Sözsüz ki, kimyəvi elementin işarəsini, valentliyini bilməyən şagird onun formulunu düzəldə bilməz, maddələrin xassələrini bilmədikdə baş verən reaksiyaların nəticəsində nələrin alınacağını, onun getmə qanunauyğunluqlarını dərk edə bilməz. Eləcə də, kimyəvi rabitənin növlərini, oksidləşmə, reduksiya proseslərini, kation və anionların fəallıq sırasını və s. bilmədən, elektroliz hadisəsinin mahiyyətini başa düşmək olmaz.

Müasir qiymətləndirmə sisteminə aid olan formativ qiymətləndirmənin kurikulumun tələblərinə uyğun aparılması belə halların qarşısını alır, şagirdə imkan yaradır ki, yenidən dərsə hazırlaşsın, qiymətini düzəltsin, yüksək nailiyyət əldə etsin.

Bir halda ki, tədris və təlimlə bağlı müasir pedaqoji anlayışlar, yanaşmalar işlədilir, dərslərin növlərinə aid müəyyən fikirlər söyləmək və onları aşağıdakı kimi adlandırmaq olar.

***1.** Biliklərin müstəqil qazanılması dərsi.*

*2. Biliklərin əldə edilməsində irəliləyişlərin müəyyənləşdirilməsi dərsi.*

*3. Qazanılmış biliklərin yaradıcı tətbiq edilməsi dərsi.*

*4. Əldə olunmuş bilik, idrak fəallığı, bacarıq, səriştə, vərdişlərin səviyyəsinin müəyyənləşdirilməsi dərsi.*

Deyilənlər tərəfimizdən verilən təkliflərdir. Sözsüz ki, əsas fikir bu sahənin əsil mütəxəssisləri olan pedaqoq və metodistlərindir. Müasir dərs üçün müəllimin yuxarıda sadalanan fəaliyyətləri ilə yanaşı, onun aşağıda göstərilən funksiya, vəzifə və bacarıqlara malik olması da tədrisin yüksək səviyyədə aparılmasına, şagirdlərin kimyəvi bilikləri şüurlu şəkildə qavramalarına müsbət təsir göstərər [6,7].

*Müasir müəlliminin funksiyaları*

*1. Qnostik(idraki) funksiya:*

- Kimya fənninin məzmununa aid əsas məlumatları ayırmaq, problem xarakterli mövzuları müəyyələşdirmək, ortaya çıxacaq çətinlikləri qabaqcadan görmək;
- Tədris materialının şagirdlər tərəfindən mənimsənilməsinin fərdi-psixoloji xüsusiyyətlərini nəzərə almaq;
- Şagirdlərin inkişaf prosesini həm koqnutiv, həm də ümumpsixoloji planda diaqnozlaşdırmaq.

*2. Konstruktiv funksiya:*

- Pedaqoji prosesin məqsəd və vəzifələrini formalaşdırmaq;
- Kimya dərslərində və dərsdənkənar işlərdə pedaqoji fəaliyyət sistemini planlaşdırmaq;
- Planın reallaşdırılmasının məzmun, forma və üsullarının seçilməsi.

*3. Kommunikativ funksiya:*

- Kimya fənni üzrə tədris materialının şagirdlərin qavramaları üçün idrakın psixoloji qanunlarından istifadə edilməsi;
- Məzmun və xarakterini nəzərə almaqla verilən məlumatların şagirdlərin başa düşəcəyi şəkildə optimal təqdim edilməsi;
- Ünsiyyət yaradılması;
- İnformasiyaların hansı formada çatdırılmasının sistemləşdirilməsi, nizamlanması (təlimin texniki vasitələrinin, cədvəllərin və s-nin istifadəsi);
- İnformasiyaya emosional dəyərli münasibətin formalaşdırılması;
- Dialoji münasibətlərin yaradılması;
- Ünsiyyət prosesinin stimullaşdırılması;
- Ünsiyyət üçün ifadəli (verbal və qeyri-verbal) vasitələrdən istifadə edilməsi.

*4. Təşkilatçılıq funksiyası:*

- Kimya dərslərində şagirdlərin işinin təşkili;
- Funksiyaların bir qisminin şagirdlərə həvalə edilməsi;
- Sinifdə şagirdlər arasında funksiya və vəzifələrin bölüşdürülməsi;
- İşin gedişatı və nəticələrinin obyektiv qiymətləndirilməsi;
- Dərsdə ciddi işçi intizamın təşkili;
- Dərsdə işin yerinə yetirilməsinin kiçik summativ və yekun yoxlanılması.

*5. Özünüreallaşdırma funksiyası:*

- Özünün pedaqoji ustalıq təcrübəsini ümumiləşdirməsi, təhlili və dəqiqləşdirməsi;
- Digər müəllimlərin səmərəli metodiki üsullarından öz pedaqoji fəaliyyətində məqsədəuyğun istifadə etməsi;

*Kimya müəlliminin vəzifələri*

- Tədris müəssisələrinin cəmiyyətdə rolunu, müəllimin konkret fəaliyət sahəsinə aid olan fənnin əsas problemlərini başa düşməsi;
- Təhsil sisteminə, tədris prosesinin subyektlərinin (müəllimlərin, şagirdlərin və onların valideynlərinin) vəzifələrinə aid əsas qanunvericilik sənədlərini bilməsi;

- Kimyanın fənn kimi konseptual əsaslarını, ümumi bilik və dəyərlər sistemində, məktəb tədris planında yerini bilməsi;
- Pedaqoji fəaliyyətdə fərdi fərqləri, həmçinin yaş, sosial, psixoloji və mədəni fərqliliyi nəzərə alması;
- Şagirdlərin hazırlıq səviyyəsinə, onların, eləcə də cəmiyyətin tələblərinə uyğun tədris proqramının reallaşdırılması, seçilməsi və analitik dəyərləndirməsi üçün fənni dərindən bilməsi.

*Kimya müəllimi həmçinin aşağıdakıları bilməlidir:*

- Təlim və tərbiyə proseslərinin, onların psixoloji əsaslarının mahiyyətini, pedaqoji tədqiqatların təşkilinin ümumi məsələlərini, tədqiqat üsullarını və onların imkanlarını, tədqiqatın nəticələrinin ümumiləşdirilməsi və tərtibi üsullarını;
- Müəllimin peşəkarlığının təkmilləşdirilməsi yolları və özünütəkmilləşdirmə üsullarını;
- Öz fənninin tədrisi metodikasını;
- Məktəb tədris planlarının, proqramlarının və dərsliklərin məzmunu və quruluşunu;
- Kimya üzrə məktəb kursunun özünə məxsus metodikalarını;
- Məktəb mimya kursunun əsas mövzularının öyrənilməsinə müxtəlif yanaşmaları;
- Müstəqil iş aparmaq vərdişlərinin formalaşdırılmasını, şagirdlərin yaradıcılıq qabiliyyətlərinin və məntiqi təfəkkürünün inkişaf etdirilməsi üsullarını;
- Kimyanın elmi əsaslarını, elmin müvafiq sahəsinin tarixini və metodologiyasını;
- İnformasiyaların (məlumatların) kompüter vasitəsi ilə əldə edilməsi üsullarını.

*Kimya müəllimi aşağıdakıları bacarmalıdır:*

- Öz pedaqoji fəaliyyətini təhlil, təşkil etməyi və layihələşdirməyi;
- Tədris planına uyğun və onun strategiyası əsasında dərslərin planlaşdırılmasını;
- Hər hansı bir materialın təqdimatının ardıcıllığını təmin etməyi və fənlərarası inteqrasiya yaratmağı;
- Proqramın müvafiq mövzularının və bölmələrinin öyrədilməsi zamanı şagirdlərin bilik səviyyələrinə uyğun müxtəlif formalı daha effektiv məşğələlərin hazırlanmasını;
- Təlimin texnolojiləşdirilməsi üçün müvafiq resursların seçilməsi və istifadəsini;
- Tədris və tədris-metodiki ədəbiyyatları araşdırmağı və ondan dərsə hazırlaşan zaman istifadə etməyi;
- Tədris-metodiki materialların hazırlanmasında xidmət proqramlarından, tətbiqi proqram paketlərindən və qurğu vasitələrindən istifadə etməyi, kompüter tətbiq etməklə məşğələlərin keçirilməsi metodikasına yiyələnməyi;
- Tədrisin məqsədlərinə nail olmaq üçün əlverişli təlim mühiti yaratmağı;
- Dərsdə motivasiya və əks-əlaqə yaratmağı.

**Problemin aktuallığı.** Müstəqillik dövründə Azərbaycan Respublikasında təhsil islahatı keçirilməklə ölkənin prinsiplərinə uyğun müasir tələblərə cavab verən yeni məzmunlu sistem fəaliyyət göstərir. Bu Fənn kurikulumu adı altında aparılır. Məqalədə bu özünü aydın göstərir.

**Problemin elmi yeniliyi.** Azərbaycan təhsil strategiyası baxımından məqalə əhəmiyyətlidir. Təhsil işçiləri öz fəaliyyətlərini bunun əsasında qurmaqla təhsildə əhəmiyyətli işlər yerinə yertirr.

**Problemin praktik əhəmiyyəti.** Təhsil strategiyasının hədəflərinə uyğun olaraq azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən gənclərin yetişməsinə xidmətdən ibarətdir.

## ƏDƏBİYYAT

1. Əhmədov A. Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru // Kurikulum, 2008, № 1
2. http://www.president.az/files/future_az.pdf
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası // Kurikulum, 2013, № 4

4. Novruzov Q., Abbasov Ə. "Yaddaş məktəbi"ndən "Düşüncə və təfəkkür məktəbi"nə // Kurikulum, 2014, № 1

5. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramları (kurikulumları) (VII-XI siniflər). Bakı, 2013.

6. Pedaqoji tədqiqatlar (elmi məqalələr məcmuəsi) Bakı: Nurlan, 2002.

7. Космодемьянская С.С., Гильмашина С.И. Методика обучения химии. Казань, 2011.

**А. Мамедова,**
**Г. Шадлинская**

**СОВРЕМЕННЫЕ ПОДХОДЫ В ОБУЧЕНИИ ХИМИИ**

**РЕЗЮМЕ**

В статье представляются требования, предъявляемые к современному уроку и современному педагогу, а также информирование учащихся содержанием и сутью куррикулума по химии.

**A. Memmedova,**
**G. Shadlinskaya**

**MODERN APPROACHES IN TEACHING CHEMISTRY**

**SUMMARY**

The article presents the requirements for modern and contemporary lesson teacher, as well as informing the students the content and substance of the chemistry curriculum.

*Redaksiyaya daxil olub: 22.01.2014*

# СИСТЕМА УПРАЖНЕНИЙ С ОПОРОЙ НА УЧЕБНЫЙ ТЕКСТ

**Лариса Колесникова,**
*АГПУ*
E-mail: elmar-kerimov@ rambler.ru

**Рецензенты:** *доц.* **Г.Мамедов,**
*доц.* **Н. Кязимова**

***Ключевые слова***: *умения, навыки, тренировочные упражнения, система упражнений, языковая единица*
***Açar sözlər***: *bacarıqlar, vərdişlər, məşq xarakterli tapşırıqlar, tapşırıqlar sistemi, dil vahidi*
***Key words:*** *abilities, skills, training exercises, exercise system, linguistic unit*

Одним из основных условий успешного формирования у учащихся грамматических навыков или умений современная методика считает адекватность системы заданий для формирования этих навыков и умений. Предлагаемые учащимся задания должны носить такой характер и быть расположенными в такой последовательности, чтобы их выполнение вело к формированию конкретного навыка или определенной его стадии. В общем виде это положение является доказуемым и комментариев не требует. Оно известно каждому, преподающему русский язык как неродной. Поэтому, естественно, что преподаватель, целенаправленно организующий учебный процесс, стремится реализовать это положение в своей педагогической практике и подбирает для отработки каждой языковой единицы нужную систему заданий. При этом он учитывает, что такая система должна соответствовать, с одной стороны, характеру и особенностям самой языковой единицы, а с другой, должна соответствовать степени активизации изучаемой единицы в речи учащегося, заданной программой конкретного курса обучения. В процессе подбора нужных заданий преподаватель постоянно обращается к тому, что мы условно можем назвать продуктом консервации эталонной педагогической практики, т.е. к существующим учебникам, пособиям и сборникам грамматических упражнений.

В настоящее время пособие по русскому языку как неродному предлагают преподавателю достаточно широкий набор упражнений и заданий, направленных на формирование грамматических навыков и умений. И все же в подавляющем большинстве случаев преподаватель бывает вполне удовлетворен предлагаемым материалом и, видя, что этот материал не обеспечивает всех потребностей учебного процесса в области формирования грамматического навыка, проводит постоянную дополнительную работу по составлению нужных заданий и упражнений.

Потребность в дополнительной работе преподавателя вызывается двумя постоянными и, если можно так выразиться, неизбежными причинами.

Во-первых, необходимость учета специфики конкретного учебного контекста, его особенностей и возможностей, его интереса и его рабочего настроя. Очевидно, что преподаватель будет всегда и во всех случаях модифицировать имеющиеся в учебниках и пособиях упражнения с учетом потребностей конкретного контингента - это входит в круг его обязательных задач при осмыслении путей подачи той или иной грамматической темы в конкретной группе.

Во-вторых, нередко имеет место отсутствие должной соотнесенности между материалом учебника, по которому проводится обучение, и материалом сборников грамматических упражнений, примыкающих к этому учебнику или употребляемых параллельно с ним. Нередко составителям учебника и авторам сборников упражнений не удается достигнуть полной стыковки материала: при общем наборе изучаемых языковых единиц часто

наблюдается разнобой в акцентах, в направленности материала в определенный вид речевой деятельности, в реализации связей языкового материала со смысловой стороной обучения и т.п. Естественно, что задача преподавателя состоит в том, чтобы снять этот разнобой, откорректировать пособие с позиции основного учебника.

Очевидно, что если полный набор упражнений и заданий, подобранный по какой-либо грамматической теме изо всех современных учебников и пособий, не удовлетворяет преподавателя достаточно часто, то это означает, что в системе этих материалов есть такие особенности, которые делают их неадекватными потребностям учебного процесса. Это означает также, что необходим анализ этих особенностей, который выявил бы их причину и, вместе с тем, ориентировал бы преподавателя на то, какую работу он должен каждый раз совершать, пользуясь ныне действующей системой заданий.

Как известно, существует несколько стадий формирования грамматического навыка: презентация языковой единицы, ее осмысление учащимся, имитация, первичная тренировка, первичная проверка усвоения, употребление в ситуациях, сближение с единицами, сосуществующими или интерферирующими с изучаемой и, наконец, употребление в тексте. В имеющихся сборниках упражнений мы, как правило, встречаем упражнения трех типов: на наблюдение, на первичную тренировку в предлагаемых образцах и так называемые творческие упражнения - на свободное употребление изучаемой структуры в спонтанной речи учащихся.

В упражнениях, соответствующих стадии наблюдения, нередко встречаются такие недостатки, как: нечеткая формулировка цели упражнения, неопределенность выводов, к которым должен прийти учащийся, выполнив упражнения, недостаточно детальные описания особенностей наблюдаемой языковой структуры.

Тренировочные упражнения по своему составу также стандартны (выбор нужной формы и т.д.). Творческие задания нередко предлагаются без учета реальной языковой базы. Если преподаватель в ходе своей работы хочет обеспечить все стадии формирования грамматического навыка, то он должен сделать, по крайней мере, следующее: добавить упражнения на осмысление изучаемого грамматического явления операционное обогатить, сделать более разнообразными тренировочные упражнения, довести их до рамок текста, добавить упражнения на ситуативное употребление изучаемой структуры, на столкновение ее с соседствующими структурами. Кроме того, ему нужно оснастить творческие упражнения достаточным языковым материалом, что позволяет им действительно стать базой повышения не только коммуникативной, но и речевой компетенции учащихся.

В сборниках грамматических упражнений расположение материала диктуется формой, вернее, набором форм, объединенных общим смысловым значением. Здесь предлагается как бы набор форм, реализующих в речи определенный смысл. Поэтому преподаватель никогда не может начать введение конкретной структуры со сборника грамматических упражнений, не предпослав каждой изучаемой структуре свой комментарий, определяющий цель ее использования и сферу применения.

Любая изучаемая грамматическая структура имеет в реальной речи конкретную адресацию в определенный вид речевой деятельности. В сборниках грамматических заданий это положение отражено на сегодняшний день неполно и непоследовательно. Так, уступительные предложения с союзами как бы ни, где бы ни ... снабжены набором заданий, активизирующих их до уровня продукции, а уступительные предложения с союзами но, однако снабжены более чем скромным материалом. Нередко отсутствует и адресация структур в устную или письменную речь, в диалог или монолог. Следовательно, преподаватель сам должен адресовать каждую из объединенных определенным смыслом структур в тот или иной вид речевой деятельности, в устное или письменное продуцирование, в диалогическую или монологическую речь и в зависимости от этого варьировать и дополнять набор предлагаемых заданий.

Лексическое наполнение грамматической модели не должно затруднять ее усвоение. Это положение соблюдается редко, его нарушение стало почти закономерностью. Лексическая трудность и лексический разнобой многих предлагаемых заданий вызывают потребность в не отстроенном комментировании лексики на занятиях, в дополнительной словарной работе с «необязательным» по изучаемой теме словами. Эта работа занимает много учебного времени и в силу этого фактически «закрывает» многие упражнения для использования в средних и слабых группах. Чтобы использовать такие упражнения, преподаватель должен делать лексические замены, упрощения, давать дублирующие задания на более активном, более нужном учащимся лексическом материале.

В сборниках упражнений стилистические пометы даются редко и несистемно. Этому способствует уже названный факт: вопрос тексто- образования занимает минимальное место в системе предлагаемых заданий. Текст фигурирует либо в упражнениях на наблюдение, либо в творческих заданиях на построение текста, о которых шла речь выше. Но типовой текст с преимущественным употреблением изучаемой структуры со своими стилистическими особенностями выступает в заданиях крайне редко. Поэтому подбор такого материала, который обеспечил бы вывод изучаемой структуры в типовой текст, ее стилистическая маркировка, так же становится постоянной задачей преподавателя.

Работа с текстом предполагает использование приемов, которые направлены на формирование таких умений, как пересказ текста, ответы на вопросы к тексту и т.д. Краткая форма пересказа текста предлагает учащемуся лимитированные возможности для репродуктивной речи. Преодоление смысловых трудностей побуждает к продуцированию собственных смыслов, а это и является одной из целей пересказа.

Исходя из вышесказанного, можно сформулировать принципы построения системы упражнений, направленные на развитие умений и навыков у студентов. Система упражнений должна:

а) обеспечить достижение целей;

б) обеспечить понимание текста на уровне смысла;

в) обеспечить дидактико-методическую задачу.

Выполняя упреждения, надо опираться и ориентироваться на задания-инструкции, которые заостряют внимание на определенных словах, словосочетаниях, фразах, имеющих роль для установления темы, идеи текста. К упреждениям такого типа относятся:

а) прочтите заголовок текста. Напишите собственный рассказ.

б) прочтите заголовок текста и запишите ассоциации, которые у вас возникли.

в) проиллюстрируйте заголовок текста самостоятельно.

Этапам понимание текста соответствует определение действия, которое отвечает учебным целям на занятиях с не русскими учащимся.

Учреждения должны быть направлены на обучении содержания сообщения по тематики установленному типу текста: на нахождения необходимой информации в тексте, целевого нахождения новой информации, умения выделять основные языковые средства.

Обобщая выше изложенное, отметим, что предложенная система упражнений необходима для представления текстового материала, способствует формированию знаний, способов организации и расположения информации, помогает развитию навыков и умений, анализировать любую информацию.

## ЛИТЕРАТУРА

1. Гурвич П.Б. Теория и практика эксперимента в методике преподавания иностранных языков. Владимир, 1980.

2. Зимняя И.А. Психологические аспекты обучения говорению на иностранном языке. М., 1977.

3. Бухбиндер В.А. О системе упражнений. М., 1991.

**L.Kolesnikova**

**ÖYRƏNİLƏN MƏTNLƏRƏ ƏSASLANAN ÇALIŞMALAR SİSTEMİ**

**XÜLASƏ**

Məqalədə qrammatik vərdiş və bacarıqların formalaşmasına uyğun olan çalışmalar sisteminin vacibliyindən danışılır. Mətnlə iş zamanı tapşırıq –təlimatlara əsaslanaraq oxunan mətni danışmağın, suallara cavab verməyin, çalışmaları yerinə yetirməyin lazım olduğu qeyd edilir. Müxtəlif səpgili çalışmalardan istifadə etməklə leksik əvəz etmələrin, sadələşdirmələrin əhəmiyyəti göstərilir. Hazırkı rus dilinin xarici dil kimi tədrisi metodikası sahəsində tətbiq edilmək üçün nəzərdə tutulmuşdur.

**L. Kolesnikova**

**EXERCISES SYSTEM BASED ON LEARNING TEXTS**

**SUMMARY**

The importance of exercises systems related to the formation of grammatical skills and abilites is mentioned in this article. While working on the text, retelling of text, answering the questions, doing exercises based on the exercise and instructions are necessary. By using of various exercises, the importance of lexical replacements and facilitations in shown. Present work is intended to be applied in the field of teaching methodology of Russian language as a foreign language.

*Redaksiyaya daxil olub: 17.02.2014*

# AZƏRBAYCANIN RƏMZİ BİTKİLƏRİNİN ŞAGİRDLƏRƏ ÖYRƏDİLMƏSİ

**Nərgiz Qarayeva,**
*böyük elmi işçi*
*ARTPİ*
E-mail: nargiz_666@hotmail.com

**Rəyçilər**: *prof.* **R. Sultanov,**
*dos.* **H. Hacıyeva**

***Açar sözlər :*** *flora, rəmzi bitki, nar, cökə, palıd, zeytun*
***Ключевые слова :*** *флора, растение-символ, гранат, дуб, олива, липа*
***Key words :*** *flora, plant symbol, pomegranate, oak, olive, lime*

Azərbaycan florasının şagirdlərə öyrədilməsi biologiyanın tədrisinin əsas məqsədlərindən biri olmuş və indi də mühüm vəzifə olaraq qarşıda durur. Problemin aktuallığı ondadır ki, Azərbaycan florası il-ildən tükənir, onun qorunmasına dair təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti artır. Bunlardan ən əsası fənlərin , o cümlədən biologiyanın tədrisində şagirdlərə floristik bilik və bacarıqların verilməsidir. Biologiyanın, xüsusən bitkilər kursunun tədrisində ölkənin florasının öyrədilməsinə geniş imkanlar açılır. İmkanları dəqiqləşdirməklə müəllimlər müvafiq mövzular üzrə floramızın bitki növlərini şagirdlərə tanıtmalı və onların qorunmasına dair bilik və bacarıqlar aşılamalıdırlar.

Azərbaycan florası o qədər zəngindir ki, onların hamısının kursun tədrisində öyrədilməsi mümkün deyildir. Ona görə də müəllim bitkilər kursunun illik planlaşdırılmasında mövzular üzrə öyrədəcəyi bitki növlərini müəyyənləşdirməli və onları əyani olaraq şagirdlərə tanıtmalıdır.

Kursun tədrisində floramızın ağac, kol, ot bitkilərini, bəzək, boyaq, dərman, fitonsidli, tərəvəz, meyvə, texniki, taxıl, yem, mədəni, yabanı bitki qrupları üzrə öyrədilməsi müsbət nəticə verir. Azərbaycanın relikt, endemik bitki növlərinin tanıdılması da şagirdlərin floristik biliklərini artırır və bitkilərə, yaşıllıqlara qayğılı münasibətləri formalaşdırır.

Floramız adları çəkilən bitki qruplarına dair çoxsaylı müxtəlif bitki növləri ilə zəngindir. Bu qruplara daxil olan bitkilərin bəziləri Azərbaycanın rəmzlərinə çevrilmişdir. Onlar öz iqtisadi, estetik, tibbi, sənaye əhəmiyyətinə, təbiətdə və cəmiyyətdəki mövqeyinə görə müvafiq titullar qazanmışlar. Belə bitkilərə dəmirağacını, palıdı, çinarı, zeytunu, Eldar şamını, ardıcı, qaraçöhrəni, narı, tutu misal göstərmək olar.

Biologiyanın tədrisində şagirdlərə bitkilərin, o cümlədən Vətənimizin florasının misilsiz əhəmiyyəti çatdırılmalı, onlarda təbiəti qorumaq, sevmək, qayğısına qalmaq, nazını çəkmək kimi bacarıq və vərdişlər aşılanmalıdır. Şagirdlərə floramızın bitki növlərinin rəmzi titullarına uyğun öyrədilməsi, əlavə mənbələrdən alınan faktlarla zənginləşdirilməsi, təlimin keyfiyyətinin artması və biliklərin uzun müddət yadda qalması ilə nəticələnir.

Şagirdlərimizə bitkilərimizin rəmzi mənası, ölkənin iqtisadi, siyasi, mədəni həyatında rolu, simvolik mövqeyi aydınlaşdırılmalıdır. Bunun üçün biologiya fənninin məzmununda imkanlar genişdir. Müəllim 6-cı sinifdə bitkilərə dair mövzuları keçərkən rəmzi bitkilərimizin öyrədilməsini diqqət mərkəzində saxlayır. Bitkilərin orqanlarını rəmzi ağac bitkiləri misalı əsasında öyrədir. Rəmzi bitkilərimizdən ən əsası palıd bitkisidir. Müəllim onun haqqında qısa məlumat verir. Gerbimizin qurulmasında onun budağının verilməsini, palıd ağacının rəmzi bir bitki kimi tanınması və qorunmasını nəzərə çatdırır. Göstərir ki, respublikamızın ərazisində 6 növ palıd ağacı bitir. Onların ən nəhəngi şabalıdyarpaq palıd hesab edilir. Palıd fıstıqçiçəklilər fəsiləsinə daxildir. O, Azərbaycanda geniş becərilir. Əksər rayonlarda yayılaraq meşələr əmələ gətirmişlər. Şabalıdyarpaq palıd Lənkəran və az miqdarda İsmayıllı zonasında yayılmışdır. Onun yarpaqları sadə, tam kənarlı, ləkvaridir. Yarpaqları tam açıldıqdan sonra çiçəkləyir. Müəllim palıd bitkisinin yarpaqlarını, dişi

və erkək çiçək qruplarını, meyvəsini şagirdlərə göstərir. Palıdın tikinti materialı, dekorativ, boya, aşılayıcı, dərman bitkisi kimi qiymətli olduğunu izah edir. Onların torpaq eroziyasının qarşısının alınmasında, təbiətdə su rejiminin tənzim olunmasında rolunu aydınlaşdırır. Şabalıdyarpaq palıd növünün "Qırmızı kitab" a daxil edildiyini nəzərə çatdırır.

Müəllim rəmzi bitkilərdən birini Şərq çinarı olduğunu göstərir. Qeyd edir ki, Şərq çinarı qədimdən əzəməti, möhtəşəmliyi, uzunömürlülüyü, möhkəmliyi ilə şöhrət qazanmışdır. Azərbaycanda geniş yayılmış ağaclardan biri olan Şərq çinarı da "Qırmızı kitab"a salınmışdır. Azərbaycanda onun qorunması üçün yayıldığı ərazi Bəsitçay qoruğu təşkil edilmişdir. Tək-tək və ya qrup halında çinar ağaclarına demək olar ki, hər bir bölgələrimizdə rast gəlinir. Yaşlı çinarların əksəriyyəti təbiət abidələrinə çevrilmişdir. Dekorativ xüsusiyyətlərinə görə şəhər və rayon mərkəzlərinin yaşıllaşdırılmasında ondan geniş istifadə edilir.

Müəllim göstərir ki, Şərq çinarı meşə ağaclarının nəhəngi olması, tez böyüməsi, yaraşıqlı çətiri, keyfiyyətli oduncağı ilə şöhrət qazanmışdır. Çinar toza, tüstüyə, zəhərli maddələrə qarşı davamlıdır. Ondan mebel, musiqi alətlərinin hazırlanmasında, gəmiqayırmada, küçə, bağ və parkların dekorasiyasında, meşəçilikdə, torpaqqoruyuculuq işlərində geniş istifadə olunur. Bütün bu xüsusiyyətlər onu bitki ailəmizin rəmzi ağacı hesab edilməsinə əsas verir. O, vüqarlıdır, əzəmətlidir, qədimdir, gözəldir, yaraşıqlıdır, xalqımızın fəxri və qiymətli sərvətidir.

Müəllim izah edir ki, floramızın rəmzi bitkilərindən biri meşələrimizin nadir incisi qaraçöhrə üçüncü dövrün relikt bitkilərindəndir. O, bir sıra ölkələrdə və respublikamızın hər yerində nadir, qiymətli və nəsli kəsilməkdə olan ağac kimi qorunur və artırılır.

Azərbaycanın rəmzi bitkilərindən biri də zeytundur. Abşeronun fəxri olan zeytun qədimliyi ilə seçilir. O, park və bağlarda dekorativ, bəzək bitkisi kimi əkilir, ondan zeytunçuluq sovxozları yaradılır, meyvəsindən geniş çeşidli məhsullar alınır. Zeytun uzunömürlü, möhkəm gövdəli, maraqlı ekoloji xüsusiyyətlərə malik, həmişəyaşıl subtropik bitkidir. Ondan dekorativ bitki kimi yaşıllaşdırmada, oduncağından dülgərlikdə, meyvələrindən yağ və müxtəlif ərzaq məhsullarının istehsalında, dərmanların, kosmetik vasitələrin alınmasında istifadə edilir.

Azərbaycan təbiətinin yetişdirdiyi nadir və qiymətli sərvətlərdən biri nar bitkisidir. Respublikamızın əksər rayonlarında, əsasən də Göyçayda becərilir. O, quru, subtropik ekoloji xüsusiyyətlərə malikdir. İstisevən bitki olub, havanın və torpağın istiliyinə davamlıdır. İşıqsevən kol bitkisidir. May-avqust aylarında çiçəkləyir, oktyabr-noyabrda meyvəsi yetişir. Meyvəsi iri şarşəkilli olub, hər meyvə 6-12 kameradan, 1000-dən artıq dənədən ibarət olur. Azərbaycanda seleksionerlər müxtəlif nar sortları almışlar. Narın meyvəsində, qabığında, kökündə, yarpağında şəkər, turşu, aşı, pektin, mineral və alkaloid maddələr vardır. Nar meyvəsi təzə halda 8 aya qədər keyfiyyətini saxlayır, ondan qiymətli ərzaq məhsulları narşərab, narrub, şirə, bəkməz, yabanı turş nardan limon turşusu, alma ekstraktı, tannin, pektin və başqa maddələr alınır. Onun qabığından dərini aşılayıcı maddə, çiçək və meyvəsinin qabığından müxtəlif boyalar əldə edilir. Nar meyvəsi və onun qabığı, şirəsi, çiçəyi, gövdəsinin qabığı və onlardan alınan məhsullarla ürək, qan-damar sistemi xəstəliklərini, şəkər, sinqa, astma, hipertoniya, böyrək, qaraciyər, öd kisəsi, helmintoz, mədə-bağırsaq, hepatit, boğaz, qulaq, göz, diş, damaq və başqa xəstəliklər müalicə edilir. B. Ebkopafor tədqiqatlarına, ərəb mənbələrinə əsasən yazmışdır ki, nar meyvəsinin qəbul edilməsi insanı paxıllıq, nifrət, kin, həsəd kimi hisslərdən xilas edir. Nardan dekorativ bağçılıqda geniş istifadə olunur.

Azərbaycanın adları çəkilən çox qiymətli rəmzi bitkilərin biologiyanın tədrisində öyrədilməsi imkanları genişdir. Mövzulara müvafiq olaraq digər rəmzi bitkilərin - tut, zəfəran, cökə, əncir, üzüm, limon, ardıc, Eldar şamı, dəmirağac, buğda, qarğıdalı, günəbaxan və başqalarının da öyrədilməsi mümkündür. Bunlardan xalq təsərrüfatının hər bir sahəsində geniş istifadə edildiyindən şagirdlər onları dərindən öyrənməli, istifadənin yollarını bilməli, onların mühafizəsi və artırılması işinə cəlb olunmalıdırlar.

**Problemin aktuallığı.** Orta ümumtəhsil məktəblərində vətənpərvər hərtərəfli, cəmiyyət üçün yararlı vətəndaşın yetişdirilməsi günün aktual məsələlərindəndir. Belə şəxsiyyətlərin

yetişdirilməsində biologiyanın tədrisində Azərbaycanın zəngin florasının, xüsusilə onun rəmzi bitkilərinin öyrədilməsi aktual problem kimi müəllimlərin qarşısında durur.

**Problemin elmi yeniliyi.** Orta ümumtəhsil məktəblərinin biologiya fənninin tədrisində Azərbaycanın zəngin florasının, o cümlədən rəmzi bitkiləri olan palıd, qaraçöhrə, nar, zeytun, Şərq çinarı, cökə, dəmirağac, Eldar şamı, və başqalarının öyrədilməsi ilk dəfə olaraq tədqiq edilmiş, onun imkanları müəyyən edilmişdir.

**Nəzərdən keçirilən məsələlərin təcrübəyə tətbiqi imkanları:** Müəllimlər tədqiqat materialından istifadə etməklə təlimin keyfiyyətini artırmaq, şagirdlərdən fənni, xüsusilə Azərbaycan florasını, onun rəmzi bitkilərini öyrənməyə marağını yüksəltmək imkanlarına malik olacaqlar.

## ƏDƏBİYYAT

1. Əsgərova A. Azərbaycanın ali bitkiləri. I, II, III cild. Bakı, 2005, 2006, 2008.
2. Həsənov X. Təbiət haqqında düşüncələr. Bakı, 1992.
3. Qarayev İ. Azərbaycanın relikt ağacları. Bakı, 1987.
4. İnternet resursları.

**Н. Караева**

## ОБУЧЕНИЕ УЧАЩИХСЯ РАСТЕНИЯМ-СИМВОЛАМ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Статья посвящена обучению учащихся растениям-символам флоры Азербайджана. Даны обширные сведения по биологическим особенностям выбранных растений - гранат, дуб, олива, олицетворяющих символы Азербайджана. Раскрываются пути и возможности изучения этих растений учащимися в преподавании биологии. Показаны существенные рекомендации по эффективному пути изучения азербайджанской флоры.

**N. Garayeva**

## EDUCATION OF PUPILS WITH PLANTS SYMBOLS OF AZERBAIJAN

## SUMMARY

Article dedicated to educating students with plants symbols of Azerbaijan flora. Given extensive information on the biological characteristics of selected plants - pomegranate, oak, olive tree, symbolizing symbols of Azerbaijan. The ways and possibilities of studying these plants students in teaching biology. Showing significant recommendations for effective ways of studying the flora of Azerbaijan.

*Redaksiyaya daxil olub: 30.01.2014*

# ORTA İXTİSAS TƏHSİLİ SİSTEMİNDƏ TƏDRİSİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ ÜSULLARI

**Səidə Bayramova,**
*Bakı İdarəetmə və Texnologiya Kollecinin müəllimi*
E-mail: bayramova.1975@ inbox.ru

**Rəyçilər:** *dos.* **B. Ağayeva,**
*dos.* **T. Paşayev**

***Açar sözlər:*** *orta ixtisas təhsili, kredit sistemi, kurikulumun tələbləri, test üsulu, kompetensiyalar, fəaliyyət, yanaşmalar*

***Ключевые слова:*** *среднее профессиональное образование, качество обучения, кредитная система, требования куррикулума, тестовый метод, компетенции, деятельность, подходы*

***Key words:*** *secondary education, education quality, credit system, curricular requirements, test method, competencies, activity, approaches*

Orta ixtisas təhsilinin ən vacib pilləsi ümumi orta təhsil bazasından test üsulu ilə daxil olan tələbələrlə aparılan iş özünəməxsus xüsusiyyətləri və incəlikləri ilə fərqlənir. Belə ki, orta ixtisas təhsilinə bu bazadan daxil olan tələbələrə ixtisasa yiyələnməyin bünövrəsi hesab edilən bu pillə həm tələbələrin ixtisas qazanması üçün savadlanmasına vəhəm də onları həyata istiqamətləndirilməsinə çox saylı töhfələr verir. Müasir dövrdə orta ixtisas təhsilin hərtərəfli inkişafı, yeniləşmiş şəraitdə təlimin həyata keçirilməsi, modernləşməsi və yeni təhsil standartlarının hərtərəfli tətbiqi zamanın tələbinə cavab versə də, yenə onun müasir tələb baxımından mütəmadi yeniləşməsinə, yeni kredit sisteminin tətbiq edilməsinə, təlim prosesinin (əsasən ümumi orta təhsil bazasından qəbul olalar üçün) kurikulum tələbləri çərçivəsində yüksəldilməsinə və yeni baza təhsil proqramının tələblərinə hərtərəfli cavab verməsinə ehtiyac ehtiyac vardır. Bu məqsədlə təlim prosesinin yüksəldilməsinə müsbət təsir edə bilən başlıca amillərdən biridə bu təhsil sistemində kredit sisteminin tam tətbiq edilməsi və buna uyğun bu təhsil səviyyəsinin ixtisas üzrə yeni təhsil standartları və təhsil proqramının hazırlanmasıdır. Bu zaman hazırlanan proqramın mənimsənilməsini təmin etmək məqsədilə məzmun komponentlərinə qoyulan tələblə bir neçə bənddən ibarət yerinə yetirilməlidir. Yeni təhsil proqramında tələbələrin yiyələnəcəkləri peşə kompetensiyaları, istehsal sahələri, təşkilatçılıq, inzibatçılıq sahələri, yeni qiymətlədirmə sisteminin bəndlər üzrə ətraflı verilməsi vacib şərtlərdəndir. Orta ixtisas təhsilində təlimin keyfiyyətinin yüksəldilməsində önəmli rol oynayan amillərdən biridə təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblərin tədris proqramında bəndlər üzrə verilməsi və bunun tədris prosesinə tətbiq edilməsidir. Orta ixtisas təhsilində ümumi orta və tam orta məktəb bazasından təhsilalan tələbələrə öyrədiləcək ixtisas fənlərinin kreditləri onların onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəticəsində tutulan kompetensiyalar daim nəzarətdə saxlanilmalı və bütün tədris sahələrinə tətbiq edilməlidir.Orta ixtisas təhsilində təlimin keyfiyyətinin yüksəldilməsinə təsir edən amillərdən biri də təhsil alanları təlim problemləri qarşısında qoymaq, onların hılli prosesində fəaliyyəti təmin etmək, yaradıcı və ixtisas qazanmağa can atan şəxsiyyətin formalaşmasını xarakterizə edən bir çox keyfiyyətləri inkişaf etdirməkdir. Bu göstərilənlərə əsasən intellekti, motivasiya yaratmağı bacarmaq, təşəbbüskarlıq, müstəqillik, digər sferanın yüksək səviyyəsini öz işinə tətbiq etmək bacarığı aşılamaq və qoyulan problemin həllində sərbəst düşünüb məntiqi nəticə çıxarmaq qabiliyyətinə yiyələnmək bacarığı və sairə bu kimi məsələlər daxildir.

Orta ixtisas təhsilinin keyfiyyətinin yüksəldilməsi məqsədlarindən biridə bu qruplarda dərs aparan müəllimin pedaqoji fəaliyyətinin lazım olduğu istiqamətə yönəltməsinə, tələbələri aktiv həyat fəaliyyətinə həvəsləndirməyə, onlarda ixtisasa, əməyə maraq məsuliyyəti və vicdanlı

münasibət formalaşdırmağa kömək edir. Bu zaman aşağıda göstərilən bir neçə vacib şərtlərin yerinə yetirilməsinə əməl olunmalıdır.

1. Tələbələrin fəaliyyətinə obyektiv münasibət və onların biliyinin düzgün qiymətləndirilməsi metodunun tətbiq edilməsi.

2. Müəllim-tələbə münasibətlərinin səmimi , qarşılıqlı anlaşma şəraitinin yaradilması və müəllimin hər bir tələbənin fərdi və tədris fəaliyyətinə səmimi yanaşması.

3. Nəzəri tədrisdə və təcrübi məşğələlərdə inteqrasiyadan istifadəyə nəzarət və özününəzarətin tətbiqinə, fəaliyyətin düzgün istiqamətləndirilməsinə xüsusi fikir verilməsi.

4. Tələbələrdə öyrənilən fənnin mənimsənilməsini müəyyənləşdirmək məqsədilə hər semestrdə iki dəfədən az olmamaq şərtilə daxili test nəzarətinin həyata keçirilməsini təşkil etmək.

Orta ixtisas təhsilində ənənəvi təhsildən fərqli olaraq yeni konsepsiya əsasında həyata keçirilən və kredit sistemi tətbiq etməklə aparılan təhsil yalnız nəticəyönümlü deyil həm də dəyər, təhsil prosesinin inkişafetdirici sistemini də qəbul edilməsi vacibdir. Belə olan halda təhsilin keyfiyyəti yüksələr, məzmun standartlarındam çıxış edərək təlimin məqsədi, forma üsulları, qiymətləmdirmə meyarları müəyyən edilər və ixtisaslı mütəxəssis hazırlığı təhsil standartlarının tələblərinə düzgün cavab verər.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, orta ixtisas təhsili sistemində təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə tədrisdə kredit sisteminin tətbiq edilməsinin yolları göstərilir, məzmun standartlarının tələblərinin yerinə yetirilməsinin əsas istiqamətləri araşdırılır və tətbiqi sahələri müəyyənləşdirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə orta ixtisas təhsili müəssisələrində kredit sisteminə keçidlə əlaqədar olaraq göstərilən müddəalardan istifadə edilməklə verilən təkliflər, göstərilən yeniliklər və istiqamətlər, kurikulum tələbləri tədris prosesinin təşkilində istifadə edilə bilər və müəllimlər üçün istinad mənbəyi ola bilər.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2010.
2. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı: R.S. Poliqrafiya, 2009.
3. Kazımov M.S. Orta ixtisas təhsilinin məzmununa yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.
4. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.


**С. Байрамова**

## СПОСОБЫ ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБУЧЕНИЯ В СИСТЕМЕ СРЕДНЕГО ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ

### РЕЗЮМЕ

В статье даются предложения для повышения качества обучения в системе среднего профессионального образования, указываются пути выполнения требований, предъявляемых к повышению содержания и уровня образования, участие получающих образование в решении проблем обучения и направление их деятельности для решения этой проблемы. В статье в то же время, выдвигаются предложения, связанные с положительным влиянием на усвоение и всестороннее развитие обучения. В статье отмечается применение в системе среднего профессионального образования стандартов содержания и необходимость перехода к кредитной системе.

**S. Bayramova**

**IMPROVEMENT METHODS OF THE SECONDARY EDUCATION SYSTEM**

**SUMMARY**

The article deals with the proposals for improving the quality of secondary education training, also here is shown the ways of fulfillment of the minimum requirements for content and level of education and also students' taking part in the training problems and shown how to direct their activities for solution of these problems. In the article also given proposals that effects positively the comprehensive improvement of education and its mastering. It is emphasized the fulfillment of content standards and necessity of applying the credit system.

*Redaksiyaya daxil olub: 22.01.2014*

# KİÇİKYAŞLILARIN TƏHSİLİNDƏ NİTQ İNKİŞAFI ÜZRƏ İŞİN MƏZMUNU

**Yeganə Məmmədova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant, AMİ*
E-mail: yegane_m@bk.ru

**Rəyçilər**: *prof.* **F.Z. Xalıqov,**
*dos.* **V.T. Qurbanov**

***Açar sözlər:*** *nitq inkişafı, lüğət üzrə iş, qrammatik vərdişlər, rabitəli nitq*
***Ключевые слова:*** *развитие речи, голосовой культуры, работы по лексике, грамматические навыки, связная речь*
***Key words:*** *development of speech, voice culture, work on vocabulary, grammar habits, coherent speech*

Müstəqil Azərbaycan Respublikasının gələcəyi olan gənc nəslin tərbiyəsinin kiçik yaşlardan düzgün təşkilini həyata keçirmək məktəbəqədər tərbiyə müəssisələrinin qarşısında duran ən ümdə vəzifələrdən biridir. Bu dövrdə uşaqların ana dilinə yiyələnməsi təlim-tərbiyə işinin düzgün həyata keçirilməsindən çox asılıdır. Uşaqlara ana dilinin zənginliklərindən istifadə etməyi öyrətmək təlimin bütün mərhələlərində həyata keçirilməlidir. Məşhur rus pedaqoqu K.D. Uşinski qeyd etmişdir ki, "ana dili hər bir əqli inkişafın və bilik xəzinəsinin əsasıdır. Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir, eyni zamanda ana dilinin doğma döşündən mənəvi həyat və qüvvət içir. Ana dili təbiəti uşaqlara heç bir tərbiyəçinin izah edə bilmədiyi bir şəkildə izah edir" [1, s. 13]. Çünki nitqi normal inkişaf etməyən uşağın ümumi inkişafından, xüsusilə təfəkkürünün inkişafından söz açmaq olmaz. Nitq yalnız insanlara məxsus ictimai hadisə olub ünsiyyətin ən mühüm vasitəsidir. Nitqin köməyi ilə insanlar öz fikirlərini, hisslərini çatdırır, başa düşür, bir-birlərinə təsir göstərirlər. Uşağın bütövlükdə məktəb təliminə hazırlanması, onun əqli inkişafı üçün ən mühüm amillərdən biri də nitqinin normal inkişafıdır. Uşaq bağçasının vəzifəsi bu sahədə planlı iş aparmaqla uşaqlarda sözlərdən düzgün istifadə etməyi, sözləri düzgün seçmək və nitqdə işlətmək, cümlə qurmaq, gördükləri haqqında danışmaq vərdişlərinin inkişafnı təmin etməkdir.

Nitqin inkişafı uşağın müvəffəqiyyətlə təhsil alması, həyatı boyu düşünülmüş fəaliyyəti üçün mühüm vasitələrdən biridir. Uşağın nitq inkişafını ilkin mərhələdə iki dövrə bölmək olar:

1. Nitqə hazırlıq dövrü;
2. Müstəqil nitqin yaranması dövrü.

Hazırlıq dövründə bünövrə üçün söz ehtiyatı toplanır və bununla gələcək nitqin əsası qurulur, ünsiyyətə tələbat formalaşır, səs reaksiyası inkişaf edir. Nitqin hərəkətverici aparatı, fonematik durum, böyüklərin nitqini anlama və dərketmə, sözləri müstəqil işlətməsi - bunlar bütünlükdə ünsiyyəti təşkil edir. Uşaqlarda nitqin yaranması və inkişafı üçün onların ünsiyyətdə olması vacibdir. Uşağın nitqini inkişaf etdirmək üçün onun maraq sahəsindən asılı olaraq ictimai əlaqəsini tədricən genişləndirmək lazımdır. Nitqin səciyyəvi xüsusiyyətini uşaqlar daim ünsiyyətdə olduğu insanlardan öyrənirlər [ 2, s.12].

Məktəbəqədər yaş dövründə nitq inkişafı üzrə işin məzmunu uşaq bağçasının təlim və tərbiyə proqramında (kurikulumda) öz əksini tapmışdır**.** Proqramın tələbinə müvafiq olaraq nitq inkişafı üzrə işin məzmununu aşağıdakı kimi qruplaşdırmaq olar: nitqin səs mədəniyyətini tərbiyə etmək, lüğət üzrə işin təşkili, nitqin qrammatik quruluşu üzrə işin təşkili və nitqin rabitəliliyi üzrə işin təşkili.

Nitq inkişafı üzrə işin əsasını onun səs mədəniyyətinin düzgün tərbiyəsi təşkil edir. Tərbiyəçi ilk gündən uşaqların fonematik eşitmə qabiliyyətinin inkişafı qayğısına qalmalı, onlara ana dilinin bütün səslərini düzgün eşitməyi, səslənməsinə görə yaxın olan səs və sözləri fərqləndirə bilmələrinin qayğısına qalmalıdır. Kiçik qrupdan başlayaraq nitqin səs mədəniyyətini tərbiyə etmək

üçün uşaqlara sözləri aydın, qalın səsləri incəlləşdirmədən tələffüz etməyi, sözdə vurğudan düzgün istifadə etməyi öyrətmək lazımdır. Uşaqların nitqində səs mədəniyyətinin tərbiyə edilməsi üçün nitqin hərəkət aparatının, sait və samit səslərin düzgün tələffüzünü öyrətmək heyvan və səslənən əşyaların səslərinin yamsılanması üzrə oyunlar keçirmək, hekayələr oxumaq, həftədə bir neçə dəfə hərəkətli yaxud nəğmə və əyləncəli xor oyunları təşkil etmək vacibdir. Bu məşğələlərdə uşaqlar planlı şəkildə radio və televiziya verilişlərini dinləməli, maqnitofon lentində dəqiq, aydın nitqə qulaq asmalıdırlar. Nitqin səs mədəniyyəti dedikdə uşağın danışığını xarakterizə edən xüsusi tələffüz keyfiyyətləri-nitq səslərinin tələffüzü, diksiya, intonasiya, vurğu, sürət, fasilə, mimika, jest və s. nəzərdə tutulur. Məktəbə gələnədək uşaq fonematik eşitmə bacarığına yiyələnməli, dilimizin bütün səslərini aydın tələffüz etməyi, sözdə səslərin və hərflərin sayını və sırasını müəyyənləşdirmək, bir səsə görə fərqlənən sözləri tapmağı bacarmalıdır. Bu sahədə iki istiqamətdə iş aparılır: 1) Onun nitqi-hərəki aparatının, fəal nitqinin səs cəhətinin inkişafı; 2) eşitmə, diqqət və nitqi eşitmənin inkişafı.

Uşaqlar nitqin səs mədəniyyətinə, əsasən, ünsiyyət prosesində yiyələnirlər. Psixoloji tədqiqatlar əsasında uşaqlar üçün hansı səslərin tələffüzünün çətinliyi müəyyənləşdirilmişdir. Məktəbəqədər yaş dövründə q-ğ, q-k səslərinin tələffüzü çətindir. Nitq səslərinin düzgün tələffüz olunmasını təmin etmək məqsədilə tərbiyəçi məşğələ prosesində uşaqlarla çox danışmalıdır. Belə məşğələlərdə eyni səsin təkrarına imkan verən şeirlər, yanıltmaclar, tapmacalar xüsusi əhəmiyyət kəsb edir [3 ,s. 80]. Böyük və məktəbə hazırlıq qrupunda uşaqlara sözlərdə bütün səsləri təmiz tələffüz etməyi öyrətmək lazımdır ki, onlar məktəbə gedərkən düzgün tələffüzə yiyələnsinlər, sözləri Azərbaycan ədəbi tələffüz normalarına müvafiq surətdə aydın və düzgün tələffüz etsinlər. Səs tələffüzü üzrə məşğələlərdə qalın və incə saitlərin, həmçinin l-r, y-r səsləri fərqləndirilməsi üzrə məşq etdirmək, (l-r-y) səslərinin tələffüzü üzrə iş sonralar da davam etdirilməlidir. Uşaqların tədris ilinin sonunda ana dilinin bütün səslərini düzgün tələffüz etmələrinə nail olmaq, ədəbi dilin normalarını gözləməklə nitqin sürətini, səsin yüksəkliyini, gücünü dəyişdirməklə ifadəliliyini, intonasiya vasitələrindən düzgün istifadə etməklə bu sahədə məşğələləri sistemli şəkildə aparmaq lazımdır.

Məktəbəqədər yaş dövründə uşaq nitqinin inkişafı üç istiqamətdə gedir: *Birinci*, uşağın söz ehtiyatının get-gedə zənginləşməsi, yeni sözlər öyrənib, bu sözlərdən istifadə etməsi; *İkinci*, nitqin fonetik cəhətdən inkişaf etməsi, yəni uşağın səsləri düzgün tələffüz etmək xüsusiyyətinin inkişafı. Bu bir tərəfdən səsləri düzgün eşitmək, digər tərəfdən isə onları düzgün tələffüz etməklə yerinə yetirilir**;** *Üçüncü*, uşaq nitqinin qrammatik cəhətdən təkmilləşməsi, danışıq hissinin inkişaf etməsidir [4, s. 7].

Məktəbəqədər yaş dövründə lüğət üzrə işin təşkili çox mühüm əhəmiyyət kəsb edir. Uşağın ətrafdakı əşya və hadisələri şüurlu dərk etməsi, cümlə üzrə iş qura bilməsi, hekayə qurub nəql edə bilməsi (şifahi nitqi) məhz onun söz ehtiyatının tərkibindən, leksik hazırlığından sözlərdən yerli-yerində istifadə etmək bacarığına necə yiyələnməsindən asılıdır. Anadan olandan bir yaşa kimi olan dövr uşaq nitqinin inkişafının ilk hazırlıq mərhələsi sayılır. Bu dövrdə onun lüğət ehtiyatında müəyyən qədər söz olur.

Uşağın söz ehtiyatı olduqca sürətlə artır. O, yaşlı adamlarla ünsiyyət saxladığından, daim ətrafdakılarla əhatə olunduğundan bir tərəfdən yeni sözlər eşidib, onları başa düşməyə, digər tərəfdən isə bir sıra yeni sözlər söyləməyə başlayır. Şübhəsiz bu mərhələdə valideynlərin, tərbiyəçilərin rolu böyükdür. Uşağın əsl mənada şifahi nitqi bir yaşdan inkişafa başlayır, bu dövr təxminən üç yaşa kimi davam edir. Bu dövrdə uşaq tədricən yeni-yeni sözləri, d, q, v, t, s səslərinin tələffüzünü mənimsəyir və üç yaşdan bu səsləri aydın ifadə edə bilir. Uşağın tələffüzü ilə yanaşı onun söz ehtiyatı da sürətlə inkişaf edir. Buna görə də iki-üç yaşlı uşaqların lüğət ehtiyatında artıq çoxlu miqdarda söz olur. İki yaşda uşaq orta hesabla 250-300-ə qədər söz bildiyi halda, üç yaşlı uşaq 700-900-ə yaxın söz ehtiyatına malik olur. Bu sözlər, əsasən, ətrafdakı adamların və əşyaların adlarından (isimlərdən) ibarət olur.

Orta qrupda olan uşaqların lüğəti kiçik qrupda olduğu kimi əşyaların adları ilə bağlı olur. Bunlar elə əşyalardır ki, uşaqlar həyatda, məşğələdə daim onlarla təmasda olurlar (qab-qacaq, mebel, oyuncaq, nəqliyyat vasitələri və s.). Bu yaşda olan uşaqlar niyə? nə üçün? nəyə görə? suallarını verir və həmin sualların düzgün cavabı uşaqların təfəkkürü və idrakının düzgün inkişafına kömək edir. Dörd yaşdan başlayaraq uşaqların şifahi nitqi hər 3 cəhətdən-həm fonetik, yəni səsləri tələffüz etmək və eşitmək, həm də lüğət ehtiyatının zənginləşdirilməsi, düzgün danışıq vərdişlərinin dəqiqləşdirilməsi nöqteyi-nəzərindən sürətlə inkişaf etməyə başlayır. Dörd-beş yaşlı uşaq ana dilinin bütün səslərini, əsasən, təyin edə bilir. Bu yaşda olan uşaqların söz ehtiyatı təxminən 1500-2000-ə yaxın olur. Bu sözlər nəinki isim, sifətdən, həm də başqa nitq hissələrindən də (sifət, əvəzlik, say, bəzi köməkçi nitq hissləri və s.) ibarət olur. Uşaq bağçada tez-tez yiyəlik əvəzliyindən (mənim, sənin), ismin yiyəlik halından (anamın kitabı) istifadə edir. Məsələn, mənim əyim yaya oluf-mənim əlim yara olub; bizim say partladı-bizim şar partladı.

Uşağın daxili nitqi əsasən beş yaşda formalaşmağa başlayır. Ünsiyyət prosesində daxili nitq çox məharətlə hazırlıq funksiyasını yerinə yetirir. Daxili nitqin köməyi ilə uşaqlar daha çox söz öyrənirlər. Bu yaşda uşaqların söz ehtiyatı 2500-3000-ə çatır. Söz ehtiyatının çox olması uşağa imkan verir ki, o, öz fikrini müfəssəl izah etsin, əşyanın əlamət və keyfiyyətini, sifətin dərəcələrini düzgün ifadə etsin, zərfi yerli-yerində işlətsin. Şəxs əvəzlikləri əksər hallarda mübtəda kimi işlənir. 6 yaşlı uşaqların lüğəti sürətlə artmağa, zənginləşməyə başlayır. Bu zaman uşaqların lüğəti 3000-3500 sözə çatır. Uşaq ana dilində sərbəst danışmağa başlayır, lakin onun nitqində əhəmiyyətli fərqli cəhətlər özünü göstərir.

Tərbiyəçi hər yaş dövrü üçün nitq inkişafı üzrə proqramda nəzərdə tutulanları təşkil etməli və ayrı-ayrı məşğələləri fəaliyyət növləri üzrə konkretləşdirməlidir. Bu işin daha səmərəli aparılması üçün uşaq bağçalarında nitq inkişafı üzrə iş iki formada qurulur:

1) nitq inkişafı üzrə xüsusi məşğələlərdə;

2) uşaqların öz yaşıdlarıyla, bağçanın işçiləri, xüsusilə tərbiyəçi ilə sərbəst ünsiyyət prosesində. [5, s.19]

Məşğələlər uşağı kollektivlə birlikdə dinləməyə, yoldaşlarının nitqinə fikir verməyə, onlarla söhbət etməyə, onların qarşısında şeir oxumağa, nağıl danışmağa alışdırır. Belə məşğələlərdə əsas məqsəd uşağın həmin dövrdə ailədə, körpələr evində, uşaq bağçasında öyrəndiklərini sistemə salmaq, onun nitq inkişafı sahəsindəki qabiliyyətini artıraraq bu prosesi sürətləndirməkdir. Məsələn, I kiçik qrupdan (bir yaş beş ayından – üç yaşadək) soyadını, doğma və yaxın adamların, ev əşyalarının adlarını, onların vəzifələrini deyə bilmək tələb olunur. Bu dövrdə əsasən iki sözdən ibarət cümlə qurmaq (Yağış yağır, Külək əsir və s.) öyrədilir. II kiçik qrupda (üç – dörd yaşdan) tərəvəz və meyvələrin, müxtəlif əşyaların xüsusiyyətlərini (formasını, rəngini, böyüklüyünü, dadını və s.) adlandırmaq, zaman və məkan anlayışlarından istifadə etmək tələb olunur. Uşaqların lüğət ehtiyatına daxil ediləcək hər bir söz, ifadə əvvəlcədən ölçülüb-biçilməli, üzərində iş aparılacaq sözlər tematik prinsipə əsasən qruplaşdırılmalı, işin xarakteri, vaxt və yeri müəyyənləşdirilməlidir. Hər hansı əşya və ya hadisə əsasında, nitq inkişafı üzrə iş apararkən uşağın qarşısında onunla bağlı rəngarəng suallar qoyulmalıdır. Uşaqlar kim? nə? nə cür? harada? haraya? niyə? nə üçün? və s. suallara cavab verməyi bacarmalıdır.

Nitq inkişafı üzrə iş prosesində tematik lüğəti, ümumiyyətlə, lüğət minimumunu gözləmək hər zaman mümkün olmur. Beləki məşğələ, oyun və gəzintidə nitq inkişafı üzrə iş təşkil edərkən uşaqlar nəzərdə tutulan əlavə hadisə və əşyalarla qarşılaşır, onlara aid suallar verir, adlarını öyrənir, əlamət və xüsusiyyətləri ilə tanış olurlar. Uşağın nitqinin ətraf aləmdəki əşya və hadisələrlə əlaqədar sözlərlə zənginləşdirilməsi hələ onun tam ünsiyyət saxlaya bilməsi haqqında fikir söyləməyə əsas vermir. K.D. Uşinski uşaqların lüğətində sözlərin sayını artırmaq xatirinə onlara çoxlu sözlərin öyrədilməsinin əleyhinə çıxır. O, sözlərin nitqə daxil olmasına baxmayaraq, leksik mənası dərk edilməmiş, yaxud yarımçıq başa düşülən belə sözləri "boş söz" adlandırmışdır. Söz o zaman möhkəmlənir ki, onun ifadə etdiyi anlayış bir sıra başqa anlayışlarla sıx əlaqədə olsun, müəyyən bir tematik qrupa daxil olsun [6, s. 440].

Bu dövrdə dilin qrammatik quruluşuna yiyələnmək lüğət tərkibinə yiyələnməkdən çətindir. Uşaqlarda qrammatik quruluşun formalaşması işi əvvəlcə yarımçıq cümlələrdən, söz birləşmələrindən, cümlə üzvlərindən, sonra isə nitq hissələrindən başlayır.

Kiçik və orta qrupda başlıca diqqət nitqin morfoloji quruluşunun mənimsənilməsinə yönəldilməlidir. Bu zaman uşaqlar sözləri uzlaşdırmağı, şəkilçiləri düzgün işlətməyi öyrənməlidir. Nitqin morfoloji quruluşu üzrə işə isimlə tanışlıqdan başlamaq lazımdır. Çünki dilimizdə isimdən daha çox istifadə olunur və ismin dəyişməsi ilə yanaşı nitq hissələri də dəyişir. Müşahidələr göstərir ki, üç yaşdan başlayaraq hələ hal kateqoriyasını öyrənməmiş uşaqlar sualların köməyi ilə praktik şəkildə isimləri dəyişir. Onlar kimi? kimə? kimdən? suallarının hər birinə cavab verərkən isimləri düzgün dəyişməyi bacarırlar. Əsasən əşyalar əsasında verilən "bu nədir?" sualına kiçik qrupun uşaqları adlıq halda "alma", "dovşan" şəklində cavab verirsə, üç-dörd yaşda isə bu dovşandır, bu almadır şəklində ifadə edirlər.

Dörd yaşdan başlayaraq uşaqlara cümlə haqqında məlumat vermək lazımdır. Məsələn, tərbiyəçi uşaqlara "Qaranquş" şəklini göstərib deyir: "Qaranquş haqqında fikirlərinizi iki sözlə bildirin". Uşaqlar: "Qaranquş uçur", "Qaranquş qaradır", "Qaranquş balacadır" və s. cümlələri qururlar. Tərbiyəçi əvvəlcə cümlədəki birinci, sonra isə ikinci sözü xəbər alır. Uşaqlar cavab verirlər. Tərbiyəçi deyir: "Uşaqlar, bu cümlə iki sözdən ibarətdir. Gəlin, onu bir yerdə təkrarlayaq". Təkrarlayırlar. Sonra lövhədə sözlərin sayı qədər xətt çəkilir. Tərbiyəçi deyir: -Uşaqlar, bu qısa cümlədir. Kim qaranquş haqqında geniş cümlə deyər. Bir uşaq: - Balaca qaranquş uçur, - cümləsini deyir və tərbiyəçi sözlərin sayı qədər lövhədə xətt çəkir ( --- ). Uşaqlar, qaranquşla bağlı bu cümlə neçə sözdən ibarətdir? Uşaqlar cavab verirlər:-Üç. Beləliklə, cümlə genişlənir.

Dörd yaşdan başlayaraq həmcins üzvlü cümlələr qurmağı və məşğələdə uşaqlara şəkilli kartoçkalar verib, onları qruplaşdıraraq cümlə qurmaq tələbi qoyulur. Uşaqlar kartoçkaların içərisindən albalı, ərik, şaftalı şəkillərini seçib deyirlər: -Bağda albalı, ərik, şaftalı, üzüm olur. Sonra tərbiyəçi uşaqların həmin meyvə haqqında düşüncələrini genişləndirmək üçün məşğələni davam etdirir.-Albalı necə meyvədir? Uşaqlar: Albalı turş meyvədir və s. cümlələri qurmaqla məşğələni davam etdirir.

Böyük və məktəbə hazırlıq qrupunda uşaqların nitqinin sintaksisi mürəkkəbləşir. Bu, o deməkdir ki, əvvəlcə uşaqlarda sintaksis üzrə iş aparılır. Uşaqların nitqinin inkişafında morfologiya və sintaktik cəhətlərin inkişafı eyni vaxtda inkişaf etməlidir. Uşaq nitqi beş-altı yaşında qrammatik cəhətdən demək olar ki, ana dilinin tələblərinə tamamilə uyğun olur. Uşaq öz fikirlərini ardıcıl, anlaşıqlı, hamının başa düşəcəyi, əlaqəli şəkildə ifadə etməyi bacarır və beləliklə, onlarda "danışıq hissi", sözləri bir-birilə uyğun əlaqələndirmə bacarığı inkişaf etmiş olur. Tərbiyəçi uşaq nitqinin qrammatik quruluşunu diqqətlə öyrənməli, onların hansı qrammatik formalarda səhvə yol verdiyini aşkara çıxarmalı, fərdi xüsusiyyətlərinə bələd olmalı, nöqsanların aradan qaldırılması yollarını araşdırmalıdır.

Məktəbəqədər yaş dövründə uşağın nitqinin inkişaf etdirilməsi üzrə işin son mərhələsi onun öz fikir və hisslərini aydın, ardıcıl, sistemli, rabitəli şəkildə ifadə etmək bacarığına yiyələnməsidir. Uşaq bağçalarında rabitəli nitqin inkişafı üzrə iş iki formada-dialoji və monoloji nitq formasında davam etdirilməlidir. *Dialoji nitqin* formalaşması prosesində uşaqlarda replikalara cavab vermək, sual vermək bacarığını inkişaf etdirmək, eyni zamanda jestdən, mimikadan, intonasiyadan istifadə etməyi öyrətmək vacibdir. *Monoloji nitqin* formalaşdırılması üzrə işin məzmununda uşaqlara öz fikirlərinin məzmununu qrammatik cəhətdən düzgün, rabitəli və ardıcıl, dəqiq və ifadəli qurmaq, həm ədəbi mətnlərin məzmununu nağıl etməyi, həm də müstəqil hekayə qurub danışmağı öyrətmək məqsədi daşıyır. Uşağın rabitəli nitqi o zaman inkişaf edə bilər ki, o, dilin fonetik və qrammatik sahəsinə yaxşı yiyələnsin. Rabitəli nitqin qurulması üçün iki əsas cəhət səciyyəvidir: 1. Rabitəli nitq sərbəst yaranır (dialoqdakı replikalarda); 2. Rabitəli nitq elə planlaşdırılır ki, mövzunu əhatə etsin.

Uşaqda rabitəli nitq iki yaşdan başlayaraq inkişaf edir. İndi o həm dinləyir, həm də fikirlərini ardıcıllıqla başqalarına başa salmağa çalışır. Bağçada yalnız şifahi, rabitəli nitqin inkişafı üzrə iş gedir. Şifahi nitqin ən sadə forması olan danışıq nitqi müsahibə əsasında baş verir. Müsahibənin

tematikası proqram tələblərindən irəli gəlir: məişətlə, ictimai həyatla, təbiət hadisələri ilə, şəhər, kənd, məktəb və s. ilə bağlı müsahibələr. Bu mövzular üzrə müsahibənin məzmun və quruluşunun uşaqların yaşına müvafiq olması onun marağından, tərbiyəçinin metodik hazırlığından asılıdır. Rabitəli nitqin inkişafı üzrə işin əlverişli qurulması üçün müəyyən şəraitin yaradılması əsas şərtlərdən biridir. Bu şərtlər aşağıdakılardan ibarətdir:

- Uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi;
- Dilin qayda və qanunlarını bilmək;
- Cümlə üzrə iş;
- Nitq situasiyasının yaradılması.

Beləliklə, proqramda nitq inkişafı üzrə işin qarşısında duran vəzifələri iki istiqamətdə ümumiləşdirmək olar:

**1.** Uşaqlara ana dilində düzgün və təmiz danışmağı öyrətmək;

**2.** Uşaqların nitqinin inkişaf etdirilməsi üzrə işi ilk növbədə ətraf aləmlə, təbiətlə tanışlıq prosesində təşkil etmək [5, s. 20].

Düzgün və təmiz danışmaq dedikdə nitqin sərbəst, aydın, rəvan, ifadəli, dialektizmlərdən azad, təmiz olması nəzərdə tutulur. Düzgün nitq səslərin və sözlərin düzgün tələffüz olunmasını, sözlərin dəqiq mənada işlənməsini, fikrin sərbəst ifadə olunmasını tələb edir. Düzgün nitq sözləri dəyişmək və onları qrammatik tələblərə müvafiq olaraq cümlədə düzgün birləşdirmək vəzifəsini qarşıya qoyur. Ətraf aləmlə, təbiətlə tanışlıq sözlərlə müşayiət və ifadə olunur.

Uşaqlara ana dilini onların nitqinin məzmunundan ayırılıqda öyrətmək olmaz. Bu məzmunu isə uşaqların iştirak etdikləri və qavradıqları ətraf aləm müəyyən edir. Prosesdə tərbiyəçi nitq inkişafı üzrə məşğələlərin məzmununu elə təşkil etməlidir ki, uşaqlar sərbəst, düzgün, ifadəli, şüurlu oxumağı, qrammatik və orfoepik, leksik çalışmaları düzgün yerinə yetirməyi, gördükləri, eşitdikləri haqqında müstəqil, kiçik həcmli hekayələr qurub danışmaq bacarığına yiyələnmiş olsunlar. Nitq inkişafı üzrə göstərdiyimiz vəzifələrin hər biri tədris və tərbiyəvi əhəmiyyətə malikdir. Nitq inkişafının həmin sahələrinin hər biri özünəməxsus metod və priyomlardan istifadə olunmasını tələb edir.

**Problemin elmi yeniliyi.** Bu məqalədə ilk dəfə olaraq məktəbəqədər yaş dövründə uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu araşdırılmış, bu dövrdə uşaqların səs mədəniyyətinin inkişafı, lüğət üzrə işin təşkili yolları, eyni zamanda qrammatik və rabitəli nitq üzrə çətinliklər və nöqsanların həlli yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən təkliflər və nəticələr, məktəbəqədər yaş dövründə uşaqların nitq inkişafı üzrə işin təşkilinin müvəffəqiyyətlə həyata keçirilməsini, nitqin inkişaf etdirilməsi zamanı onların yaş xüsusiyyətlərinin nəzərə alınmasınaköməklik göstərməkdir. Bu məlumatlar vasitəsilə istər tərbiyəçilər, istərsə də valideynlər nitq inkişafı üzrə işin təşkilini müvəffəqiyyətlə həyata keçirə bilər.

## ƏDƏBİYYAT

1. Əliyeva S. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafında Azərbaycan xalq nağılların rolu. Bakı: Maarif, 1975.
2. Hacıyeva Ə.H. Uşaq nitqinin linqivistik təhlili (Metodik vəsait). Bakı: Maarif, 1994.
3. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: Maarif, 2007.
4. Ağayev Ş. Ailədə uşağın nitqinin inkişaf etdirilməsi. Bakı, 1962.
5. Kərimov Y.Ş. Uşaq bağçalarında nitq inkişafı. Bakı: Maarif, 1983.
6. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003.
7. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.

**Е. Мамедова**

## СОДЕРЖАНИЕ РАБОТЫ ПО РАЗВИТИЮ РЕЧИ В ОБРАЗОВАНИИ МЛАДШЕКЛАССНИКОВ

### РЕЗЮМЕ

Образование речевого развития ребенка, его успех, его жизнь является важной предпосылкой для деятельности мышления. Нельзя учить детей родному языку отдельно от содержания их речи. В этом случае должны организовываться бесплатные семинары по развитию речи детей.

**Y. Mammadova**

## THE CONTENT OF THE WORK ON THE DEVELOPMENT OF ADULT EDUCATION, SMALL SPEECH

### SUMMARY

Education of the child`s speech development, his success, his life is an important prerequisite for the activity of thought. Separately from the content of their speech is not to teach children in their mother tongue. In this case, the contents should organize seminars on speech development, children free, honest, expressive, intelligent read orthoepic grammatical and lexical exercises to perform properly, they saw, heard about an independent, learned to speak up and be a small-scale stories.

*Redaksiyaya daxil olub: 08.04.2014*

# TƏDRİS PROSESİNDƏ MƏNTİQİ MƏSƏLƏLƏRDƏN İSTİFADƏNİN ŞAGİRDLƏRİN RİYAZİ TƏFƏKKÜRÜNÜN İNKİŞAFINA TƏSİRİ

**Ülviyyə Seyfullayeva,**
*ARTPİ*
E-mail: ulya_s85@mail.ru

**Mehriban Əliyeva,**
*ARTPİ*
E-mail: meri.aliyeva.71@mail.ru

**Rəyçilər:** *dos.* **R. Qəndilov,**
*dos.* **E. Bəylərov**

***Açar sözlər:*** *məntiq, məntiqi təfəkkür, müqayisə, ümumiləşdirmə, anaqram*
***Key words:*** *логика, логическое мышление, сравнение, обобщение, анаграмма*
***Ключевые слова:*** *logic, logical thinking, comparison, generalization, anagram*

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində strateji vəzifə olaraq ölkədə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi qabaqcıl texnologiyaların və elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların tətbiqi nəzərdə tutulmuşdur. Bu məqsədlə ümumi təhsil məktəblərində məntiqi məsələlərin həlli yolu ilə şagirdlərdə riyazi təfəkkürün formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Şagirdlərin məntiqi təfəkkürünün inkişafı riyazi təhsilin mühüm məsələlərindən biridir. Məntiqi düşünmək, vizual dəstək olmadan nəticəçıxarma, müəyyən qaydalarla təyin olunmuş mühakimə yürütmək bacarığı – dərslik materialının uğurlu mənimsənilməsinin zəruri şərtidir.

Hər bir məsələdə məntiqi təfəkkürün inkişafı üçün böyük imkanlar var. Qeyri-standart məsələ belə bir inkişaf üçün əla vasitədir. Belə məsələnin müxtəlif həll üsullarını tətbiq etməklə yüksək keyfiyyətə nail olmaq olar. Bunlar:

1) Məsələnin həlli üzərində iş. Bir çox şagirdlər təkrarən edilən təhlillərdən sonra məsələnin həlli planını qurur. Bu, riyaziyyatda möhkəm biliyin inkişafı üçün bir yoldur. Doğrudur, təhlillərin təkrarı vaxt tələb etsə də, bu özünü doğruldur.

2) Müxtəlif yollarla məsələnin həlli. Vaxt azlığı səbəbindən məsələnin müxtəlif üsullarla həllinə az diqqət yetirilir. Amma bu bacarıq yüksək riyazi səviyyənin göstəricisidir. Bundan əlavə, məsələnin müxtəlif yollarla həlli vərdişi bütün şagirdlərə aid deyil, yalnız riyaziyyatı sevən, xüsusi riyazi bacarıqları olanlara aiddir.

3) Məsələnin təhlili yolunun düzgün təşkili sualların qoyuluşundan və ya bu sualın verilənlərindən asılıdır.

4) Məsələdəki qeyd olunan vəziyyətin təsviri ("şəkil" çəkmək). Müəllim şagirdlərin diqqətini o detallara yönəldir, hansı ki, şagirdlər onu mütləq göstərməlidirlər. Mətni tapşırığın anlaşıqlı hissələrə bölünməsi, çertyoj və şəkil vasitəsi ilə modelləşdirilməsi həll zamanı əsas görüləcək işlərdən biridir.

5) Çatışmayan və ya əlavə verilənlərlə tapşırığın həlli, tapşırıqların dəyişdirilməsi.

6) Bu və ya başqa ifadələri bildirən hazırkı tapşırıq və izahatlardan müxtəlif ifadələrin hazırlanması və məsələnin sualına cavab olan ifadəni seçmək.

7) Hazır məsələ həllinin izahı

8) Məsələ və onun həllərinin müqayisə üsullarından istifadə

9) İki – biri düzgün və digəri düzgün olmayan həllin lövhədə yazılması və müqayisəsi.

10) Məsələnin başqa yolla həll edilməsi üçün, onun verilənlərinin dəyişdirilməsi.

Riyaziyyat dərslərində və dərsdənkənar məşğələlərdə xüsusi məsələ və tapşırıqlardan sistemli şəkildə istifadə, məntiqi təfəkkürün inkişafına yönəlmiş yuxarıdakı sxemə uyğun olaraq işin təşkili, kiçik məktəblilərin dünyagörüşlərini genişləndirməyə və onları əhatə edən real aləmdəki sadə qanunauyğunluqlara istiqamətlənməyə və bu riyazi biliklərdən gündəlik həyatda aktiv istifadə etmələrinə imkan yaradır.

Mühüm olanı seçmək bacarığı.

Müəllim şagirdlərə mötərizədə və biri mötərizə qarşısında olan sözlər sırası təklif edir. Şagirdlər mötərizə qarşısındakı sözə aid olan mühüm 2 sözü seçməlidirlər. Məsələn,

- ✓ Bağ (bitkilər, bağban, it, hasar, torpaq) – bitki, torpaq
- ✓ Çay (sahil, balıq, balıqçılıq, su) – sahil, su
- ✓ Kub (bucaqlar, çertyoj, üz, daş, ağac) – bucaqlar, üz
- ✓ Oyun (şahmat, oyunçular, cərimələr, qaydalar, cəza) – oyunçular, qaydalar
- ✓ Meşə (yarpaq, alma, ovçu, ağac, kol) – ağac, kol
- ✓ Şəhər (avtomobil, ev, izdiham, küçə, velosiped) – ev, küçə
- ✓ Oxumaq (zəng, səs, incəsənət, musiqi, alqış) – səs, musiqi

Şagirdlərin yazdığı cavablardan belə nəticəyə gəlmək olar ki, tapşırığı düzgün yerinə yetirənlər göründüyü kimi lazım olanı seçmək bacarığına yiyələnirlər, səhv edənlər əhəmiyyətli və lazım olmayan əlamətləri ayıra bilməyən şagirdlərdir.

Müqayisə.

Məqsəd: İştirakçılarda əşyaları, anlayışları müqayisə etmək bacarığının inkişaf səviyyəsini bərpa etməkdir.

İştirakçılara hər hansı iki əşyanın və ya anlayışın adı çəkilir, ya da təqdim olunur. Məsələn:

göl – çay
kitab – dəftər
günəş – ay
at – inək
yağış – qar

Hər bir şagird vərəqdə adları çəkilən əşyaların, anlayışların solunda oxşar xüsusiyyətləri, sağ tərəfində fərqli xüsusiyyətlərini yazmalıdır. Hər bir cütlüyə tapşırığı araşdırmaq üçün 4 dəqiqə vaxt verilir. Bundan sonra vərəqlər yığılır.

Alınan nəticələrin emalı: şagirdlərin yaza bildiyi oxşar və fərqli xüsusiyyətlərin siyahısı göstərilir. Burada şagirdlərin göstərdiyi ümumi və fərqli xüsusiyyətlərinin faiz göstəricisi –onların müqayisə etmə bacarıqlarının inkişaf səviyyəsini göstərir.

Ümumiləşdirmə.

İki söz təklif olunur. Şagirdlər onların arasında ümumi olanını təyin etməlidirlər:

yağış – dolu
maye – qaz
burun – göz
cəm – hasil
su anbarı – kanal

3-4 dəqiqə ərzində şagirdlərə 5 cüt söz təklif etmək olar.

Təsnifat.

Bu üsul da şagirdlərdə ümumiləşdirmə bacarığını aşkara çıxarır və bu bacarıqları onlarda formalaşdırır.

Məsələn: 5 söz verilib. Onlardan 4-ü ortaq xüsusiyyətə malikdir. 5-cisi bu sözlərə uyğun gəlmir. Bu sözü tapın

1. Üçbucaq, seqment, uzunluq, kvadrat, çevrə;
2. Yağış, qar, yağıntı, şaxta, dolu;
3. Toplama, vurma, bölmə, toplanan, çıxma;
4. Palıd, ağac, qızılağac, qovaq, göyrüş;

5. Süd, pendir, xama, ət, qatıq;
6. Saniyə, saat, il, gecə, həftə;
7. Acı, isti, turş, duzlu, şirin;
8. Futbol, voleybol, xokkey, üzgüçülük, basketbol;

Vaxt 3 dəqiqə olmaqla şagirdlərə 5 tapşırıq verilə bilər.

Anaqram.

Məqsəd məktəblilərin nəzəri təhlil apara bilməsinin mövcud olub-olmamasını müəyyən etməkdir. Sınağın aparılması üçün şagirdlərə anaqram təklif olunur (hərflərin yerləri dəyişilmiş şəkildə olan sözlər).

Şagirdlər verilmiş anaqramda uyğun gələn sözləri tapmalıdırlar. Məsələn,

a) lıabq b) dörkə c) uqatn ç) ğaqra d) əsrəç

Anlayışların əlaqəli təhlili.

Üç söz verilib, birinci ikisi arasında müəyyən əlaqə var. Variantlarda verilmiş 5 sözdən biri ilə üçüncüsü arasında həmin əlaqə var, dördüncü sözü tapın.

Məsələn,

Mahnı: bəstəkar = təyyarə: ?

a) aerodrom b) yanacaq c) konstruktor ç) pilot d) qırıcı

Funksional əlaqə: mahnını bəstəkar bəstələdi.

Cavab – konstruktor (təyyarəni konstruktor hazırladı)

Tapşırıq:

1. məktəb: təhsil = xəstəxana: ?

a) həkim b) şagird c) müalicə ç) müəssisə d) xəstə

2. mahnı: kar = şəkil: ?

a) kor b) rəssam c) rəsm ç) xəstə d) lal

3. bıçaq: polad = stol: ?

a) çəngəl b) ağac c) stul ç) qida d) süfrə

Bu metodika şagirdlərdə anlayışlar arasındakı əlaqə və münasibətləri təyinetmə bacarığının müəyyən edilməsinə yönəlmişdir:

a) səbəb – təsir
b) ziddiyyət
c) cins – növ
ç) hissə - bütöv
d) funksional əlaqələr

**Məqalənin aktuallığı**. Dünyanın bir çox inkişaf etmiş ölkələrində şagirdlərin məntiqi düşüncəsinin inkişaf etdirilməsinə çox böyük əhəmiyyət verilir. Uşaqların məntiqi düşünməsi, təfəkkürü, uşaq bağçasından başlayaraq inkişaf etdirilir, orta məkəblərdə bu zəncir qırılmır. Məntiq ayrıca fənn kimi, həm də ibtidai sinifdən başlayaraq tədris edilir.

**Məqalənin elmi yeniliyi**. Məntiqi məsələlərdən istifadə şagirdlərin dünyagörüşlərini genişləndirməyə və onları əhatə edən real aləmdəki sadə qanunauyğunluqlara istiqamətlənməyə və bu riyazi biliklərdən gündəlik həyatda aktiv istifadə etmələrinə imkan yaradır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məntiqi tapşırıqlarla işləmək insanın zehni fəaliyyətini gücləndirir, onlara məntiqi düşünmə, düzgün nəticə çıxartma, çətin vəziyyətlərdən çıxış yolları tapa bilmə və s. kimi keyfiyyətlər aşılayır.

**ƏDƏBİYYAT**

1. Баракина Т.В. Возможности изучения элементов логики на уроках математики и информатики в начальной школе // Начальная школа, 2009, № 4

2. Белошистая А.В. Развитие математических способностей школьника как методическая проблема // Начальная школа, 2003, № 1

3. Гороховская Г.Г. Диагностика уровня сформированности компонентов логического мышления у младших школьников // Начальная школа, 2008, № 6

**У. Сейфуллаева,**
**М. Алиева**

## ВЛИЯНИЕ ИСПОЛЬЗОВАНИЯ ЛОГИЧЕСКИХ ЗАДАЧ НА РАЗВИТИЕ МАТЕМАТИЧЕСКОГО МЫШЛЕНИЯ У УЧАЩИХСЯ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ

### РЕЗЮМЕ

В статье отражены возможности организация форм работы с логическими задачами. Одной из основных целей изучения математики является формирование и развитие мышления человека, прежде всего, абстрактного мышления, способности к абстрагированию и умения "работать" с абстрактными, "неосязаемыми" объектами. Наработанный материал можно использовать в повседневной жизни, так как логические задачи – это своеобразная "гимнастика для ума", средство для утоления естественной для каждого мыслящего человека потребности испытывать и упражнять силу собственного разума. Так же их можно использовать при обучении детей младшего школьного возраста.

**U. Seyfullayeva,**
**M. Aliyeva**

## INFLUENCE ON THE DEVELOPMENT OF MATHEMATICAL THINKING IN STUDENTS USING LOGICAL PROBLEMS IN THE TEACHING PROCESS

### SUMMARY

In article describes the opportunities of organization forms with logical problems. One of the main purposes of studying mathematics is the formation and development of human thinking primarily of abstract thinking, the ability to abstract and ability to "work" with abstract, "intangible" objects. Accumulated material can be used in everyday life, as logical problems - this kind of "gymnastics for the mind", a means to quench natural for every thinking person needs to test and exercise the power of your own mind, as well as it can be used in the training of primary school children.

*Redaksiyaya daxil olub: 10.04.2014*

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN İNKİŞAFINDA TƏLİM FORMALARININ ROLU

**Xumarə Qurbanova,**
*ARTPİ*
E-mail: qurbanova_xumara@mail.ru

**Rəyçilər**: *ped. fəlsəfə dok.* **E. Bəylərov,**
*ped. fəlsəfə dok.* **İ. Cavadov**

***Açar sözlər:*** *qiymətləndirmə, təhsil, şagird, təlim, fəaliyyət*
***Ключевые слова:*** *оценивание, образование, ученик, обучение, действие*
***Key words:*** *assessment, education, pupil, training, action*

Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur. Təlim və tədris prosesinin təkmilləşdirilməsi, ölkə üzrə şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə məzmun standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülür. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsində keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.

Milli səviyyədə qiymətləndirmə təhsil prosesinin təşkili, planlaşdırılması haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumun keyfiyyətini və təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədilə həyata keçirilir.

Milli qiymətləndirmənin əsas məqsədi şagirdlərin təlim nəticələrinə təsir göstərən amilləri təsvir etmək və nəticələr arasındakı fərqləri müəyyənləşdirmək üçün şagirdlərin, onların ailələrinin, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini öyrənməkdir. Ölkədə təhsil siyasətini müəyyənləşdirmək üçün təhsilin vəziyyəti haqqında müvafiq məlumat toplamaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri, təhsilin inkişafının prioritet istiqamətlərini müəyyən etməkdir.

Deməli, qiymətləndirmənin aparılmasında əsas məqsəd təhsilin keyfiyyəti və təhsil sisteminin necə idarə olunmasıdır.

Yeni qiymətləndirmə sisteminin fəaliyyət mexanizmini başa düşmək üçün qiymətləndirmə və monitorinq anlayışlarının mahiyyətini bilmək lazımdır. İstənilən obyektin və ya sistemin vəziyyəti müəyyən parametrlərlə (yunanca parametron - ölçülən deməkdir) xarakterizə olunur.

Şagirdin hər hansı fəndən müəyyən mövzu, bölmə və ya tam kurs üzrə bilik və bacarıqlarının səviyyəsi (nailiyyət səviyyəsi) onun göstərdiyi təlim nəticələrinin müvafiq qiymətləndirmə standartları ilə müqayisəsi prosesində müəyyənləşdirilir.

Təlim prosesində də qiymətləndirmə zamanı şagird fəaliyyətində izlənilən yeniliklərə xüsusi diqqət yetirilməlidir.

Şagirdin cari mərhələdə bilməsi tələb olunmayan, inkişaf qrupu üçün qeyri - adi, istisna olan hallar, başqa sözlə fəaliyyətinin yaradıcılıq aspekti xüsusi vurğulanmalıdır. Mümkün olan hallarda müəllim şagirdin nədəsə müəllifliyini qeyd etməli, onun qeyri- standart yanaşmalara, yeniliklərə meyilliyini nəzərə almalıdır.

Şagirdin fəaliyyətində baş verən keyfiyyət və kəmiyyət dəyişiklikləri mütləq qabardılmalı, onun və valideyninin diqqətində saxlanılmalıdır. Bu sahədə inkişafın izlənilməsi və fəaliyyətin stimullaşdırılması, pozitiv və dayanıqlı motivasiyanın formalaşdırılması üçün xüsusi ayrılmış dəftər və ya qovluqlarda müvafiq qeydlərin aparılması, qısa şərhlərin verilməsi məqsədəuyğundur. Bu dəftərlərə şagirdlərin maraqlı fikirləri, müşahidələri, ehtimalları, təklifləri və müxtəlif məzmunlu təxəyyül məhsulları da qeyd edilə bilər.

Təlim prosesinin ilkin mərhələsində şagird hər bir fəaliyyətinin qiymətləndirilməsinə maraq göstərir və ehtiyac duyur.

Təlimdə dərslərlə yanaşı, digər formalar kimi seminar məşğələləri, praktikumlar, təlim ekskursiyaları, fakültətiv məşğələlər, əlavə məşğələlər, məsləhətlər, ev tapşırıqları, sinifdənxaric iş formalarını misal göstərmək olar. Bütün bu formalar təlimin əsas forması olan dərslə qarşılıqlı əlaqədə həyata keçirilir.

*Seminar məşğələləri* məktəbin yuxarı siniflərində tətbiq olunur. Şagirdlər verilmiş mövzu üzərində müstəqil çalışır, esse yazır, konfranslar üçün məruzə və raport hazırlayıb yoldaşları qarşısında çıxış edirlər. Seminar disput formasında da keçirilə bilər. Seminar məşğələsi bir neçə mərhələdə keçirilir: hazırlıq, müəllimin giriş sözü, çıxışlar və müzakirələr, yekun və qiymətləndirmə. Seminar məşğələləri şagirdləri müstəqil işə cəlb etmək, onlarda özünütəhsil bacarıqları aşılamaq baxımından əhəmiyyətlidir.

*Praktikumlar* şagirdlərin müstəqil işinə əsaslanan formalardır. Belə dərslər kompyuterin köməyi ilə keçirilən elektron dərslərdir. Bu dərslər həm fərdi, həm də cütlərdə aparıla bilər. Müəllim burada şagirdlərə hər hansı mövzuya aid praktik iş tapşırır: müxtəlif mənbələr tapmaq, sosial şəbəkələrdən istifadə etmək, animasiyalar yaratmaq və simvollar seçmək. Praktikumlar bəzən istehsal sahələrində də aparıla bilər; şagirdlər xarici dildə müxtəlif müraciətlər, sosial və iqtisadi davranışlar sahəsində xarici dili situasiyada işlədirlər.

*Təlim ekskursiyaları* sinfin bütün şagird heyəti ilə təbii şəraitdə keçirilən məşğələlərdir. Belə dərslər könüllülük şəraitində keçirilən tərbiyəvi xarakterli ekskursiyalardan fərqləndirmək lazımdır. Təlim ekskursiyaları tədris proqramlarında öz əksini tapır: müəllim hansı mövzularda ekskursiya təşkil edəcəyini proqram əsasında müəyyənləşdirir. Müəllim müxtəlif sahələrdə (təbiətə, tarixi yerlərə, incəsənət muzeyləri) istehsalat ekskursiyaları təşkil edir.

*Fakültativ məşğələlər* könüllülük əsasında aparılan məşğələlərdir. Bu məşğələlər məktəbin orta və yuxarı siniflərində xüsusi proqramla keçirilir. Fakültativ məşğələlərdə müstəqil yaradıcı işlərə, tədqiqatçılıq işinə geniş yer verilməli, şagirdlərin fərdi maraq və qabiliyyətlərinin inkişafına şərait yaradılmalıdır.

**Problemin aktuallığı.** Şagirdin hər hansı fəndən müəyyən mövzu, bölmə və ya tam kurs üzrə bilik və bacarıqlarının səviyyəsi (nailiyyət səviyyəsi) onun göstərdiyi təlim nəticələrinin uyğun qiymətləndirmə standartları ilə müqayisə olunması ilə müəyyənləşdirilməlidir.

**Problemin elmi yeniliyi və tətbiqi.** Şagirdin fəaliyyətində baş verən keyfiyyət və kəmiyyət dəyişiklikləri mütləq qabardılmalı, şagirdin və valideynin diqqətində saxlanılmalıdır. Bu sahədə inkişafın izlənilməsi və fəaliyyətin stimullaşdırılması, pozitiv və dayanıqlı motivasiyanın formalaşdırılması mümkündür.

## ƏDƏBİYYAT

1. A. Mehrabov, İ. Cavadov. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: Mütərcim, 2007.
2. E.B. Bəylərov. Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair. "Təhsil problemləri" qəz., 2011, 24-30 aprel
3. Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası Milli Kurikulum // Azərbaycan məktəbi, 2007, № 2
4. www.kurikulum.az
5. www.edu.gov.az

**Х. Гурбанова**

## РОЛЬ ОБУЧЕНИЯ В РАЗВИТИИ ДОСТИЖЕНИЙ УЧАЩИХСЯ


### РЕЗЮМЕ

В статье говорится о развитии новой системы оценки и сектора образования, о приоритетах, об улучшении процесса преподавания и обучения.

Особо подчеркнуто то, что во время обучения и выставления оценок учащимся, должно уделяться особое внимание инновациям в развитии учащихся. На начальном этапе обучения каждый ученик заинтересован и имеет потребность в оценке своей успеваемости. В дополнение к учебным курсам проводятся семинары, практикумы, а также другие практические формы дополнительных мероприятий, совещаний, внеклассные учебные консультации. Все это образует основную форму обучения и осуществляется в сотрудничестве с уроками.


**Kh. Qurbanova**

## THE ROLE OF LEARNING IN THE DEVELOPMENT OF STUDENT ACHIEVEMENT


### SUMMARY

This article refers to the development of a new system of assessment and education sector roject about priorities. Improving the process of teaching and learning, to the achievement of students across the country.

Improving teaching and learning in the country to obtain objective information on the achievements of students, and the content of the standards for monitoring the implementation of new evaluation mechanisms put forward as an important task.

Exclusive emphasized that during the training and grading students to pay special attention to innovation in the development of students. At the initial stage of training, each student is interested and has a need to assess their performance. In addition to training courses, seminars, workshops, and other practical forms of additional events, workshops, training consultations are held in the not cool. All this forms the main form of training and carried out in cooperation with the lessons.


*Redaksiyaya daxil olub: 10.04.2014*

# MÜASİR TƏHSİL SİYASƏTİNDƏ ŞAGİRD NAİLİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Leyla Quliyeva,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail: leyla.quliyeva@box.az

**Rəyçilər:** *ped. fəlsəfə dok.* **E.B. Bəylərov,**
*ped. fəlsəfə dok.* **İ.A. Cavadov**

***Açar sözlər:*** *təhsil, inkişaf, sistem, şagird, səviyyə*
***Ключевые слова:*** *образование, развитие, система, ученик, уровень*
***Key words****: education, development, system, republic, pupil, level*

Azərbaycan Respublikasında beş ildir ki, təhsil islahatının tətbiqi prosesi davam edir. İslahatların əsas məqsədi təhsilin keyfiyyətini yüksəltmək, onun inkişafını, dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək, nəticədə dünya miqyasında rəqabətədavamlı, milli və bəşəri dəyərlərə malik şəxsiyyət formalaşdırmaqdır. Bu baxımdan ilk növbədə təhsilin məzmununa, müəllim hazırlığına və qiymətləndirmə sisteminə yenidən baxılması zərurəti yaranmışdır.

Azərbaycan məktəblərində tədrisin yaxşılaşdırılmasına təkan verən, yetişən nəslin mənəvi cəhətdən saflaşmasını təmin edən yeniliklərə ciddi ehtiyac duyulmaqdadır.

1998-ci ilin mart ayında ümummilli liderimiz H. Əliyev tərəfindən "Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncam imzalandı və bunun ardınca "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" qəbul edildi. Komissiyanın yekun iclasında çıxış edən H.Əliyev demişdir: "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır".

Həmin siyasətin davamı olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərar ilə təsdiq edilmiş Azərbaycan Respublikası "Ümumi Təhsilin Konsepsiyası" (Milli Kurikulum)"da qiymətləndirmə məsələlərinə böyük önəm verilmişdir. Bu konsepsiyada şagird nailiyyətlərinin qiymətləndirilməsi barədə yazılanları aşağıdakı kimi şərh etmək olar:

- Şagird nailiyyətlərinin qiymətləndirilməsi ardıcıl və sistemli proses olub təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi bilavasitə təhsilin keyfiyyətinin dəyərləndirilməsinə və nəticə etibarilə onun yüksəlməsinə xidmət etməlidir;
- Şagird nailiyyətlərinin qiymətləndirilməsi təhsilin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların toplanması və onların təhlili ilə müşayiət olunmalıdır;
- Kurikulum üzrə qiymətləndirmə şagirdin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədlə aparılmalıdır.

Konsepsiyada yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı Layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur.

Şagirdin fəaliyyətində baş verən keyfiyyət və kəmiyyət dəyişiklikləri qabardılmalı, müəllim, şagird və valideynin diqqətində saxlanmalıdır. Bu sahədə inkişaf izlənməli, fəaliyyət stimullaşdırılmalı, pozitiv və dayanıqlı motivasiya formalaşdırılmalıdır.

"Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"na görə müasir qiymətləndirmə sistemi 3 səviyyədə aparılır.

1. *Beynəlxalq səviyyədə qiymətləndirmə* - bu səviyyə müxtəlif ölkələrin eyni yaşlı şagirdlərinin fəaliyyətinin qiymətləndirməyə imkan verir. Bu, ümumilikdə başqa ölkələrlə müqayisə etməyə şərait yaradaraq inteqrasiyaya və surətli inkişafa yol açır.

*2. Milli səviyyədə qiymətləndirmə* - təhsil prosesinin təşkili, planlaşdırılması haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumun keyfiyyətinin, təhsil keyfiyyətini və təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədilə həyata keçirilir.

3. *Məktəbdaxili qiymətləndirmə* - bu qiymətləndirmə səviyyəsi bilavasitə məktəbin, konkret sinif və şagirdlərin təlim-idraki fəaliyyətinin qiymətləndirilməsi məqsədilə həyata keçirilir.

Məktəbdaxili qiymətləndirmə özü də 3 formada aparılır.

*1. Şagird nailiyyətlərinin və irəliləyişlərin monitorinqi* - cari qiymətləndirmə qaydalarını təkmilləşdirmək məqsəd ilə mövcud qiymətləndirmə normaları və şifahi sorğular əsasında həyata keçirilir; müəllim tərəfindən şagirdin ayrı- ayrı mövzu və bəhslərin mənimsənilməsi ilə bağlı fəaliyyəti barədə məlumat toplamaq məqsəd ilə keçirilir. Bu qiymətləndirmə müntəzəm müşahidə və monitorinqlər vasitəsilə aparılır; təlimin gedişində baş verən dəyişikliklər formativ, summativ qiymətləndirmə formaları ilə həyata keçirilir.

*2. Kurikulum üzrə qiymətləndirmə* prosesi şagird nailiyyətlərinin təlim standartlarına uyğunluğunun müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuşdur.

*3. Buruxılış imtahanları* ümumtəhsil pillələri üzrə yekun qiymətləndirmə olub IX və XI siniflərin sonunda mərkəzləşmiş qaydada keçirilir. Xüsusi prosedur və texniki vasitələrin tətbiqi ilə aparılan qiymətləndirmə formasıdır.

Qiymətləndirmə üzrə amerikalı mütəxəssis Sparks qeyd edir ki, əsas məsələ qiymətləndirməni şagirdin həvəsləndirilməsi üzərində qurmaqdır.

Ənənəvi təhsildə qiymətləndirmə sistemi şagirdləri mükafatlandırmaq və cəzalandırmaq üçün bir vasitə idi. Kurikulum da isə qiymətləndirmə prosesi, əsasən, şagird nailiyyətlərinin təlim standartlarının tələblərinə uyğunluğunun müəyyənləşdirilməsinə xidmət edir.

Digər qiymətləndirmə mütəxəssisi Dr.Stiggins qiymətləndirmənin əhəmiyyətini belə ifadə edir: "Əgər biz təhsilin inkişafına nail olmaq istəyiriksə, formativ qiymətləndirməni inkişaf etdirməliyik. Hər bir qiymətləndirmə vacibdir, lakin onlardan biri gündəlik istifadə edilir, digərləri isə yox". Dr.Stiggins şagirdlərin etibarını qazanmaq və onları maksimum səviyyədə inkişaf etdirmək üçün yeni qiymətləndirmə konsepsiyası təklif etmişdir. Bu konsepsiyada formativ qiymətləndirmə “öyrədici qiymətləndirmə” kimi, summativ qiymətləndirmə isə “öyrənmənin nəticəsini təsbit edən qiymətləndirmə” kimi başa düşülür. Diaqnostik qiymətləndirmə isə əslində formativ qiymətləndirmənin ilkin mərhələsidir və məramına, məqsədlərinə görə şagird nailiyyətlərinin daha yaxşı formalaşmasına xidmət edir.

Təhsil sahəsində həyata keçirilən islahatlar, xüsusilə, yeni qiymətləndirmə siyasəti hüquqi-normativ bazaya, qabaqcıl təhsil təcrübələrinə və müəllim yaradıcılığına əsaslanaraq məqsədyönlü şəkildə təhsilin keyfiyyətinin yüksəldilməsinə və şagird nailiyyətlərinin inkişafına yönəlməlidir.

**ƏDƏBİYYAT**

1. “Azərbaycan müəllimi”, 2009, 11 dekabr
2. http://www.edu.gov.az/upload/file/cixish-27.11.10.pdf
3. http://www.kurikulum.az/
4. Təhsil sistemində monitorinq və qiymətləndirmənin yeri mövzusunda elmi-praktik konfransının materialları. Bakı, 27 aprel 2012
5. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009.
6. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiyməıtləndirmə. Bakı: Çaşıoğlu, 2003.

**Л. Гулиева**

**ЗАДАЧИ ОЦЕНИВАНИЯ УСПЕХОВ УЧЕНИКОВ
В СОВРЕМЕННОЙ ПОЛИТИКЕ ОБРАЗОВАНИЯ**

**РЕЗЮМЕ**

Статья посвящена великой личности двадцатого века Г.А. Алиеву. Анализированы доклады и выступления Гейдара Алиева в области науки и образования. Речь идет о реформах в области образования, особенно новые оценки количественных и качественных изменений в деятельности ученика.

**L.Quliyeva**

**PROBLEMS AN ASSESMENT OF PROQRESS PUPILS
IN MODERN POLICY EDUCATION**

**SUMMARY**

This article is devoted to great personality of the twentieth century G.A. Aliyev. It is analyzed reports and speeches of Heydar Aliyev in the field of science and education. It deals with reforms in the field of education, especially new evaluation of qualitative and quantitative changes in the activity of students.

*Redaksiyaya daxil olub: 03.05.2014*

# TARİXİN TƏDRİSİNDƏ İNNOVASİYALARDAN İSTİFADƏ

**İlqarə Əskərova,**
*ARTPİ*
E-mail: ilqara.askerova@mail.ru

**Rəyçilər:** *dos.* **L. Mansurova,**
*dos.* **L. Əsədova**

***Açar sözlər:*** *innovasiya, kompyuter, bilik, bacarıq, idrak fəaliyyəti*
***Ключевые слова:*** *инновация, компьютер, знания, умения, познавательная деятельность*
***Key words:*** *innovation, computer, knowledge, skills, kognitive activity*

Cəmiyyətin inkişafı təhsildə də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu da innovativ təlim metodlarыны tətbiq edən təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını tələb edir.

İnnovasiyaların obyektinə bir neçə problem daxildir. Bunları öyrənməyə olan marağı artırmaq, təlimin sürətini yüksəltmək, vaxt itkisini necə aradan qaldırmaq və s. misal göstərmək olar. İnnovasiya cəmiyyətinin aparıcı qüvvəsi məhz təhsil sistemi olur.

İnnovativ təhsilin əsas məqsədi şagirdlərin qazandıqları bacarıqların tətbiqi əsasında əlavə biliklərin mənimsənilməsidir.

Tarix fənn kurikulumlarının obyekti hazırda və gələcəkdə şagirdlərin düşünülmüş şəkildə fəaliyyətləri üçün lazım olan bilik və bacarıqlardır. Bu fənlər фərди və ictimai düşüncəni inkişaf etdirmək, şəxsiyyətli vətəndaş olmağı öyrətmək, keçmiş, indiki və gələcək zaman arasında bağlılığı başa düşmək üçün mühümdür.

Tarix fənlərinin tədrisinin təkmilləşdirilməsi məqsədilə texnologiyalardan istifadə ilə yanaşı layihə hazırlamaq, müzakirələr aparmaq, səhnələşdirməк təlimə maraьы артырır. Video vasitələri kimi audio proqramları və lazer disklər, kompyuter proqramları, təhsil sahəsində texnologiyaların yeni formaları innovasiyalardan istifadə sahəsində mühüm rol oynayır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)» təsdiq edilməsi haqqında 3 iyun 2010-cu il tarixli, 103 nömrəli qərarı ilə respublikanın ümumorta və tam orta təhsil məktəblərində ümumi tarix və Azərbaycan tarixinin müstəqil fənn kimi öyrənilməsinin davam etdirilməsi nəzərdə tutulmuş və buna uyğun olaraq standartlar müəyyənləşdirilmişdir.

V - IX siniflərin Azərbaycan tarixi proqramları ilə tanışlıqdan görünür ki, V sinifdə informasiya texnologiyalarından, audiovizual vasitələrdən istifadə öz əksini tapmamışdır. Digər siniflərdə isə istifadə edilməsi məsləhət bilinən informasiya texnologiyaları konkret göstərilmiş, Azərbaycan tarixi fənni üzrə yeni multимediйa elektron dərslik hazırlanaraq müəllimlərin istifadəsinə verilmişdir.

Şagirdlərin güclü əyani, bədii, canlı təfəkkürə malik olduqlarını nəzərə alaraq keçilən dərslərə onların görmə, eşitmə duyğularını, emosiya və təsəvvürlərini cəlb edən metodlardan istifadə edilməsi xüsusi əhəmiyyətə malikdir.

Müəllim innovasiyaların köməyilə müxtəlif hazırlıqlı şagirdlərə fərqli yanaşma öyrətmə sistemini tətbiq etməklə qavrama qabiliyyətlərinə uyğun tapşırıqlar verə bilər. Uşaqları qruplara ayırmaqla kompyuterdə optimal iş rejimi də qurmaq olar. Kompyuter qarşısında təhsil alan şagird materialın verilmə və mənimsənilmə sürətini asan müəyyənləşdirə bilər. Uşağın öz sürət rejimində işləməsi yaxşı nəticə verir. Onun özünə inamı artır. Bu isə təlimdə əlverişli psixoloji iqlim yaradır. Müəllimin verdiyi suala sinifdəki şagirdlərin hamısı kompyuter vasitəsilə eyni zamanda cavab

verməklə dərs prosesində fəal iştirak edir, müəllimlər isə dərs boyu şagirdlərin fəallığını saxlaya bilirlər.

Müəllimin vəzifəsi oxumağı, saymağı, yazmağı öyrətməklə yanaşı, şagirdin ən yaxşı keyfiyyətlərini inkişaf etdirməkdir, çünki innovasiyaların tətbiqi müəllimə tədris prosesini yenidən qurmağa, materialın mənimsənilməsinin keyfiyyətini gücləndirməyə, öyrənməyə muxtəlif səviyyədə hazırlığı olan uşaqlara diferensial yanaşmanı həyata keçirməyə, müxtəlif qabiliyyətli uşaqların eyni vaxtda işləmələrini təşkil etməyə imkan yaradır.

İnnovasiya fəaliyyətinin informasiya kommunikasiya təminatı ilə tanışlığından aydın olur ki, məktəbdə verilmiş avadanlıqlardan kifayət qədər istifadə edilmir. Tarix müəllimləri müvafiq treninqlərdən keçmələrinə baxmayaraq innovasiyaların tətbiqi üzrə lazımi bacarıqlara malik deyillər. Bunu nəzərə alaraq hər bir tarix müəllimi tədris etdiyi mövzu ilə əlaqədar innovasiya imkanlarını müəyyənləşdirib, tətbiq etməyə çalışmalıdır. Belə ki, öyrədilən mövzu ilə bağlı verilən tapşırıqları yerinə yetirmək üçün internet səhifələrində aparılan araşdırmalar zamanı şagird tarixi qəhrəmanların yaşadıqları dövr, onların uğurları ilə bağlı əlavə informasiyalar əldə edir. Bu zaman onun tədqiqatçılıq bacarıqlarının və tənqidi təfəkkürünün inkişafına geniş şərait yaranır.

İKT- nin internet imkanlarından məhsuldarlıqla və şagirdin yüksək fəallığını nəzərə almaqla istifadə etmək tarix müəlliminin peşəkarlığından xəbər verir.

Təcrübə göstərir ki, təlim mövzusu ilə bağlı ən dəyərli, məqsədəuyğun materialları təsvir edən 4-5 интернет сящифясинин мцяллим тяряфиндян яввялжядян сечиляряк, шаэирдляря тювсийя олунмасы даща сямяряли нятижяляр верир. Беля ки, командалара тапшырыглар вериляркян мювзунун тядгиг едилмяси цчцн интернет сящифяляринин цнванларынын эюстярилмяси ахтарышлар заманы вахт иткисинин гаршысыны алыр вя арашдырмаларын сямярялилийини йцксялдир. Апарылан тяжрцбяляр эюстярир ки, сящифялярдян мягсядяуйьун мялуматлары тапыб, онлардан йетяринжя бящрялянмяк вахт тяляб едян бир фяалиййятдир. Эениш материалларын 10-15 дягигя ярзиндя щям тапылмасы, щям дя юйрянилмясинин шаэирд цчцн бир гядяр мцряккяб олдуьуну нязяря алараг, мцяллим проблемин щялли йолларыны тапмаг мягсядиля онлара мцвафиг тювсийялярля йардым едир.

İnnovasiyaların tətbiqi ilə aparılan dərslər şagirdlər üçün çox cəlbedici və yaddaqalan olur. Multimediya vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompyuter tədris proqramları, rəngarəng illüstrasiyalar şagirdlərin idrak фяаллыьына müsbət təsir göstərir və şagirdlərin müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyətini artırır.

Məlum olmuşdur ki, бязи müəllimlər innovasiyalardan istifadə etməyi nəzərdə tutsalar da onların köməyi ilə aparılacaq dərsə əvvəlcədən hazırlaşmırlar. Dərsin hansı mərhələsində innovasiyaların tətbiqinə necə yer ayrılacağını planlaşdırmırlar.

Kompyuterdən təlim vasitəsi kimi istifadə edilməsində kompyuter təlim proqramları (KTP) əsas rol oynayır. Bu baxımdan kompyuter təlim proqramları hazırlanarkən şagird-kompyuter qarşılıqlı əlaqəsinin səmərəli şəkildə təşkili vacib şərtlərdən biridir. Şagirdlər məktəbdə öyrənilən tarixi hadisə, proses və obyektlərin riyazi modellərinin qurulmasında KTP-dan istifadə edə bilərlər.

Щазырда Азярбайжан тарихинин тядрисиндя истифадя етмяк цчцн мултімедийа технолоэийасы ясасында електрон дярслик чап едилмишдир. Тядрисин оптималлашдырылмасында ондан эениш истифадя олунур. Видеотехникадан вя компuтерля гаршылыглы тясиря истинадян тарих цзря програм материалларыны йахшы мянимсятмяк цчцн эениш имканлар йараныр. Мяктяблиляр тарихи щадисяляри йахындан мцшащидя едир, бу щадисялярин иштиракчыларына чеврилирляр. Компйuтер екранда рянэли тясвирляр алмаьа, онларын юлчцлярини, формасыны, шяклини, рянэини дяйишмяйя кюмяк эюстярир.

Dərsdə эириш мягсядиля тядрис видеофилмляриня иллцстратив материал кими мцражият олунмасы айдын вя конкрет мягсяд дашыйыр. Мяктяблилярин диггяти сяфярбяр едилир, мювзу цзря материала мараг йарадылыр. Нятижядя билик вя мялуматлар шцурлу шякилдя мянимсянилир вя йаддашда мющкямляндирилир. Шцурлу гавранылмыш билик ися шаэирдляри фяаллыьа сювг едир. Бу кими дярсляри даща чох илин яввялиндя, йахуд рцбцн

башланьыжында тяшкил етмяк мягсядяуйьундур. Бу жящят хцсусиля диггят мяркязиндя олмалыдыр. Бязи филмляр, адятян, информасийа иля йцклянир. Нятижядя информасийанын чатдырылмасы сцряти мяктяблилярин ону мянимсямя имканларыны цстяляйир.

Тяжрцбя эюстярир ки, адятян, сярбястлийя алышмайан шаэирд башгасынын тясири алтына тез дцшцр, щеч бир тяшяббцскарлыг, мцстягиллик эюстярмир, щяйатын нябзини тута билмир. Беля щалларын гаршысыны алмаг цчцн мцяллимин рящбярлийи алтында інновасийаларын тятбигиня эениш йер верилмялидир.

**Problemин елми йенилийи.** Тядрис просесиндя инновасийалардан истифадя етмякля шаэирдлярин идрак фяаллыьы йцксялир.

**Problemин практик ящямиййяти.** Инновасийалар шаэирдлярдя йени бажарыглары формалашдырараг онларын инкишафыны, тядгигатчылыг габилиййятлярини инкишаф етдирир.

## ЯДЯБИЙЙАТ

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. «Азярбайжан мцяллими» гяз., 2013, 25 октйабр

2. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu). Bakı: Azərbaycan Respublikasi Təhsil Nazirliyinin nəşri, 2006.

3. Жябрайылов И. Щ. Тарих фянни цзря шаэирд наилиййятляринин гиймятляндирилмясиня даир тювсиййяляр. Бакы: Мцтяржим, 2012.

4. Ящмядов И. В. Азярбайжанда инноватив тящсилин формалашмасы // Елм вя инновасийа, 2009, №1

5. Кяримов Й.Ш. Педагоъи тядгигат методлары. Бакы, РС Полиграф ММЖ, 2009.

6. Мещрабов А. О. Тящсилин информатлашдырылмасы инноватив просес кими // Тящсилдя ИКТ, 2009, № 1

**И. Аскерова**

## ИСПОЛЬЗОВАНИЕ ИННОВАЦИЙ В ПРЕПОДАВАНИИ ИСТОРИИ

### РЕЗЮМЕ

Основная цель инновационного образования – это усвоение учащимися новых знаний и приобретение ими умений и навыков. Учитель с помощью инновации может задавать учащимся задания в соответствии со способностями и различной подготовкой, применяя различные подходы.

Инновации включают в себя несколько проблем. К этим проблемам можно отнести: повышение интереса к предмету, сокращение потери времени и др.

Использование инноваций дает возможность учителю качественно построить процесс преподавания, усилить усвоение програмного материала, а также организовать работу с одаренными детьми.

**I. Askerova**

## USE OF INNOVATION IN TEACHING HISTORY

### SUMMARY

Innovations include a few problems. These problems include increase the interest to the subject, raising the loss of time.

The main objective of Innovative Education - is mastering new knowledge based an application of students skills. Teacher through innovation can ask students assignments in accordance with their abilities and different backgrounds using different approaches.

Using innovation enables the teacher to build the teaching quality, enhance the assimilation of the program material, as well as to organize the work with gifted children.

*Redaksiyaya daxil olub: 14.04.2014*

# İNFORMATİKA FƏNNİNİN TƏDRİSİNDƏ MS ACCESS MÜHİTİNDƏ VERİLƏNLƏR BAZASININ LAYİHƏLƏNMƏ VƏ YARADILMASI METODOLOGİYASI

**Şəfəq Cəbrayılov,**
*Azərbaycan Maliyyə-İqtisad Kollecinin müəllimi*
E-mail: ceshro@mail.ru

**Rəyçilər:** *tex.f.d.* **N.D. Cəfərov,**
*iqtisad.f.d.* **H.P. Ziyadov**

***Açar sözlər:*** *cədvəl, verilənlər bazası, realyasiya modeli, əsas açar, konseptual layihələndirmə*
***Ключевые слова:*** *таблица, база данных, реляционная модель, первичный ключ, концептуальное проектирование*
***Key words:*** *eable, database, relational model, primary key, conceptual design*

MS Access Microsoft Office progpamlar ailəsinin tərkib hissələrindən biridir. Access obyekt-yönümlü realyasiyalı verilənlər bazasını idarəetmə sistemidir. MS Access Baza İnformasiya Texnologiyaları (İT) növünə aiddir. Baza İT- by konkret məsələnin həlli üçün zəruri olan hesablama alqoritmini hələ ki, özündə saxlamayan potensial proqram vasitələri yığımıdır.[1]

Tətbiqi İT - bu verilənlərin emalı (işlənməsi) alqoritmini özündə saxlayan baza informasiya texnologiyalarıdır.

Ümumiyyətlə, MS Office proqramlar paketini "Yarım fabrikatlar" paketi adlandırmaq olar. Hər hansı proqram məhsulunu (ixtiyari sənədi, hesablama məsələsinin çıxış forması və s.) hazırlamaq üçün sıfırdan başlamağa ehtiyac yoxdur. Amma məsələnin iki tərəfi vardır. Birincisi - "maşın sürmək" vərdişlərinə yiyələnmək. Bunu fərqli şəkildə hamı bacarar. MS Access əlavəsinin interfeysi, alətlərindən və daha mürəkkəb formada istifadə bacarıqları.

İkincisi - bu tərəf daha mürəkkəb, istifadəçi və mütəxəssisdən daha çox yaradıcılıq, mahirlik tələb edəndir. Bu maşının "yanacağıdır". Bu məntiqi verilənlər yığımı olub – fayl adlandırılır. Burada istifadəçi və ya mütəxəssis bu proqram əlavələrində verilmiş hazır nümunələri konkret məsələyə adaptasiya etmək yolu ilə və ya özünün əvvəl işlədiyi proqramı adaptasiya etmək yolu ilə işin öhdəsindən gələ bilər. Digər halda isə konkret predmet sahəyə sıfırdan (başlanğıcdan) yanaşma məcburiyyətindədir. Burada konseptual, məntiqi layihələnmə və fiziki model realizasiyası qarşıdadır: Başlanğıc verilənlərin yığılması və ya toplanması, onların strukturlaşdırılaraq uyğun proqram vasitəsilə kompüterə daxil edilməsi, hesabi və məntiqi emal (işlənmə) prosedurlarından keçərək, aralıq, çıxış fayllarının (nəticəvi informasiyaların) alınması.

MS Access mühitində yaradılan faylın tipi .DBF adlanır. Yənı bizim yaradacağımız verilənlər bazasının-faylının tipi və ümumiyyətlə, hər bir VBİS (Verilənlər Bazası İdarəetmə Sistemi)-in doğurduğu faylın tipi dbf kimi təyin olunur. Faylın xarakteristikalarından biri də onun adıdır. Ad iki hissədən ibarətdir və onlar bir birindən nöqtə ilə ayrılır. Birinci hissə faylın adı, ikinci hissə isə nöqtədən sonra genişlənməsi(tipi) adlanır. Məsələn, Tələbə.dbf. Proqram əlavələri və onların

[1] Excel cədvəl prosessoru da bu növ texnologiyaya aiddir.

doğurduğu sənəd-fayllar arasında başqa proqramlarda olduğu kimi irsilik prinsipi qorunur. Sənəd-faylların tiplərinə uyğun olaraq onların hansı proqram əlavəsinə aid olduğu məlum olur.

VERİLƏNLƏR BAZASINI İDARƏETMƏ SİSTEMİ MS ACCESS

Əsas anlayışlar və təyinlər.

Verilənlər bazasını idarəetmə sistemi (VBİS, DBMS - Data base Management System) - bu proqram verilənlər bazasının yaradılması, həmçinin verilənlərə müraciətin təşkili və onların emalı üçün nəzərdə tutulmuşdur.

Verilənlər bazası (VB, DB-Data Base) dedikdə müəyyən predmet sahəyə aid olan, maddi daşıyıcıda müəyyən qayda ilə, bir qayda olaraq VBİS vasitələrilə təşkil olunmuş verilənlər məcmusu başa düşülür.

Verilənlər bazası verilənlər modelinə uyğun olaraq təşkil olunur, hansı ki, VBİS ilə dəstəklənir. Realyasiyalı verilənlər modeli (ing. Relation – münasibət, nisbət) müasir VBİS-də istifadə olunan ən geniş yayılmış modellərdən biridir. Realyasiya modeli verilənlərin ikiölçülü cədvəl şəklində təşkilinə yönlənmişdir.

Əsas açar (primary key - cədvəlin əsas aşarı) hər bir yazını birqiymətli təyin edən bir və ya bir neçə sahə adlanır. Əsas açar bir sahədən ibarətdirsə - sadə, bir neçə sahədən ibarət olduqda isə - mürəkkəb adlanır. Cədvəldə əsas açardan əlavə ikinci açar da mövcud ola bilər. İkinci açar – bu elə sahədir ki, onun qiyməti müxtəlif yazılarda təkrarlana bilər, yəni unikal deyil.

Realyasiya modeli cədvəllər arasında məntiqi əlaqə onların eyni adlı sahələri arasında qurulur. Bu cür sahə bir cədvəldə əsas açar, əlaqələnən digər cədvəldə isə xarici açar və ya əlaqə açarı rolunu oynayır.

Məntiqi qarşılıqlı əlaqələnmiş və müəyyən predmet sahəni əks etdirən realyasiyalı cədvəllər məcmusu realyasiyalı verilənlər bazasını (RVB) yaradır.

Access-ə aid obyektlər:

*Cədvəllər* verilənlər bazasının əsasını təşkil edir və predmet sahənin obyektləri haqqında informasiyanın saxlanması üçün nəzərdə tutulmuşdur.

*Sorğular* VB-nın bir və ya bir neçə cədvəllərindən zəruri verilənləri seçmə vasitəsidir.

*Formalar* sənədlərin fiziki formasının electron variantını təcəssüm etdirir. Onlar verilənləri daxiletmə, baxış və onların korrektəsi üçün nəzərdə tutulmuşdur.

*Hesabatlar* çıxış sənədlərinin formalaşması üçün istifadə olunur, ekran, printer və ya fayla çıxış üçün nəzərdə tutulmuşdur.

Makroslar əməliyyatların təsvirini özündə saxlayır, hansı ki müəyyən hadisəyə cavab olaraq yerinə yetirilməlidir. Hər bir əməliyyat makrokomanda ilə realizasiya edilir.

*Modullar* Visual Basic dilində proqramları özündə saxlayır, hansı ki bunlar istifadəçi məsələlərində verilənlərin emalının standart olmayan prosedurunun realizasiyası üçün istifadəçi tərəfindən işlənilir.

Verilənlər bazaları obyektlərinin (cədvəllər, sorğular, formalar, hesabatlar) yaradılması üçün Konstruktor (Design) və həmçinin master Access (Wizard)- proqramı adlanan xüsusiləşmiş dialoq qrafik vasitələrindən istifadə edilir. VB obyektlərinin dialoq vasitələrilə yaradılması ilə yanaşı, Access proqramlaşdırma vasitələrinə də malikdir:

- SQL (Structured Query Language) - Sorğuların Strukturlaşdırılmış Dili
- Makrokomanda dili
- VBA (Visual Basic for Applications) obyekt yönümlü proqramlaşdırma dili

Microsoft Access 2010 proqramının interfeysi. Bu proqramla işləmək üçün növbəti komandalar ardıcıllığını yerinə yetirmək lazımdır.

Start>Programs>Microsoft Office>Microsoft Access 2010 . Nəticədə ekrana proqramın baş pəncərəsi çıxacaq.




*Şəkil 1. MS Access 2010 proqramının baş pəncərəsi verilənlər bazası cədvəllərinin yaradılması.*
*cədvəlin strukturu – informasiya modeli*

İnformasiya modeli – obyekt, proses və hadisəni xarakterizə edən və həmçinin xarici mühitlə qarşılıqlı əlaqədə olan informasiya məcmusudur.




İnformasiya modelləri tiplərindən ən çox istifadə olunanı düzbucaqlı cədvəldir. Verilənlərin cədvəl formasına gətirilməsi informasiyanın sistemləşdirilməsi üsullarından biridir.

Cədvəl forması verilənlərə əyanilik verir, verilənləri strukturlaşdırır, verilənlərin xarakterindəki qanunauyğunluqları görməyə və həmçinin cədvəli diaqram və qrafiklə əvəz etmə imkanı verir.

Cədvəl modelində eynitipli obyektlərin və ya xüsusiyyətlərin siyahısı cədvəlin 1-ci sütununda (sətrində) yerləşdirilir, onların xüsusiyyətlərinin qiymətləri isə növbəti sütunlarda (sətirlərdə) yerləşdirilir.

"Obyekt-xüsusiyyət" cədvəl tipi: bir sətirdə bir obyekt və ya bir hadisə haqqında informasiya yerləşdirilir. Məsələn,

| Tarix | Yağıntı | Temperatur |
|---|---|---|
| 3.02.14 | qar | -6 |
| 7.02.14 | | 5 |
| 3.03.14 | yağış | 11 |

"Obyekt-obyekt" cədvəl tipi: müxtəlif obyektlər arasında qarşılıqlı əlaqəni əks etdirir. Məsələn,

| Tələbə | Mühasibat uçotu | İqtisadi nəzəriyyə |
|---|---|---|
| Seyidov | 4 | 5 |
| İmanova | 3 | 4 |
| Əliyeva | 5 | 4 |

Cədvəlin strukturu işarə informasiya modelini əks etdirir. Cədvəlin strukturu sahələrin tərkibi və ardıcıllığı ilə təyin edilir. Sahələrin təsviri üçün növbəti xarakteristikalardan istifadə edilir: sahənin adı, verilənin tipi və sahənin ölçüsü. Bundan əlavə. hər bir cədvəl üçün birinci açar təyin edilməlidir. Access on tip verilənlərdən istifadə etməyə imkan verir: Mətn. Ədəd, Tarix/Zaman, Pul, Sayğac, Məntiqi, OLE obyekti, Hiperistinad, Memo. Konstruktor rejimində onların verilməsi üçün sahənin sağ tərəfində yerləşən açılan siyahı düyməni sıxıb, açılan siyahıdan tələb olunan tipi seçmək lazımdır. Verilənlərin hər bir tipi özünəməxsus xüsusiyyətlərlə ayrılır, hansı ki *Konstruktor* pəncərəsinin Свойства поля bəndində əks etdirilir.

ƏSAS AÇARIN TƏYİNİ. CƏDVƏLLƏRİN ƏLAQƏLƏNDİRİLMƏSİ.

Əsas açarı təyin etmək üçün açar kimi istifadə olunacaq sahəni seçmək və növbəti əmri *ПРАВКА-КЛЮЧЕВОЕ* ПОЛЕ (Edit- Primary Key) yerinə yetirmək zəruridir. Bu seçilən sahədə açar təsvirli nişan çıxmalıdır.

Cədvəllərarası əlaqələr *СХЕМА ДАННЫХ (Relationships)* dialoq pəncərəsində qurulur. Bu sxem VB-nın qrafiki obrazıdır, əyani olaraq cədvəlləri və onlar arasındakı əlaqələri əks etdirir.

Cədvəlləri əlaqələndirmək üçün növbəti əməliyyatları yerinə yetirmək lazımdır (cədvəl pəncərələrinin hamısı irəlicədən bağlanmalıdır):

- СЕРВИС – СХЕМА ДАННЫХ *(Tools-relationships)* əmrini yerinə yetirməli və ya alətlər panelindən  düyməsini sıxmalı (klikləməli);
- Açılan ДОБАВЛЕНИЕ ТАБЛИЦЫ (Show Table) dialoq pəncərəsində verilənlər sxeminə daxil ediləcək cədvəlləri seçməli və Добавить (Add) düyməsini, sonra isə Закрыть (Close) düymələrini sixmalı (klikləmək);
- Birinci əlaqələnən cədvəldə əlaqə sahəsini seçməli və onu ikinci cədvəlin uyğun sahəsinə siçanın köməyi ilə sürükləməli;

Cədvəllər arasında əlaqələr yalnız üst-üstə düşən sahələr əsasında qurulur, bu sahələrin tipləri eyni olmalıdır. Bundan başqa ədəd tipli əlaqələnən sahənin Размер Поля xüsusiyyətindəki ədədi qiymətləri eyni olmalıdır, başqa sözlə uzunluqları eyni olmalıdır.

## VERİLƏNLƏR BAZASI CƏDVƏLLƏRİNİN YARADILMASI

İlkin konseptual layihə şəklində görülən işlər.

Universitetlərə daxil olmuş tələbələr haqqında iki cədvəldən "QRUP", "TƏLƏBƏLƏR" cədvəllərindən ibarət verilənlər bazasını yaratmalı.

«Qrup» cədvəli

| Qrup sayı | İxtisas kodu | Qrupda tələbələrin sayı | Keçid balı |
|---|---|---|---|
| K89 | 76118 | 25 | 224.59 |
| K109 | 76215 | 20 | 234.74 |
| K115 | 76159 | 20 | 217.32 |

«Tələbə» cədvəli

| Qrup | SAA | Cins | Tələbənin jurnal nömrəsi | Anadan olduğu tarix | Ünvanı | Keçid balı |
|---|---|---|---|---|---|---|
| K89 | Əliyeva | Q | 2 | 05.02.93 | Gəncə , Nizami 20 | 231.94 |
| K89 | Əhmədov | K | 17 | 10.06.93 | Gəncə, Cavadxan 15 | 255.36 |
| K89 | Seyidbəyli | K | 10 | 11.12.92 | Sumqayıt, Sabir, 3 | 224.59 |
| K109 | Süleymanov | K | 11 | 29.10.92 | Bakı, Xarici Dairəvi. 66 | 241.79 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| K109 | Gözəlova | Q | 1 | 06.01.93 | Bakı, H.Ə. Əliyev. 12 | 250.58 |
| K109 | Piriyeva | Q | 9 | 15.12.92 | Şamaxı, S.Ə. Şirvani. 17 | 234.74 |
| K115 | Lütfizadə | K | 13 | 27.09.92 | Mingəçevir, S. Rüstəm. 76 | 217.32 |
| K115 | Behbudova | Q | 5 | 20.04.93 | Bakı, H. Əliyev, 19 | 255.84 |

Cədvəlin strukturunu yaratmaq üçün cədvəl sahələrinin əsas xarakteristikalarını- sahələrin xüsusiyyətlərini, birinci açarı təyin etmək zəruridir. 1-2 saylı cədvəllərdə cədvəl sahələrinin əsas xarakteristikaları təsvir olunmuşdur.

Cədvəl 1. «Qrup» cədvəli sahələrinin xüsusiyyətlərinin təsviri

| Sahənin Adı-identifikatoru | Açar Sahə | Verilənlərin tipləri | Ölçü, Bayt | Kəsr hissədəki işarələrin sayı | Sahənin adı(imza) | Qiymətli məntiqi şərt |
|---|---|---|---|---|---|---|
| | | | | | | Səhv haqqında məlumat |
| NQ | Hə | Mətn | 5 | | Qrup nömrəsi | |
| KİXTİSAS | | Mətn | 6 | | İxtisasın kodu | |
| QTS | | Ədəd | bayt | 0 | Qrupdakı tələbələrin sayı | >=10 And<=40 |
| | | | | | | Təl. Sayının səhv dax. Edil |
| KBAL | | Ədəd | Birqiymətli sür. nöqtəli | 2 | Keçid balı | >150 And <=700 |
| | | | | | | Qiymətləndirmədə səhv |

Cədvəl 2. «Tələbə» cədvəli sahələrinin xüsusiyyətlərinin təsviri

| Sahənin Adı-identifikatoru | Açar Sahə | Verilənlərin tipləri | Ölçü, Bayt | Kəsr hissədəki işarələrin sayı | Sahənin adı(imza) | Qiymətli məntiqi şərt |
|---|---|---|---|---|---|---|
| | | | | | | Səhv haqqında məlumat |
| NQ | Hə | Mətn | 5 | | Qrup | |
| NS | Hə | Mətn | 2 | | Tələb-in jurnal nömrəsi | |
| SAA | | Mətn | 15 | | SAA | |
| Cins | | Məntiqi əvəzetmə (k, q) | 1 | | Cins | |
| ATARİX | | Tarix/Zaman | Qısa format dd. mm.yy | | Anadan olduğu tarix | |
| UNVAN | | Mətn | 25 | | Ünvan | |
| KBAL | | Ədəd | Birqiymətli sür. nöqtəli | 2 | Keçid balı | |

Bu verilənlər əsasında aşağıda göstərilən əməliyyatlar ardıcıllığı yerinə yetirilir:

1 – Verilənlər bazası strukturunun yaradılması

2 – Verilənlərin verilənlər bazasına daxil edilməsi

3 – Cədvəllər arasında əlaqələrin qurulması

Сервис-Схема əmrini yerinə yetirməli və ya Схема данных düyməsini sıxmalı. Схема данных pəncərəsində cədvəlləri yerləşdirməli. Qrup Tələbə cədvəlləri arasında NQ sadə açarı üzrə əlaqə qurmalı. Diqqət yetirmək lazımdır ki, açılan pəncərədə birin – çoxa kimi münasibət tipi

qurulmuşdur. Qarşılıqlı əlaqələnmiş cədvəllərdə informasiya tamlığını qoruyan punktları qurmalı. Схема данных –yadda saxlamalı və pəncərəni bağlamalı.




4 – Qarşılıqlı əlaqələnmiş cədvəllərə yazıları daxiletmə və korrektə.

**Problemin aktuallığı.** Verilənlər bazasının informasiya sistemlərinin qurulmasında böyük rol oynaması; Verilənlər bazası idarəetmə sisteminin iş prinsipinin başa düşülməsi başqa proqram məhsullarının funksionallığının başa düşülməsində böyük əhəmiyyəti.

**Problemin elmi yeniliyi.** Verilənlər bazası və onun obyektləri obyektləri anlayışlarının mahiyyətcə müasir yanaşmalarla açılması.

**Problemin praktik əhəmiyyəti.** Tədris müəssisəsində sorğu arayışların verilməsində, idarəetmə qərarlarının operativ, dürüst qəbul edilməsində böyük rolu var.

## ƏDƏBİYYAT

1. Kərimov S.Q., Həbibullayev S.B., İbrahimzadə T.İ. İnformatika. Bakı, 2011.
2. Одиночкина С.В. Разработка баз данных в Microsoft Access, 2010, М., 2012.
3. JP Ojeda Pedraza, MS Access Database Designed For Community Service Office, California, 2011.
4. А.Н. Романов, Информационные системы в экономике. М., 2008.

**Ш. Джабраилов**

## МЕТОДОЛОГИЯ ПРОЕКТИРОВАНИЯ И СОЗДАНИЯ БАЗЫ ДАННЫХ В СРЕДЕ MS ACCESS В ПРЕПОДОВАНИИ ПРЕДМЕТА ИНФОРМАТИКИ

### РЕЗЮМЕ

Access является средством объектно-ориентированной реляционной системы управления базами данных (СУБД). Базы данных (БД) могут содержать различные объекты, но основными объектами реляционной базы данных являются таблицы. Структуру двумерной таблицы образуют столбцы и строки. Их аналогами в структуре базы данных являются поля и записи. *Таблица* – это объект, предназначенный для ввода и хранения данных в виде записей (строк) и полей (столбцов).

Реляционная модель ориентирована на организацию данных в виде прямоугольных двухмерных таблиц.

*Первичным ключом* (или просто ключом таблицы) называется одно или несколько полей, однозначно идентифицирующих (определяющих) каждую запись. Связи между таблицами в реляционной модели устанавливаются по равенству значений совпадающих полей. Такие поля в разных таблицах играют роль *внешнего ключа* или *ключа связи.*

Связи между таблицами устанавливаются в окне диалога *схема данных*. Эта схема является графическим образом БД, она наглядно отображает таблицы и связи между ними.

**Sh. Jabrayilov**

## METHODOLOGY DESIGNING AND CREATING A DATABASE IN MS ACCESS FOR TEACHING OF SUBJECT INFORMATICS


### SUMMARY

Access is an object-oriented relational database management system. Access is structured in terms of tables that have rows and columns. Columns in the table, which are called fields, identify the types of data that are stored in the table. One of the fields, called the primary key, in a table uniquely identifies each of the records. In the example shown above, the primary key is the ID. No two rows in a table can have the same value in a primary key field. Access is a relational database management system (RDBMS) that generally uses more than one table to store information. These are created two tables a relationship.

**Foreign key:** A key used in one *table* to represent the value of a *primary key* in a related table. While primary keys must contain unique values, foreign keys may have duplicates.

Relationships between the tables are set in the dialog box *scheme data*. This diagram is a graphical way the database, it clearly displays the tables and the relationships between them.


*Redaksiyaya daxil olub: 10.04.2014*

# SİNİFDƏNXARİC TƏDBİRLƏRDƏ HƏYAT BİLGİSİNİN DİGƏR FƏNLƏRLƏ ƏLAQƏLƏNDİRİLMƏSİ

**Sevinc Axundova,**
*Bakı Slavyan Universitetinin baş müəllimi*
E-mail: nazrin.axundova@hotmail.com

**Rəyçilər:** *dos.* **H. Hacıyeva,**
*dos.* **Ç. Məmmədova**

***Açar sözlər:*** *sinifdənxaric, fənlərarası əlaqə, həyat bilgisi, fauna, flora, terrarium*
***Ключевые слова:*** *внеурочный, межпредметные связи, познание мира, фауна, флора, террариум*
***Key words:*** *after–hour, inferobjects communications, world knowledqe, floor, founa, terrarium*

Təlimin keyfiyyətinin yüksəldilməsində, şagirdlərin dünyagörüşünün artırılmasında və intellekt səviyyəsinin inkişafında sinifdənxaric tədbirlərin rolu böyükdür. Adətən, sinifdənxaric tədbirlər daha çox ana dili, estetik tərbiyə üzrə təşkil edilir, lakin orada bütün fənlərlə bağlı əməliyyatlar həyata keçirilir. Elə tədbirlər də vardır ki, onlar müxtəlif fənlər istiqamətində təşkil olunur. Həyat bilgisi fənninə uyğun keçirilən tədbirlərə «Novruz bayramı»nı, «Yaşıllaşdırma həftəsi»ni, «Çiçək bayramı»nı, muzey və sərgilərə gəzinti ekskursiyaları, müvafiq kino, teatr, konsertlərə kollektiv baxışı, məktəbin həyətyanı sahəsində təmizlik işlərini, bitkilərə qulluq edilməsini, canlı guşədə fenoloji müşahidələrin aparılmasını, guşədəki bitki və heyvanlara qulluğu göstərmək olar.

Məktəblərin ibtidai sinifləri üzrə əsasən «Əlifba bayramı», «Yeni il şənliyi, «Novruz bayramı», «Çiçək bayramı» kimi tədbirlər təşkil edilir. Bunlar da bəzi məktəblərdə məcburi xarakter daşıyır. Lakin tədbirlərin təşkilinə könüllü qoşulan və fəallıq göstərən məktəblər də az deyildir. Bunlardan Bakı şəhərinin 5, 9, 18, 20, 53, 82 nömrəli, Zaqatala rayonu 1 nömrəli, Şəki rayonu 17 və 18 nömrəli, Masallı rayonu 3 nömrəli, Qax rayonu Qıpçaq kənd məktəblərini göstərmək olar.

İbtidai siniflər üzrə sinifdənxaric tədbirlər keçirilərkən müvafiq elmi-pedaqoji prinsiplər gözlənilməlidir.

Belə tədbirlər:

- fənnin tədrisinə, şagirdlərin dünyagörüşünün artmasına, tərbiyəsinə xidmət etməli;
- şagirdlərin biliklərini inkişaf etdirməli, zehni və fiziki qabiliyyətlərini təkmilləşdirməli;
- dərslərdə keçilənlərlə, müxtəlif fənlərlə, proqram materialı ilə sıx əlaqələndirilməli;
- dövrün ən aktual, şagirdləri maraqlandıran məsələlərə həsr edilməli;
- şagirdlərə həyati bacarıqların aşılanmasına, onların sağlam, hərtərəfli, əsl azərbaycan vətəndaşı kimi yetişməsinə xidmət etməli;
- şagirdlərin hər birinin fəallığını reallaşdırmalı;
- qabaqcadan hazırlıq işlərinin aparılması istiqamətində keçirilməli və müsbət nəticə əldə olunmalıdır.

Həyat bilgisindən şagirdlərin əqli və mənəvi inkişafını, bilik keyfiyyətinin yüksəlməsini, hərtərəfli şəxsiyyətin formalaşmasını həyata keçirən tədbirlərdən biri «Gənc təbiətçilər» dərnəyinin təşkilidir. Dərnəyə üzvlər ilin əvvəlindən könüllü yazılır, onlarla iş planı tərtib edilir. Dərnək məşğələsi ayda bir və ya iki dəfə təşkil olunur. Onun təqvim planı hazırlanır və mövzular, vəzifələr üzvlər arasında paylanılır. Dərnək üzvləri vəzifələrinin icrasına başlayırlar. Məşğələlər təqvim planına uyğun müntəzəm təşkil edilir. Plana ictimaiyyəti daha çox narahat edən, şagirdlərin yaş və dünyagörüşünə uyğun mövzular daxil edilir. Aşağıdakı mövzuların planına daxil edilməsi daha effektlidir:

- qəribə bitkilər;
- maraqlı heyvanlar;
- Azərbaycanın florası;

- Azərbaycanın faunası;
- Azərbaycanın dərman bitkiləri;
- bitki və heyvanlar nə üçün qorunmalıdır;
- Azərbaycanın qoruqları;
- Azərbaycanın «Qırmızı kitabı»;
- Azərbaycanın təbiət qoruqlarından birinə ekskursiya;
- dərman bitkilərinin toplanması, emalı və saxlanması;
- bəzək bitkilərinin çoxaldılması;
- dərnəyin illik fəaliyyətinə yekun vurulması.

Dərnəyin bəzi mövzuları üzrə şagirdlər məruzə, referat hazırlayır, çıxışlar edir və müzakirə açırlar. Digər mövzular üzrə hər kəsin işləməsi, öz qabiliyyətini göstərməsi təklif olunur, daha bacarıqlıların digərləri ilə əməkdaşlığı, yoldaşlıq yardımı təşkil edilir.

Həyat bilgisi üzrə təşkil olunmuş dərnək məşğələlərində digər fənlərlə əlaqəyə diqqət yetirilməlidir. Məruzənin işlənilməsi, müxtəlif ədəbiyyatların mütaliəsi, yeri gəldikcə folklor nümunələrindən istifadə edilməsi, bitki və heyvan qoruqlarının adlarının düzgün yazılışı, deyilişi ana dili ilə əlaqə yaradılmasını tələb edir. Qoruq və parkların sahəsi, hər bitki və heyvana verilən suyun, qidanın miqdarı, onların qrafik üzrə işlənməsi, orada qorunan heyvan və bitkilərin say tərkibi, çoxalma intensivliyi, bitki və heyvanlara qulluq işləri riyazi biliklərlə əlaqələndirilir.

Bitki və heyvanların toplanması, herbari və kolleksiyaların hazırlanması, bəzək əşyalarının düzəldilməsi, onların şəkillərinin parça üzərində işlənməsi, dərman bitkilərinin toplanması, emalı və saxlanması həm də şagirdlərin texnologiyadan əldə etdikləri bacarıqlarla əlaqələndirilir.

Bitki və heyvanlara, onların qorunmasına dair yeni məlumatların əldə edilməsi informatika fənni ilə əlaqənin yaradılması ilə həyata keçirilir.

Bitki və heyvanların şəkillərinin işlənməsi, parçaya çəkilməsi, rəngli saplarla tikilməsi, sərgilərin təşkili işləri təsviri incəsənətlə əlaqəni daha da gücləndirir.

Heyvan səslərinin yazılması, səsləndirilməsi, bitki və heyvanlara həsr edilmiş mahnıların ifa edilməsi kimi əməliyyatlar musiqi və nəğmə fənni ilə əlaqənin yaradılmasını tələb edir. Bütün bunlar sinifdənxaric tədbirlərdə həyat bilgisi ilə digər fənlərin əlaqələndirilməsinin səmərəli yolları kimi müəyyənləşdirilməlidir.

Məktəblərdə həyat bilgisi üzrə «Canlı guşə»nin təşkil edilməsi digər fənlərlə əlaqənin yaradılmasına geniş imkanlar açır. «Canlı guşə» şagirdləri maraqlandıran əsl istirahət guşəsi olmalıdır. Biliyindən, xarakterindən asılı olmayaraq hər bir şagird orada tədbirlərə, canlılara qulluq etmək işlərinə həvəslə qoşulur. Ona görə də həyat bilgisi və digər fənlərin tədrisi səviyyəsini yüksəldən sinifdənxaric tədbir kimi «Canlı guşə»nin yaradılmasının və orada şagirdlərin fəaliyyətinin təşkili aktual problem olaraq həll edilməlidir. Onun təşkili o qədər də çətin bir iş deyil. Hər bir uşağın evdə hansısa canlını, xüsusilə heyvanı saxlaması arzusu danılmazdır. Bunun həyata keçirilməsi isə həmişə mümkün olmur. Ona görə də uşaqların bu arzusu məktəbdə «Canlı guşə»nin təşkili və orada şagirdlərin fəaliyyəti ilə həyata keçirilməsi yaxşı nəticə verir. Sinif müəllimləri fənlər üzrə bir çox mövzularını həmin guşədə tədris edə bilirlər. Buna görə də onun yaradılmasına təşəbbüs göstərilməlidir.

«Canlı guşə»nin məktəbin birinci mərtəbəsində həyətə çıxışı olan otaqda təşkili məsləhətdir. Otaq işıqlı və günəş düşən tərəfdə olmalıdır. Orada divardan bitki və heyvanlara dair şəkillər, yazılar, qrafik və sxemlər, qeydiyyat cədvəlləri, bitki və heyvanların adları yazılmış lövhə asılmalıdır.

Canlı guşədə tez böyüyən və susuzluğa davamlı bitkilər, bəzək (dekorativ) bitkiləri (elodeya, tradeskansiya, kaktuslar, ətirşah) becərilməlidir. Onlar otağın günəş düşən hissəsində yarusluluq prinsipləri nəzərə alınaraq yerləşdirilməlidir. Bundan başqa canlı guşədə dibçəkdə əkilmiş tərəvəz, bostan, dərman, taxıl bitki nümunələri olmalıdır ki, onlar üzərində mövzular üzrə təcrübələr aparılması həyata keçirilsin. Guşədə buğda, arpa, qarğıdalı, noxud, pomidor, kartof, soğan, turp, lobya kimi bitkilərin əkilməsi məqsədəuyğundur. Onların toxumlarının tapılması, saxlanması məsləhətdir.

Canlı guşədə heyvanlar da saxlanılmalıdır. Onlar akvariumda, terrariumda, volyer və qəfəslərdə yerləşdirilir. Orada balıqlar, sürünənlər, quşlar, dovşan, pişik və başqa heyvanlar saxlamaq mümkündür. Akvariumda müxtəlif bəzəkli balıqlar saxlanılmalıdır. Orada gözəllik və suyun oksigenini artırmaq məqsədilə də bitkilərdən istifadə edilməlidir. Akvariumda bir çox onurğasız heyvanlar (ilbizlər, soxulcan, hidra, su birəsi, siklop, yengəc, çay xərçəngi, su böcəyi və s.) saxlanıla bilər. Akvarium balıqları üçün bioloji xüsusiyyətləri nəzərə alınaraq uyğun şərait yaradılmalıdır.

Akvariumda suyun səviyyəsinə də fikir verilməlidir. Adətən, suyun səviyyəsi 30 sm olur, balıqların çoxalma dövründə səviyyə 10–20 sm-ə endirilməlidir. Akvariuma işığın düşməsi çox vacibdir. İşıq balıqların rənginə və davranışına təsir göstərir. Heofaqus, makropad, göy xanı balıqları işıqsevən, afiozemion balıqları kölgə sevəndirlər. Xoruzcuq və pelmatoxromis balıqları gün ərzində rəngini bir neçə dəfə dəyişə bilir. Bəzi balıqlar akvarium şəraitinə tez uyğunlaşır, digərləri isə çox narahatlıq keçirirlər. Müxtəlif növ balıqları bir yerdə saxlamaq məsləhət deyildir. Akvarium balıqlarının ömrü əsasən 2–3 il, sixlid, naxacıq, karp balıqlarının isə 10 ildən çox olur. Balıqların sağlamlığı və uzun ömürlülüyü ona yaxşı qulluq edilməsindən çox asılıdır. Xanı balığının rəngi çox gözəl olur, özü isə yırtıcı balıqdır, ona görə də digər balıqlarla birlikdə saxlamaq olmaz. O, təmiz və oksigen qazı ilə zəngin suları sevir. Gümüşcə balığının rəngi gümüş rəngində olub, suda seçilmir. Onun da akvariumunun üstünü torla örtmək məsləhətdir. Qambuziya akvarium şəraitinə asanlıqla uyğunlaşan balıqlardandır. Bunlardan ağcaqanad sürfələrinə qarşı mübarizədə istifadə edilir. Ekzotik balıqlardan huppi bala doğmaqla çoxalan akvarium balığı olub, onun rəngi çox qəşəng və xallı olur, bütün il boyu, hər 3–6 həftədən bir bala verir.

Terrariumda kərtənkələ, qurbağa, tısbağa saxlanılmalıdır. Terrariumun bir küncündə həmişə su qoyulmalı, bəzi bitkilər (mamırlar) əkilməlidir. Qəfəsdə müxtəlif bəzək quşları bəslənilməlidir. Onlar üçün də lazımi şərait yaradılmalıdır. Quşlardan tutuquşu, ssarqa, tetra quşu, bülbül və başqalarına uşaqlar həvəslə qulluq edirlər. Belə heyvanların da canlı guşədə saxlanması onların davranışlarının, hərəkətlərinin şagirdlər tərəfindən müşahidə edilməsi və qeyd aparması üçün zəruridir. Canlı guşədə dovşan, kərtənkələ, ağ dəniz siçanı, qurbağa, triton, həşəratlar da saxlanıla bilər. Belə ki, onların bioloji xüsusiyyətlərinə uyğun akvarium və ya terrarium hazırlanmalı, lazımi qidalarla təmin edilməlidir.

Canlı guşədə bitki və heyvan müqəvvaları, herbarilər, kolleksiyaların yerləşdirilməsi məsləhətdir. Müxtəlif meyvə, toxum, çiçək nümunələri, onların mulyajları, modelləri, sxemləri və digər məhsullarının olması zəruridir.

Canlı guşə alətlərinə termometr, psixometr, kompas, saat, qum saatı, kiçik bel, toxa, bıçaq, qayçı, xətkeş, su qabları, müxtəlif ölçü cihazları, tərəzi, qızdırıcı cihazlar aiddir. Onlardan istifadə qaydaları şagirdlərə öyrədilir və nəzarət edilir.

Canlı guşənin yaradılması, bitki və heyvanlara qulluq edilməsi uşaqların çox xoşuna gələn bir işdir. Bitki və heyvanlara qulluq edilməsi ilə şagirdlərdə təbiətə, onun sərvətlərinə, xüsusilə canlı təbiətə maraq, sevgi artır, onlarda təbiəti qorumaq, ona qayğı ilə yanaşmaq hissi inkişaf etdirilir.

Canlı guşənin təşkilində canlı və cansız eksponatların hazırlanması, yerləşdirilməsi və qulluq edilməsi həyat bilgisinin digər fənlərlə əlaqənin həyata keçirilməsinə imkan yaradır. Belə ki, dibçəklərdə bitkilərin, akvarium, terrarium, qəfəslərdə heyvanların etiketləşdirilməsi, bitki və heyvanlara dair əlavə ədəbiyyatların mütaliəsi ana dili ilə əlaqənin yaradılmasını təmin edir. Eksponatların hazırlanması və yerləşdirilməsi, canlılara qulluq işləri texnologiya ilə tam əlaqəli həyata keçirilir. Guşədə yerləşdirilən şəkillərlə iş, rəsmlərin işlənməsi riyaziyyat və təsviri incəsənət bilikləri ilə əlaqənin yaradılmasını zəruri edir. Heyvanların müxtəlif səslərinin dinlənilməsi, yazılması onlara dair mahnıların ifası musiqi və nəğmə fənnindən keçilənlərlə əlaqə zəminində həyata keçirilir.

Guşədə işlədilən texniki avadanlıqlar, cihaz və aparatların təşkili, onlardan istifadə qaydaları həyat bilgisi mövzularının riyaziyyat və informatika fənləri ilə əlaqə yaradılmasına kömək edir. Göstərilən fəaliyyət növləri həyat bilgisinin digər fənlərlə əlaqələndirilməsinin səmərəli yollarıdır. Hər bir sinif müəllimi dərslərində və sinifdənxaric tədbirlərdə tədqiq etdiyimiz və səmərəsini əsaslandırdığımız yollardan istifadə etməli və həyat bilgisinin materiallarını digər fənlərlə əlaqələn-

dirməyi bacarmalıdır. Canlı guşənin eksponatları şagirdlərin yaradıcı əməyi ilə daim yeniləşdirilməlidir. Şagirdlər yeni-yeni eksponatlar hazırlayarkən digər fənlərdən keçdikləri materiallara istinad edirlər. Fənlər arasında əlaqələrin yaradılması fənlərin, xüsusilə həyat bilgisinin tədrisində yüksək nəticələr əldə edilməsinə imkanlar açır. Bu imkanlara əsaslanan sinif müəllimləri təlimi daha uğurla həyata keçirirlər.

## ƏDƏBİYYAT


1. Təlim prosesində fənlərarası əlaqə (Məqalələr məcmuəsi). Ryazan, 1967.
2. Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.
3. Кошмина И.Б. Межпредметные связи в начальной школе. 2003.
4. Rəcəbova A.O. Fənlərarası əlaqə ibtidai sinif şagirdlərinin təlim fəaliyyətini inkişaf etdirən mühüm vasitə kimi. Ped.elm.nam. …. dis. avtoref. Bakı: Şirvannəşr, 2008.


**С. Ахундова**

## ВЗАИМОСВЯЗЬ ПРЕДМЕТА «ПОЗНАНИЕ МИРА» С ДРУГИМИ ПРЕДМЕТАМИ ВО ВНЕУРОЧНЫХ МЕРОПРИЯТИЯХ

### РЕЗЮМЕ

Статья посвящена актуальной проблеме взаимосвязанного преподавания предмета «Познание мира» с другими предметами и охватывает вопросы связи предметов во внеурочных мероприятиях. Автор анализирует возможности внеурочных мероприятий для ведения межпредметных связей и подчеркивает значение их проведения. Здесь также даются методические рекомендации по организации внеурочных мероприятий и созданию живого уголка в школах.

**S. Akhundova**

## CORRELATION OF A SUBJECT “WORLD KNOWLEDGE” WITH AFHER SUBJECTS IN AFTER-HOUR ACTIONS

### SUMMARY

Article is devoted to an actual problem of interdependent teaching of a subject “World knowledge” with after subjects and envelops questions of a correlation of subjects in after-hour actions. The author analyzes possibilities of after-hour actions for implementation of inter objects communications and emphasizes voluc of their carring out. Methodical recommendations about the organizaton of after-hour actions and creations of a nature corner at schools are here too made.

*Redaksiyaya daxil olub: 13.05.2014*

# YENİYETMƏLƏRLƏ APARILAN BƏDƏN TƏRBİYƏSİ DƏRSLƏRİNDƏ NƏZƏRİ BİLİKLƏRİN MƏNİMSƏDİLMƏSİ METODLARI

**Ufuk Sağlam,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: saglam75@hotmail.com

**Rəyçilər:** *p.e.d.* **P. B. Əliyev,**
*dos.* **T.S. Paşayev**

***Açar sözlər:*** *yeniyetmə, bədən tərbiyəsi, nəzəri biliklər, çəldlik, çeviklik, məktəb, ailə*
***Ключевые слова :*** *подросток, физкультура, теоретические знания, ловкость, школа, семья*
***Key words:*** *adolescent, physical education, theoretical knowledge, agility, school, family*

Şagirdlər başa düşməlidirlər ki, bədən tərbiyəsi və idman insanın can sağlığının möhkəmlənməsinə, iradə və mətinləşməsinə, fəal həyat mövqeyinin möhkəmlənməsinə səbəb olur.

Məktəbli gənclərin fiziki hazırlığı və fiziki tərbiyəsi dərslərində, şagirdlər öz fiziki hazırlıqlarını, sağlamlıqlarını müxtəlif növ hərəkətlər üzrə müvafiq bacarıq və vərdişlərə yiyələnməklə əlaqələndirirlər. Onlar öyrədilən fiziki hərəkətlər, ayrı-ayrı idman oyunları bədən tərbiyəsi kompleksi üzrə lazımi biliklərə malik olmaqla nəzəri hazırlığını artırır, dünyagörüşünü genişləndirir və mənəvi cəhətdən mətinləşirlər.[1] Qeyd etmək lazımdır ki, şagirdlər belə nəzəri biliklərə yiyələnməklə bədən tərbiyəsi və idmanın nə üçün həyata keçirilməsini, onun əhəmiyyətini dərk edirlər.

Müşahidələr göstərir ki, hər bir bədən tərbiyəsi hərəkətinin özünəməxsus metodik xüsusiyyətləri olduğu kimi, onlara aid nəzəri materialların öyrədilməsi yolları da müxtəlifdir. Nəzəri məlumatların müvəffəqiyyətlə öyrədilməsi mövzunun məqsəd və məzmun aydınlığından, şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınmasından çox asılıdır. Bədən tərbiyəsi üzrə məlumatların verilməsində şifahi şərh, müsahibə və illüstrasiyalardan istifadə edilir. Hərəkətlərə aid nəzəri məlumatlar dərsin əvvəlində 3-6 dəqiqə ərzində verilir.

Bədən tərbiyəsi dərslərində yuxarı sinif şagirdlərinə mənimsədilən nəzəri biliklərin metodları aşağıdakılardır:

1. Nəzəri məlumatların nəqletmə yolu ilə verilməsi. Nağıletmə lazımi səviyyədə təşkil edildikdə verilən məlumatı şagirdlər həvəs və diqqətlə dinləyirlər, sinifdə yüksək fəallıq yaranır.

2. Nəzəri məlumatların izahetmə yolu ilə verilməsi. İzahetmə nağıletmə ilə qarşılıqlı əlaqədə olub, müəllimin şifahi şərhinə daxildir. Nəzəri məlumatların verilməsi zamanı izahatdan çox istifadə olunur.

3. Nəzəri məlumatların illüstrasiya və demonstrasiya üsulu ilə öyrənilməsi. Nəzəri məlumatların şagirdlərə yaxşı öyrədilməsində illüstrasiya və demonstrasiyanın rolu böyükdür. Bunlardan istifadə olunması təlimi maraqlı edir, şagirdin diqqət və qavrayışını fəallaşdıraraq yeni biliyin qısa vaxt ərzində aydın şəkildə öyrədilməsinə kömək göstərir. Əyani qavranılan biliklər uzun müddət şagirdlərin yadında qalır. Bunun əsas səbəbi yeni biliyin qavranılması prosesinə hiss üzvlərinin, xüsusən görmə üzvünün bilavasitə iştirak etməsidir. Bu prosesdə mərkəzi beyin qabığında bir sıra müvafiq qıcıqlar yaranır, həmin qıcıqlar beyin mərkəzində nə qədər çox baş verərsə və möhkəmlənərsə, qazanılmış biliklər də hafizədən uzun müddət silinməz olur.

4. Nəzəri məlumatların uşaqların bədəni üzərində verilməsi. Nəzəri məlumatların verilməsi üçün insan bədəninin özündən əyani vasitə kimi istifadə etməyin böyük əhəmiyyəti vardır.

---

[1] Quliyev B., Acalov E., Nəsrullayev M. Ümumtəhsil məktəblərində bədən tərbiyəsi tədrisininin təkmilləşdirilməsi yolları.-Bakı, 1982, s. 112.

5. Nəzəri məlumatların göstərmə üsulu ilə verilməsi. Göstərmə üsulundan istifadə etməyin böyük üstünlükləri vardır. Bu üsul fiziki hərəkətlərin bədəndə əmələ gətirmiş olduğu dəyişiklikləri uşaqların gözü önündə canlandırır, onların diqqətini yeni məlumatlara cəlb edir.[1]

Yeniyetmələrlə aparılan bədən tərbiyəsi ilə bağlı müxtəlif növ nəzəri məlumatlar mövcuddur. Bunlardan gənclərin fiziki hazırlığı prinsipi, fiziki tərbiyə sisteminin əsasları, dövlətin bədən tərbiyəsi və idman haqqında qərarları, idman sahəsində əməkdaşlığın sülh və dostluğun inkişafında rolu, habelə idman zədələnmələri zamanı ilk tibbi yardımın göstərilməsi qaydaları, bədənin möhkəmləndirilməsi yolları, narkotik maddələrin, papiros çəkməyin, alkoqolun orqanizmə təsiri haqqında ətraflı məlumatlar vardır.

Nəzəri məlumatların şagirdlərə çatdırılmasında inandırıcılıq olması üçün orduda və mülki həyatda qəhrəmanlıq göstərmiş insanlardan, habelə görkəmli idmançılarının, Olimpiya çempionlarının həyatından müxtəlif epizodlar danışmaq, idmanın dözümlülük, mətinlik kimi müsbət keyfiyyətlərini şərh etmək də maraqlıdır. Məsələn, yeniyetmə məktəblilərə söyləmək olar ki, istər Böyük Vətən Müharibəsində və istərsə də Qarabağ uğrunda gedən döyüşlərdə sağlam insanlar, bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olub öz sağlamlığını möhkəmləndirmiş vətəndaşlar vətənin müdafiəsi və onun faşizmdən azad olunmasında daha böyük qələbələr qazanmışlar. Onlar suda, quruda və hava döyüşlərində çəldlik, çeviklik və möhkəm iradə göstərərək düşmənlərə ağır zərbələr endirmişlər. Yalnız fiziki cəhətdən sağlam və möhkəm iradəli gənclər Vətəninin müdafiə edə bilər və qələbə qazanarlar. Sağlam bədəndə sağlam da ruh olar. Sağlam ruh isə insanı daha uca zirvələrə qaldırırlar, daxilən daha da gözəlləşdirər. Və yaxud çox böyük qüvvə və güc sərf edən, böyük iradi qüvvəyə malik olan paraolimpiyaçılardan söhbət açmaq, onları nümunə kimi göstərmək olar. Qeyd etmək yerinə düşər ki, XIV London Paraolimpiya Oyunlarında Azərbaycan idmançıları 12 medal sahib çıxmışlar (4 qızıl, 5 gümüş, 3 bürünc). İştirakçı komandalar arasında isə Azərbaycan yığması 27-ci yeri tutmuşdur. Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə XIV London Yay Paraolimpiya Oyunlarında qazandıqları yüksək nailiyyətlərə, habelə Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə yarışmada qələbə qazanan Azərbaycan idmançılarını və məşqçiləri “Şöhrət” ordeni, “Tərəqqi” medalı və “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilmişlər.

Hələ də çətin hərbi vəziyyətdə yaşayan Azərbaycana qələbə qazandıra biləcək vasitələrdən biri də bütün ölkədə mənəvi-psixoloji vəziyyətin dəyişdirilməsi, doğma torpaqların müdafiəsi uğrunda döyüşən. Hətta canından belə keçə bilən gənclərin tərbiyəsində nəzəri biliklərin, o cümlədən fiziki tərbiyə ilə bağlı biliklərin təbliğinin böyük rolu vardır. Təcrübə göstərir ki, bu kursun öyrənilməsi prose-sində şagirdlərin digər ümumtəhsil fənləri üzrə biliklərinə müraciət etmək tədrisin səmərəliliyini nəinki artırır, hətta gənclərin çağırışaqədərki hərbi hazırlığı fənninin qarşısında qoyulan vəzifələrin uğurla həyata keçirilməsini reallaşdıra bilir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bildirirdi ki, “əgər insanların mənəviyyatında dəyişiklik olmasa, pozulmuş mənəviyyat bərpa edilməsə, insanlarda vətənpərvərlik, namus, şərəf, qeyrət hissi baş qaldırmasa biz heç nə edə bilmərik.”[2]

Qeyd etmək lazımdır ki, nəzəri biliklər sönük söz yığımı ilə verilə bilməz. Çünki sözün qüvvəsi çox böyükdür. Şagirdlər bilmədiyi və eşitmədiyi məlumatları daha çox mənimsəyir, yeni bilik əldə etməyə çalışırlar. Məhz buna görə də, şagirdlərin bu mənəvi ehtiyacını təmin etmək məqsədilə müəllim bədən tərbiyəsi və idman dərsləri üçün ən zəruri məsələləri dərindən öyrənməli, günün aktual hadisələrini diqqətlə özləməlidir. Yalnız öz üzərində ustalıqla işləməyi bacaran müəllim bilik və vərdişlərini, əldə etdiyi məlumatları şagirdlərinə çatdıra bilər.

Bundan başqa, bədən tərbiyəsi və idman üzrə nəzəri məsələlər yalnız məktəblə məhdudlaşmamalı, ailə ilə də əlaqələndirilməlidir. Bu biliklərin məktəblə ailənin sıx əlaqəsi şəraitində öyrədilməsi də xüsusi əhəmiyyət daşıyır. Çünki uşaqlarda dostluq, Vətəni və xalqı sevmək, əməyə və

---

[1] Quliyev,B. Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları.-Bakı, 2009, s.167.
[2] Tağıyev,Ş. Fənlərarası əlaqə və gənclərin çağırışaqədərki hərbi hazırlığı.-Bakı, 2012, s.8.

idmana şüurlu münasibət bəsləmək kimi hisslərin aşılanmasında ailənin rolu əvəzsizdir. Valideynlərlə aparılan söhbətlər, müzakirə edilən məsələlər bədən tərbiyəsi və idmanın ayrı-ayrı növlərinin əhəmiyyətini açır, uşaqların ailədə düzgün bədən tərbiyəsi vərdişlərinə yiyələnməsində, ümumiyyətlə ailədə fiziki tərbiyənin aşılanmasında mühüm rol oynayır.

Beləliklə, bədən tərbiyəsi dərsləri vasitəsi ilə müəllim yeniyetmə məktəblilərin daha düzgün həyat mövqeyi seçməsinə və formalaşdırılmasına, ən çətin anlardan şərəflə və alnıaçıq çıxmalarına köməklik göstərir. O, eyni zamanda, gəncliyin astanasında duran uşaqlara qarşıda duran məqsəd və vəzifələri həyata keçirmək üçün bir zəmin yaradır.

**Məqalənin elmi yeniliyi.** Yeniyetmələrlə Aparılan Bədən Tərbiyəsi Dərslərində Nəzəri Biliklərin Mənimsədilməsi Metodlarını anlatmaq.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Nəzəri məlumatların müvəffəqiyyətlə öyrədilməsi mövzunun məqsəd və məzmun aydınlığından, şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması. Bu məlumatların vasitəsi ilə müəllim yeniyetmə məktəblilərin daha düzgün həyat mövqeyi seçməsinə və formalaşdırılmasına, ən çətin anlardan şərəflə və alnıaçıq çıxmalarına köməklik göstərmək.

## ƏDƏBİYYAT

1. Aslanlı. M. Fiziki mədəniyyət və mənəvi kamillik. Bakı, 1993.
2. Tağıyev. Ş. Fənlərarası əlaqə və gənclərin çağırışaqədərki hərbi hazırlığı. Bakı, 2012.
3. Quliyev. B. Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları. Bakı, 2009.
4. Quliyev. B., Acalov. E., Nəsrullayev. M. Ümumtəhsil məktəblərində bədən tərbiyəsi tədrisininin təkmilləşdirilməsi yolları. Bakı, 1982.
5. Nəsrullayev. M. Məktəblilərin fiziki tərbiyəsi. Bakı, 2003.

**У. Саглам**

## МЕТОДЫ ПОНИМАНИЯ ТЕОРЕТИЧЕСКОЙ ЧАСТИ У ПОДРОСТКОВ НА УРОКАХ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ

### РЕЗЮМЕ

На уроках физкультуры и физической подготовки в школе овладение теоретическими знаниями играет важную роль. Обучение теоретических знаний во многом зависит от ясности цели и темы, от особенностей возраста учащихся. С помощью этих данных педагог помогает ученикам- подросткам выбирать и формировать правильный жизненный путь.

**U. Saglam**

## THE METHODS OF TEACHING THEORETICAL KNOWLEDGE AT PHYSICAL TRAINING LESSONS HOLD WITH THE ADOLESCENTS

### SUMMARY

To master the theoretical knowledge at physical education classes and physical training classes is very important for school children.To teach theoretical knowledge successfully depends on the clarity of themes aim and content ; olso of the and features of the age of students.With the help of this information, the teacher helps the students to choose the correct life position and overcome difficulties successfully.

*Redaksiyaya daxil olub: 03.05.2014*

# ЗООЛОЭИЙАНЫН ТЯДРИСИНДЯ ШАЭИРДЛЯРЯ ЩЕЛМИНТОЗ ХЯСТЯЛИКЛЯРИН ЮЙРЯДИЛМЯСИ

**Elmira Щасыбяйова,**
*biologiya üzrə fəlsəfə doktoru*
*АДПУ*
E-mail: gadjibekovae@mail.ru

**Rəyçilər**:*dos.* **H. Hacıyeva,**
*dos.* **F. Orucov**

***Açar sözlər:*** *helmintoz, fəal təlim metodları, xəstəlik, exinokok, ascarid*
***Ключевые слова:*** *гельминтоз, активные методы обучения, болезнь, эхинококк, аскарида*
***Key words:*** *helmintose, active training methods, sickness, echinococcus, ascarid*

Мцстягиллийя говушмуш, суверен дювлятчилийини бяргярар етмиш Азярбайсан Республикасы игтисади-мядяни щяйатын бцтцн сащяляриндя олдуьу кими, тящсил гурусулуьунда да ислащатлар йолу иля инамла аддымлайыр. Республикамызда дювлят тящсил сийасяти милли тящсилин дцнйа стандартларына уйьун, милли зямин вя цмумбяшяри дяйярляр, демократик щуманист принсипляр цзря гурулмасына хидмят едир.

Елм вя техниканын сцрятля инкишаф етдийи бир дюврдя орта мяктябдя тящсил алан шаэирдлярин билик, басарыг вя вярдишлярини мющкямляндирмяк, шаэирдлярдя мянтиги, йарадысы тяфяккцрц вя идрак фяаллыьыны инкишаф етдирмякля йанашы онларын саьламлыьына диггят йетирмяк мцяллимлярин гаршысында дуран ясас вязифялярдян биридир. Тящсилин эюстярилян вязифяляри орта мяктяб фянляринин тядриси просесиндя щяйата кечирилир. Биолоэийанын тядрисиндя бу вязифялярин ясасында шаэирдлярин саьлам йашамасы проблемляринин дя щялли дурур. Биолоэийа курсларынын, о сцмлядян зоолоэийанын мязмунунда проблемин щялл едилмяси мцмкцндцр. Курсун щяр бир мювзусунда, хцсусиля гурдлара даир мювзуларда шаэирдляря тибби билик вя басарыгларын ашыланмасы имканлары мювзуларда даща эенишдир. Зоолоэийа курсунун програм вя дярсликляринин тящлилиндян шаэирдляря щелминтоз хястяликлярин юйрядилмяси имканлары сядвялля (cədvəl 1) цмумиляшдирилir.

**Сядвял 1**

**Зоолоэийа курсунуп програм вя дярслийиндя щелминтоз хястяликлярин юйрядилмяси имканлары**

| *Програмда мювзулар* | *Дярсликдя материал* | *Щелминтоз хястяликдян горунма тядбирляри* |
|---|---|---|
| 1. Сорусу гурдлар синфи. Гарасийяр сорусусу: паразит щяйат тярзи, гурулушу, чохалмасы, она гаршы апарылан мцбаризя тядбирляри. | Чиркли су щювзяляриндян су ичдикдя хястялийя йолухулур. Она эюря дя беля сулары ичмяк олмаз. | Инсанлар ачыг су тутанлардан су ичмямяли, чиркнянмиш су биткиляри иля мяшьул олдугдан сонра ялляр йахшы йуйулмалыдыр. Ярзаг, гида мящсуллары гапалы шяраитдя сахланмалы, мейвя-тярявяз йахшы-йахшы йуйулдугдан сонра истифадя едилмялидир. |
| 2. Юкцз солитери: гурулушу, чохалмасы, инкишафы. | Ят йахшы биширилмяк йейилмялидир. | Ят мящсуллары йахшы биширилмяли, чий ятдя финнанын олмасына диггят едилмяли, яэяр варса щямин щисся кясилиб атылмалыдыр. |

| | | |
|---|---|---|
| 3. Ехинококк: гурулушу вя чохалмасы. | Итляр вя пишиклярля аз тямасда олмалы, онларын тцкляриня ял вурдугдан сонра ялляр йуйулмалыдыр. | Ушаглара ит вя пишиклярля тямас гайдалары юйрядилмяли, онларла тямасдан, ачыг торпаг сащяляриндя ойнадыгдан сонра тямизлийя диггят едилмялидир. |

| | | |
|---|---|---|
| 4. Инсан аскариди: гурулушу, гидаланмасы, чохалмасы, щяйат дюв-риййяси. | Йахшы йуйулмуш мейвя вя тярявяз йемяк лазымдыр. | Мейвя-тярявязи диггятля йудугдан сонра гайнар суда йахаланмасы йахшы нятися верир. Шяхси эиэийена гайдаларына ямял олунмалыдыр. |
| 5. Анкилостома (яйрибаш гурд): хариъи гурулушу, гидаланмасы, чохалмасы вя инкишафы. | Яэяр дяри зядялянибся ням торпагла мяшьул олмаг олмаз. | Дяри зядяли олан щалларда торпаг вя биткилярля тямасда олмагдан чякинмяли. Зядя арадан галдырылмалыдыр. |

В статье делается ударение на преимущество использования компьютеров как технических средств обучения, а также привлекается внимание на то, что компьютер и другие средства ИКТ могут играть роль незаменимого помощника при общефизическом развитии и воспитании детей дошкольного возраста. Отмечается, что в настоящее время слишком мало людей пользуются компютерным потенциалом при обучении, воспитании и умственном развитии детей дошкольного возраста.

**J. Orujova**

## THE CONTENT AND CHARACTERISTICS OF APLLİCATION OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN PRESCHOOL EDUCATION

### SUMMARY

This paper discusses advantages of using computers as a technical teaching tool and how computers can play an irreplaceable role in psychical development and upbringing of children of preschool age. It is noted that very small part of our society use the potential of computers for teaching, upbringing and intellectual development of children.

*Redaksiyaya daxil olub: 17.04.2014*

# AZƏRBAYCAN DİLİ FƏNNİ HƏM DƏ TƏRBİYƏ VASİTƏSİDİR

**Leyla Səlimova,**
*Yevlax şəhəri*
*2 saylı orta məktəbin müəllimi*
E-mail: leylasalimova@mail.ru

**Rəyçilər:** *ped. elm. dok.* **P.B. Əliyev**
*ped. fəls. dok.* **L.K. Cəfərova**

***Açar sözlər:*** *Azərbaycan dili, tədris, nitq inkişafı, inteqrativ təlim metodu*
***Ключевые слова:*** *обучение азербайджанскому языку, развитие речи, интегративные методы обучения, преподавание азербайджанского языка*
***Key words:*** *Azerbaijani language, teaching, speech development, integrative learning method*

Təhsili millətin gələcəyi hesab edən ulu öndərimiz Heydər Əliyev onu milli zəmində qurmaqla yanaşı mövcud olan ən qabaqcıl təcrübəni, texnologiyanı öyrənməyi vacib sayırdı. “O ölkələr inkişaf edir ki, orada təhsil yüksək səviyyədədir” deyən Heydər Əliyev kursunun layiqli davamçısı İlham Əliyev hakimiyyətə gəldiyi gündən ölkəmizdə təhsilin inkişafına böyük önəm verir, onun müasir dünya standartları səviyyəsinə yüksəlməsinə xüsusi diqqət və qayğı göstərir. Məhz bunun sayəsində Azərbaycan təhsili son illər özünün yeni inkişaf dövrünə qədəm qoymuşdur.

Təhsilin ayrı-ayrı sahələri deyil bütövlükdə kompleks şəkildə inkişaf etdirilir, maddi-texniki bazanın möhkəmləndirilməsi, yeni təlim metodlarının tətbiqi informasiya və kommunikasiya texnologiyalarının öyrənilməsi dərsliklərin yazılması və s.

Millət vəkili Mehriban xanım Əliyeva “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsindəki fəaliyyəti ilə bu sahədə inkişafa böyük təkan verir. (Yeri gəlmişkən bizim məktəb 2012-ci ildə istifadəyə verilmiş 950 yerlik, 3 mərtəbəli, müasir tipli məktəbdir. O, laboratoriyaları, kitabxana, kompyuter avadanlıqları və s. ilə zəngindir).

Bütün bunlar məktəblərdə təhsilin məzmununun yeniləşməsinə imkan verir.

Azərbaycanda təhsilin məzmunu bu gün şagirdyönümlülük, tələbyönümlülük, nəticəyönümlülük, inkişafyönümlülük və inteqrativlik, kimi prinsiplərə əsaslanır.

Bu prinsiplər müasir fəal təlim metod və texnologiyalar əsasında yerinə yetirilir.

Təhsil sisteminin əsas məqsədi təhsil standartlarına uyğun biliyə, bacarığa, praktik hazırlığa müstəqil və yaradıcı düşünən, ölkəmizi dünyanın inkişaf etmiş demokratik dövlətlərdən birinə çevirməyə qadir olan şəxsiyyət tərbiyə etməkdən ibarətdir.

Bu baxımdan Azərbaycan dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür.

İnsan hər şeyi öyrənməkdə tərbiyə almaqda başlıca olaraq, sözdən istifadə etdiyi üçün, dil təlim və tərbiyə işlərinin mühüm vasitəsi kimi özünü göstərir. Hər kəs müxtəlif formalı mətnləri səlis oxumağa, nəql etməyə, yazılı və şifahi şəkildə ünsiyyət qurmağa qadir olmalıdır.

Şagird ana dilini öyrənməklə zehnini yeni-yeni təsəvvürlər fikir və ideyalarla zənginləşdirir. O, söz ehtiyatını yeni sözlə və ifadələrlə zənginləşdirir. Nitqini məntiqi şəkildə qurmağa, ardıcıl və obrazlı düşünməyə adət edir. Nəticədə şagird ana dili vasitəsilə hafizəsini, düşünmə qabiliyyətini (müəyyən hadisədən nəticə çıxarmaq, onu ümumiləşdirmək, yekunlaşdırmaq, digərlərindən fərqləndirmək və s.) inkişaf etdirə bilir. Onun təxəyyülündə idrak bacarığı tərbiyələnir.

Şagirdlər gələcəkdə sərbəst yeni biliklərin əldə edilməsi, mənəvi qüvvəsinin inkişaf etdirilməsi yolu ilə səmərəli həyata hazırlanırlar.

Azərbaycan dili vasitəsilə şagirdlər milli sərvətləri öyrənir, yüksək insani keyfiyyətlərə, əxlaqi dəyərlərə yiyələnirlər. Deməli, o həm də tərbiyələndirici vasitədir.

K.D. Uşinski yazırdı: “Ana dili xalqın bütün çoxəsrli həyatının ən dolğun və nə düzgün tarixi olmaqla bərabər xalqı hələ nə kitab, nə də məktəb olmadığı dövrdə onu xalq tarixinin sonuna qədər öyrətməkdə davam edən ən böyük xalq tərbiyəçisidir”.

Azərbaycan dilinin öyrədilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda nitq mədəniyyətini formalaşmaq və təfəkkürü inkişaf etdirməklə düşünmə, öyrənmə, danışma vasitəsinə çevrilir.

Mən də bu dili tədris edərkən şagirdlərin təlim keyfiyyətlərini yüksəltməklə, Azərbaycan dilinin zənginliklərindən istifadə etməklə onlara öyrənməyi öyrətməyə çalışıram.

Artıq kurikulumun tələbləri əsasında V, VI siniflər üçün yazılmış Azərbaycan dili dərslikləri və metodik vəsaitlər şagird və müəllimlərin istifadəsinə verilmişdir.

Bu dərsliklər çox böyük yardımçımız oldu.

Şagirdlər “düşün və cavab ver”, “araşdırma” sərlövhələri ilə verilmiş tapşırıqlara əsasən müstəqil düşünüb, fikir yürüdürlər. Onlar müstəqil araşdırmalar aparırlar (müxtəlif mənbələrdən kitabxanalardan, İKT-dən istifadə etməklə).

“Dil qaydaları” bölməsində isə dilimizin səs sisteminə lüğət ehtiyatına üslubi-qrammatik xüsusiyyətlərinə bələd olurlar.

Mən də çalışıram ki, dərslikdə ki, qaydalara, tapşırıqlara yaradıcı yanaşım, fəal metodlardan, İKT-dən istifadə etməklə, dərslərimi daha səmərəli, daha maraqlı keçim.

V sinifdə “Leksik və qrammatik şəkilçilər” mövzusunda keçirdiyim dərsin səciyyəvi məqamlarını sizin nəzərinizə çatdırıram.

*Mövzu:* Leksik və qrammatik şəkilçilər

*Standart:* 1.2.2. Fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır.

1.2.4. Verilmiş şəkillə bağlı fikir yürüdür, hadisələri təxmin edir, təəssüratlarını bölüşür.

4.1.2. Leksik və qrammatik şəkilçilərin funksiyalarını fərqləndirir.

*Təlimin məqsədi:* 1. Leksik və qrammatik şəkilçiləri konkret fakt və nümunələrlə əsaslandırır.

2. Verilmiş mətndə leksik və qrammatik şəkilçiləri müəyyənləşdirir.

*Dərsin tipi:* induktiv

*Priyom:* beyin həmləsi

*Dərsin forması:* kiçik qruplarla iş, fərdi iş.

*İnteqrasiya:* ədəbiyyat, rəsm

*Resurslar:* dərslik, iş vərəqələri, slaydlar, şəkillər.

### *Dərsin gedişi*

*Motivasiya:* Şagirdlərin müəyyənləşdirmələri üçün hazırladığım təqdimatı proyektor vasitəsilə əks etdirirəm.

***1.*** oğlan və qız



***2.*** Onlardan birinin boyu hündür, o birinin boyu qısadır.

3. əl və əlcək





**3.** traktor və traktorçu şəkilləri



Göstərilən şəkillər əsasında suallar verirəm. Hər bir elmi bölgünün müəyyən məntiqi əsası olur.

İnsanları qadın və kişi qrupuna bölərkən onun cinsini müəyyənləşdiririk

Uzun və qısaboylu olduğunu boy əlamətinə görə qruplaşdırırıq.

"Əl" şəkli ilə "əlcək" şəkilindəki sözlərin məna fərqini və bu məna fərqinin səbəbini soruşuram. "Əl" insan bədəninin üzvü, "əlcək" isə ələ geyilən əşya.

Traktor maşın, traktorçu isə adam.

- Bəs necə olur ki, traktor sözünə - "çu" şəkilçisi artırmaqla, insan bildirən söz "əl" sözünə - "cək" şəkilçiləri artırmaqla "əlcək" sözü alınır.

Sual-cavab şagirdlərdə belə bir təsəvvür yaranır ki, - "çu" "cək" şəkilçisi cansız əşyanı canlıya, çevirir.

"Oğlan əlində bayraq tutmuşdur" cümləsində "əlində" sözü mənaca dəyişmədiyini, yeni sözə çevrilmədiyini şagirdlər dərk edirlər.



Deməli, şəkilçilər söz düzəltmək və ya sözü dəyişdirmək əlamətinə görə, vəzifə bölgüsü kimi qəbul edilir.

Nəhayət, apardığımız sual-cavaba əsasən dilimizdə şəkilçilərin mənaca iki cür olduğu nəticəsini çıxarırıq:

1. köklərə qoşularaq yeni məna əmələ gətirənlər:

2. köklərə qoşularaq sözlərin arasında əlaqə əmələ gətirənlər.

Beləliklə ,buradan tədqiqat sualı meydana çıxır.

Şəkilçilərin yerinə yetirdiyi vəzifə və onların funksiyasının məna fərqi nədən ibarətdir?

*Tədqiqatın aparılması:* Hər qrupa iş vərəqləri verilir.

*"Ziya"* qrupu

Qoruyun insanlar,
Eli-obanı.
Şəfəqin işığını,
Bağın ağacını.

*"Zəka"*qrupu

| daş, gil, kar, at, qan, saz |
|---|

Müstəqil söz , həm də leksik şəkilçi kimi işlədin. Hər iki növ şəkilçini qəbul edən "bağ" sözünün sxemini çəkib leksik və qrammatik şəkilçilər bu sözün mənasında əmələ gətirdiyi dəyişiklikləri izah edin.

leksik

bağ qrammatik



*"Zəka"* qrupu:

Can qurban etmənin vaxtı çatıbsa,

Səndən hansı namərd əsirgəyər can?
Qoyaram başımı ayaqlarına
Ey ana torpağım, ey Azərbaycan

Ön şəkilçini tapıb altından xətt çəkin. Burada həm də Vətəni qorumaq, onu inkişaf etdirmək və çiçəkləndirmək hamının şərəf işi vətəndaşlıq borcu olduğunu bir daha anlayır.

*“Şəfəq”* qrupu

S.Vurğunun aşağıdakı məşhur parçasında

Dağlarının başı qardır.
Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır.
Bilinməyir yaşın sənin
Nələr çəkmiş başın sənin

Çox keçmişəm bu dağlardan
Durna gözlü bulaqlardan

Bu misralardakı “keçmiş” sözlərinin məna fərqini izah edin.Şagirdlər birinci (keçmək) “keçmişin” sözünün zaman vaxt bildirdiyini və keçmək isim olduğunu, ikinci (“keçmişəm”) sözünün isə getmək, keçmək mənasında işləndiyini və fel bildirdiyini anlayırlar. Bu zaman həm mövzu möhkəmlənir, həm də xalqımızın sorağı minilliklərdən gələn çətin bir tarixi şəraitdə yaşadığı , böyük mədəniyyət yaratdığını, dövlət qurduğunu, varlığını sübuta yetirdiyi, inkişaf edib formalaşdığı şagirdlərdə vətənpərvərlik tərbiyəsini inkişaf etdirir.

*“Günəş”* qrupu

Bu vətən..... xidmət.....də ,
Bu millət...., hörmət....də,
Bu dövlət.... qüdrət.... də,
Yaşayır Heydər baba....
Əməli zəfər baba.......

Şeirdə nöqtələrin yerinə şəkilçiləri qoyub tamamlayın. Burada şəkilçiləri müəyyən etməklə yanaşı, həm də ulu öndərimiz Heydər Əliyevin sönməz bir məşəl kimi yanan ömründən ibrət dərsi almağı, onun kimi yaşamağı, onun kimi işləməyi, onun kimi öyrənməyi aşılayır.

*Məlumat mübadiləsi:*

Qrupun liderləri tərəfindən cavablandırılmış vərəqələr yazı taxtasından asılır. Hər bir qrupda ən çox cəlb edən fikirlər önə gəlir.

*Məlumatın müzakirəsi:*

Uşaqlardan soruşuram: leksik və qrammatik şəkilçilər haqqında toxunulmayan fikir qaldımı, qalıbsa fikir mübadiləsi edək. Toxunulmayan fikirlər söylənildi və izah edildi.

*Ümumiləşdirmə və nəticə:*

- Şəkilçilərin çox mühüm əhəmiyyəti var. Onlar olmasa, cümlə qurmaq olmaz, adicə söz yığını olar.
- Şəkilçilər yeni məna əmələ gətirir.
- Şəkilçilər sözlər arasında əlaqə yaradır.
- Şəkilçilər çox əlverişli və qənaətcil dil ünsürüdür: məsələn, “çəkmə tikən adam” əvəzinə “çəkməçi”.
- Leksik və qrammatik şəkilçilər təkcə sadə sözlərdə yox mürəkkəb sözlərin tərkibində də olur. (ortaboylu, Daşkəsənli - leksik), (ölkələrarası, sözübütöv, və s. qrammatik şəkilçilər).

*Ev tapşırığı:* Azadlıq, müstəqillik, qəhrəmanlıq, qorxmaz, bayraq kimi açar sözlərdən istifadə edərək esse yazın.

*Qiymətləndirmə*

| *sıra sayı* | *qruplar* / *meyarlar* | *I* | *II* | *III* | *IV* |
|---|---|---|---|---|---|
| 1. | Leksik şəkilçiləri faktlarla əsaslandırır. | | | | |
| 2. | Qrammatik şəkilçilərin əhəmiyyətini anlayır. | | | | |
| 3. | əməkdaşlıq | | | | |
| 4. | Əlavələrdə fəal olur. | | | | |
| 5. | nəticə | | | | |

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Ümumi Təhsilin Milli Kurrinkulumu. Bakı, 2006, №1.
2. G. Xudiyeva, A. Rüstəmova, R. İsmayılov. Azərbaycan dili:. V sinif üçün dərslik. Bakı, 2013.


**Л. Салимова**

## АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК КАК СРЕДСТВО ВОСПИТАНИЯ И ВОПРОСЫ ЕГО ПРЕПОДАВАНИЯ

### РЕЗЮМЕ

В статье, раскрывается азербайджанский язык как средство воспитания и вопросы его преподавания. Дается, так же образец интегративного урока.

**L. Salimova**

## EDUCATIONAL TOOL AS WELL AS THE SUBJECT

### SUMMARY

In the article is that the Azerbaijan language is the means of education and its teaching questions, at the same time integrative model of the lesson is given.

*Redaksiyaya daxil olub: 18.04.2014*

# PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI

## SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARIN VALİDEYNLƏRİ İLƏ İŞ

**Talıb Paşayev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTPİ*
E-mail: talıb-48@mail.ru

**Rəyçilər:** *prof.* **A.N. Abbasov,**
*dos.* **A.X. Hacıyev**

***Açar sözlər:*** *ailə, cəmiyyət, sağlamlıq imkanı məhdud uşaqlar, əməkdaşlıq, tərbiyəçi*
***Ключевые слова:*** *семья, общество, дети с ограниченными возможностями здоровья, сотрудничество, воспитатель*
***Keywords:*** *family, society, children with disabilities, cooperation, educator*

Ailə, ailədə tərbiyə məsələsi dövlət əhəmiyyətli böyük bir işdir. Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində deyilir: "1. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. 2. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir".

Bunun dayanaqlı olması üçün valideynlərlə daim əməli-metodik iş aparılmalı, onların təhsillənməsi işi həyata keçirilməli, məktəbin, uşaq bağçasının, ictimaiyyət nümayəndələrinin birgə fəaliyyətləri təmin edilməlidir.

Sağlamlığında bu və digər dərəcədə problem olan uşaqların – bağça, məktəb yaşlarında olmasından asılı olmayaraq onların qayğısına qalmaq tələb edilir. Bu zaman ailə, ictimaiyyət və məktəb (uşaq bağcası və xüsusi internatların əməkdaşları) birgə hərəkət etməlidirlər. Bu zaman uşağın sağlamlığı üçün görülən işlər səmərəli nəticələnir.

Sağlamlığında problem olan uşağın səhhətinin yaxşılaşmasında əsas ağırlıq valideynlərin üzərinə düşür. Bunu nəzərə alaraq, göstərmək olar ki, uşağın valideynləri ilə əməkdaşlıq; valideynlərlə münasibətin qurulması; tərbiyəçilərin valideynləri dəstəkləməsi; onların maariflənməsi və onlara sosial-emosional yardım göstərilməsi; tərəf müqabilliyi, görüşlərin təşkili, ata-anaları təlimə həvəsləndirmək məsələsinin önə çəkilməsi; valideynlərin hüquq və vəzifələrini aydınlaşdırmaq; onlarla səmərəli əməkdaşlığın yardılmasına nail olmaq və s.

Bu sahə üzrə məsləhətlərin verilməsi modelini təqdim etmək; valideyn iclaslarının keçirilməsi və bir sıra tövsiyələr öz əksini tapmalıdır. Eyni zamanda sağlamlığında problem olan uşaqların inkişafı üçün ailələrin imkanları və onlarla işin təşkili məsələləri əhəmiyyətlidir.

Sağlamlığında problem olan uşaqlar müxtəlif sahələr üzrə əlildirlər. Onlarla işləmək əsasən humanist xarakter daşıyır. Valideynin köməyi olmadan bu işlə məşğul olmaq tərbiyəçi və müəllim üçün çətindir. Bu amil nəzərə alınmaqla tərbiyə və təlim işi aparılmalıdır.

Əgər sovet təhsil sistemində əsas məsuliyyətli təhsil müəssisəsi daşıyırdısa, müasir təhsil sübut edir ki, məhsuldar və mükəmməl təhsil və tərbiyə yalnız ailə ilə təhsil müəssisələrinin əməkdaşlığı şəraitində mümkündür. Bu zaman ailə ilə münasibətlərin, bərabərhüquqlu, hörmət və etibarlılıq əsasında qurulması onunla əməkdaşlığın ilkin şəraitini təşkil edir. Xüsusi qayğıya

ehtiyacı olan uşaqlarla iş məsələsinə gəlincə, buraya daha bir aspekt - onların ailələrinin dəstəyinin zəruriliyi də əlavə olunmalıdır.

Toplanan məlumatlara əsasən, məlum olmuşdur ki, uşaq ailədə həm fiziki, həm də sosial sahədə inkişaf edir. Bu səbəbdən inklüziv təhsildə tərbiyəçilər ailə mühitinə təsir göstərən sahələri öyrənməli və bunları öz işlərində nəzərə almalıdırlar.

Məlumdur ki, təhsil müəssisələri ailələrə, onların xüsusi qayğıya ehtiyacı olan uşaqlarının inkişafına kömək edirlər. Bu sahədə iş ardıcıl aparılmalıdır.

Unutmaq olmaz ki, valideynlər öz uşaqlarını yaxşı tanıyırlar. Hər bir tərbiyəçi isə pedaqoji baxımdan uşaqların inkişafı və təhsili ilə peşəkar iş aparırlar. Lakin tərbiyəçi və valideynlərin əməkdaşlığı uşaqlar üçün böyük əhəmiyyət daşıyır. "Ailələrə yardım edilməsi üçün birinci şərt tərbiyəçilər tərəfindən xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynlərinin başa düşülməsinin zəruriyyətindən ibarətdir " (4, 104)

Əks təqdirdə valideynlər uşağına və özünə diqqət görməyəndə bunu təhqir kimi başa düşə bilərlər. Tərbiyəçi ailə və uşaqlara həmişə hörmətlə yanaşmalıdır. Onsuz da valideynlər uşaqlarının problemli olmasından təəssüf hissi keçirir və özlərini köməksiz hiss edirlər. Tərbiyəcilər ən yaxşı köməkçı olmalıdırlar.

Bu baxımdan tərbiyəçi valideynlərlə əməkdaşlığın yaranması yollarını bilməlidir. Tərbiyəçi ilə valideyn arasında əməkdaşlıq yarandıqdan sonra onların birlikdə tərəf müqabilliyi əmələ gəlməlidir.

Xüsusi qayğıya ehtiyacı olan uşaq üçün birinci növbədə yaxşı mühit yaradılmalı, ailələrin maraq və qayğılarını nəzərə almaq, onlarda uşağın sağalmasına olan marağı göstərmək, ən nəhayət, xüsusi qayğıya ehtiyacı olan uşağın böyüməsini və inkişafını nəzərə almaq lazımdır.

Valideynlərin tərbiyəçilərlə və təhsil müəssisəsinə göstəriləcək köməklə mövcud ədəbiyyatda dörd məsələüzərində dayanılır: sosial və emosional yardım; informasiya mübadiləsi; valideynlərin öz uşaqlarının təlimində iştirak etməyə həvəsləndirilməsi; uşaq və valideynlər arasında qarşılıqlı münasibətlərin yaxşılaşdırılması.

Bunlar bir istiqamətdir. Bu sahəni genişləndirmək də olardı. Fikrimizcə, valideynin stresdən çıxarılması və müsbət emosional vəziyyətin formalaşdırılması, uşağın cəlb olunduğu proqramın başa salınması, qavranılması, lazım olacaq məlumatların vaxtında verilməsi; valideynlərin uşağın təlimində iştirakına nail olmaq, maarifləndirmək, uşaqların tərbiyəsində valideynin vərdişlərinin inkişafına nail olmaq və s.məsələ özü-özlüyündə əhəmiyyət kəsb edir.

**Problemin aktuallığı.** Sağlamlığı məhdud uşaqların təlim-tərbiyəsi üzrə aparılan faydalı işlər günün aktual məsələsidir. Məqalədə problemli uşaqların valideynləri ilə əlaqənin genişləndirilməsi, tərbiyəçi və müəllimlərlə aparılan faydalı işlərin aktuallığına diqqət yönəldilir.

**Problemin elmi yeniliyi.** Valideynlərlə, xüsusən də sağlamlığında problem olan uşaqların ailələri ilə (uşaq bağcası və ümumtəhsil məktəb yaşlı uşaqların valideynləri ilə) aparılan işlərin elmi-nəzəri əhəmiyyəti vardır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən uşaq müəssisələrində (uşaq bağcası və internat məktəblərdə) işləyən müəllim və tərbiyəçilər faydalana bilərlər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
2. Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsil (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001.
3. A.N. Abbasov. Pedaqoqika. Bakı: Mütərcim, 2013.
4. İnklüziv təhsil / Y. Kərimovun red. ilə. Bakı, 2011.
5. T.S. Paşayev. Sağlamlıq imkanları məhdud uşaqlara dövlət qayğısı və defektologiya ixtisası üzrə kadrların hazırlığı. Bakı: Mütərcim, 2014.

**Т. Пашаев**

## ПРОЦЕСС РАБОТЫ С РОДИТЕЛЯМИ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ

**РЕЗЮМЕ**

Воспитание ребенка является основной работой семьи. Государство придает большое значение этому вопросу. Тем не менее, семьи нуждаются в психолого-педагогической помощи. Особо важна работа с семьями, в которых есть дети с ограниченными возможностями здоровья. Известно, что основная нагрузка работы с проблемными детьми приходится на родителей. Учитывая это таких родителей надо держать в центре внимания.

**T. Pashayev**

## THE PROCESS OF WORKING WITH PARENTS OF CHILDREN WITH DISABILITIES

**SUMMARY**

The upbringing of the child is the main work of the family. The State attaches great importance to this issue. Nevertheless, families need pedagogo-be psychological. Particularly important is working with families that have children with disabilities. Known, that the main burden of troubled children falls on the parents. With this in mind these parents need to keep in focus.

*Redaksiyaya daxil olub: 18.04.2014*

# DİDAKTİK OYUNLARIN TƏŞKİLİ ZAMANI MUSİQİ NÜMUNƏLƏRİNDƏN İSTİFADƏ ETMƏKLƏ ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI YOLLARI

**Sevda Həsənova,**
*Naxçıvan Dövlət Universitetinin*
*baş müəllimi*
E-mail: s_hesenova@mail.ru

**Rəyçilər:** *prof.* **E. Maqsudov,**
*dos.* **C. Kamalov**

***Açar sözlər:*** *təbiət fənləri, dərsdənkənar tədbirlər, ekoloji tərbiyə, ekoloji dəyər, ekoloji mühit, didaktik oyunlar*
***Ключевые слова:*** *предмет природоведения, экологическое воспитание, экологическая ценность, экологическая среда, дидактические игры*
***Key words:*** *nature subjects, ecological upbringing, ecological training, didactic games*

Musiqi nümunələrindən istifadə etməklə ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsini formalaşdırmağın bir sıra yolları mövcuddur. Bunların içərisində didaktik oyunların təşkili zamanı musiqi nümunələrindən istifadə etməklə ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsinin formalaşdırılması yolu ən real yollardan hesab olunur. Əslində oyun yolu ilə uşaqların ekoloji tərbiyəsini formalaşdırmaq daha münasib hesab olunur. Oyun yolu ilə uşaqların mədəni istirahətini təşkil etmək çox sərfəlidir. Ona görə ki, oyun, hər şeydən əvvəl tərbiyə edir. Ona görə oyunu həm də tərbiyə vasitəsi hesab edirlər.

Prof. F.B. Sadıqov oyunu tərbiyə vasitəsi hesab etməklə yanaşı, onu pedaqoji formada tədbiq edilməsini Məsləhət bilir.

Oyun o zaman düzgün tərbiyə vasitəsi olur ki, o, bütöv şəkildə pedaqoji formada tətbiq edilir. Oyun prosesinə rəhbərlik edən tərbiyəçi oyunu elə qurmalıdır ki, uşaqların yaradıcılıq fəallığı təmin olunsun və onların qarşılıqlı münasibətləri normallaşsın. Tərbiyəçi uşaq şəxsiyyətinin bütün tərəflərinə, düşüncəsinə, hisslərinə, iradəsinə, münasibətlərinə, hərəkətlərinə və bütövlükdə özünü aparmasına təsir göstərməyi bacarmalıdır. Oyunun əsas qiymətini pedaqoq verir. O, çalışmalıdır ki, oyunda iştirak edən bütün uşaqlar ədalətlə qiymətləndirilsin. Əgər belə olarsa, tərbiyəçi uşaqlarda çox münasib adətlər formalaşdırar. Bütün bunlar isə uşaqlara həm də düzgün, məqsədyönlü rəhbərlik etmək deməkdir. Deməli, düzgün təşkil olunmuş oyun özlüyündə potensial tərbiyə məktəbidir.

Oyunların içərisində didaktik oyunlar xüsusi əhəmiyyətə malikdir. Hər şeydən əvvəl ona görə ki, didaktik oyunlar ibtidai sinif şagirdlərini hələ məktəbəqədər dövrdən başlayaraq həyata hazırlayırlar. Didaktik oyunlar ibtidai sinif şagirdlərini ilkin olaraq əməyə, özü də təlim əməyinə alışdırırlar. Təlim əməyi isə ibtidai sinif şagirdlərinin bilik, bacarıq və vərdişlər sistemini formalaşdıran ən başlıca amillərdən hesab olunur.

Didaktik oyunların təşkili əgər bir tərəfdən didaktik materialların ən asan və ən sərfəli yollarla şagirdlərə çatdırılmasını təmin edirsə, digər tərəfdən belə oyunlar tərbiyəvi cəhətdən çox təsirli olurlar. Başqa sözlə desək, şagirdlərə elmi dünyagörüş bəxş edən didaktik oyunlar həm də çox geniş kompleks tərbiyə imkanlarına, o cümlədən uşaqların ekoloji tərbiyəsini günün tələbləri səviyyəsində formalaşdırmağa qadir olan oyun növü hesab olunur.

Oyun uşağı təlimə və əməyə hazırlayır, həmçinin uşaq ilk müstəqil fəaliyyətə oyun vasitəsilə başlayır. Oyunlar öz məzmununa görə müxtəlifdir: yaradıcı, mütəhərrik, didaktik.

Yaradıcı oyunlar şagirdlərin özlərinin uydurduqları oyunlardır. Bu oyunlarda şagirdlər həyatın müxtəlif hadisələrini istədikləri kimi əks etdirir, özlərinin seçdikləri rolları ifa edirlər.

Göründüyü kimi bəzi müəlliflər oyunları üç qrupa bölürlər. Birinci qrupa da yaradıcı oyunları daxil edirlər. Həmin müəlliflərin yaradıcı oyunların uşaqların özləri tərəfindən uydurulması fikrilə razılaşsaq da, belə oyunlara birtərəfli yanaşmaları ilə razılaşmırıq. Ona görə ki, yaradıcı oyunların ayrı-ayrı növlərini valideynlər də, tərbiyəçilər də, hətta musiqi müəllimləri də yarada bilərlər. Məsələn, tərəfimizdən hazırlanmış yaradıcı oyunlardan birini biz "musiqili-didaktik yaradıcı oyunu" adlandırmışıq.

İstinad etdiyimiz müəlliflər mütəhərrik və didaktik oyunlara da birtərəfli yanaşırlar.

Mütəhərrik və didaktik oyunlar isə qaydalı oyunlardır. Qaydalı oyunların səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onlar yaşlılar tərəfindən hazırlanır, müəyyən məzmun və qayda ilə uşaqlara təqdim edilir. Hərəkətli oyunların əsasında müxtəlif hərəkətlər (hoppanmaq, topu tutmaq və s.) durur ki, bunlar da orqanizmin fəal hərəkətlərə tələbatını təmin edir, lakin hərəkətli oyunları ancaq fiziki tərbiyə vasitəsi hesab etmək düzgün olmaz. Hərəkətli oyunlarda da nitq və təfəkkür inkişaf edir, intizam, iradə və xarakterin tərbiyəsində onların da rolu böyükdür.

Əslində bütün oyunlar müəyyən qaydalar əhatəsində qurulur. Mütəhərrik oyunların istər-istəməz hərəkətli oyunlar kimi təqdim olunması onu göstərir ki, oyunların heç birini müəyyən hökmlər verməklə məhdudlaşdırmaq olmaz. Niyə? Birincisi, hər hansı bir oyunda müvafiq dünyagörüşü qazandırma vəzifəsi varsa, tərbiyələndirici xarakter də var. İkincisi, tərbiyənin hər hansı bir hissəsilə məhdudlaşdırılan hərəkətli oyunun digər tərbiyə komponentlərilə bağlılığı olur. Ona görə də oyunlara birtərəfli yanaşıb onları hansısa bir didaktik vəzifə və ya tərbiyə komponentilə məhdudlaşdırmaq düzgün olmaz.

Didaktik oyunlar zamanı ibtidai sinif şagirdləri həm də ətraf aləmlə tanış olurlar. Didaktik oyunda ətraf mühüt, təbiət hadisələri, quşlar, heyvanlar, həşəratlar, balıqlar fəsiləsi haqqında müxtəlif məzmunlu məlumatlarla tanış olurlar. Onlar yaşıllıqlar, bulaqlar, su hövzələri, ağaclar, çaylar, dənizlər, göllər, dağlar. dərələr, ormanlar haqqında həm dərsliklərdən əldə etdikləri informasiyalara, həm KİV-lərdən aldıqları məlumatlara, həm də gündəlik mütaliə nəticəsində qazandıqları biliklərə istinad edərək onları sevib qorumaq, mühafizə etməklə bağlı mülahizələr söyləyir, fikirlər irəli sürür, mühakimələr yürüdürlər. Bu isə ibtidai sinif şagirdlərini həm də mənəvi cəhətdən zənginləşdirir.

Oyun eyni zamanda ibtidai təhsil vasitəsi olmaqla qalmır, o həm də uşaqlar tərəfindən "elmdən-elmədək" prinsipinin mənimsənilməsinə aparan etibarlı yoldur. Uşaqlar oyun prosesində ətraf aləmi, həyatı dərk etməyə başlayırlar. Lakin məktəbəqədər yaşdan yuxarı olanlar belə oyunda baş verənlərin yalnız kənar tərəflərini dərk edir.Səbəbləri və əlaqələri daha az dərəcədə başa düşürlər. Odur ki, oyundan ətraf mühitlə tanış olmaq vasitəsi kimi istifadə olunduqda tərbiyəçi balacaların diqqətini onların təsəvvürlərinin genişləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərən hallara yönəltməlidir. Bununla yanaşı, tərbiyəçi uşaqlarda hər şeyə maraq göstərmək, oyunun məzmununu zənginləşdirməklə müxtəlif şəraitdə biliklərə səylə yiyələnmək vərdişləri aşılamağa borcludur. Pedaqoq oyuna mütəmadi rəhbərlik etdikdə nə isə axtarmaq, öyrətmək, uşaqların mənəvi dünyasını zənginləşdirmək sahəsində fəal cəhdlər tərbiyə edir. Unutmaq olmaz ki, balacaları müvafiq bilik və bacarıqlarla silahlandırmaq imkanları didaktik oyunlarda daha genişdir.

Prof. F.B. Sadıqovun bu fikirlərinə istinad edərək deməliyik ki, doğrudan da hər hansı bir didaktik oyun uşağı qeyri-adi, möcüzəli bir aləmə salır. Uşaq bu aləmi özünün mənəvi dünyası hesab edir. Bu mənəvi dünyada uşağın bərqərar olması üçün psixoloji təsirin imkanlarından istifadə etməyi də unutmaq olmaz. Ona görə ki, hər hansı bir didaktik oyunun konkret vəzifəsini psixoloji təsirin imkanlarından istifadə etmədən müəyyənləşdirmək müşkül məsələdir. İkincisi, didaktik oyunların təşkili zamanı qarşıya qoyulan hər hansı bir didaktik vəzifənin yerinə yetirilməsi yalnız və yalnız düzgün psixoloji yanaşmanın gücü ilə mümkündür. Bu bir həqiqətdir ki, didaktik oyunda yaşıllıqların qorunması, ağaşların hifz edilməsi quru sözcüklüklə həyata keçirilə bilməz. Burada didaktik vəzifə ilə yanaşı psixoloji təsir kimi ümdə bir vəzifənin də həyata keçirilməsi vacib hesab olunur.

Bir çox didaktik oyunlar uşaqların malik olduqları biliklərdən fikri əməliyyatlarla səmərəli istifadə etmək vəzifəsini qarşıya qoyur: ətraf aləmdəki əşya və hadisələr üzərində müşahidə aparmaq, müəyyən əlamətlərinə görə onları müqayisə etmək, xarakter əlamətlərini tapmaq, qruplaşdırmaq, təsnif etmək, ümumiləşdirmək, düzgün əqli nəticə çıxarmaq. Bu vəzifələri yerinə yetirərkən uşaqlarda bir sıra psixi proseslər inkişaf edir.

Prof. Y.Ş. Kərimov yazır ki, didaktik oyunlarda bu və ya digər vəzifə həll olunarkən təfəkkürün əsas prosesləri (müqayisə, ümumiləşdirmə, əqli nəticə və s.) inkişaf edir. Belə oyunlarda uşaqlar əşyaların adı, əlamətləri, nədən hazırlanması, nəyə lazım olması, onlar arasında fəza və kəmiyyət müşahidələri haqqında biliklərini möhkəmləndirir və genişləndirir. Didaktik oyunlar uşaqlarda beyinin hərəkətliyinə, elastikliyinə, diqqətin inkişaf etdirilməsinə, namusluq, düzgünlük kimi keyfiyyətlərin yaranmasına kömək göstərir.

Müəllim sinifdənkənar işlərdə didaktik oyunlardan istifadə edərkən şagirdlərin həmin situasiyadakı emosional vəziyyətini, təfəkkürün və hafizənin tərəflərini, yaş imkanlarını nəzərə almalıdır. Oyunlar elə təşkil olunmalıdır ki, şagirdlərdə əqli fəallıq yaransın, psixi funksiyalarını gətirməyə təhrik etsin.

Buradan belə qənaət hasil olur ki, didaktik oyunların təşkili zamanı psixoloji təsir də son nəticədə uşaqların tərbiyə cəhətlərinin üzə çıxarılmasına xidmət edir.

Didaktik oyunların hamısının kiçikyaşlı məktəblilərin tərbiyəsinə müsbət təsir göstərməsinə baxmayaraq, onların əqli inkişafı və təlimində daha əhəmiyyətli yer tutur. Adından da məlum olduğu kimi didaktik oyun sırf təlim xarakteri daşıyır, uşaqları təlim əməyinə hazırlayır. Buna görə də oyunlar vasitəsilə şagirdləri əqli əməyə alışdırmaq üçün onu maraqlı, əyləncəli etmək vacibdir. Bu məqsədlə müəllimin didaktik oyunlardan istifadə etməsi faydalıdır. Çoxplanlı, mürəkkəb pedaqoji mahiyyət kəsb edən didaktik oyun, əsasən, psixoloji xarakter daşımaqla yanaşı, diqqətin, qavrayışın, hafizənin, təfəkkürün, nitqin inkişafına da təsir göstərir. O, həm də şəxsiyyətin hərtərəfli tərbiyəsinin mühüm vasitəsidir.

Şəxsiyyətin hərtərəfli inkişafını təmin edən didaktik oyunlar zamanı musiqi nümunələrindən lazımınca istifadə etməklə ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsini hərtərəfli inkişaf etdirmək mümkündür. Ona görə də məsələyə bu konteksdən yanaşmasını məqsədəuyğun hesab etdiyimiz üçün biz didaktik oyunların “musiqili-didaktik oyunlar” növündən istifadə etməyi vacib hesab etdik. Məlum olduğu kimi musiqili-didaktik oyunların aparıçı predmeti, yəni aparıcı amili musiqili olduğu üçün ətraf aləmə və təbiət hadisələrinə, eləcə də ibtidai sinif şagirdlərinin ekoloji biliklərini zənginləşdirməyə xidmət edən ən zəngin oyun növündən, yəni musiqili-didaktik oyunlardan istifadə etməyə üstünlük verdik.

Yeri gəlmişkən qeyd etməliyik ki, musiqi nümunələri təkcə estetik tərbiyə vasitəsi deyil. Ona görə ki, hər bir musiqi əsərinin öz mövzusu var. Başqa sözlə desək musiqi nümunəsi öz janrına görə ideya-siyasi, əxlaqi, əmək, işgüzarlıq, iqtisadi, hüquqi və həm də ekoloji tərbiyə baxımından mühüm əhəmiyyət kəsb edə bilər. Xüsusilə əxlaq tərbiyəsinin ayrı-ayrı komponentlərinə, o cümlədən vətənsevərlik, vətəni yad nəzərlərdən qorumaqlıq, igidlik, qoçaqlıq, qəhrəmanlıq, əməksevərlik, halallıq, dostluq, yoldaşlıq, qardaşlıq, beynəlmiləlçilik, sadəlik, təvazökarlıq, düzlük, doğruçuluq, səmimilik kimi əxlaqi sifətlərə həsr edilmiş mahnılar dinləyicilərin estetik bədii zövqlərini tənzimləməklə yanaşı onlarda çoxsaylı əxlaqi sifətlərin üzə çıxmasına kömək edə bilər. Bu baxımdan mahnıların təsir gücünə birtərəfli yanaşmaq olmaz. Mahnı və melodiyalar yuxarıda sadalanan keyfiyyətlərlə yanaşı, ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsini inkişaf etdirmək, habelə onların ekoloji mühitə olan ehtiramlarını artırmaq və bu mühiti qorumağa alışdırmaqda müstəsna əhəmiyyətə malikdirlər.

Məlum olduğu üzrə, təlim prosesində ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsinə xidmət edən mahnı mətnləri, həm də melodiyalar azlıq təşkil edir. Üstəlik 45 dəqiqəlik zaman kəsiyində musiqi məşğələlərinin ən zəruri digər mərhələləri üçün ayrılmış vaxtdan kəsib ekoloji tərbiyə üçün zaman ayırmaq çox çətinlik yaradır. Çox çətinliklə ayrılan kiçik zaman kəsiyində isə mahnının həm söz mətnindəki, həm melodiya mətnindəki ekoloji tərbiyə elementlərindən bəhrələnmək özü də bir

problem kimi musiqi müəllimlərinin qarşısında durur. Musiqili-didaktik oyunlar isə musiqi fənnindən fərqli olaraq sərbəst seçilən məşğələ formasıdır. Özü də bu məşğələ mövzusunu birbaşa ekoloji tərbiyə probleminin həllinə yönəltmək üçün geniş imkanlar mövcuddur. Bəs, bu imkanlar hansılardır? Bu imkanların genişliyini, çoxşaxəliliyini nəzərə alaraq onlardan ən zərurilərini aşağıdakı şəkildə qruplaşdıra bilərik:

-proqram materiallarından savayı digər tədris materiallarında ekoloji tərbiyə mövzusunda olan mahnı və melodiyaların gücündən istifadə etməklə yaranan imkanlar;

- musiqi müəllimlərinin öz imkanları hesabına ekoloji tərbiyə mövzusunda olan mahnı və melodiyalara müraciət edilməsi;

- yeni yaranan mahnı və melodiyaların musiqili-didaktik oyunların məşğələsinə daxil edilməsi;

- məktəb özfəaliyyət musiqi dərnəkləri üzvlərini dəvət etməklə musiqili-didaktik oyunların ekoloji tərbiyə baxımından səmərəli təşkil etmək sahəsində əldə olunan imkanlar;

- radio, televiziya verilişləri zamanı təqdim olunan ən yeni mahnı və melodiyaların ekoloji tərbiyə imkanlarından istifadə etmək üçün çox geniş imkanlar mövcuddur. Bu imkanlardan səmərəli istifadə etmək üçün musiqili-didaktik oyunların özlərinin də imkanlarından geniş istifadə etmək lazımdır.

## ƏDƏBİYYAT

1. İbtidai məktəblərdə sinifdənxaric işlərin təşkili. Bakı: Kövsər, 2006.
2. Sadıqov F.B. Pedaqogika. Bakı: BBU-nun nəşri, 2006.

**С. Гасанова**

## ПУТИ ФОРМИРОВАНИЯ ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ С ИСПОЛЬЗОВАНИЕМ МУЗЫКАЛЬНЫХ ОБРАЗЦОВ ВО ВРЕМЯ ОРГАНИЗАЦИИ ДИДАКТИЧЕСКИХ ИГР

### РЕЗЮМЕ

В статье речь идет об организации дидактических игр, считающихся самыми реальными путями формирования экологического воспитания учащихся начальных классов с использованием музыкальных образцов. Так, посредством дидактических игр с использованием музыкальных образцов, посвященных природе и природным явлениям, возможно привитие любви к экологической среде.

**S. Hasanova**

## WAYS OF FORMATION OF ECOLOGICAL EDUCATION OF STUDENTS USING MUSICAL PATTERNS DURING THE ORGANIZATION OF DIDACTIC GAMES

### SUMMARY

The article deals with the arrangement of didactic games for junior class students. These didaktic games are the real ways of training of ekological studies. It is possible to train pupils by using musical samples about nature and natural events and teach the juniour class students to love and save their surroundings.

*Redaksiyaya daxil olub: 18.04.2014*

# MƏMMƏD ARAZ YARADICILIĞINDA MƏNƏVİ TƏRBİYƏNİN PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI

**Mehparə Əhmədova**,
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: mehbara@mail.ru

**Rəyçilər:** *prof.* **O. Həsənli,**
*prof.* **E. Maqsudov**

***Açar sözlər:*** *xalq şairi Məmməd Araz, mənəvi tərbiyə, atamın kitabı, torpağa bağlılıq.*
***Ключевые слова:*** *народный поэт Мамед Араз, нравственное воспитание, «Книга моего отца», привязанность к земле*
***Key words:*** *national poet Mammad Araz, moral education, "My father's book", loyailty to the homeland*

Mənəvi tərbiyə, ümumiyyətlə tərbiyə cəmiyyətin həyatında böyük rol oynayır. Cəmiyyətdə yaradılmış sərvətlər, dünya haqqında, təbiət və cəmiyyətin inkişaf qanunları haqqında, əxlaq haqqında biliklər, anlayışlar və təsəvvürlər irsən verilmir, heç kim hazır əqidə ilə doğulmur. Hazır əqidəni nə xeyirxah qonşudan borc, nə də baqqal dükanından satın almaq olar. Mənəvi zənginlik və əqidə heç də təbiətin bəxşişi deyildir. İnsan irsən yalnız müəyyən imkanları əldə edir. Cəmiyyətin min illər ərzində əldə etdiyi bilikləri, anlayışları gənc nəsil bir qayda olaraq yaşlı nəsildən, özünün təcrübəsindən əxz edir. Yaşlı nəsil öz biliklərini, təcrübəsini gənc nəslə öyrədir.

Görkəmli xalq şairi Məmməd Araz yaradıcılğından öyrənirik ki, hər bir adam ayrılıqda insan olmağı öyrənməlidir. Cəmiyyətdə yaşamaq üçün təbiətin ona bəxş etdiyi imkanlar kifayət etmir. O, eyni zamanda insanın cəmiyyətin tarixi inkişaf prosesində əldə etdiyi bilikləri, təcrübəni də öyrənməlidir. Cəmiyyətdə yaşamaq üçün təbiətin ona bəxş etdiyi imkanlar kifayət etmir. O, eyni zamanda insanın cəmiyyətin tarixi inkişaf prosesində əldə etdiyi bilikləri, təcrübəni də öyrənməlidir. Fransız alimi A. Peron "Aktinumdan insana qədər" adlı əsərində qeyd edir ki, əgər planetimizdə fəlakət baş versə və bütün fəlakət nəticəsində yaşlı nəsil məhv olub, yalnız kiçik yaşlı uşaqlar qalsa, insan nəsli kəsilməsə də, insanlıq tarixi pozular, bəşəriyyət öz insaniliyini itirərdi. Mədəniyyət xəzinələri mövcud olsa da, onlardan heç kim istifadə edə bilməzdi, yeni nəsil üçün onları zənginləşdirə bilməzdi" [1].

"Məmməd Araz təpədən dırnağa qədər milli şairdir" [2, səh.95]. Bunu onun bütün yaradıcılığı təsdiq edir. İlhamının, bədii təfəkkürünün, qan yaddaşının hopduğu "Atamın kitabı" poemasında bütün hadisələrə, fikir düzümünə məhz milli-mənəvilik mövqeyindən yanaşılmalıdır. Şairin təsvir və tərənnüm etdiyi İnsan da, Torpaq da ümumi fəlsəfi, bəşəri kontekstindən çox konkret milli koloriti ilə seçilir. Bu torpaq müqəddəs Azərbaycan torpağı, zəhmətkeş, məğrur İnsan azərbaycanlıdır. Onlar həm ümumiliyi, həm də fərdiliyi təmsil edirlər. İnfil kişi şairin atası olmaqla bərabər millət ağsaqqalının, onun yaşadığı kənd, əzizlədiyi, əzib ram etdiyi torpaq Vətənin ümumiləşmiş obrazıdır. Bu poema həmin ümumiliyi və fərdiliyi təmsil edən obrazlar haqqında fəlsəfi monoloqdur. Mərhum şair İsa İsmayılzadə yazırdı: "Atamın kitabı" –Azərbaycan torpağı haqqında, bu torpağın yetişdirdiyi nurlu, müdrik ağsaqqallar haqqında, təbiətlə üz-üzə, nəfəs-nəfəsə ərsəyə yetişən insanlar haqqında etiraf nəğməsidir [3]. Məmməd Araz 1970-1972-ci illərdə özünün vətəndaşlıq koloriti, orijinallığı ilə səciyyələn "Atamın kitabı" əsərini qələmə alınmış bir sənət nümunəsidir. Həyat hadisələri onun ideya-məzmun zəminini təşkil edir. Xalq şairi Rəsul Rza poemanın bu xüsusiyyətini qiymətləndirərək yazırdı: "Həyat hadisəsini bilmək azdır. Onu poeziya predmeti etməyi bacarmaq lazımdır. "Atamın kitabı" poeması buna uğurlu bir misal ola bilər... Bu əsər, çətin yollardan keçən insan taleyi haqqında, incikli, göynəkli, qəzəbli, nikbin bir hekayətdir" [4].

Lirik-fəlsəfi səpkidə yazılmış "Atamın kitabı" poemasının ideya yükünün mərkəzində dayanan problem, fikrimizcə, əbədi və əzəli torpağa ehtiyacı olan İnsan və İnsana möhtac olan Torpaqdır:

*Bu torpaq üstündə ömürlük varam,*
*Əzilsəm, torpağa dağılasıyam.*
*Nə vaxtsa dikəlib, bulud yararam,*
*Nə vaxtsa göyərib dağ olasıyam.*

*Hamımız vətənin bir dağ parçası*
*Özülü tapıldı – kim onun oldu.*
*Bu torpaq kiminin qumaş parçası,*
*Bu torpaq kiminin buz donu oldu* [5, 418-419].

Zəhmət və zəhmətsevərlik, təbiət, ona vurğunluq, doğma yurd-ocağa bağlılıq, kəndlinin "şəhərləşməsi" yurdsevərlik fəlsəfəsi kimi məsələlər həmin ana motivdən, problemdən doğan amillər olub, poemada İnsan-Torpaq mərkəzi ətrafında öz əksini tapmışdır.

Poemada haqqında söhbət açılan torpaq bütün əzəməti, vüqarı, yenilməzliyi, estetik gözəlliyi ilə canlandırılmış, reallığın belə üstündə dayanan müəyyən qədər mücərrəd və mücərrəd olduğu qədər də təbii boyalarla təsvir edilmiş, onun yaradıcı qüdrəti, qoynunda necə dağlar dikəltdiyi vurğunluqla tərənnüm olunmuşdur. Onun köksündən yüksələn ən hündür dağ sarsılmaz fikir dağıdır ki, şairin fikrincə, dünyanı bu torpağın doğurduğu "fikir dartımı" fırladır. Həyata, cəmiyyətə bu cür yanaşma dünyanı dərk etməyin, onun idarə olunmasının yeni fəlsəfi-pedaqoji konsepsiyası şairə görə, fikir dartımının hərəkətə gətirdiyi dünya, fikir zirvələrinin ideyaları ilə yaşamalıdır:

*Fikirdir yer üstə saralmaz zəmi,*
*Fikir quranı da fikir dağıdır.*
*Bu torpaq üstündə bitən Nizami*
*Bəşərin ən uca fikir dağıdır* [5, səh.419]

Poemada qabarıq şəkildə özünü göstərən ideyalardan biri torpağa çağırış nidasıdır. Dünyanı dolaşıb gəzən şair torpağın, onun üstündə qaya əzəmətilə dayanıb Antey kimi torpaqdan güc alan atanın taleyi ilə, tənəsi ilə qarşılaşır. "Parislərdə mövzu gəzən" oğul boy atıb yüksəldiyi torpağa enməyə səslənir, ocağa çağrılır:

*Sanki pəncərəmə bir qara qarğış*
*Qonub söylədi ki: üzül ədanla!*
*Yen torpaq üstündə torpaqdan danış,*
*Yen torpaq üstündə özünü danla* [5, səh.420]

Bu çağırış reallığa, soy-kökünə çağırışdır. Doğrudur, Məmməd Araz yaradıcılığında real olmayan şeylərdən doğan bəiilik mövqeyindən doğan nümunələr azdır. Onun demək olar ki, bütün lirikası vətəndaşlıq xamırından yoğrulmuş, insanlıq amalına çevrilmişdir. Şairin, yuxarıda qeyd etdiyimiz kimi, şeirlərinin mərkəz xəttini vətəndaşlıq fəlsəfəsi təşkil edir. Məhz Məmməd Araz oxucusunun ona ünvanlanmış böyük məhəbbətinin səbəbi də onda olan böyük vətən sevgisi, vətəndaş qeyrətidir. Görkəmli xalq şairi Bəxtiyar Vahabzadənin də qeyd etdiyi kimi: "Məmməd Araz şairliyindən əvvəl alovlu bir vətəndaş kimi Vətənin vurğunudur" [6].

Poemanın qəhrəmanı sadəcə övladcanlı bir atadır, "qaya şaxlığı"nı, "dərə təkliyi"ni, qüruru, yüksək mənəviyyatı özündə yaşadan, dağlarla çiyin-çiyinə dayanıb dağ əzəmətini qoruyan, lakin atalıq duyğuları ilə daha da möhtəşəmləşən, hər an gözləri yollarda qalıb şəhərlərdə məskunlaşan övladının yolunu gözləyən "ata ürəyi"nin sahibi bir insandır. Onun heç nəyə ehtiyacı olmasa da, "süfrə üstə palçıq daxmasının qapısını" açacaq bir doğma nəfəsə möhtacdır:

*O dağ ətəyində*
*O çay yanında*
*Bir qoca yaşayır –*
*Yüz yaşı tamam.*
*Onun ürəyində, onun qanında*

*Nə təltifə umu,*
*Nə paya tamah...*
*Bəlkə də bir kəlmə duzlu söz istər,*
*Bəlkə də bir qəfil salama möhtac.*
*O heç nə istəməz,*
*Tək, süfrə üstə*
*Palçıq daxmasının qapısını aç* [5, 423].

Bu atanın gileyləri, güzarları, umu-küsüləri illər boyu pərvazlanmış oğul-uşağını görməmək həsrətindən başqa bir şeydən doğmur. Yol gözləyir, "gələcəyəm" vədlərinə ümid bəsləyir, yüz yaşında qapısında oğul qədəmlərini görmək əvəzinə ondan, oğlundan "təbriknamə" alır. Bağ-bağçaya, işə-gücə başı qarışıb yaşını yadından çıxaran qocanın ümidləri bir parça kağızla reallaşır, giley yeri Mahmud qızının qəbir daşı olur:

*Demək yenə gəlmədilər,*
*Öz oduna özün qızın!*
*Qəbrin yansın, Mahmud qızı,*
*Uçub getdi oğlun-qızın!* [5, 456]

Qəhrəmanın xarakterini səciyyələndirən digər məfhumlar məhz sözün böyük mənasında İnsan –Ata obrazından doğur. Bu ata mayasıyla, qanıyla torpağa bağlıdır, əllərinin zəhmətilə torpaqdan bəhrələnir, onu əzir, əzizləyir, onu sevir, özünü torpağa sevdirir. Gündoğandan ta günbatana qədər torpaqla əlləşir, ömrünün mənasını zəhmətdə görür. Atanın bütün zahiri cizgilərini və mənəvi aləmini məhz torpaq və zəhmət müəyyənləşdirir:

*Gözaltı: bir onun əllərinə bax,*
*Palıddan yonulmuş şanaya bənzər.*
*Axşam corabından ovduğu torpaq*
*Yığılsa, bir ilə təpə düzələr.*
*Onun pəncələri yatmır torpağa,*
*Əyilib illərlə xış dabanında.*
*Yetmiş il, səksən il batıb torpağa,*
*Sazaq iliyində,*
*Qış dabanında* [5, 423-424].

"Atamın kitabı"nda isə artıq kökdən uzaqlaşıb özünü mənəvi dayaqlardan təcrid olunmuş sayan, "Ata ocağından çağırış" uman, pənah üçün ocağa üz tutan, qayıdan qəhrəmanla tanış olur, onun qəbul olunub-olunmamaq ehtimalının qorxusunu yaşadığını görürük. Şairin "Ata ocağı" şeirində "Atamın kitabı" poeması ilə səsləşən, ümumi ideyanın bir hissəsini ifadə edən başqa bir bəndi də diqqətə çəkmək istərdik:

*Burda neçə nəsil baş əyib oda,*
*Nənələr əl basıb ocaq daşına.*
*Burda dəyməyiblər ilanlara da*
*Pənah gətirəndə ocaq daşına* [5, 18].

"Kişi yer üzündə od qoruyandır" ifadəsindəki kişi elə ocaq, od qoruyan daşlaşmış insan – ocaq daşıdır. Və sabitləşmiş adət-ənənəyə görə, müqəddəs olan şeyə əl basıb and içərlər. Məlumdur ki, əski çağlardan üzü bəri od-ocaq müqəddəs sayılmış, kişi - ər isə od-ocaq keşikçisi olduğundan müqəddəsləşmişdir. Kişi ocaq daşını, ocaq daşı kimi təmsil etdiyindən ulularımız bu müqəddəs varlığa etiqad bəsləmiş, ona and içmişlər. Məhz bu ideyanın davamını, yekununu şair poemada vermiş, ocaq başında atasının nəfəsini duymuş, babasının "səsini" eşitməyə, qan yaddaşına, soy-kökünə dönməyə səy göstərmişdir:

*Arabir isinə, köklənə bilə*
*Könlümün hər simi, ocaq başında.*
*Bir də yaddaşıma həkk edə biləm*
*Babamın səsini ocaq başında* [5, 421].

Göründüyü kimi, "Atamın kitabı"na qədərki yaradıcılığında da özünü göstərən, daha çox konkretlikdən uzaq, kişilik kriteriyalarının cəmləşdiyi ümumiləşmiş obrazda təcəssüm olunan ocaq daşı obrazı poemada konkret, bütün tərəfləri ilə ideal şəkildə işlənib portret səviyyəsində təqdim olunan Ata surətində ünvan tapır.

Yekun olaraq qeyd edək ki, Məmməd Araz "Atamın kitabı" poemasında xeyirxahlıq, ədalət, haqq sözü demək, ədəb qaydaları, mənəvi tərbiyə, onun tərkib hissələri haqqında, elmlə tərbiyənin vəhdəti haqqında, anaya, ataya, yaxın qohumlara məhəbbət, böyüyə hörmət, kiçiyə qayğı haqqında bu gün mənəvi tərbiyənin, ümumiyyətlə tərbiyənin əsasını, məhək daşını təşkil edən fikirlər söyləmişdir. Buna görə də, hər bir vətəndaş on illərlə xalqımızdan gizlədilmiş həmin hikmətlərdən istifadə etməklə müasir gəncliyimizin, XXI əsrin qurucuları olan gənclərin mənəviyyat tərbiyəsini xalqın min illər boyu hifz edib saxladığı zəngin, qiymətli fikirlər zəmini üzərində qurmalıdır. Belə edildikdə gənclərimiz özlərinin soy kökünə, qiymətli zəngin ənənələrinə, tarixinə bələdləşib cəmiyyət tarixində, xalqlar tarixində və xalqlar sırasında özlərinin yerlərini düzgün müəyyən edə bilərlər. Onlar dərk edərlər ki, xalqımızın mədəniyyətinin, tərbiyə ənənələrinin tarixi qədimdir, onu özünün möhtəşəm köklərindən ayırmaq olmaz. Xeyir-bərəkət, torpağa bağlılıq, Vətən sevgizi, ata-anaya məhəbbət, xeyirxah əməllər, mübarizlik, humanizm, xeyirxah olana əl tutmaq, düşmənə nifrət və ona qarşı mübariz olmaq, dosta sədaqət, namərdə nifrət həmin tarixi köklərlə bağlıdır.

## ƏDƏBİYYAT


1. Y. Talıbov. Pedaqogika tarixinə dəyərli töhvə // Pedaqoji tədqiqatlar, 2003, № 2
2. H. Mehdiyev. Çağdaş poema və gerçəklik. Bakı: Elm, 2000.
3. İsa İsmayılzadə. Poetik həqiqətin gücü. "Ədəbiyyat və incəsənət" qəz., 1976, 31 yanvar
4. Rəsul Rza. Duyğuların izi ilə. Bakı: Yazıçı, 1990.
5. M. Araz. Seçilmiş əsərləri (Şeirlər və poemalar). Bakı: Azərnəşr, 1986.
6. B. Vahabzadə. Elm məhəbbəti. "Kommunist" qəz., 1983, 15 oktyabr


**М. Ахмедова**

## ПЕДАГОГИКО-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ В ТВОРЧЕСТВЕ МАМЕДА АРАЗА

### РЕЗЮМЕ

Объектом исследования статьи являются мысли, о доброте, справедливости, правилах поведения и нравственности, нравственном воспитании, о его составных частях, о любви к матери, отцу, родственникам, отраженных в творчестве видного народного поэта Мамеда Араза, воспитывающего такие нравственные качества, как правдивость, почёт и уважение к старшим, забота о младших, составляющие основу нравственного воспитания.

**M. Ahmadova**

## PEDAGOGIC-PSYCHOLOGICAL PRINCIPLES OF MORAL EDUCATION IN THE CREATIVE ACTIVITY OF MAMMAD ARAZ

### SUMMARY

In the article the thoughts on gentleness, justice, being truthful, morality, moral education and its components, the unity between education and training, love for parents and close relatives, respect for the elderly people, care to the little ones, as a whole education in the creative activity of the prominent national poet Mammad Araz became the object of the research.

*Redaksiyaya daxil olub: 16.04.2014*

# AKADEMİK HƏSƏN ƏLİYEV İRSİNİN ÖYRƏNİLMƏSİNİN ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏSİNİN FORMALAŞMASINA TƏSİRİ

**Ayaz Həsənov,**
*AMİ-nin Cəlilabad filialı, əməkdar müəllim,*
E-mail: amicəlilabad@mail.ru

**Rəyçilər:** *dos.* **X.H. Sultanov,**
*biol. fəls. dok.* **X.M. Əliyev**

***Açar sözlər:*** *ekoloji tərbiyə, ekoloji şüur, ekoloji mədəniyyət, ətraf mühit, ekoloji problem, ekosistem, ekoloji məsuliyyət*

***Ключевые слова:*** *экологическое воспитание, экологическое познание, окружающая среда, экологические проблемы, екосистема, экологическая ответственностъ*

***Key words:*** *ecological study, ecological conciousness, Ecological culture, envivment, ecological problem, ecosystem, ecological vesponsiblity*

Müasir dövrdə şagirdlərin təbiət elmlərinə marağını artırmaq, təbiət, ekoloji aləm haqqında onlara elmi anlayışları əsaslı mənimsətməyə nail olmaq məqsədilə respublikanın tanınmış alimləri, o cümlədən görkəmli təbiətşünas, böyük ziyalı olan akademik Həsən Əliyev haqqında məlumatların verilməsi mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, ətraf aləmin mühafizəsi problemi bütün bəşəriyyətin problemidir. Şagirdlərə ayrı-ayrı mövzuların tədrisi zamanı izah edilməlidir ki, insan təbii sərvətlərdən istifadə edərkən onun inkişaf prosesində olan təbii mübadiləsinə təsir göstərir, onun formasını dəyişdirir və ya onu qismən məhv edir. Bu cəhətinə görə də təbiətdən istifadə onun milyon illərdən bəri davam edən təbii bərabərlik və tarazlığını pozur. Təbii ehtiyatlardan təsərrüfatçı kimi səmərəli istifadə edilməsi, torpağın, meşənin, çayların, təmiz havanın, nəbatat və heyvanat aləminin qorunması - bütün bunların ümumi, doğma işimiz olması şagirdlərin nəzərinə xüsusilə çatdırılmalıdır.

Akademik Həsən Əliyevin zəngin elmi və pedaqoji təcrübəsindən müəllimlər ekoloji mədəniyyət sahəsində şagirdlərə çox şey öyrədə bilərlər. Alimin təbiətin qorunması, zənginləşməsi problemlərində, təbiətin müalicə və zənginləşməsinə xidmət edən tövsiyələrindən ayrı-ayrı mövzuların tədrisində istifadə etmələri dərsin səmərəliliyini daha da artırmış olar.

İbtidai siniflər üzrə "həyat bilgisi" fənninin proqramları, dərslikləri, şagirdlərin ekoloji tərbiyəsi üçün geniş imkanlar açır.

Məlumdur ki, kiçikyaşlı məktəblilərdə ətraf aləmə, təbiətə maraq orta və yuxarı siniflərə nisbətən daha güclüdür. Müəllimin vəzifəsi uşaqları bu aləmə daxil etmək, onlarda yüksək estetik zövqləri inkişaf etdirməkdən ibarətdir. İbtidai siniflərdə şagirdlərin ekoloji tərbiyəsində təbii sərvətlərin mühafizəsi və artırılmasına xüsusi diqqət yetirilməlidir. Bu məqsədlə akademik Həsən Əliyevin "Həyəcan təbili" əsəri ilə şagirdlər hərtərəfli tanış edilməlidir. Belə ki, sinifdənkənar işlərin ən maraqlı formalarından biri olan ətraf mühitin mühafizəsinə həsr edilmiş gecələrin keçirilməsində əsərin öyrədilməsi şagirdlərin ekoloji tərbiyəsində daha faydalıdır.

Şagirdlərin nəzərinə çatdırılmalıdır ki, Qafqaz dünyanın zəngin təbiət muzeyidir. Onun bir parçası olan Azərbaycan isə misilsiz gözəlliklər çələngidir. Akademik Həsən Əliyevin təbirincə desək, "burada yerin altı tükənməz xəzinə, üstü isə canlı muzeydir". Təkcə bir faktı göstərmək kifayətdir ki, yer kürəsindəki 11 iqlimdən 9-u Azərbaycandadır.

Şagirdlərinin nəzərinə belə bir faktı çatdırmaq lazımdır ki, indiki elmi- texniki inqilablar dövründə təbiətlə cəmiyyət arasında kəskinləşmə daha qlobal şəkildə davam edir. Yer kürəsində hər il neçə-neçə qiymətli ağac növləri sıradan çıxır. Meşə örtüyü cəmiyyət tarixinin ilk dövrlərinə nisbətən 60-65% azalmışdır. Ona görə də ətraf mühitdə baş verən dəyişikliklər bəşəriyyət üçün təhlükə törədir. Şagirdlərə yaşıllıqlar, xüsusilə meşələr haqqında, onun insanın həyatında

əvəzolunmaz rolu barədə geniş məlumatlar verilməlidir. Təsadüfi deyildir ki, almanlar meşələri təbiətin “yaşıl ciyəri” adlandırmışlar. Xəzərin tükənməz su xəzinəsi üstündə olan Nabran, Lənkəran, Astara rayonları ərazisində Xəzərsahili meşələr, nəhayət, Kür çayı üstündə hələ məhv olmamış Tuqay meşələri adamlara əsl xoşbəxtlik gətirir. Akademik Həsən Əliyev yazır: “Talış meşələri ölkəmizdə nadir ağaclar diyarıdır”.

Azərbaycanda təbiətşünaslıq elmləri ilə bağlı bir sıra problemlərin öz həllini tapmasında alimin böyük xidmətləri olmuşdur. Belə ki, H. Əliyev torpaq şəraitinin üzüm bitkisinə təsirini öyrənməklə 50 min ha becərilməyən torpaqlarda üzüm yetişdirilməsini təklif etmişdir. Onun bu təklifi bir sıra rayonların, o cümlədən Cəlilabad rayonunun iqtisadi və sosial həyatında da böyük yüksəlişə səbəb olmuş, rayonun iqtisadi inkişafina köklü təsir göstərmişdir. Abşeronda zeytun bağlarının salınması da Həsən Əliyevin xidmətlərinin nəticəsidir.

Akademik Həsən Əliyevin respublikamızda təbiətin mühafizəsi və ekoloji tərbiyənin inkişaf etdirilməsi işi ilə ciddi məşğul olan əvəzedilməz bir ziyalı, vətəndaş alim olması şagirdlərin diqqətinə xüsusilə çatdırılmalıdır.

Azərbaycan alimi akademik Həsən Əliyev hələ 45 il bundan əvvəl yazmış olduğu “Həyəcan təbili” əsərində təbiətin mühafizəsi və ekoloji tərbiyə sahəsində olan nöqsanları tənqid edərək yazmışdır: “Bir şeyi yadda saxlamaq lazımdır: yer üzərində bioloji mühit məhv olan deyil. Onun nizamının pozulması yeni bir mühit yaradıb, bu mühiti yarada bilər. Qeyd edək ki, Yerin bioloji tarixində belə hallar olmuşdur. Lakin mühitin dəyişdirilməsi bəşərin varlığını təhlükə qarşısında qoyur. İnsan özü özünün keşikçisi olmalıdır. Heç bir başqa canlı onun harayına çatmayacaq. Ona görə də bizcə bu gün heç bir təşvişsiz, haraysız həyəcan təbili çalmaq yerinə düşərdi. Bu “təbili” heç yerdən açmaq lazım deyil. O, müasir insanın ürəyidir. Bu ürək ətrafına daim, həmişə, hər yerdə öz sözünü deməlidir. Bu münasibət üzərində yaşadığımız, havasını udduğumuz Azərbaycan təbiətinə kor-koranə bəslənilən münasibəti görəndə bu təbil daha böyük həyəcanla döyülməli, bizi ayıq-sayıq salmalıdır. Bəlkə də toya, yasa və digər mərasimə yubanmaq olar, təbiətə münasibətdə yubanmaq isə çox yaşamağa yubanmaqdır” (H.Əliyev Həyəcan təbili. Bakı, 1982, s. 14).

Alimin bu fikirləri əraf aləmin gözəlliklərinə biganə, laqeyd olan bəzi məktəblilərin qəlbinə, hissinə xeyirxahlıq toxumu səpir, onlarda təbiətə məhəbbət hissini bir daha gücləndirir.

Deyirlər təbiəti gözəl olan diyarın insanları da gözəl olur. Təsadüfü deyildir ki, ömrünü bütünlüklə respublikamızın təbiətinin inkişafına həsr etmiş akademik Həsən Əliyev yazmışdır: “Sağlam və gözəl təbiət insana nəinki təkcə yeni fiziki qüvvə verir, habelə onun ağlına, zehninə təsir edir. İnsanda özünə inam hissini, yaradıcılıq şövqünü artırır”. Bəli, sağlam təbiət sağlam insan deməkdir.

Ətraf mühitə qeyri-humanist münasibət təbiətin bizdən qisas almasına səbəb olur. Həsən müəllimin yarım əsrdən çox çaldığı həyəcan təbilinin nəticələrini indi ekoloji fəlakətlə üzləşəndə hiss edirik.

Görkəmli alim tərəfindən götürülmüş maddi və mənəvi nemətlərin əvəzini qaytarmayan adamların bununla özlərinə ziyan vurmaları şagirdlərin nəzərinə çatdırılmalıdır. Xüsusilə belə bir cəhət şagirdlərə aşılanmalıdır ki, insan təbiətdən istədiyini alarkən bəzən onun yarasını bağlamağı yaddan çıxarır. Xalq şairi M. Arazın təbirincə desək, “Həsən Əliyev gördüklərimizi qoruyub saxlamağa, artırmağa, görmədiklərimizi isə duymağa, hiss etməyə çağırır”.

Şagirdlərin ekoloji maarifinin yaxşılaşdırılması, təbiətə qayğıkeş münasibətin tərbiyə edilməsinə xüsusi diqqət yetirilməlidir. Məktəblərdə təbiəti mühafizə cəmiyyətlərinin, ekoloji tərbiyə müəssisələrinin yaradılması məhz Həsən Əliyevin təşəbbüsü ilə olmuşdur.

Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, bu gün respublikada fəaliyyət göstərən ətraf mühitinə nəzarət və təbiəti mühafizə komitəsi, təbiəti mühafizə cəmiyyəti bilavasitə Həsən Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmışdır.

Vaxtilə akad. Həsən Əliyevin baş redaktorluğu ilə çap edilən “Azərbaycan təbiəti” adlı elmi-kütləvi jurnal məktəblilərin ekoloji mədəniyyətinin xeyli yüksəldilməsində, bu sahədə biliklərin artırılmasında və təbiətə şüurlu, qayğıkeş münasibət formalaşdırılmasında əvəzsiz vasitədir.

Biologiya dərslərində qoruqlar haqqında məlumat verərkən bu sahədə Həsən Əliyevin xidmətləri xüsusilə ön plana çəkmək lazımdır. Şagirdlərə izah edilməlidir ki, respublikada mövcud olan əksər dövlət qoruqlarının təşkili bilavasitə görkəmli alimin təşəbbüsü ilə olmuşdur. Bəlkə də bu qoruqlar vaxtında təşkil olunmasaydı, Azərbaycan xalqı indi özünün bir sıra qiymətli flora və fauna nümunələrindən məhrum olardı. Bu qoruqlarda respublikamızda bitən bəzi endemik bitkilər haqqında danışmalı, xüsusilə eldar şamı, dəmirağac, narbənd, qırmızı palıd və s. ağac bitkiləri haqqında şagirdlərə hərtərəfli məlumat verilməlidir. Ayrı-ayrı ağacların insan həyatında əhəmiyyəti göstərilməlidir. Alimin belə bir fikrini şagirdlərə çatdırmaq lazımdır: "Palıd ağacının tərkibindəki maddələrdən xalq təbabətində geniş istifadə olunur".

Akad. Həsən Əliyevin təbiəti mühafizə işində apardığı elmi fəaliyyəti şagirdlərə daha yaxından tanıtdırmaq üçün fənn kabinetlərində alimin böyüdülmüş portreti asılmalı, onun təbiətə aid söylədiyi fikirləri öz əksini tapmalıdır. Belə ki, Həsən Əliyevin "Torpaq anadırsa, su övladdır, Meşə bu övladsız dodağı çat-çat olub yanacaq, diri gözlü "ölüyə" dönəcək, "Torpaq vətən deməkdir və milyonlara öz döşündən süd vermişdir", "Quş aləmi təbiətin ən canlı, poetik hissəsidir", " Təbiət saysız-hesabsız, nadir, gözəl abidələrin müəllifidir" və s. fikirləri şagirdlərə dərsdə və dərsdənkənar əlavə məşğələlərdə geniş izah edilməlidir.

Akademik Həsən Əliyevin şəxsiyyəti və onun təbiətşünaslıq elminin inkişafındakı xidmətləri ilə yaxından tanışlıq dərs prosesində ekskursiyalarda, təbiət üzərində aparılan müşahidələrdə şagirdlərə çatdırılmalıdır.

Bütün bunlar şagirdlərdə təbiətə, təbiətşünas alimlərə qayğı tərbiyə etməli, təbiəti mühafizə etmək, onu ekoloji cəhətdən saf, təmiz saxlamaq arzusu doğurmalıdır. Bioloji fənlərdə, xüsusilə ibtidai siniflərdə tədris olunan həyat bilgisi dərslərində, dərsdənkənar tədbirlərdə akademik Həsən Əliyevin həyat və fəaliyyətindən, onun təbiətə bağlılığından, respublikanın ekoloji sərvətlərinin qorunması və artırılması işinə göstərdiyi qayğıdan vaxtaşırı söhbət aparılmalıdır.

Bütün bunlar şagirdlərdə görkəmli alimə qarşı bir daha dərin hörmət hissi yaradar, onlarda təbiətə məhəbbət hissini gücləndirər.

## ƏDƏBİYYAT


1. Q.Məmmədov. Görkəmli təbiətşünas, böyük ziyalı. Bakı: Elm, 2002.
2. H.Əliyev. Həyəcan təbili. Bakı, 1976.
3. B.Hüseynov. İnsan təbiətlə nəfəs alır. Bakı, 2009.
4. Hüseynov Ə.M. Biologiyanın tədrisinin ümumi və xüsusi metodikası. Bakı, 2007.
5. N.Abdullayeva, A.Zərbiyeva. Uşaqların ekoloji tərbiyəsi. Bakı: Maarif, 1991.


**А. Гасанов**

## ИСПОЛЬЗОВАНИЕ НАСЛЕДИЯ АКАДЕМИКА ГАСАНА АЛИЕВА В ЭКОЛОГИЧЕСКОМ ВОСПИТАНИИ ШКОЛЬНИКОВ

## РЕЗЮМЕ


В статъе разъяснена важностъ экологического воспитания и экологической грамотности для приобщение учащихся к охране окружающей среды.

Автор показал пути исполъзованиия наследия академика Г.Алиева при обучении биологии в формировании экологического воспитания школъников.

**A. Hasanov**

## THE AFFECTION OF LEARNING OF ACADEMIC HASAN ALIYEV'S HERITAGE TO FORMING OF STUDENTS' ECOLOGICAL ABILITIES

### SUMMARY

Article is designed to attract learners' nature protection activities,the importans of ecological uybringing and education have been identified as a majov issue nature of auther's tearching of subject's including biology closses and class action vemoved during the formation of the ecological education of the students worteed with Hasan Aliyev's scientinfic heritage.

*Redaksiyaya daxil olub: 16.04.2014*

# TƏLİM PROSESİNDƏ KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN TƏRBİYƏSİ MÜHÜM PEDAQOJİ PROBLEM KİMİ

**Vaqif Kərimov,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
E-mail: k.vaqif@rambler.ru

**Rəyçilər:** *dos.* **S. Həsənova,**
*ped. fəlsəfə dok.* **X. Talıbova**

***Açar sözlər:*** *kiçikyaşlı məktəbli, şəxsiyyət, müəllim, valideyn, tərbiyə*
***Ключевые слова:*** *младшие школьники, личность, учитель, родитель, воспитание*
***Keywords:*** *young schoolboy, identity, teachers, parents, educational*

Məktəblilərin tərbiyəsi pedaqogika və psixologiyanın mühüm problemidir. Kiçik yaşlardan başlı-başına buraxılan, tərbiyə olunmayan uşaqları sonralar tərbiyə etmək çətin olur. “Çətin tərbiyə olunan uşaqlar” ifadəsi də bunun əsasında formalaşmışdır.

Adətən, yaxşı müəllimi təlim fənləri üzrə bilikləri şagirdlərə nə dərcədə mənimsətməsinə görə tanıyırlar. Müəllimin bu sahədə bacarığı təqdirə layiqdir. Bununla belə, həyat təcrübəsi göstərir ki, bəzən tədris materialını mükəmməl mənimsəmiş uşaqların, xüsusilə yeniyetmələrin davranışında naqislik özünü göstərir. “Alim olmaq asandır, insan olmaq çətin” atalar sözü də belə yaranmışdır.

Gənc nəsil üçün nəzəri hazırlıq, elmin müxtəlif sahələrindən xəbərdar olmaq zəruridir. Ölkənin inkişafı savadlı insanların (o cümlədən gənclərin ) çiyinlərində gedir. Millətin gələcəyi, inkişafı bundan asılıdır. Cəmiyyətdə təkcə alimlərin ziyalıların deyil, adi vəzifə, peşə sahibinin də (elektrik, bənna, dəmirçi, çilingər, mebelçi, satıcı və b.) kifayət qədər savadı olmalıdır. Həyatımızın mənalı, rahat, təhlükəsiz keçməsi üçün bizi daha çox düşündürən ətrafımızdakı adamların mədəni, tərbiyəli olmalarıdır.

Ağıllı adamlarla iş birliyinə girmək, çətin məsələləri birlikdə həll etmək, cəmiyyətə fayda vermək asandır.

Demək, təlim təhsilin bir tərəfidirsə, tərbiyə heç də ondan az əhəmiyyətli olmayan ikinci tərəfidir.

Təəssüf ki, bəzən məktəb, müəllim üstünlüyü birinci tərəfə verir, tərbiyənin, əsasən, ailəyə məxsus olduğunu bildirirlər. Doğrudur, uşağın ilk tərbiyəçisi ailədir – ana-atadır. Deyiləni eşitməyi, ona əməl etməyi, adicə qayda-qanuna tabe olmağı uşaq məhz ailədə öyrənir. Özünəxidmətin, ailə üzvləri, qohumlar, qonşular, ətrafdakı yaşlılarla, yoldaşları ilə ünsiyyət mədəniyyətinin ilkin bünövrəsi ailədə qoyulur. Uşaq rejimə ailədə alışır. Uşaq məktəbə gedənədək onun formalaşmasına ailə cavabdehdir.

Uşaqların məktəbəqədər müəssisələr tərəfindən əhatə olunmadıqları ərazilərdə valideynlərin işi daha ağırdır. Bu cəhəti nəzərə alaraq ölkəmizdə məktəbəqədər müəssisələrin sayının artırılması zəruridir. Bir çox ölkələrdə uşaqların 85-90 faizi məktəbəqədər təhsil müəssisələri ilə əhatə olunduqları halda, bizim ölkəmizdə bu faiz 17-ni keçmir. Təcrübə göstərir ki, həmin müəssisələrdən gələn uşaqlar əqli cəhətdən daha hazırlıqlı, daha tərbiyəli olurlar. Sağlam, fiziki cəhətdən inkişaf etmiş, psixi hazırlıqlı yüksək olan uşaqlar məktəbə tez alışır, tərbiyəvi cəhətdən seçilirlər.

Məktəbdə uşağın tərbiyəsinə cavabdehlik, əsasən, müəllimin üzərinə düşür. Nə üçün belə deyirik? Ona görə ki, altı yaşlılarda formalaşmış xarakter xüsusiyyətləri, onların sistemə salınması, cəmiyyətin, dövlətin tələblərinə müvafiq şəkildə tərbiyə olunması məktəbdən, müəllimdən asılı olur. Həm də ona görə ki, məktəbdə ictimai tərbiyənin imkanları artır. Uşaqlar müəllimlə, sinif yoldaşları ilə, məktəbin kollektivi ilə təmasda olur, təlim prosesində tənəffüslərdə, məktəbdənkənar, sinifdənxaric fəaliyyətdə tərbiyəvi tədbirlərin iştirakçısı olur.

Bizim diqqətimizi ayrı-ayrı fənlərin tədrisi prosesində müəllimin tərbiyəvi işi necə aparması cəlb edir. İnkişaf insanın keyfiyyətcə dəyişməsi prosesi və onun nəticəsidir. Tərbiyəvi baxımdan inkişafın nəticəsi insanın sosial varlıq kimi fəaliyyət göstərməsidir.

Adi insandan fərqli olaraq şəxsiyyət anlayışı onun başqa adamlarla ünsiyyətdə, ictimai münasibətlərdə formalaşan keyfiyyətlərini əhatə edir. İnsan ictimai təcrübəni mənimsəməklə, cəmiyyətə maddi və mənəvi dəyərlər verməklə şəxsiyyət olur. Şəxsiyyət olmaq üçün adam fəaliyyətində təbiət tərəfindən bünövrəsi qoyulmuş və həyatda formalaşmış daxili aləmini açıb göstərməlidir.

Dərsin komponentləri arasında qarşılıqlı əlaqə mövcuddur. Bu, dərsin elmi təşkilinə imkan verir. Elmi yanaşma dərsin tam sistem kimi qəbul olunmasını tələb edir. Məhz buna görə tədris materialının məzmunun açılması, quruluşu, istifadə olunan metodlar və təşkilindəki çatışmazlıqlar onun keyfiyyətinə təsir göstərir. Belə amillərdən biri də dərsdə müvafiq tərbiyəvi işin getməməsidir.

Bu komponentlərin hər birinin düzgün təşkili müəllimdən böyük diqqət və qüvvə tələb edir. Dərsdə böyük tədris tərbiyə vəzifələrinin yerinə yetirilməsi müəllimin qarşısında vaxtdan maksimal istifadə olunmasını, sürətin, mərhələlərarası əlaqələrin düzgün təşkilini tələb edir. Belə yanaşma o zaman özünü doğruldur ki, şagirdlərin təlim fəaliyyətinin fəallaşması idrak fəaliyyətinin inkişafını təmin edir.

İ.P. Podlasi bildirir ki, dərsdə müəllimin tərbiyəvi işi təşkil etməsi insanı həyatdakı üç əsas rola (vətəndaş, əməkdaş, ailə həyatı) hazırlamalıdır. Onun nəzərdə tutduğu tərbiyə məsələləri təlim fənlərinin biri və ya bir neçəsində həyata keçirmək mümkündür.

Müşahidələr göstərir ki, həm valideynlər, həm də bəzi müəllimlər tərbiyə problemini ümumi mənada qəbul edir, onun incəliklərinə lazımınca bələd olmurlar. Tədqiqat prosesində biz bu cəhətə bir daha aydınlıq gətirməyə çalışacağıq.

“Tərbiyə olunma yolları ” probleminin mahiyyəti nədən ibarətdir? Bu ifadə iki sahə üzrə işi əhatə edir:

- müəllimin şagirdləri tərbiyə etməsi;
- özünütərbiyə.

Birinci cəhət geniş olmaqla müəllim fəaliyyətinin müxtəlif sahələrini əhatə edir. Müəllim təlim prosesində şagirdlərə bu və ya digər fənn üzrə proqramın məzmununa uyğun bilik, bacarıq və vərdişlər verməklə, həm də onların tərbiyəsi ilə məşğul olur.

Tərbiyə prosesi çoxcəhətli olmaqla insanın formalaşmasında əhəmiyyətli olan aşağıdakı məsələləri əhatə edir:

- vətənpərvərlik. Vətən, onun təbiətini, təbii sərvətlərini sevmək;
- vətəni qorumağa, onun uğrunda canından keçməyə hazır olmaq:
- azərbaycançılıq, azərbaycanlıları, onların adət-ənənələrini milli dəyərlərini sevmək;
- azərbaycanlıların mənsub olduqları İslam dininin dəyərlərinə, sadə adətlərinə əməl etmək;
- valideynlərə dərin məhəbbət bəsləmək, ailə üzvlərinə hörmət, qayğı ilə yanaşmaq;
- cəmiyyətdə yaşlılara hörmət , körpələrə qayğı bəsləmək;
- məktəbdə yoldaşları və müəllimlərlə yüksək insani ünsiyyət saxlamaq ;
- ünsiyyıt prosesində normal nitq mədəniyyətinə əməl etmək;
- verdiyi sözə əməl etmək; düşündüyü ilə əməllərinin eyniliyini gözləmək ;
- yalan danışmamaq , ünsiyyətdə olduqlarının hörmətini qazanmaq:
- oğurluq etməmək, nəfsi təmiz olmaq;
- dalaşmamaq, bunun üçün şərait yaratmamaq ;
- səhvini etiraf etmək , onu başqasının üstünə atmamaq ;
- səhvinə, uğursuzluğuna görə ruhdan düşməmək, onu aradan qaldıra biləcəyinə inanmaq;
- müvəffəqiyyətinə görə lovğalanmamaq;
- başqasının uğursuzluğuna sevinməmək;
- ehtiyacı olanlara kömək etmək;

- vaxtının boş, işsiz keçməsinə yol verməmək;
- ev işlərində valideynlərə kömək etmək;
- kollektivdə öz yerini bilmək, onun mənafeinə çalışmaq;
- küçə uşaqlarına, alkoqola meyilli şəxslərə qoşulmamaq:
- özünü tərbiyələndirməyi öz "Məni" ini gözləməyi bacarmaq:
- özünü qiymətləndirməyi bacarmaq.

Axırıncı maddə problem baxımından o qədər də əhəmiyyətli görünməyə bilər. Yeri gəlmişkən ona münasibət bildirək.

Özünüqiymətləndirmə ciddi tərbiyəvi əhəmiyyət kəsb edir. Psixoloqların nöqteyi-nəzərincə, özünüqiymətləndirmə şəxsiyyətin mənəviyyatı və fəaliyyətinin idarə edilməsində bilavasitə iştirakı olan prosesdir. Özünüqiymətləndirmə şəxsiyyətin fəal iştirakı ilə onun xüsusiyyətlərini, daxili aləmini formalaşdırır. Beləliklə, özünüqiymətləndirmə əqli fəaliyyətin vacib şəxsi parametridir. Adekvat olmayan, tez-tez dəyişən özünüqiymətləndirmə şəxsiyyətin tədris fəaliyyəti və tərbiyəsinə mənfi təsir göstərir. Dərketmədə yenidənqurma şagirdin öz daxili aləmini açması, yeni baxışın əmələ gəlməsi ilə əlaqədardır.

Özünüqiymətləndirmə şagirdə öz hərəkətlərini təhlil etməyə, onlara ətrafdakıların gözü ilə baxmağa, müvafiq düzəliş aparmağa imkan verir.

Dərsdə kollektiv əməyin təşkili böyük tərbiyəvi əhəmiyyətə malikdir. Müasir dərs öyrədilən materialın xarakterindən asılı olaraq orada işin böyük kollektivlə (bütün siniflə), böyük qruplarla (sinfi iki yerə ayırmaqla), kiçik qruplarla (4-5 nəfərlik), cütlərlə və fərdi aparılmasını tələb edir

Kollektivizm şəxsiyyətin ayrılmaz əlaməti və aparıcı keyfiyyətidir. Həyat, həmçinin dərsin gedişi böyüməkdə olan nəsildə cəmiyyətin maraqları ilə yaşamağa tələbat və bacarıq tərbiyə olunmalıdır.

Kollektiv də öz növbəsində hər bir şagirdin inkişafını, çiçəklənməsini təmin etməlidir. Uşaqda yenini müstəqil araşdırmaq motivi formalaşdırmalıdır. Bunsuz elmə, biliyə məhəbbət tədris işinin mahiyyətini başa düşmək, idrak marağı tərbiyə etmək mümkün deyil. Buna nail olmaq üçün, ilk növbədə, müəllim fənnin, ümumiyyətlə, təlimin əhəmiyyətini açmalıdır.

İbtidai siniflərdə təlim şagirdlərin yalnız intellektual təcrübə, əşyalar aləmi haqqında biliklər, universal tədris əməliyyatının mənimsənilməsini deyil, həm də insanların mənəvi qidaları gözləmələri, onların qarşılıqlı münasibətlərini, başqa sözlə, etik-estetik təcrübələrini təmin edir. Müasir dövrdə məktəbdə şagirdlərin intellektual inkişafına böyük yer ayrılır. Fənn olimpiadaları, müsabiqələr, intellektual oyunlar həqiqətən tədris fənlərinə, şəxsi nailiyyətə cəhd marağı inkişaf etdirə bilər.

Bu gün məktəbdə tərbiyə işində ciddi dəyişiklik aparılmalıdır. Kompyuter oyunlarının, televiziya verilişlərinin, kinofilmlərin şagirdlərə mənfi təsiri özünü göstərir. Müasir məktəblilər əməyə deyil, əyləncəyə yönəlmişlər. Dəyərlər dəyişdirilmişdir. Məsuliyyət, şəxsi fikir, əməyə məhəbbət, demək olar ki, yoxdur.

Valideynlərin həddən artıq qayğıkeşliyi, himayəsi ona gətirir ki, uşaqlar hər şeyi hazır şəkildə almağı öyrənirlər. Nəticədə onlar eqoist böyüyür, qayğının əvəzinə "Sağ ol!" deməyi unudurlar. Artıq ibtidai siniflərdə uşaqlar belə qənaətə gəlirlər ki, oxumaq lazım deyil. Onların inkişafı, ali məktəbə qəbulu, iş yerinin tapılmaları qayğısına valideynləri, qohumları qalacaqlar. Təəssüflər olsun ki, tərbiyə adı altında xüsusi tədbirlər sistemi (dərs saatları, ekskursiyalar, konkurslar və s.) nəzərdə tutulur. Şübhəsizdir ki, onlar şagirdlərə təsir edir, lakin xatırlamaq lazımdır ki, əxlaqi inkişaf gündəlik tədris fəaliyyətində baş verir. Bu isə kiçikyaşlı məktəblilər üçün aparıcı fəaliyyətdir. Tədris fəaliyyəti nə qədər dəqiq təşkil edilərsə, müəllim öz tələblərində ardıcıl olar, özünün əxlaqi mövqeyini aydın bildirər. Tərbiyə bundan asılıdır. Tərbiyənin qarşısında aşağıdakı vəzifələr formalaşır:

- şagirdlərin əsas əxlaqi anlayışlarla (ədalətlilik, xeyirxahlıq, dostluq, vicdanlılıq, düzgünlük, vəzifənin yerinə yetirilməsi, həqiqətpərəstlik hörmətçilik, əməksevərlik və s.) tanışlığı ;
- sinifdə əxlaqi- sağlam atmosferin yaranması;
- şagirdlər tərəfindən tədris fəaliyyətinin mahiyyəti və mənasının dərk edilməsi, təhsilə daxili motivasiyasının inkişafı ;

- hisslərin inkişafı, bütün canlılara ehtiyatlı münasibətin tərbiyəsi;
- valideynlərin öz övladlarının tərbiyəsi prosesinə cəlb olunmaları;

Ədəbi əsərləri öyrənməklə, real hadisələrə baxmaqla, insanların hərəkətlərini qiymətləndirərək biz diqqəti davranış motivinə yönəldirik. Uşaq məktəbdə oxumağa başlamaqla müəllimlə münasibətə girir. Müəllimlər I - lər üçün qaydalar tərtib edirlər:

- müəllimi dinlə;
- suallara cavab ver;
- tapşırığı müstəqil yerinə yetir;
- səliqəli ol;
- yoldaşlarınla mehriban rəftar et, onların köməyinə çat, heç kimi incitmə.

Dərs ilinin axırında aşağıdakıları da əlavə edirlər:

- mənəm-mənəmlik eləmə;
- dost tapdın, onu qoru;
- yaxşı oxumağa cəhd göstər;
- qiyməti soruşma.

Sinifdə etibar atmosferi yaratmaq vacibdir. Müəllim uşaqlara dost və köməkçi olmalıdır. Şagirdlər özlərini təhlükəsiz hiss etməlidirlər. Münaqişə qalxdıqda onun səbəbini, münaqişənin hər bir üzvünün nə hiss etdiyini öyrənmək lazımdır. Sağlam atmosferin yaranması üzərində işləyərkən şagirdlərin bir-birini dinləmələri təmin olunmalıdır.

Yuxarıda qeyd etdik ki, hər bir fənn şagirdlərə bilik verməklə yanaşı, həm də onları tərbiyə etməlidir.

Yalnız nəzəri biliklərə əsaslanmaq insani məlumatlarla zənginləşdirir, bəzən onu mexaniki əzbərçiyə, robota çevirir. Şagird eşitdiyi hər hansı bir fikri, ideyanı şüurlu dərk etməli, onun nə vaxt, harada lazım olacağını bilməli, tətbiq etməyi öyrənməlidir. Bu, şüurlu proses olmaqla, həm də öyrəndiklərinin tərbiyəvi əhəmiyyəti üzərində düşünməyi tələb edir.

Pedaqoji ensiklopedik lüğətdə dərsin qarşısında qoyulan vəzifələr belədir:

1. Təlimedici və tərbiyələndirici vəzifələrin vəhdəti;
2. Şagirdlərin idrak fəallığının stimullaşdırılması ;
3. İdrak müstəqilliyini inkişafı, başqa sözlə, şagirdin onun üçün yeni olanları müstəqil dərk etmək cəhdi və bacarığı;
4. Dərs vahid didaktik məqsədlə vəhdətdə olan orqanik tamdır;
5. Dərsin hər bir hissəsi məmimsəmə qanunauyğunluğu ilə vəhdətdə qurulmalıdır (1).

Göründüyü kimi, dərsin vəzifələri haqqında bəndlərin 3-ü tərbiyə məsələləri ilə bağlıdır.

Tədqiqat problemi məhz bu baxımdan axtarışların aparılmasını tələb edir. Ayr-ayrı fənlərin, hətta ayrı-ayrı mövzuların tədrisi nə kimi tərbiyəvi əhəmiyyət daşıyır, şagirdlərə hansı tərbiyəvi keyfiyyətlərin aşılanmasını təmin edir.

İlkin araşdırmalar belə bir qənaətə gəlməyə əsas verir ki, hər bir fənnin tərbiyəvi istiqamətləri müxtəlif olduğu kimi, həmin istiqamətlərdə işin aparılma imkanları da müxtəlifdir. Bəzi fənlərin tədrisi zamanı tərbiyəvi işin aparılması üçün imkanların zənginliyi bu sahədə işin asanlıqla və maraqlı təşkilinə şərait yaradır.

İmkanlar dedikdə, nələr nəzərdə tutulur:

* tərbiyəvi işin həyatiliyi cəmiyyət üçün gərəkliliyi ;
* dərsliklərdə müvafiq maraqlı mətinlərin olması;
* müəllimin bu baxımdan hazırlığı.

Təcrübə göstərir ki, bütün bunlara həm müsbət, həm də mənfi cavab vermək olar.

Bəzən dərsliklərdə müvafiq material tapılmır, bəzən tərbiyənin belə qoyuluşu cəmiyyətin tələblərinə uyğun gəlmir, bəzən də müəllimin hazırlığı buna imkan vermir. Yaxşı müəllim heç nəyi nəzərə almadan uşaqlara müvafiq yüksək keyfiyyətlər aşılaya bilər.

Hər bir fənnin tədrisi ilə əlaqədar problemin qoyuluşu istiqamətinə ötəri nəzər salaq.

*Azərbaycan dili*. Bu fənnin tədrisində azərbaycançılıq, dilimizə məhəbbət, dilimizi mükəmməl öyrənmək, nitq inkişafı və s. məsələlər əhatə olunmalıdır.

*Həyat bilgisi*. Adından məlum olduğu kimi, bu fənnin öyrənilməsi prosesində ölkəmizdə təbiət və cəmiyyət haqqında biliklər verilməli, Azərbaycanın gözəlliyinə, sərvətlərinə, tarixi abidələrinə məhəbbət, onların qorunması məsələləri tərbiyə edilməlidir.

*Riyaziyyat*. Bu fənnin tədrisində şagirdlər dəqiqilik, iradə, məntiqi təfəkkürün inkişafı, həndəsi fiqurların çəkilməsində səliqəlilik, hətatilik tərbiyə edilməlidir.

*Təsviri incəsənət*. Uşaqlarda müşahidəçilik, gözəlliyi dərk etmək, rəsmetmə qabiliyyətini dərk etmək vərdişləri yaradır.

*Musiqi*. Şagirdlərin estetik hisslərini inkişaf etdirir, onların səs duyumunu qaydaya salır, mahnı alətlərinin və mahnıların müxtəlifliyini duymağı, ifa etməyi öyrədir.

*Texnologiya*. Uşaqlarda əməyə, əmək adamlarına məhəbbət aşılayır. Dərsdə gil və plastilinlə işlər şagirdlərin müxtəlif fiqurlar, əşyalar düzəltmələrinə, əl əməyindən zövq almalarına şərait yaradır.

*İnformatika*. Uşaqları müasir texnologiyaları dərk etməyə, onlarla işləməyə, yeniliyə can atmağa alışdırır.

*Fiziki tərbiyə*. Şagirdlər bədənin fiziki cəhətdən inkişaf etdirilməsi yollarını öyrənir, cəld, çevik, gümrah olur, vətəni müdafiə üzrə ilkin vərdişlərə yiyələnirlər.

Tərbiyə probleminin həlli baxımından tədris fənlərinin hər biri digərini tamamlayır, başqa sözlə, inteqrasiya yaranır.

Beləliklə, şagirdlər təlim və tərbiyənin orqanik, tam bir proses olduğunu dərk edirlər.

**Problemin aktuallığı** ondan ibarət hesab olunur ki, tədris materiallarının yaxşı mənimsədilməsi uşaqların davranışına yaxşı təsir göstərir. Biz bunu əsas götürürük.

**Problemin elmi yeniliyi**. Məqalədə kiçikyaşlı məktəblilərin tədris prosesində tərbiyəsi mühüm pedaqoji problem kimi ясасландырылыр.

**Problemin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədə irəli sürülən təklif və nəticələr müəllim-şagird, valideyn-uşaq münasibətlərinin yenidən qurulmasında nəzərə alına bilər.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Ağayev Ə.Ə. Pedaqogika. Тялим просеси: яняня вя мцасирлик. Бакы: Адилоьлу, 2006.
3. Azərbaycan Respublikasının təhsil məktəbləri üçün həyat bilgisi kurikulumu. Bakı, 2006
4. İbtidai siniflər üçün yeni fənn kurikumlarına dair gündəlik planlaşdırma nümunələri. Bakı: Kövsər, 2010
5. Антуфев Д.А., Антуфева С.Л. Воспитание коллективизма и взаимопомощи в условиях военно-спортивной игры // Начальная школа, 2011, № 6
6. Демидно Т.Н. Проектно-исследовательская деятельность при изучении курса «Окружающий мир» // Начальная школа, 2013, № 1
7. Педагогическая енсиклопедия. М.: «Советская энциклопедия», 1968.
8. Харламов И.Ф. Как активизировать учение школьников. Минск: Народная асвета, 1975.


**В. Керимов**

## ВОСПИТАНИЕ МЛАДШИХ ШКОЛЬНИКОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ КАК ВАЖНАЯ ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА

### РЕЗЮМЕ

Известно, что процесс обучения включает в себя и процесс воспитания. Если обучение является одной стороной образования, то воспитание является его второй стороной.

Таким образом, ученики осознают, что обучение и воспитание являются целостным, органическим процессом.

**V. Karimov**

**EDUCATION OF YOUNGER STUDENTS IN THE LEARNING PROCESS AS MAIN PEDAGOGICAL FACTOR PROBLEM**

**SUMMARY**

It is known that the learning process includes the process of education. If education is one side of education, then education is his second round.

Thus students are aware that training and education is tselestnym, organic process.

*Redaksiyaya daxil olub: 16.04.2014*

# ***MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ***

## PARAMETR DAXİL OLAN BƏRABƏRSİZLİKLƏRİN HƏLLİ

**Novruz Nəsirov,**
*ADPU*
E-mail: spawn.design@gmail.com

**Akif Sadıxov,**
*ADPU*
E-mail: sadixovakif.adpu@mail.ru

**Rəyçilər:** *prof.* **A.S. Adıgözəlov,**
*dos.* **Ə.A. Quluyev**

***Açar sözlər:*** *parametr, tənlik, bərabərsizlik, xətti funksiya,*
***Ключевые слова:*** *параметр, уравнение, неравенство, линейная функция*
***Key words:*** *parameter, equation, inequality, lane funksion,*

Müşahidələr göstərir ki, tənliklərə nisbətən bərabərsizliklər həllində şagirdlərimiz, eləcə də tələbələr müxtəlif çətinliklərlə qarşılaşırlar. Ümumiyyətlə bərabərsizliklərin həlli tənliklərə nisbətən çətin mənimsənilir. Xüsusilə, parametr daxil olan bərabərsizliklərin həlli nisbətən çətin olmasına baxmayaraq, bunun həlli çox maraqlı və tələbələrin tədqiqatçılıq qabiliyyətini inkişaf etdirir. Bərabərsizlikdə parametrin qiymətindən asılı olaraq bərabərsizliyin həllinin hansı şərt daxilində tapılması şagirdi, tələbəni düşündürür, onların ümumi riyazi biliklərinin təkrarlandırılmasını zəruri edir. Qeyd edək ki, məktəb riyaziyyat kursuna daxil olan istənilən cəbri və transendent bərabərsizliklərin hər birinin həllində parametrli bərabərsizliklərə rast gəlinir. Bu tip rasional, irrasional bərabərsizliklərin və eləcə də transendent bərabərsizliklərin həllində parametrli bərabərsizliklər həllinə dair misal nümunələrinə baxaq.

**Misal.** a parametrinin hər bir qiyməti üçün $\frac{x^2-2x+3^{|a|}}{x^2-4}<0$ bərabərsizliyini həll edin.
**Həlli.** kəsirin surətindəki kvadrat üçhədlini diskriminantnan hesablayaq.
$D=4\cdot\left(1-3^{|a|}\right)\le 0$

Əgər $a=0$ olarsa, onda $D=0$ və verilən bərabərsizlik $\frac{(x-1)^2}{(x-2)(x+2)}<0$ şəklinə gələr ki; intervallar üsulu ilə həll edərək $x\in(-2;1)\cup(1;2)$ olduğunu alarıq.
Əgər $a\ne 0$ olarsa, onda $|a|>0,\ 3^{|a|}>1$ və diskriminant $D<0$. Deməli surət bütün x-lər üçün $x^2-2x+3^{|a|}>0.$ Bu halda verilən bərabərsizliyin həlli $x\in(-2;2)$ aralığı olar.
**Cavab:** Əgər $a\ne 0\quad x\in(-2;2)$

$a = 0$ olarsa isə $x \in (-2;1) \cup (1;2)$

**Misal.** a parametrinin hansı qiymətində bütün x-lər üçün belə ki, $x \in [1;4]$ qiymətləri üçün $\frac{x+3a-5}{ax-1} > 0$ bərabərsizliyi ödənilir.

**Həlli.** Verilmiş bərabərsizlik

$$(x+3a-5)(ax-1) > 0$$

yaxud

$$ax^n + x(3a^n - 5a - 1) - 3a + 5 > 0$$

bərabərsizliyi ilə eyni güclüdür.

Əgər $a = 0$ olarsa, onda brabərsizlik bütün x-lər üçün $x < 5$ olar, yəni tələb olunan həll ödənilir.

$a \neq 0$ olarsa, bərabərsizliyin iki kökü var : $x_1 = 5 - 3a$ və $x_2 = \frac{1}{a}$.

Əgər $a > 0$ məsələnin şərti, kvadrat üçhədlinin hər iki kökündə 1-dən kiçik və 4-dən böyük qiymətlər üçün ödənilir. Bu tənliyi aşağıdakı sistem şəklində yazaq:

$$\left[\begin{array}{l} \begin{cases} 5-3a < 1 \\ \frac{1}{a} < 1 \end{cases} \\ \begin{cases} 5-3a > 4 \\ \frac{1}{a} > 4 \end{cases} \end{array}\right.$$

bu sistemi $a > 0$ şərtində həll edib $a \in \left(0;\frac{1}{4}\right) \cup \left(\frac{4}{3};+\infty\right)$ olduğunu alırıq.

$a < 0$ olarsa, parabolanın qolları aşağı düşər, həndəsi interpretasiyadan tələb olunan məsələnin həlli üçün aşağıdakı sistemləri alarıq.

$$\begin{cases} a < 0 \\ f(1) > 0 \\ f(4) > 0 \end{cases} \quad \text{yaxud} \quad \begin{cases} 3a^2 - 7a - 4 > 0 \\ 12a^2 - 7a + 1 > 0 \\ a < 0 \end{cases}$$

$a < 0$ olduğu halda sistemlərin həlli vardır. Alınan həlləri birləşdirsək $a \in \left(-\infty;\frac{1}{4}\right) \cup \left(\frac{4}{3};+\infty\right)$ alarıq.

**Misal.** a parametrinin hansı qiymətində $x + \frac{7a^2-a-2}{x-a} < -7a$ bərabərsizliyinin 1-dən böyük həlli yoxdur.

**Həlli.** Verilmiş bərabərsizliyi $\frac{x^2 6ax-a-2}{x-a} < 0$ şəklinə gətirək. Surətdəki kvadrat üçhədlinin diskriminantı (istənilən a üçün) $\frac{D}{4} = 9a^2 + a + 2 > 0$ olar. Bərabərsizliyi $\frac{(x-x_1)(x-x_2)}{x-a} < 0$ şəklində yaza bilərik.

Belə ki,

$$x_1 = -3a - \sqrt{9a^2 + a + 2}$$

$$x_2 = -3a + \sqrt{9a^2 + a + 2}$$

Sonuncu bərabərsizliyi həll edərək belə bir nəticəyə gəlmək olar ki, tələb olunan şərt daxilində bərabərsizliyin həlli yalnız o zaman ödənir ki, $x_1,\ x_2,\ a$ nöqtələrinin absis oxu üzərində yerləşməsi $\begin{cases} x_2 \le 1 \\ a \le 1 \end{cases}$ bərabərsizliklər sistemini ödəsin. Bu sistemi asanlıqla həll edib $a \in \left[\frac{1}{5}; 1\right]$ olduğunu alarıq.

**Misal 1.** a parametrinin qiymətindən asılı olaraq bərabərsizliyi həll edin:

$$x + \sqrt{6x} \ge a - 3 + \sqrt{a + 5x - 3}$$

**Həlli.** Dəyişənin mümkün qiymətlər çoxluğunu aşağıdakı sistemlə ifadə edək:

$$\begin{cases} x \ge 0 \\ x \ge \dfrac{3-a}{5} \end{cases}$$

Bərabərsizliyin hər tərəfinə 5x-i əlavə edək və bütün toplananları bərabərliyin sol tərəfinə keçirək.

$$6x - (a + 5x - 3) + \sqrt{6x} - \sqrt{a + 5x - 3} \ge 0$$

birinci iki toplananı ikihədlinin fərqi kimi vuruqlara ayıraq və ortaq vuruğu mötərizə xaricinə çıxaraq.

$$\left(\sqrt{6x} - \sqrt{a+5x-3}\right)\left(\sqrt{6x} + \sqrt{a+5x-3}\right) + \sqrt{6x} - \sqrt{a+5x-3} \ge 0$$

$$\left(\sqrt{6x} - \sqrt{a+5x-3}\right)\left(\sqrt{6x} + \sqrt{a+5x-3} + 1\right) \ge 0$$

İkinci mötərizələrin qiyməti yalnız müsbət qiymətlər alır və ona görə də aldığımız sonuncu bərabərsizlik

$$\sqrt{6x} - \sqrt{a+5x-3} \ge 0$$

bərabərsizliyi ilə eynigüclüdür. Bu bərabərsizliyin həlli bütün $x \ge a - 3$ ödənilir. Bu həllin dəyişənin bütün qiymətlər çoxluğu ilə kəsişməsinin üç halına baxaq:

I hal. Əgər $a = 3$ olarsa, onda həll bütün x-lər üçün $x \ge 0$.

II hal. Əgər $a > 3$ olarsa, onda şəkildən göründüyü kimi həll $x \ge a - 3$ intervalı olacaq.




Analoji qayda ilə $a < 3$ olduğu halda isə $x \ge \frac{a-3}{5}$ həllini taparıq. Ona görə də a parametrinin qiymətindən asılı olaraq tapılan həll

əgər $\begin{cases} a < 3 \text{ olarsa}, & x \ge \frac{a-3}{5} \\ a = 3 \text{ olarsa}, & x \ge 0 \\ a > 3 \text{ olarsa}, & x \ge a - 3 \end{cases}$ olar.

**Misal 2.** a parametrinin qiymətindən asılı olaraq $\sqrt{a+x}+\sqrt{a-x}>a$ bərabərsizliyini həll edin.

**Həll.** Məlumdur ki, $a\le 0$ olarsa bərabərsizliyinin həlli yoxdur.

Əgər $a>0$ olarsa, onda dəyişənin təyin oblastı bizə $|x|\le a$ bərabərsizliyini verir. x-in elə bir aldığı qiymətlərdə bərabərsizliyin mənfi qiymət olmayan hər tərəfini kvadrata yüksəltsək $2\sqrt{a^2-x^2}>a^2-2a$ bərabərsizliyini alarıq. Bu bərabərsizliyin həlli üçün üç hala baxaq:

Əgər $a^2-2a<0$ yəni $0<a<2$ olarsa, onda sonuncu bərabərsizlik $|x|\le a$ şərtini ödəyən bütün x-lər üçün doğrudur.

Əgər $a^2-2a=0$ olarsa, yəni a=2 olduqda onda bərabərsizlik $2\sqrt{4-x^2}>0$ şəklinə gələr ki, buradan isə $|x|<2$ alınır.

Əgər $a^2-2a>0$ yəni $a>2$ olduqda bərabərsizliyin mənfi olmayan hər iki tərəfini kvadrata yüksəltsək verilən bərabərsizliklə eynigüclü olan

$$4(a^2-x^2)>a^2-4a^3+4a^2$$

bərabərsizliyini alarıq. Buradan isə $x^2<\frac{a^3(4-a)}{4}$ alarıq.

Əgər $a\ge 4$ olarsa, bu bərabərsizliyin həlli yoxdur.

Əgər $2<a<4$ olarsa, onda $|x|<\frac{1}{2}(a\sqrt{a(4-a)}$ alarıq.

Asanlıqla görmək olar ki, alınan qiymətlər $|x|<a$ şərtini ödəyir. Beləliklə a parametrinin qiymətindən asılı olaraq bərabərsizliyin həlli $a\le 0$ və $a>4$ olduqda həlli yoxdur.

$$\begin{cases} 0<a<2 \text{ olarsa,} & -a\le x\le a \\ a=2 \quad \text{olduqda} & -2\le x\le 2 \\ 2<a<4 \quad \text{olarsa,} & -\frac{a\sqrt{a(4-a)}}{2}<x<\frac{a\sqrt{a(4-a)}}{2} \end{cases}$$

əgər

Parametr daxil olan üstlü və loqarifmik bərabərsizliklərin həlli daha çox düşündürücü və nisbətən çətinlik gətirir. Üstlü və loqarifmik funksiyaların xassələri, üstlü və loqarifmik bərabərsizliklərin bütün həlli üsulları və s. tam mənimsənilməsi ilə parametr daxil olan bərabərsizlikləri həll etmək olar. Fikrimizi aşağıdakı misal nümunələri əsasında şərh edək.

**Misal 1**. a parametrinin qiymətlərindən asılı olaraq bərabərsizliyi həll edin.

$$a^{x+2}-8a^{x-1}-\frac{4}{a}>a+2$$

**Həlli.** a parametrinin ümumi qiymətlər çoxluğu $a>0$ üstlü funksiyanın xassələrindən istifadə edərək, bərabərsizliyi aşağıdakı kimi çevirə bilərik

$$a^x\left(a^2-\frac{1}{a}\right)>a+\frac{4}{a}+2$$

,

$$a^x\frac{(a-2)(a^2+2a+4)}{a} > \frac{a^2+2a+4}{a}$$

Belə ki, $a > 0$ və a parametrinn bütün qiymətlərində $a^2+2a+4>0$ olduğundan, sonuncu bərabərsizliyin hər tərəfini $\frac{a^2+2a+4}{a}$ -ya ixtisar etsək $a^x(a-2)>1$ bərabərsizliyini alarıq.

Burada isə iki hala baxa bilərik.

1) $a>2,\quad a^x>\frac{1}{a-2}\quad a>2$ əsaslı üstlü funksiya monoton artandır, ona görə də $x>-log_a(a-2)$ alarıq.

2) Bərabərsizlikdə a=2 və a=1 olduqda həll yoxdur.

Deməli $a\le 2$ olarsa, bərabərsizliyin həlli yoxdur.

Əgər $a>2$ olarsa, bərabərsizliyin həlli $x>-log_a(a-2)$ olar.

**Misal 2.** $4^{x+1}-3\cdot 2^{x+1}\ge a^2+3a$ bərabərsizliyini a parametrinin qiymətindən asılı olaraq həll edin.

**Həlli.** $2^{x+1}=t$ əvəzləməsini aparsaq, bərabərsizlik $t^2-3t-(a^2+3a)\ge 0$ kvadrat bərabərsizliyinə çevrilər.

Kvadrat üçhədlinin kökləri $t_1=-a$ , $t_2=a+3$

Yuxarıdakı misaldan fərqli olaraq verilmiş bərabərsizliyin həlli üçün daha böyük ədədi aralıqlara baxmaq lazımdır.

Bərabərsizliyin həllini qrafik olaraq da göstərmək olar. Belə ki, burada bir neçə halı nəzərdən keçirək. Bunun üçün uyğun tənliyin köklərini $t_1=-a=0,\ t_2=a+3$ və $D=(2a+3)^2=0$ ədəd oxunda göstərək.

1) $a\ge 0,\ \ t_1\le 0<t_2$ olduqda , kvadrat




bərabərsizliyin həlli $\begin{cases}2^{x+1}<-a\\ 2^{x+1}>a+3\end{cases}$ sisteminin həlli olar.

Aydındır ki, birinci bərabərliyin həlli yoxdur, ikinci bərabərsizliyin həlli isə bütün $x>log_2(a+3)-1$ olar.

2) $-\frac{3}{2}<a<0$ olarsa, kvadrat bərabərsizliyin kökləri $0<t_1<t_2$ şərtini ödəyən və axtarılan bərabərsizliyin həlli $\begin{cases}x<log_a(-a)-1\\ x>log_a(a+3)-1\end{cases}$ olar.

3) $a=-\frac{3}{2}$ olduqda $t_1=t_2=\frac{3}{2}$ alarıq. Verilən bərabərsizliyin həlli bütün $x\in R$ olar.

4) $-3 < a < -\frac{3}{2}$ olarsa, kvadrat bərabərsizliyin həlli $0 < t_2 < t_1$ şərtini ödəyən və $\begin{cases} x < log_a(a+3) - 1 \\ x > log_a(-a) - 1 \end{cases}$ bərabərsizliyin həlli

5) $a \leq -3$ olduqda $t_2 \leq 0 < t_1$ olar və 1) -ci hala uyğun olaraq $x > log_a(-a) - 1$ həllini alarıq.

**Misal .** a parametrinin hansı mümkün qiymətlərində

$$x(x + \sqrt{4 - log_a 6}) \geq log_{\frac{1}{6}} 36a$$

bərabərsizliyi x-in istənilən həqiqi qiymətlərində ödənilir.

**Həlli.** a parametrinin mümkün qiymətləri $\begin{cases} 4 - log_a 6 \geq 0 \\ a > 0, \quad a \neq 1 \end{cases}$ sistemi ilə təyin edilir. Sistemi həll edib $a \in (0;1) \cup [\sqrt[4]{6}; +\infty)$ alarıq. Verilən bərabərsizlik x dəyişəninə görə $x^2 + \sqrt{4 - log_a 6} \cdot x + (log_6 a + 2) \geq 0$ kvadrat bərabərsizlikdir. Bərabərsizliyi $D = 4 - \frac{1}{log_6} - 4(log_6 a + 2) \leq 0$ bərabərsizliyi şəklinə gətirək və $log_6 a = t$ əvəz etsək və məlum çevirmələri aparsaq $\frac{(2t+1)^2}{t} \geq 0$ rasional bərabərsizliyini alarıq. Onun həlli $t > 0$ və $t = -\frac{1}{2}$ nöqtəsi olur. Bunları əvəzetmədə yerinə yazsaq $a > 1$ və $a = \frac{1}{\sqrt{6}}$ alarıq.

**Misal.** $log_{\frac{-2a-13}{5}} \frac{sinx - \sqrt{3}cosx - a - 4}{5} > 0$ bərabərsizliyi a parametrinin hansı qiymətlərində bütün x-lər üçün ödənilir.

**Həlli.** bərabərsizliyin həlli üçün iki hala baxaq.

1) Əgər $\frac{-2a-13}{5} > 1$ olarsa, onda $a < -9$ yəni loqarifmik funksiya artır və bərabərsizlik $\frac{sinx - \sqrt{3}cosx - a - 4}{5} > 1$ bərabərsizliyi ilə eynigüclü olar. Məlum çevirmələri aparsaq

$$\frac{1}{2}sinx - \frac{\sqrt{3}}{2}cosx > \frac{a+9}{2}$$

yaxud

$$\sin\left(x - \frac{\pi}{3}\right) > \frac{a+9}{2}$$

alarıq. Sinus funksiyasının qiymətləri oblastı $[-1;1]$ aralığı olduğundan bərabərsizlik bütün x-lər üçün ödənilir. Əgər $\frac{a+9}{2}$ ifadəsi -1-dən kiçik olarsa, onda $a < -11$

2) $0 < \frac{-2a-13}{5} < 1$ yaxud $-9 < a < -\frac{13}{2}$ olarsa, loqarifmik funksiya azalan olduğundan

$$0 < \frac{sinx-\sqrt{3}cosx-a-4}{5} < 1$$

bərabərsizliyini alarıq. Çevrilmələri aparsaq

$$\frac{a+4}{2} < \sin\left(x - \frac{\pi}{3}\right) < \frac{a+9}{2}$$

bərabərsizliyi şəklinə gətirilər. Birinci hala analoji olaraq aşağıdakı bərabərsizlik sistemini alarıq ki,

$$\begin{cases} \frac{a+4}{2} < -1 \\ \frac{a+9}{2} > 1 \end{cases}$$

onu həll edib $a \in (-7;-5)$ alarıq. Ikinci şərtin kəsişməsini nəzərə alsaq $a \in (-7;-\frac{13}{2})$ aralığını alarıq. Hər iki halın cavablarını birləşdirsək

$$a \in (-\infty;-11) \cup (-7;-\frac{13}{2})$$

Parametr daxil olan bərabərsizliklərin həlli metodikasının işlənilməsi və araşdırılmasına deməқ olar ki, indiyə qədər çox az baxılmışdır. Məqalədə parametr daxil olan bərabərsizliklərin həllinə necə yanaşma və onun həlli metodikası misal nümunələri vasitəsi ilə şərh edilmişdir.

## ƏDƏBİYYAT

1. M.C. Mərdanov və b. Cəbr: IX-siniflər üçün dərslik. Bakı, 2011.
2. M.C. Mərdanov və b. Cəbr və analizin başlanğıcı: X siniflər üçün dərslik. Bakı, 2010.
3. N.B. Nəsirov. Dərəcəsi ikidən yüksək olmayan parametrli tənlik və bərabərsizliklərin ümumi həlli // Pedaqoji universitet xəbərləri, 2011, №2

**Н. Насиров, А. Садыхов**

## РЕШЕНИЕ НЕРАВЕНСТВ С ПАРАМЕТРОМ

## РЕЗЮМЕ

Методика решения неравенства с параметром до настоящего времени не расмотрена полностью. В статье комментируется методика решения неравенств с параметром и образцы примеров. Статья имеет большое значение для студентов и преподавателей.

**N. Nasirov, A. Sadikhov**

## SOLVING OF INEQUALITIES WITH PARAMETER

## SUMMARY

The article demonstrates the opportunities for the application of some important concepts of parametric inequality. The scientific work has importance from the point of view generalizing parametrical inequality.

*Redaksiyaya daxil olub: 16.04.2014*

# BOKSÇULARIN YARIŞ FƏALİYYƏTİNİN MODELLƏŞDİRİLMƏSİNDƏ HİPNOZ VƏ MUSİQİNİN TƏTBİQİ

**Eltac Əliyev**,
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Ряйчи:** *проф. Е.А. Щцсейнов*

***Açar sözlər***: *boks, yarış, fəaliyyət, psixologiya, keyfiyyət, hazırlıq, şəxsiyyət, formalaşma, inkişaf, metod, model.*

***Ключевые слова***: *бокс, соревнования, деятельность, психологический, качества, личность, формирование, развитие, методы, способы, модель.*

***Keywords***: *box, competitions, activity, psychological, quality, personality, shaping, development, methods, ways, model.*

Yaşadığımız cəmiyyətin surətlə inkişafı hər bir idman növü ilə yanaşı boks idmanının texnikasında, taktikasında, ümumi və xüsusi fiziki hazırlığına, o cümlədən boksçu psixologiyasının ciddi inkişafına zəmin yaradır. Bu günə qədər görülən işlər boksun surətlə inkişafına gətirib çıxarıb. Lakin boksçu psixologiyasında hələ də çatışmazlıqlar var. Boksda hipnoz, musiqi yarış fəaliyyətinin modelləşdirilməsindən son dərəcə az istifadə olunur.

Bildiyimiz kimi, hipnoz yunan sözü olub “süni yuxu” mənasını verir  Qədim zamanlar hipnozdan əsasən müəyyən xəstəliklərin müalicəsində istifadə edilirdi. 1734-1815-ci illərdə yaşamış məşhur hipnozçu A.F. Mesmer hipnozun maqinetizim hadisəsi olduğuna dair fikir söyləmişdir. Onun dediyinə görə, əli ilə toxunduğu suyu içən xəstə özündə şəfa tapırmış. Hətta sonralar Mesmerin adını çəkən və ya onun istifadə etdiyi əşyalara toxunan insanlar da şəfa tapmışlar. Bu qeyri-adi hisslərə Mesmer özü də məəttəl qalmışdır. Lakin bu sidqin hədsiz inam olduğunu açıb deyə bilmirdi, çünki insanlar onu yalançı hesab edə bilərdilər və ciddi cəzaya məruz qalardı. Biz tarixə nəzər saldıqda, təbii hadisələri izlədikdə və dahilərin əsərlərini oxuduqda, doğrudan da, insan nəyəsə ciddi şəkildə inandıqda onun istəyini surətləndirən hansısa təbii qüvvənin mövcudluğunun şahidi olarıq. Bu daha çox hər birimizin yaxşı tanıdığı “konfu”dur. Həmin hal insanın özünə hədsiz inamının tərənnümüdür. Bu, yarış zamanı yüksək hipnoz bacarığı olan mütəxəssis idmançını həm məğlubiyyətinə həm də qalib gəlməsinə səbəb ola bilər [2, сящ. 24-26].

Hipnozdan sonrakı təlqin edilmiş formalardan çoxu idmançıya hipnozdan ayılandan sonra da öz təsirini göstərə bilər. Bu hipnoz vaxtı təlqin edilmiş proqramın hipnozdan sonra reallaşma effektidir. Belə bir təlqinetmə əsasən yüksək dərəcəli boksçularla işləyəndə geniş istifadə edilir. Bu cur təlqin konkret psixi proqrama yönəlir. Konkret psixi proqramlaşdırma isə yarışın müəyyən məqamına yönəldilir ki, boksçuya yarışın əsas məqamında təsir etsin. Bu təsir boksçunun sərbəst hərəkətlərini idarə etmək üçün bacarığını və diqqətini artırmış olur [3, 48-51]. Məsələn məşq zamanı gərgin yük qəbul edən boksçuya “yarış vaxtı siz özünüzü çox sərbəst və arxayın hiss edəcəksiniz “ demək fayda verər. Sizin bütün fikriniz və diqqətiniz özünüzü yaxşı hiss etməyə, yüksək bacarıqla boks texnikasını icra etməyə, oyundaşla hərəkətləri inamla yerinə yetirməyə, fikriniz öz hərəkətlərinizi düzgün icra etməyə cəmləşəcəkdir. Yarışın nəticəsi, tamaşaçıların iştirakı sizə heç bir maneçilik törətməyəcək. Siz rinqdə öz mübarizənizdən zövq alacaqsınız, sanki rəqibinizi ələ salırsınız, o, nəzərinizdə son dərəcə zəif və ümidsiz görünəcəkdir. Yadda saxlamaq lazımdır ki, hipnozdan sonrakı təlqin hər konkret yarışda dəyişir. Burada boksçunun fərdi xüsusiyyətləri mütləq nəzərə alınır. Beləliklə, hipnozdan sonrakı təlqində boksçunun texniki bacarığını təkmilləşdirmək üçün istifadə etmək mümkündür.

İkinci əsas amil ondan ibarətdir ki, hipnoz seansından sonrakı təlqin arasında müəyyən bir vaxt keçir. Bu aradakı vaxt uzunmüddətli olsa, idmançının hipnoz təsiri altında saxlamağın çətinlikləri yaranır. Çətinliklərdən biri ondan ibarətdir ki, yarışın dövrü uzandıqca hipnotok təsir azalır və hipnozdan sonrakı təlqin öz təsirini göstərə bilmir. Hipnotik və hipnozdan sonrakı təlqin boksçuda öz gücünə inamı artırmaqla bərabər, onun qorxu hissini və nigarançılığını da azaldır. Bundan əlavə, hipnozçu çətin anlarda idmançının diqqətini aydınlaşdırmaq və hipnozlaşdırmaqla ona kömək edə, ağrı hissiyatını azalda bilər.

Təlimat: "Indi biz topu bir-birimizə atacağıq. Bu zaman biz hər hansı bir rəngi, topu tutduqda isə bu rəngdə olan obyekti deyəcəyik. Diqqətli olun: söynəlilən rəng və obyektləri təkrarlamayaq və hər hansı bir iştirakçıya oyunda iştirak etmək imkanı verək".

Tapşırıq 3. Qrup şagirdləri dairəvi oturublar. Müəllimin əlində top var.

Təlimat: "Indi biz topu bir-birimizə atacağıq. Topu atan üç sözdən birini deyir: "Hava", "yer" və ya "su". Əgər "hava" sözü deyilirsə topu tutan şəxs quş adı, ikinci halda ("yer") heyvan, "su" dedikdə isə balıq adı deyir. Cavabı mümkün qədər tez vermək lazımdır." (2,110)

Şagird təfəkkürünə təsir etmək üçün folklor nümunələrindən də istifadə etmək olar. Belə nümunələr isə kifayət qədər çoxdur. Uşağı çaşdırıb gülünc vəziyyətinə qoyan bəzi folklor nümunələrindən istifadə etmək olar. Bir dəfə gülünc vəziyyətinə düşən uşaq diqqətcil olur ki, ikinci dəfə belə vəziyyətə düşməsin.

- Gəl gedək bağa
- Mən də, mən də
- Görək qurbağa
- Mən də, mən də
- İt bizə hürsün
- Mən də, mən də

Sonuncu misrada uşaq özünü itə bənzədir. Əlbəttə, tələsdiyi üçün belə edir. Bu nümunə uşağın daha diqqətcil olmasını tələb edir.

Uşaqları ruhlandıraraq daha çox dialoqa cəlb etmək faydalıdır. Mənalı dialoq sonda uşağın ağıllı suallar verməsinə səbəb olacaqdır. Müasir metodika belə düşünür.

Müasir psixologiya isə bu suala daha elmi cavab tapmağa çalışır. Amerika psixoloqu Kinq 25 sual müəyyənləşdirmişdir. Həmin suallar intellektə ünvanlanır. Şagird həmin suallarla təfəkkürünü məşq etdirir. Psixoloqun fikrincə bu suallardan istənilən situasiyalarda istifadə etmək olar. Həmin sualları təqdim edirik.

Təfəkkürün gedişini istiqamətləndirən suallar

| Ümumi suallar | İstifadə olunan təfəkkür vərdişləri |
|---|---|
| ...misal göstərin | Tətbiqetmə |
| ...üçün...necə istifadə etmək olar | Tətbiqetmə |
| Əgər... nə baş verər? | Ehtimal (fərziyyənin irəli sürülməsi) |
| ...dedikdə nə nəzərdə tutulur? | Analiz/nəticə |
| ...güclü və zəif cəhətləri nədən ibarətdir? | Analiz/nəticə |
| ...nəyə oxşayır? | Identifikasiya, analogiya və metaforanın yaradılması |
| ...haqqında biz artıq nə bilirik? | Əvvəllər mənimsənilmiş biliklərin aktivləşdiril-məsi |
| ... ... əvvəllər öyrəndiyimizlə necə əlaqədardır? | Əvvəllər mənimsənilmiş biliklərin aktivləşdiril-məsi |
| Izah edin, nə üçün?... | Analiz |
| Izah edin... necə? | Analiz |
| ...mənası nədən ibarətdir? | Analiz |
| Nə üçün... əhəmiyyətlidir? | Əhəmiyyətin analizi |
| ... ilə ... arasındakı fərq nədən ibarətdir? | Müqayisə-qarşılaşdırma |
| ... və ... bir-birinə nə ilə oxşayır? | Müqayisə-qarşılaşdırma |
| ...gündəlik həyatda necə tərbiq etmək olar? | Real aləmdə tətbiq |

| | |
|---|---|
| ...əksinə hansı arqumenti göstərmək olar? | əks arqumentasiya |
| ... hansı yaxşıdır və ya nə üçün? | Qiymətləndirmə və onun əsaslandırılması |
| Məsələnin həllinin mümkün yolları hansılardır? | İdeyaların sintezi |
| ...əsasında... və ...müqayisə edin | Müqayisə-qarşılaşdırma |
| Sizin fikrinizcə, səbəb hansıdır və nə üçün? | Səbəb-nəticə əlaqələrinin analizi |
| ...siz bu hökmlə razısınız? | Qiymətləndirmə və onun əsaslandırılması |
| Siz öz cavablarınızı nə ilə əsaslandıra bilərsiniz? | Qiymətləndirmə və onun əsaslandırılması |
| Sizin fikrinizcə, ... məsələsinə necə baxa bilər? | Başqalarının nöqteyi-nəzərinin araşdırıması |

(1, 128-129)

"Ana dili" dərslərində müəllim "Uşaq nəyi bilir?"sualına cavab axtarmaqdansa "Uşaq biliklərə yiyələnərkən başını necə işlədir? Məntiqi varmı? Təfəkkürünü inkişaf etdirmək üçün ona hansı qayğını göstərmək lazımdır?" tipli suallarının ətrafında düşünməlidir.

Alimlər qeyd edirlər ki, Albert Eynşteyn məktəbdə çoxundan pis oxuyurmuş. Bəzən fizika və riyaziyyatdan 2 alırmış. Amma XX əsrin ən böyük alimi oldu. Belə çıxır ki, gələcək alimin təfəkkür qabiliyyəti o zaman müəllimlərin diqqətindən yayınıb. Onlar şagirdlərini mövcud məlumatları nə qədər bilməsi ilə qiymətləndiriblər.

Hər bir uşaq istedaddır. Lakin onların hərəsində bir cəhət daha üstündür. Müəllim və ibtidai məktəblər üçün dərslik yazan alimlər insan intellektinin bütün cəhətlərini hərəkətə gətirməyi bacaran tapşırıqlar hazırlamalıdır.

**Problemin elmi yeniliyi**. Məqalədə irəli sürülən fikirlər pedaqogika və psixologiya elmlərinin nailiyyətlərinə əsasən "ana dili" fənninin tədrisi prosesində şagird intellektinin inkişaf etdirilməsinin zəruriliyindən bəhs olunur. Müxtəlif elmi mənbələrdə şagird intellektinin inkişaf etdirilməsinin zərüriliyindən ara-sıra bəhs olunsa da, o, ayrıca bir problem kimi tədqiqat obyektinə çevrilməmişdir. Müəllif həmin problemin zəruriliyini sübuta yetirmək ücün konkret misallar gətirmiş, fikirlərini əsaslsndırmışdır.

**Problemin tətbiqi imkanları**. Məqalədə irəli sürülən mülahizələr "Ana dili" müəllimləri üçün praktik əhəmiyyətə malikdir. Verilən nümunələri müəllimlər daha da genişləndirərək tətbiq etsələr dəsləri daha məzmunlu ola bilər. Nəticədə onların dərs dediyi şagirdlər dilçilik terminlərini əzbərləməyə deyil, onların mahiyyətini dərk edər, qazandığı bilikləri tətbiq etmək bacarığına yiyələnər.

## ƏDƏBİYYAT

1. Əlizadə Ə., Əlizadə H. Pedaqoji psixologiya. II kitab. Bakı, 2010.
2. Veysova Z. Fəal interaktiv təlim. Bakı, 2007.

**Ш. Набиева**

## НЕОБХОДИМОСТЬ РАЗВИТИЯ ИНТЕЛЛЕКТА В УЧЕБНОМ ПРОЦЕССЕ

### РЕЗЮМЕ

В статье рассказывается о необходимости развития интеллекта ученика в учебном процессе родного языка по достижениям педагогики и психологии. Несмотря на то, что в разных научных источниках иногда повествуется о необходимости развития интеллекта ученика, но он, как проблема, не превратился в отдельный объект исследования. Чтобы доказать необходимость изучения данной проблемы, автор привел конкретные примеры, обосновал свои мысли. Выдвигаемые рассуждения в статье имеют практическое значение для учителей «Родного языка». Уроки были бы более содержательными, если бы учителя применяли в своих уроках данные образцы. В результате их

ученики не вызубрили бы лингвистические термины, а поняли бы их суть, обладали бы умениями применения присвоенных знаний.

**Sh. Nabieva**

## IN THE PROCESS OF TEACHING STUDENTS THE IMPORTANCE OF DEVELOPING INTELLECTUAL

### SUMMARY

The importance of the pupils's intellect development during the Mothertongue education process on the basis of pedacogical and physicological achievements are talked about in the article. Although the importance of the pupil's intelect development is researched in some scientific resources it is not researched individually.For provement its importance the author gave some examples. The thoughts are very important for the Mothertongue teachers. If they enlarge these thoughts they can make their lessons more efficient.In the result,their pupil will learn linguistic terms and how to use them,instead of learning them bu heart.

*Redaksiyaya daxil olub: 02.04.2014*

# ПСИХОФИЗИКИ ИНКИШАФЫН ПОЗУЛМАЛАРЫНЫН ДИАГНОСТИКАСЫ SƏMƏRƏLİ ТЯЛИМ-ТЯРБИЙЯНИН ЯСАС ШЯРТИ КИМИ

**Елмира Кяримова,**
*АРТПИ-нин Инклцзив тящсил шюбясинин*
*бюйцк елми ишчиsи*
Е-маил: ema@маил.ру

**Ряйчиляр:** *дос.* **Т.С. Пашайев,**
*пед.ф.д.* **Д.Я. Достузадя**

***Ачар сюзляр:*** *хцсуси гайьыйа ещтийажы олан ушаглар, атипик инкишаф, инклцзив тящсил, инкишаф позулмаларынын еркян диагностикасы вя коррексийасы*

***Ключевые слова:*** *дети с особыми потребностями, атипичное развитие, инклюзивное образование, ранняя диагностика и коррекция нарушений развития*

***Key words:*** *children with special needs, atypical development, inclusive education, early detection and correction of development*

Мцасир дюврдя хцсуси гайьыйа ещтийажы олан ушаглара еркян комплекс кюмяйин эюстярилмяси хцсуси педагоьика вя психолоэийанын актуал истигамятляриндян вя инклцзив тящсилин башланьыж тяркиб щиссяляриндян биридир. Еркян комплекс кюмяк səmərəli тяшкил едилярся, онда ялиллийин, щяйат вя ямяк фяалиййятинин мящдудлашмасынын мцяййян дяряжядя гаршысынын алынмасы мцмкцн олар, чцнки ушагын щяртяряфли инкишаф етмяси онун алынмаз щцгугу олмагла йанашы, щям дя тящсилин ян важиб мясяляляриндян биридир.

Ушагларда психи инкишафын позулмаларынын еркян диагностикасы вя коррексийасы аьыр ялиллийин вя сосиал дезаптасийанын гаршысынын алынмасынын вя онларын еффектив тялим-тярбийясинин ясас шяртляриндян биридир.

Ушаьын нормал психи инкишафы цчцн аилянин вя ятрафдакыларла мцсбят емосионал цнсиййятин йарадылмасынын ролу явязсиздир. Лакин психи инкишафда позулмалары олан ушаглар цчцн бу аздыр – онларын еркян йашларындан беля позулмуш функсийаларын коррексийасыны тямин едян шяраитя ещтийажы вар. Мцасир тиббя вя педагоэикайа ясасланараг гейд етмялийик ки, еркян коррексион тялим тядбирляри чох еффектив олур, чцнки мящз юмрцн илк илляриндя ушаьын бейни интенсив инкишаф едир. Бундан башга мялумдур ки, инкишафын еркян мярщяляляриндя ушаглар щяряки, нитги вя давраныш стереотиплярини мянимсяйир. Яэяр психи инкишафда позулмалары олан ушагларда онлар яввялжядян гейри дцзэцн формалашыб мющкямлянибся, онда онлары коррексийа етмяк чох чятин олур.

Психи инкишафда позулмалары олан ушагларын тярбийясинин юзцнямяхсуслуьу илк нювбядя онун коррексион истигамятли олмасы, диэяр тяряфдян ися коррексион тядбирлярин практик вярдиш вя бажарыгларын формалашдырылмасы иля сых ялагяли олмасыдыр.

Беля ушагларын тярбийясинин конкрет хцсусиййятляри атипик инкишафын нювцндян, мцхтялиф функсийаларын позулмасынын дяряжясиндян вя характериндян, вя, нящайят ушаьын йаш вя компенсатор имканларындан асылыдыр.

Психи инкишафда позулмалары олан ушагларын дцзэцн тярбийя, тялим вя психи функсийаларын коррексийасындан башга хцсуси мцалижяйя дя ещтийажлары вар. Мящз бунлар щамысы бир йердя психофизики инкишафын позулмаларынын еркян диагностикасынын важиб шяртляриндян биридир.

Инкишаф позулмаларынын еркян диагностикасы вя коррексийасы мясяляси дя чох актуал вя аз ишлянмиш проблемлярдян биридир. Эюркямли алим вя психолог,

дефектолоэийа елминин тямялчиляриндян олан Л.С. Выготски атипик инкишафлы ушагларда икинжили позулмаларын ямяля эялмяси вя коррексийасы йолларыны арашдырыб эюстярмишди. Л.С. Выготскинин фикирляриня ясасян демялийик ки, али психи функсийаларын тяшяккцлцнцн сензитив дюврляри вар вя мящз бу дюврлярдя коррексион тядбирлярин тясири вя нятижяси гянаятбяхш олур. Коррексион тядбирлярин ися дцзэцн сечилмясинин ясасында дцзэцн апарылмыш диагностика дурур.

Гейд етмялийик ки, аномал инкишафын диагностикасынын елми ясасларынын тяртибатчысы да мящз Л.С.Выготски олмушду. XX ясрин яввялляриндя Г.Й.Трошин «Нормал вя аномал ушагларын мцгайисяли психолоэийа»сы ясяриндя типик вя атипик инкишафын цмуми ганунауйьунлуглары барясиндя демишдир ки, щяр ики щалда психиканын формалашмасы мцтярягги характер дашыйыр, щяр инкишаф мярщяляси ися эяляжяк инкишаф мярщяляси цчцн зямин олан йенитюрямяляр йарадыр. Л.С.Выготски Трошинля разылашараг хцсуси гейд едир ки, али психи функсийаларын формалашмасынын ясас мянбяйи сосиал вя педагоъи тясирдир. Л.С.Выготски ушаг шяхсиййятини инкишафда мцшащидя едяряк динамик йанашманын вя ушагын интеллектуал вя емосионал – иради инкишафынын гаршылыглы шякилдя юйрянилмясинин тяряфдары олур. Выготски щямчинин гейд едир ки, психи просеслярин кейфиййяти хцсусиййятляри, шяхсиййятин инкишаф перспективляринин юйрянилмяси дя чох важибдир. Выготскинин бу фикирляри ушагларын хцсуси педолоъи мцайиня схеминин тяртибатында ясас йер тутмушду.

Атипик инкишаф заманы интеллектуал, нитги, щяряки вя йа сенсор чатышмазлыьын диагностикасы иля йанашы клиник вя психолоъи диагнозун тяшхис едилмяси дя чох важибдир. Чцнки онлар инкишаф позулмасынын сябябини вя механизмини якс етдирир, мяктяб вя сосиал прогнозу мцяййян едир вя бцтцн сащялярдя (тибб, коррексийа, психолоэийа вя с.) коррексион ишин метод вя йолларыны дцзэцн сечмяйя имкан верир. Буна эюря дя Тибби – психолоъи – педагоъи комиссийаларын вя мяктябягядяр тящсил мцяссялярин ишчиляри атипик инкишафын мцхтялиф формаларынын диагностикасы мясяляляриндя сяриштяли олмалы, онларын мцасир тибби мцалижяси вя психолоъи – педагоъи коррексийасы методлары щаггында тясяввцрляри олмалыдыр.

Беляликля, атипик инкишафын диагностикасы XX ясрин яввялляриндя инкишаф етмяйя башлайыб вя В.П. Кашшенко, А.Ф. Лазурски, Г.И. Россолимо вя б. ады иля баьлыдыр.

Л.С. Выготски цмумиййятжя диагностикада тест методларыны тянгид едяряк гейд едирди ки, инсан шяхсиййятинин мцряккяб фяалиййятини айры айры садя функсийалара бюлмяк вя щярясини кямиййятжя гиймятляндирмяк дцзэцн дейил. Бу ушаьы негатив характеризя едир вя инкишафын кейфиййяти хцсусиййятлярини цзя чыхармага имкан вермир.

Гейд едяк ки, анжаг XX ясрин 70-жи илляриндя мяктяб мцтяхяссисляри интеллектин гиймятляндирилмясиндя тестлярдян имтина етмяйя башладылар. Тестлярин ян фундаментал гцсуру кими габилиййятлярин мцяййян едяркян ушаьын тякжя о вахта олан инкишаф сявиййясини нязяря алмасы вя механики олараг мцсбят вя мянфи жящятлярин нязяря алынмасы вя нятижядя интеллектуал фяалиййятин диагностикасында чятинликлярин вя сящвлярин баш вермяси эюстярилир.

В.И. Лубовски стандартлашдырылмыш тестлярин истифадяси проблемини вя цмумиййятля тестометрик йанашманы тящлил едяряк бир сыра важиб мцддяалары нязяря алмаьы тювсийя едир.

Биринжиси, бу интеллектуал тест йохламалары заманы алынан нятижяляр анаданэялмя вя дяйишмяйян хцсусиййятлярин гиймятляндирилмяси дейил; онлар анжаг ягли инкишафын, йяни ушаьын щяйат бойу ялдя етдийи билик, бажарыг вя вярдишлярин сявиййясини якс етдирир.

Икинжиси, ягли инкишаф сявиййясинин гиймятляндирилмяси анжаг тяфяккцр фяалиййятинин айры – айры формалары чярчивясиндя апарылмалыдыр.

Тест васитясиля инкишаф позулмаларынын психодиагностикасы проблемляриндян бириdя ващид стандартлашдырылмыш тестляр системинин истифадясидир. В.И.Лубовски гейд едир ки, мцхтялиф типли инкишаф позулмалары олан ушагларын ейни тестлярля мцайиняси дцзэцн дейил. Бир проблем дя мцайинянин нятижясинин гиймятляндиряряк интеллектуал инкишафын эюстярижиляринин жямини эюстярмякдир – беля йанашмада психи чатышмазлыьын сябябини дягигляшдирмяк гейри мцикцндцр. В.И.Лубовски тапшырыгларын нятижялярини жямляшдирмяк дейил, Россолимо системиндя олдуьу кими мцгайися етмяйи тювсиййя едир. Бурада гейд едяк ки, ушаг психоневролоэийасынын баниси щесаб олуннан Г.И.Россолимо (1860 – 1928) актуаллыьыны инди дя итирмяйян бир сыра ясярляр йазмыш вя ешитмясиндя вя эюрмясиндя проблеми олан ушагларын тялим – тярбийяси мясялялярини тядгиг етмиш вя тяжрцбядя щяйата кечирмишди, нитг гцсурларынын тибби – психолоъи – педагоъи юйрянилмясини вя нитги гцсурлу ушагларын тящсилинин тяшкил етмишдир. Илк дяфя олараг щякимлярин вя мцяллимлярин иштиракы иля конфранслар кечирмиш вя бунунла тибби-психолоъи-педагоъи комиссийаларын тямялини гоймушдур.

Цмумиййятля гейд едяк ки, сон илляр психодиагностик методикаларын тяртибаты вя тестометрик материалларын щазырланмасы бу проблемлярин щяллиня чалышса да, тамамиля онлары арадан галдыра билмяйиб. Хцсусян дя диференсиал системин мювжудлуьу вя хцсуси тящсилин йени формаларынын тятбиги доврцндя бу проблемляр даща да кяскинляшмишдир.

Ушагларда психи инкишафын психодиагностикасы тибби-психолоъи-педагоъи вя сосиал мцайинянин тяркиб щиссяси олараг хцсуси психолоэийа вя дефектолоэийа сащясиндя апарыжы алимлярин (В.И. Лубовски, Т.В. Розанова, С.Й. Рубинштейн, С.Д. Забрамнайа, О.Н. Усанова вя б.) ишлядийи принсипляря ясасланыр.

Саьламлыьында проблемляри олан ушагын психодиагностик мцайиняси системли олмалыдыр, йяни психи инкишафын бцтцн сащялярини (дяркетмя фяалиййяти, нитг, емосионал – ироди сащя, шяхсиййятин инкишафы) ящатя етмялидир. Психодиагностик мцайиня ушагын йашыны вя психи инкишафынын сявиййясини нязяря алмалыдыр. Мящз бу эюстярижиляр диагностиканын тяшкили формаларынын вя методикаларын сечиминдя вя нятижялярин интерпретасийасында мцщцм рол ойнайырлар.

Ушага тягдим едилян диагностик тапшырыглар онун потенсиалына уйьун олмалы, нятижялярин тящлилизаманы ися гейд олунмалыдыр ки, ушаг щансы йаш групуна уйьн олан тапшырыглары йериня йетиря билиб.

Л.С.Выготскинин гейд етдийи кими, мцайиня заманы ушагын актуал имканлары иля йанашы онун «эяляжяк инкишаф зона»сы олан потенсиал имканларыны да мцяййян етмяк чох важибдир. Щяр йаш мярщяляси цчцн диагностик материалын сечиминя жидди вя елми йанашылмалыдыр, йяни еля тапшырыглар тягдим олунмалыдыр ки, онларын васитясиля психи инкишафын щансы сащяляринин вя ня дяряжядя позулмасыны мцяййян етмяк олсун.

Нятижялярин тящлили вя интерпретасийасында нязяря алынан кямиййяти – кейфиййяти гиймятляндирмя эюстярижиляри бцтцн мцайиня едилян ушаглар цчцн ейни мяналы олмалыдыр.

Психодиагностик мцайиня щямишя мцхтялиф мясялялярин щялли йолларны эюстярян щансыса бир мягсядя табедир. Психи инкишафда проблемляри олан ушагын мцайинясинин ясас мягсяди коррексион кюмяйин оптимал йолларынын мцяййян етмяси цчцн психи фяалиййятин структурунда олан позулмалары мцяййян етмякдир. Бу мясяля конкрет олараг ушаьын йашы, онун инкишафында олан позулма иля вя диагностиканын мярщяляси (скрининг, диференсиал диагностика, фярди коррексион програмларын щазырланмасы

мягсядиля ушагын щяртяряфли психолоъи диагностикасы, коррексион тядбирлярин гиймятляндирилмяси) иля мцяййян олунур.

Позулмуш инкишафын психодиагностикасы атипик ушаьын хцсуси тящсил ещтийажларыны вя мцмкцн тящсил сявиййясини мцяййян етмяли, коррексион – инкишафедижи тялимин ясас истигамятлярини эюстярмялидир. Башга сюзля десяк, психолоъи – педагоъи диагностика диференсиал вя прогностик характерли олмалыдыр.

Бундан башга, В.И.Лубовски гейд етдийи кими, диагностика просесиндя щям дя ушагын тялими цчцн ян оптимал тяшкилаты формалар мцяййян едилмяли вя фярди тялимя аид тювсиййяляр верилмялидир.

Мцасир дюврдя позулмуш инкишафын диагностикасы Л.С.Выготски, В.И.Лубовски, Й.А.Стребелева вя б. ясярляриндя юз яксини тапмыш принсипляря ясасланыр. Бу принсипляри нязярдян кечиряк.

Ушагын психикасынын *комплекс юйрянилмяси* бу вя йа диэяр позулманын дахили сябяблярининин вя дярин механизмляринин мцхтялиф сащялярин мцтяхяссисляри (щякимляр, дефектологлар, логопед, психологлар, сосиал педагоглар вя с.) тяряфиндян юйрянилмясини вя тибби – педагоъи сянядлярин тящлилини, мцшащидяляри, сосиал – педагоъи, нейрофизиолоъи вя с. мцайиняляри нязярдя тутур.

*Системли йанашма* психиканын системли гурулушлу структур олмасына ясасланараг щяр мярщялядя психи фяалиййятин нятижяляринин тящлилини нязярдя тутур. Системли тящлил айры айры позулмалары мцяййян едир, онларын арасында олан гаршылыглы ялагяляри цзя чыхарыр. Негатив щалларла йанашы ейни заманда коррексион тядбирлярин сечими цчцн саламат функсийалары, шяхсиййятин мцсбят тяряфлярини дя мцяййян етмяк чох важибдир

*Динамик йанашма* ушагда инкишаф заманы баш верян дяйишиклярин излянмясини вя йаш хцсусиййятлярин нязяря алынмасыны нязярдя тутур. Бунлар мцайинянин тяшкили вя нятижялярин тящлилиндя ушаьын актуал вязиййятинин, йаш йенитюрямяляринин вя онларын щяйата кечмясиндя чох важибдир. Щямчинин дя диагностик тялим заманы тапшырыгларын йериня йетирилмясиндя йаш факторунун нязяря алынмасы чох важибдир.

*Ушаьын потенсиал имканларынын мцяййян едилмяси вя нязяря алынмасы.* Бу принсип Л.С.Выготскинин актуал вя эяляжяк инкишаф зоналары щагда нязяри мцддяаларына ясасланыр. Ушаьын эяляжяк инкишаф зонасы кими якс олунан потенсиал имканлары йени билик вя бажарыгларын мянимсянилмя имканларыны вя темпини мцяййян едир. Бу имканлары ися бюйцклярля ямякдашлыг просесиндя вя йени ямялиййат цсулларынын мянимсянилмяси заманы цзя чыхармаг мцмкцндцр. Психодиагностиканын нятижяляринин тящлилиня ашаьыдакы параметрляр дахилдир:

- мцайиня вя тапшырыглара мцнасибят;
- тапшырыгларын йериня йетирилмяси йоллары;
- ушаьын щяркятляринин тапшырыьын шяртляриня вя эюстяришляря уйьунлуьу;
- бюйцклярин кюмяйиндян сямяряли истифадя етмя;
- аналоъи тапшырыгларын йериня йетирмяк бажарыьы;
- фяалиййятин нятижяляриня вя гиймятляндирилмясиня ушаьын юз тянгиди мцнасибяти.

Кейфиййяти тящлил психодиагностиканын кямиййятжя гиймятляндирилмясини инкар етмир.

Гейд едяк ки, артыг инкаредилмяз бир фактдыр ки, инкишафда олан позулмаларын еркян диагностикасы ушагын коррексион тялимя жялб олунмасыны вя бунунла тибби - психолоъи, педагоъи вя сосиал характерли икинжили позулмаларын гаршысыны алмаьа вя йа онлары стабилляшдирмяйя имкан йарадыр.

Психофизики инкишафда позулмалары олан ушаглара эюстярилян диагностик вя коррексион кюмяк вящдят тяшкил етмялидирляр. Коррексион – педагоъи ишин мясяляляри

йалныз психолоъи – педагоъи диагностиканын ясасында, психи инкишафын прогнозлашдырылмасы вя потенсиал имканларын гиймятляндирилмяси ясасында щялл олуна биляр.

Сон иллярдя хцсуси тящсил сащясиндя бир дяня дя олсун дювлят хцсуси мяктяб вя йа йа мяктябягядяр мцяссисяси ачылмайыб, амма юзял реабилитасийа мяркязляринин сайы эцнц эцндян артмагдадыр. Мялумдур ки, беля мяркязляр тящсил мясяляляри щялл етмядийиндян мцяллим кадрлары тяляб етмир вя она эюря дя ужуз баша эялир. Бу просеслярин щамысы цмумиликдя хцсуси тящсилин модернляшдирилмясиня, онун сивилл юлкялярдя гябул едилмиш сявиййяйя чатдырылмасына вя ян ясасы, саьламлыг имканлары мящдуд шяхслярин там щцгуглу олмасына, кейфиййятли тящсил алмасына, сосиал рифащлардан там шякилдя истифадя етмясиня, эяляжякдя онларда ялиллийин гаршысынын алынмасына вя нящайят бцтюв шяхсиййят кими формалашмасына йюнялиб. Амма йаддан чыхармаг лазым дейил ки, бунларын щамысына наил олмаг цчцн, йяни саьламлыг имканлары мящдуд шяхсляря дцзэцн тящсил нювцнцн сечилмясинин, эцзэцн коррексийа тядбирляринин вя програмларын тяйин едилмясинин, реабилитасийа просесинин ясас шярти кими еркян йаш дюврцндя дцзэцн диагностиканын апарылмасы дурур.

Мцасир дюврдя саьламлыг имканлары мящдуд шяхслярин тящсилинин ясас хцсусиййяти интегратив тящсил формасына истигамятляндирилмясидир. Апарылан сийасят хцсуси тящсил системиндя мювжуд бейнялхалг принсипляря уйьун олараг, республика ганунверижилийиндя дя юз яксини тапыб. Гейд едяк ки, инклцзив тящсил тамамиля йени тящсил формасы кими бир гядяр наращатчылыга сябяб олуб. Беля ки, инклцзив тящсиля кечид инклцзив мяктябдя алтернатив вариантлары йаратмадан хцсуси тящсил системини тамамиля ляьв олунма тящлцкяси гаршысында гойа биляр. Бундан башга, тящсилин модернляшдирилмяси просесиндя классик хцсуси тящсилин йери мцяййянляшмяйиб. Инклцзив тящсил диференсиал тялими инкар етмямялидир, яксиня, ону тамамлайыб вя зянэинляшдирмялидир. Тящсилин бу ики формасы щяряси юз мясялялярини щялл етмякля йанашы, цмумиликдя хцсуси гайьыйа ещтийажы олан шяхслярин сосиализасийасына кюмяк етмялидир.

Ейни заманда щесаб едилир ки, щяр ушаь, инкишаф сявиййясиндян асылы олмайараг, истянилян тящсил мцяссясиндя хцсусиляшдирилмиш дястяк тягдим едилмя шяртиля тящсил алмаг щцгугуну щяйата кечиря биляр вя алтернатив тящсил формаларындан да (ев тящсили, дистант тящсил) истифадя едя биляр.

Бизим республикада классик хцсуси тящсилин мцхтялиф категорийалы саьламлыг имканлары мящдуд ушагларын тялим – тярбийяси, мцалижяси, фярди методикалары вя тялим методлары вя с. сащялярдя бюйцк тяжрцбяси вар. Бундан башга, беля ушагларла ишляйян мцяллим- дефектологлар, психологлар вя с. тяжрцбяли мцтяхяссислярин яксяриййяти мящз хцсуси мяктяблярдя фяалиййят эюстярир. Хцсуси тящсил мцяссяляриндя саьламлыг имканлары мящдуд ушаглар ващид дювлят стандартларына уйьун тящсил алырлар. Амма гейд етмялийик ки, сегрегасийа сийасяти, йяни беля ушагларын типик ушаглардан тяжрид олунмасы, юзляри кимилярля даима цнсиййятдя олмалары вя с. демократик дювлятин шяхсиййятин инкишафына, щяйатын дяйишян темпиня, сярт реаллыглар шяраитиня, саьлам рягабят кейфийятляринин формалашмасына вя с. иряли сцрцлян тялябляря зиддир. Бу заман тялим – тярбийя просеси тящсилин мязмунунда дейил, ушагларын функсионал инкишафы цзяриндя жямляшир, валидейнлярин вя ушагларын истякляри нязяря алынмыр. Бу ися ушагларын ятраф алямля ялагялярини мящдудлашдырыр, тящсилин кейфиййятини ашаьы салыр, жямиййятин мяняви тясирини азалдыр, толерантлыг вя гаршылыглы ямякдашлыг принсиплярин инкишафына манечилик тюрядир. Буна эюря дя хцсуси гайьыйа ещтийажы олан шяхсляря дястяк сосиал фяаллыьын вя гаршылыглы мцнасибятлярин гурулмасындан, щяр инсанын шяхсийят кими формалашмасы цчцн шяраитин йарадылмасындан ибарят олмалыдыр.

**Мягалянин актуаллыьы.** Мягаля щазырда чох важиб олан саьламлыг имканлары мящдуд ушагларда гцсурларын диагностикасы мясялясиня щяср олунуб. Дцзэцн апарылмыш диагностика беля ушаглар барясиндя сонрадан дцзэцн коррексион тядбирляр сечмяйя имкан верир.

**Мягалянин елми йенилийи.** Саьламлыг имканлары мящдуд ушагларын тялим – тярбийясинин стратеэийа вя технолоэийасыны мцяййян едяркян коррексийа ишинин диагностика иля вящдяти чох важибдир. Коррексийа ишинин апарылмасына даир верилян мяслящятляр вя фикирляр тялим – тярбийя просесиндя нязяря алына биляр.

**Мягалянин практик ящямиййяти.** Мягаля саьламлыг имканлары мящдуд ушагларын тялим – тярбийясинин хцсуси тяшкил едилмясиндя, диагностика вя коррексийа ишинин апарылмасында кюмяклик етмиш олар.

## ЯДЯБИЙЙАТ


1. Выготский Л.С. Собрание сочинений. М.: Педагогика, 1985.
2. Лубовский В.И. Психологические проблемы диагностики аномального развития детей. М.: Педагогика, 1989.
3. Лубовский В.И. Психологические проблемы диагностики аномального развития детей. М.: Педагогика, 1989.
4. Психолого-педагогическая диагностика развития детей дошкольного возраста / Под ред. Е.А.Стребелевой. М.: Полиграфсервис, 1998.


**Э. Керимова**

## ДИАГНОСТИКА НАРУШЕНИЙ ПСИХОФИЗИЧЕСКОГО РАЗВИТИЯ КАК ОСНОВНОЕ УСЛОВИЕ ЭФФЕКТИВНОГО ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ

### РЕЗЮМЕ


В статье отмечается неоспоримость того факта, что ранняя диагностика нарушений развития способствует раннему вовлечению ребенка в коррекционный процесс, а следовательно, стабилизации нарушения и предотвращению развития вторичных нарушений.

Диагностическая и коррекционная помощь, оказываемая детям с нарушениями развития, должна составлять единое целое. Прогнозирование психического развития, оценка потенциальных возможностей и коррекционно-педагогическая работа должны осуществляться только с опорой на данные психолого-педагогической диагностики.

Несмотря на то, что в последние годы количество психодиагностических методик и тестометрического материала возросло, в период сосуществования общеобразовательной школы, специального и инклюзивного образования проблемы диагностики атипичного развития все еще остаются актуальными на сегодняшний день.


**E. Kerimova**

## DIAGNOSIS OF PHYSICAL DEVELOPMENT AS THE MAIN CONDITION OF EFFECTIVE TRAINING AND EDUCATION

### SUMMARY


The article notes show that early detection of development disorders contributes to early involvement of the child in the corrective process and thus stabilize the violations and prevent development of secondary violations.

Diagnostik and correction assistance provided to children with disabilities should be integrated. Prediction of psychological development, and assessing the potential remedial-pedagogical work must only be carried out with the data based on the psycho-pedagogical Diagnostics.

Despite the fact that in recent years the number of psychodiagnostical techniques, increased during the period of coexistence of secondary schools, special and inclusive education problem diagnosis expected development remain relevant today.

*Redaksiyaya daxil olub: 16.09.2013*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏLİM FƏALİYYƏTİNƏ ADAPTASİYASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Aygün Rüstəmova,**
AMİ-nin magistrantı
E-mail: aygun-rustemova@inbox.ru

**Rəyçilər:** *dos.* **N. Rzayeva**,
*dos.* **M. İsmayılova**

***Açar sözlər:*** *adaptasiya, məktəbəqədər təhsil müəssisəsi, məktəbəqədər yaşlı uşaq, psixi xüsusiyyət, kollektiv.*

***Ключевые слова:*** *адаптация, дошкольные учреждения, дети дошкольного возраста, психическая функция, коллектив*

***Key words:*** *adaptation, preschools, preschool-aged children, feature of the psychic, collectively*

Məktəbəqədər təlim təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki , psixi inkişafını təmin edir. Məktəbəqədər təhsil 3 – 5 yaş dövrünü əhatə edir. Bu yaş dövründə uşaq öz inkişafının yeni mərhələsinə daxil olur. Məktəbəqədər yaşlı uşağın bağçaya və ya başqa məktəbəqədər təhsil müəssisəsinə gəlişi onların həyatında yeni bir mərhələnin başlanğıcıdır. Məhz məktəbəqədər kollektivin təsiri nəticəsində kiçik yaşlı uşaqlarda müstəqillik, başqalarına kömək etmək istəyi kimi müsbət sosial davranış nümunələri yaranır. Məktəbəqədər yaş dövrünün əsas xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, 3 yaşından başlayaraq ailə tərbiyəsi və ictimai tərbiyə bir – birini əvəz etməyə başlayır. Belə ki, artıq məktəbəqədər təhsil müəssisəsinə gələn uşaq ictimai tərbiyə almağa başlayır.

Rus psixoloqu E. Smirvona yazır ki, “Uşaqların digər uşaqlarla ünsiyyəti lazımdır. Bəlkə də bu qəribə görünə bilər. Çünki məktəbəqədər yaşlı uşaqlar birlikdə oynamağı belə bacarmırlar. Lakin kiçik yaşlı uşaqlar bir – birlərini təqlid edirlər, belə ki, onlar yalnız ağlamağı və qorxunu deyil, eyni zamanda ifadə edilməyən xoşbəxtlikləri də bir-birlərindən mənimsəyirlər“ [5. s 62].

Bəzən məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsil müəssisəsinə, yeni bir mühitə, tanımadığı insanlara adaptasiyası çətin olur. Çətin adaptasiya məktəbəqədər yaşlı uşaqda tez-tez sinir və emosional pozğunluqları ilə müşaiyiət olunur.

Adaptasiya kiçik uşağın orqanizminin hələ bilinməyən bir mühitə və tanımadığı insanlara uyğunlaşmasıdır. Adaptasiya müsbət və ya mənfi nəticələrə səbəb olan fəal bir prosesdir. Bu halda uğurlu adaptasiyanın iki əsas meyarı vardır. Bunlar aşağıdakılardır.

1. Daxili rahatlıq – emosional məmnuniyyət.
2. Xarici davranış adekvatlığı – asan və dəqiq ətraf mühitə uyğunlaşma imkanı [1. 52].

Adaptasiya ictimailəşmənin ayrılmaz bir hissəsi və mexanizmi kimi qəbul edə bilər. Adaptasiyanın iki növü var.

1. Psixofizioloji.
2. Psixoloji.

Məktəbəqədər yaşlı uşağın şəxsiyyətə çevrilməsində sosial psixoloji adaptasiyanın böyük rolu vardır. Sosial psixoloji adaptasiyanın nəticələri fərqlidir.

Şəxsiyyətə psixi təsirinə görə - müsbət və mənfi.

Keçirilmə mexanizminə görə - könüllü və məcburi.

Sosial psixoloji adaptasiya bir neçə mərhələyə bölünür.

1. Tanışlıq.
2. Rollu oriyentasiya.
3. Özünütəsdiq [5, 32].

Məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə adaptasiyanın fərdi reaksiyaları geniş aspektdə uşağın psixofizioloji və şəxsi xüsusiyyətlərindən asılıdır. Emosional və həssas olan məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə adaptasiyası çətin bir proses olub adətən kiçik yaşlı uşaqların etirazına səbəb olur. Kiçik yaşlı uşaqlarda məktəbəqədər təhsil müəssisəsinə adaptasiya zamanı yeni insanlara və yeni situasiyalara münasibətdə qorxu hissi yaranır. Məhz məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə mane olan amillərdən biri də qorxu hissidir. Yeni insanlara və yeni şəraitə adaptasiya olan kiçik yaşlı uşaqlar adətən daha temperamentli, həssas, dəymədüşər və ağlağan olurlar ki, buda məktəbəqədər yaşlı uşağın orqanizminin müdafiə qabiliyyətini aşağı salır.

Rus psixoloqu L. N. Galiquzova hesab edir ki, məktəbəqədər yaşlı uşağın inkişafı ilə onun bağçadakı fəaliyyəti arasında yaxın əlaqə vardır. Uzun müddət müxtəlif oyunlar oynayan uşağın bağçaya adaptasiyası daha asan olur. Həmçinin Galiguzovaya görə, bağçaya çətin adaptasiya olan uşaqlar oyun zamanı daha az təşəbbüs göstərir və diqqətlərini mərkəzləşdirə bilmirlər. Eyni zamanda məktəbəqədər yaşlı uşağın oyun zamanı müstəqil olaraq problemi həll etməyə təşəbbüs göstərməsi kiçik yaşlı uşağın şəxsiyyətinin inkişafına müsbət təsir göstərir.

Psixoloji araşdırmalar göstərir ki, 3 – 5 yaşlı oğlanlar qızlara nisbətən analarına daha çox bağlı olduğu üçün məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə adaptasiyası zamanı daha həssas reaksiyalar göstərirlər. Emosional cəhətdən inkişaf etməmiş uşaqlarda əksinə analarına bağlılıq çox olmadığı üçün adaptasiya daha asan olur. Belə uşaqlar ilkin emosional kontaktı belə anası ilə deyil, öz həmyaşıdları ilə qururlar. Nəticədə bu kiçik yaşlı uşağın emosional sferasına düzgün təsir etmir və gələcəkdə belə uşaqlar dərin məhəbbət hissindən, bağlılıq hissindən, həsrət hissindən məhrum olur ki, buda uşağın gələcək inkişafına mənfi təsir göstərir.

Məktəbəqədər yaşlı uşağın məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə adaptasiyasında yaş böhranlarının böyük rolu vardır. Belə ki, artıq 3 yaşlı uşaq başqaları tərəfindən qəbul olunmaq istəyir. Bu yaş dövründə uşaqların ünsiyyəti inkişaf edir, hətta kiçik yaşlı uşaqlar ünsiyyət qurmaq üçün bəhanələr axtarırlar. Beləliklə, məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə adaptasiya zamanı uğurlu nəticələr əldə edilməsində uşağın öz həmyaşıdları ilə ünsiyyətinin böyük rolu vardır [3, 25].

Məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə çətin adaptasiya olan uşaqların əksəriyyəti tez-tez xəstələnir və əldə etdiyi bacarıqları itirməyə başlayırlar. Belə uşaqlar qapalı və ünsiyyətsiz olur və vaxtlarının çoxunu tək keçirirlər. Bu isə bir müddətdən sonra uşaqlarda özündən böyüklərlə münasibətdə lovğalıq, dikbaşlıq, təkəbbür kimi hallara çevrilir.

Ümumiyyətlə adaptasiya prosesi çox nadir hallarda normal olaraq gedir. Adaptasiya adətən məktəbəqədər yaşlı uşaqların ciddi şəkildə ləngiməsinə və nəzarətsiz hiperaktivliyinə səbəb olan fəal bir prosesdir.

Məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə çətin adaptasiya olan uşaqlarda qidalanma rejimi pozulur. Bəzi uşaqlar sanki “aclıq aksiyası keçirir”, bəziləri isə digər ekstremal vəziyyətə düşür və normadan artıq qidalanırlar [1, 32].

Ağır və ağrılı bir proses olan adaptasiya məktəbəqədər yaşlı uşağın yeni ekoloji şəraitə uyğunlaşmasıdır. Adaptasiya bütün səviyyə və sistemlərdə uşaq orqanizminə mənfi təsir göstərən çətin bir prosesdir.

Məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə adaptasiya zamanı yaranan stress məktəbəqədər yaşlı uşağı sanki başqa bir insana çevirir. Nəticədə uşaq daha da passivləşir və uşağın xəstəliklərə qarşı müqaviməti azalır. Belə olduqda isə kiçik yaşlı uşağın adaptasiyasında uğursuzluqlar yaşanır.

Məktəbəqədər yaşlı uşağın təlim fəaliyyətinə adaptasiyası özünü 3 səviyyədə göstərir.

***Asan adaptasiya:*** 10 – 15 gün ərzində uşağın davranış tərzi normallaşdırılır, uşaq normaya uyğun olaraq qidalanır və kollektivdə özünü adekvat aparır. Təxminən 20-ci gündə isə məktəbəqədər yaşlı uşağın yuxu rejimi və aktiv nitq qabiliyyəti bərpa olunur.

*Orta səviyyədə adaptasiya:* Məktəbəqədər təhsil müəssisəsinin şərtlərinə adaptasiya yalnız 20 – 40 gündə mümkün olur. Orta səviyyədə adaptasiya zamanı məktəbəqədər yaşlı uşaqlar psixoloji stress keçirir və iştahsızlıq halları özünü göstərir.

*Çətin adaptasiya:* 2 – 6 ay müddətində məktəbəqədər yaşlı uşaq təlim fəaliyyətinə adaptasiya olur. Çətin adaptasiya olunan uşaqlarda həm fiziki, həm də əqli cəhətdən geriləmə özünü göstərir. Bu qrupa aid olan uşaqların yuxu rejimi pozulur, tez – tez ağlayır və aqressiv olurlar [ 1, 75 ].

Kiçik yaşlı uşağın məktəbəqədər təhsil müəssisəsində fəaliyyəti məqsədyönlü şəkildə təşkil olunduqda bu hal uşaqda müsbət emosional təcrübə yaradır ki, buda sürətli adaptasiyanı təmin edir.

**Problemin aktuallığı.** Ağır və ağrılı bir proses olan adaptasiya məktəbəqədər yaşlı uşağın yeni ekoloji şəraitə uyğunlaşmasıdır. Adaptasiya bütün səviyyə və sistemlərdə uşaq orqanizminə mənfi təsir göstərən çətin bir prosesdir. Ümumiyyətlə adaptasiya prosesi çox nadir hallarda normal olaraq gedir. Adaptasiya adətən məktəbəqədər yaşlı uşaqların ciddi şəkildələngiməsinə və nəzarətsiz hiperaktivliyinə səbəb olan fəal bir prosesdir

**Problemin elmi yeniliyi.** Adaptasiyanın elmi yeniliyi uşaqların məktəbəqədər təhsil müəssisəsində ünsiyyət tələbatının ödənilməsi və eyni zamanda bu prosesin məqsədi müxtəlif ekoloji faktorların dəyişməsi nəticəsində uşaqların adekvat reaksiyalara səbəb olmasıdır.

**Problemi praktik əhəmiyyəti.** Kiçik yaşlı uşaqların məktəbəqədər təhsil müəssisəsinə sürətli adaptasiyası təşkil olunduqda uşaqda ozünəinam hissi, daxili rahatlıq və problemləri həll etmək kimi müsbət hisslər formalaşır.

## ƏDƏBİYYAT


1. Ануфриева В.Г. Профилактика социальной дезадаптации детей // Управление ДОУ, 2003, № 4
2. Балл Г.А. Понятие адаптации и его значение для психологии личности.// В журн. Вопросы психологии, 1989, № 1
3. Бернс Р. Развитие Я-концепции и воспитание. М.: Прогресс, 1986.
4. Ватутина Н.Д. Ребенок поступает в детский сад, М.: Просвещение, 1983.
5. Коломинский Я.Л. Психология детского коллектива. Минск, 1984.


**А. Рустамова**

## ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ АДАПТАЦИИ ДОШКОЛЬНИКА К УЧЕБНОМУ ПРОЦЕССУ

### РЕЗЮМЕ

Адаптация эмоционального и уязвимого дошкольника к условиям дошкольных учреждений является трудным процессом и как правило приводит к протесту ребёнка. В общем процесс адаптации в очень редких случаях идёт нормально. Тяжёлый процесс адаптации это соответствие дошкольника к новым экологическим условиям. В то же время для приобретения успешных результатов во время адаптации важно общение дошкольника со своими сверстниками.

**A. Rustamova**

## SCHOOL -AGED CHILDREN'S PHYSIOLOGICAL CHARACTER OF ADAPTATION TO EDUCATIONAL

### SUMMARY

Adaptation of the school-aged children with emotional and sensitive to the conditions of pre-school education is a difficult process and causes small children's reaction. Generally, the process of adaptation is very rarely goes as normal. Adaptation is a heavy process and school-aged children is to adapt to new environmental conditions. At the same time to achieve successful results during the adaptation of school-age children to communicate with their peers is important.

*Redaksiyaya daxil olub: 02.04.2014*

# ƏQLİ GERİLİYİ OLAN UŞAQLARIN HAFİZƏSİNİN İNKİŞAFI ÜÇÜN TƏMRİNLƏR

**Günel Əhmədova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: gunelahmedova@yandex.ru

**Rəyçilər:** *dos.* **T.S. Paşayev,**
*dos.* **D.Ə. Dostuzadə**

***Açar sözlər:*** *hafizə, intellekt çatışmazlığı, tapşırıqlar, oyunlar, pozulmalar*
***Ключевые слова:*** *память, интеллектуальная недостаточность, задания, игры, нарушения*
***Key words:*** *memory, intellectual deficiency, jobs, games, violation*

Hafizə keçmiş təcrübənin beyində nəqşləndirilməsi, yadda saxlanması, sonralar tanınması və yada salınmasından ibarət mürəkkəb psixi fəaliyyətdir. İnsan həyatında və fəaliyyətində hafızənin əhəmiyyəti olduqca böyükdür. Əgər hafizə olmasaydı hər şey insana həmişə yeni görünərdi. Hafizə olmasaydı, insan "əbədi olaraq yeni doğulmuş uşaq vəziyyətində qalardı" (İ. Seçenov). Bütün psixi prosesslərinən mühüm xarakteristikası olan hafizə insan şəxsiyyətinin vahidliyini və tamlığını təmin edir.

Hafizə və onun mexanizmləri ta qədim zamanlardan mütəfəkkirlərin diqqətini cəlb edən problem olmuşdur. Bu baxımdan hafizənin psixoloji, fizioloji, biokimyəvi və s. nəzəriyyələri meydana çıxmışdır. Hafizənin psixoloji nəzəriyyəsində vaxtilə Aristotelin irəli sürdüyü assosiasiya anlayışı xüsusilə diqqəti cəlb edir. Bu anlayış bütün psixi törəmələrdə məcburi prinsip kimi irəli sürülmüşdür. Bu prinsipə görə əgər müəyyən psixi törəmələr şüurda eyni vaxtda və ya bir-birinin ardınca meydana gəlirsə, onların arsında assosiativ əlaqə yaranır və bu əlaqələrin hər hansı bir ünsürü yenidən canlandıqda şüurda mütləq onun bütün ünsürlərinin təsəvvürünü yaradır. Assosionistlər obyektlərin məkan-zaman yaxınlığından, oxşarlığından və fərqindən asılı olaraq üç assosiasiya tipini ayırmış: (qonşuluq üzrə, oxşarlıq üzrə, əkslik üzrə), yaddasaxlama və yadasalmada onların əsas rol oynadığını göstərmişlər.

Hafizənin yaddasaxlama, yadasalma, tanıma və unutma kimi prosessləri vardır. Hafizə psixikanın funksional bütövlüyünün, üç mühüm prosesin nəticəsində yaranır. Onlardan birincisi yaddasaxlamadır. Yaddasaxlama duyub qavradıqlarımızın beyində hifz olunması prosesidir. Bu zaman yeni qavranılanların əvvəllər əldə etdiklərimizlə əlaqələndirilməsi baş verir.

Anlamadan asılı olaraq yaddasaxlamanın məntiqi və mexaniki növləri mövcuddur. Məntiqi yaddasaxlamanın əsasında anlama dayanır. Bu zaman insan öyrəndiklərini öz sözləri ilə ifadə edə bilir. Mexaniki yaddasaxlama isə mənaya əhəmiyyət vermədən əzbər çəkildə yerinə yetirilən yaddasaxlamadır. Bu zaman materialı mexaniki yadda saxlayan şagird və ya tələbə onun ayrı-ayrı hissələrini yada sala bilmir.

Yadasalma əvvəllər psixikada möhkəmlənmiş məzmunun uzunmüddətli hafizədən operativ hafizəyə ötürülməsi prosesi olub, hafizənin funksiyası kimi çıxış edir.

Hafizə ilə bağlı çətinliklər yadasalmadan daha çox xatırlama ilə əlaqədardır. Müasir psixoloqların tədqiqatları sübut edir ki, sağlam beyində informasiyalar uzun müddət hifz olunsa da, onların çox hissəsi istifadə olunmamış qalır.

İntellekt çatışmazlığı olan uşaqlarda hafizənin bir sıra pozulmaları müşahidə edilir: yaddasaxlamanın (dərk etmə və ardıcıllığın çatışmazlığı, materialın məzmunundan asılılıq, yüksək unutqanlıq, zəif məntiqi emal və s.) və yadasalmanın (qeyridəqiqlik) pozulması.

Əqli geriliyi olan uşaqların hafizə problemi xüsusi psixologiyada ən çox işlənən sahələrdən biridir. Bu kateqoriyadan olan uşaqlarda hafizənin inkişafı yollarını araşdırmadan əvvəlcə hafizə və təfəkkürün pozulma xüsusiyyətlərini müəyyən etmək vacibdir. Patoloji psixi inkişafın öyrənilməsi təkcə patopsixologiyanın deyil, həm də defektologiya və uşaq psixiatriyasının vacib məsələlərindəndir.

Psixi inkişafın pozulmasının səbəblərini və mexanizmlərini öyrənmək vaxtında onun qarşısını almağa və korreksiya yollarını müəyyənləşdirməyə imkan verir.

XX əsrin 40-60-cı illərində aparılan psixoloji-eksperimental tədqiqatlar (E.M. Kudryavseva, A.İ. Lipkina, İ.M. Solovyeva və s.) bu problemin öyrənilməsində mühüm rol oynamışlar. Tədqiqat işləri, əsasən, intellekt çatışmazlığı olan uşaqlarda obyektlərin tanınması və yadasalma zamanı baş verən vizual təsəvvür dəyişikliklərinin öyrənilməsinə həsr olunmuşdur.

Əqli geriliyi olan uşaqların yaddaşının inkişaf etdirilməsi üçün bir çox oyun və metodikalar mövcuddur. L.V. Çeremoşkina öz kitabında məktəbəqədər və kiçikyaşlı məktəblilərin uşaqların yaddaşının inkişafı üçün müxtəlif oyunlar və tapşırıqları tövsiyə edir.

*Nə dəyişdi – vizual yaddaşın inkişafı üçün oyun xarakterli təlqin.*

*1-ci variant.* Uşağın qarşısına (yaşı nəzərə alınmaqla) 3-12 şəkil düzülür, uşaqdan bu şəkillərə baxıb, onları adlandırması tələb olunur. Şəkillər adlandırıldıqdan sonra uşaq gözlərini yumur və şəkillərin yeri dəyişdirilir. Uşaq gözlərini açdıqdan sonra hansı dəyişikliklər baş verdiyini söyləməsi xahiş olunur.

*2-ci variant.* Uşağa bir əhvəlat danışılır: bir qız (oğlan) meşədən göbələk ( yaxud giləmeyvə, yarpaq və s.) yığıb evə gətirir və onların rəsmini çəkməyə qərar verir. Əhvalatı danışarkən zaman qeyd masanın üstünə olunan əşyaların rəsmləri düzülür, danışıb qurtardıqdan sonra şəkillər yığışdırılır. Uşağa ağ vərəq, rəngli qələm verilir və xahiş olunur ki, yadda qalan rəsmləri çəksin.

Bu cür müxtəlif variantlarda təlqin vizual yaddaşı, şifahi yaddasaxlamanı inkişaf etdirir və təsviri fəaliyyət bacarıqları formalaşmış olur.

Yuxarıda qeyd edildiyi kimi hafizənin inkişafına dair müxtəlif metodikalar mövcuddur, məsələn A.N. Leontyevanın "Vasitəli yaddasaxlama" metodikası: yaddasaxlamaq üçün uşağa yaşından asılı olaraq bir sıra söz və hər sözün mənasına uyğun şəkillər verilir. Uşaq sözü eşidəndən sonra onun mənasına uyğun şəkil (məs. yarpaq-ağac, vərəq-dəftər və s.), seçilməlidir.

*"Yadda saxla və yada sal".*

*1-ci variant.* Uşağa bir neçə ədəd söylənilir və onları təkrar etməyə xahiş edilir. Sıradakı ədədlərin sayı tədricən artırılır, məsələn: "4, 1, 8......" "3, 2, 8, 5....." və s.

*2-ci variant.* Uşağa 5-10 söz deyilir və bu sözləri yadasalma xahiş edilir. Sözlər mənaca birləşdirilə və ya əlaqəsiz seçilə bilər.

*3-cü variant.* Uşağa ardıcıl rəqəmlər (6, 1, 8, 5) söylənilir və onları sondan əvvələ doğru yada salmaq xahiş olunur. Uşaq yada salmalıdır – "5, 8, 1, 6...".

Bu cür iş sözlərlə də aparıla bilər.

Bu tapşırığın bütün variantlarını işləməklə uşaqda qısamüddətli və verbal yaddaş formalaşır, yaddaşın həcmi genişlənir, yaddasaxlama bacarığı inkişaf etdirilir.

*Hərəkət ardıcıllığı.*

Uşağa ardıcıl yerinə yetirilməsi vacib olan bir sıra zəncirvari hərəkətlər təklif olunur, məsələn: rəfə yaxınlaş, kitabı götür, qonşu sinifdəki müəlliməyə apar və xahiş et ki dərsdən sonra bizə qaytarsın.

S.D. Zabramnanın və Y.A. Kostenkovanın kitablarında hafizənin inkişafı üçün maraqlı oyunlar və tapşırıqlar təqdim olunub.

*Sözlərlə oyun.*

Diqqət! "Ayı, alma, ağac, ana, ay, arı".

*1-ci tapşırıq:* yadda qalan sözləri de.

*2-ci tapşırıq:* Necə fikirləşirsən, bu sözlərdə oxşarlıq var? Bu sözlər hansı əlamətlərinə görə bir - birinə oxşardır?

*Qeyd:* bu tapşırıq yerinə yetirilərkən uşaqdan tez düzgün cavab tələb etmək olmaz. Kömək etməyə cəhd etməkdə məsləhət görülmür. Uşaqların sərbəst fikirləşmələrinə imkan vermək lazımdır.

*3-cü tapşırıq: A* hərfini necə bacarırsansa yaz.

*4-cü tapşırıq: A* hərfi ilə başlayan sözlər de.

*5-ci tapşırıq:* Mən yadda saxlamağı xahiş etdiyim sözləri yada sala bilərsənmi? Onları təkrar et!

Beləliklə, əqli geriliyi olan məktəblilərin fərqli oyun və tapşırıqlar vasitəsilə hafizələrini inkişaf etdirmək mümkündür. Oyun və tapşırıqları elə seçmək lazımdır ki, uşaqlar üçün maraqlı olsun.

Bu və oxşar tapşırıqlar, əsasən, uşağın verilən təlimatları yaddasaxlamaq qabiliyyətini inkişaf etdirir. Bu cür tapşırıqlardan fərqli variantlarda müntəzəm istifadə etmək lazımdır, çünki tapşırıqların yerinə yetirilməməsinin səbəbi, əsasən, onların şərtinin yadda saxlanmaması ilə əlaqədardır. Bu cür tapşırıqlar həm də özünü idarəetmə bacarığını, diqqətin konsentrasiyası və keçiriliciyini formalaşdırır.

Yadda saxlamaq lazımdır ki, uşaqlarda hafizəni formalaşdıraraq onlarda materialın məzmununun qavramasına da yardım etmiş oluruq. Təlqinlə verilən tapşırıqlar təkcə hafizənin inkişafına deyil, həm də təfəkkürün, nitqin diqqətin və digər psixi funksiyaların inkişafına xidmət edir.

**Məqalənin aktuallığı**. İnsan həyatında və fəaliyyətində hafızənin əhəmiyyəti son dərəcə böyükdür. Bütün psixi prosesslərinən mühüm xarakteristikası olan hafizə insan şəxsiyyətinin vahidliyini və tamlığını təmin edir. Bu baxımdan məqalə aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi** hafizə, onun növləri, inkişaf etdirilməsi haqqında elmə əsaslanan məlumat verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, burada əqli geriliyi olan uşaqların hafizəsini inkişaf etdirmək üçün müəllimlərin, valideynlərin istifadə edə biləcəkləri metod və priyomların tətbiqi üzrə məşğələlər verilmişdir.

## ƏDƏBİYYAT

1.Забрамная С.Д. Развивающие занятия с детьми. М., 2001.

2. Петрова В.Г. Психология умственно отсталых школьников. М., 2002.

3. Черемошкина Л.В. Развитие памяти детей. Ярославль: Академия развития, 1997.

**Г. Ахмедова**

## УПРАЖНЕНИЯ ДЛЯ РАЗВИТИЯ ПАМЯТИ УМСТВЕННО ОТСТАЛЫХ ДЕТЕЙ

## РЕЗЮМЕ

Память представляет собой комплекс процессов, с помощью которых человек воспринимает, запоминает, хранит и воспроизводит информацию. Неполадки на каждом из этих уровней могут вызвать затруднения в обучении. Существует множество упражнений, методик и игр по развитию памяти умственно отсталых учащихся. Например, Л.В. Черемошкина предлагает и рекомендует свою книгу, где предложены различные игры, упражнения и задания, которые помогут развивать память дошкольников и школьников. В книге С.Д. Забрамной и Ю.А. Костенкова «Игра в слова» представлены развивающие упражнения и игры для развития памяти. Игры и упражнения нужно подбирать так, чтобы учащимся было интересно выполнять предложенные задания. С их помощью можно развивать внимание, память, мышление, воображение ребенка, т.е. те качества, которые необходимы для дальнейшей жизни.

**G. Ahmedova**

# MEMORY EXERCISES FOR DEVELOPMENT OF MENTALLY RETARDED CHILDREN

## SUMMARY

Memory is a set of processes through which people perceive, remember, stores and delivers information. The problem at each of these levels can cause difficulties in learning. There are many exercises, techniques and games to promote the memory of mentally retarded students. For example, L.V. Čeremoshkina invites and encourages his book where the various games, exercises and activities that will help develop the memory of preschool and school children. In the book Zabramnoy and S.Y. Kostenkova presents educational games and exercises for the development of memory. "Word game". Games and exercises must be chosen so that the students were interested in performing the job. You can use them to develop attention, memory, thinking, imagination of the child, i.e. the qualities that are necessary for life.

*Redaksiyaya daxil olub: 10.04.2014*

# İNTELLEKTİN KOEFFİSENTİ

**Firəngiz Hidayətova,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU-nun baş müəllimi*
E-mail: f.hidayatova@mail.ru

**Rəyçilər:** *prof.* O. Rəcəbov,
*prof.* F. Sadıqov

***Açar sözlər:*** *intellekt, koeffisent, potensial, psixoloq, neyropsixoloq*
***Ключевые слова:*** *интеллект, коэффициент, потенциал, психолог, нейропсихолог*
***Key words:*** *intelligence, coefficient, potential, a psychologist, a neuropsychologist*

İntellektin koeffisenti ingilis tədqiqatçısı Ayzekin təklif etdiyi təkcə elmi anlayış deyil, eyni zamanda ictimaiyyətin həyatının ən təsirli amillərindən biri olub. Onu hər yerdə olçürlər: məktəblərdə, universitetlərdə, işə qəbul zamanı. Bu anlayış XX əsrdə məşhur psixoloq Çarlz Spirmenin nəzəriyyəsinin həyata keçirilməsi zamanı yaranıb və təşəkkül tapıb. Bunun məğzi ondan ibarətdir ki, bütün insanların nailiyyətləri onlarda olan xalq arasında geniş yayılmış, "istedadlı insan" hər şeydə istedadlıdır fikrinə əsaslanan əsas bir amildən asılıdır.

Yəni Allah hər bir insana potensial şəklində müəyyən istedadlar verir, eyni zamanda yenicə doğulmuş uşaqlarda həm də potensial şəklində müəyyən bacarıqlar toplusu olur. Əsas məqsəd bütün bacarıqları aşkarlayaraq fəaliyyətə gətirmək və bununla istedadı inkişaf etdirməkdir. Belə bir xalq məsəli vardır: "Kotan işləyəndə parlayar".

İntellektin koeffisentini müəyyən edən testlər vasitəsilə intellektin eyni zamanda keyfiyyətləri, onun səviyyəsi də aydınlaşdırılır.

Yəni, insan və heyvanlar üçün həyatda baş vermiş hadisələrin nəticələri bir dərs ola bilər. Əgər insan bilir ki, ildırım çaxarkən ağac altında dayanmaq olmaz, onda o, heç vaxt belə bir təbiət hadisəsi zamanı ağac altında dayanmaz. Əgər uşaq dil açanda "mənim" sözünün ona məxsus olduğunu anlayarsa, onda o, bu anlayışı özü də dərk etmədən "mənim anam", "mənim atam", "mənim oyuncaqlarım", "mənim yuxularım" kimi anlayışlara tətbiq edəcəkdir. Yəni, insana bir dəfə aydın olan anlayış, bilik sonradan müxtəlif həyatı anlarda tətbiq edilə bilər.

Dediyimiz amilə əsaslanan psixoloji və pedaqoji keyfiyyətlərdən biri təlimdir. Belə ki, intellekt amilinə malik insan tez bir zamanda və effektiv olaraq alqoritmləri mənimsəyir və onlardan istifadə etməyə başlayır. Amerika psixoloqları başda Stendford Universitetinin professoru Lyuis Qerman olmaqla intellektin koeffisentinin ölçülməsi sahəsində müəyyən işlər görmüşlər. Qerman professor Spirmenin intellektin ölçülməsi prosesini təkmilləşdirmiş, daha aydın və praktikaya uyğun etmişdir. Bundan sonralar I dünya müharibəsinə gedən əsgərlərlə iş zamanı istifadə olunmuşdur.

Bir qədər sonra ingilis psixoloqu Hans Ayzenk Qermanın testini bir qədər də "cilalamış" və onlardan Afrikaya gedən əsgərlərlə iş zamanı istifadə etmişdir. Bu əsgərlərin əksəriyyəti sonradan Afrika mühitinə uyğunlaşmayaraq geriyə qayıtmışlar. Məhz ona görə də əvvəlcədən bilmək lazımdır ki, hansı bir iş kimə tapşırılmalıdır, hansı tapşırıqları kimlər həyata keçirə bilər. Bu məsələni Ayzenk məharətlə, yalnız qələm və kağızdan istifadə etməklə, həyata keçirə bilmişdir. Burada fəza fiqurları, hərflər, rəqəm və sözlər arasındakı oxşar və fərqli cəhətləri aydınlaşdırmaqla bu seriyaları sistemlərə çevirən qanuna uyğunluqlar müəyyənləşdirmək tələb olunurdu.

Məlum olub ki, alqoritmləri mənimsəyənlər yeni şəraitlərə daha yaxşı uyğunlaşırlar, məktəbdə yaxşı oxuyurlar, işdə müvəffəqiyyət qazanırlar. Beləliklə psixologiya bir elm oldu və bu elm təkcə psixoloqlara deyil, insan həyatının müxtəlif istiqamətlərinə öz təsirini göstərməyə başladı. İntellektin səviyyəsinin ölçülməsi XX əsrin əvvəllərində Amerikaya böyük emiqrant axını dövründə xüsusilə vacib idi. Belə ki, bu dövrdə Amerika ağıllı, işgüzar, bacarıqlı, savadlı insanlara böyük

ehtiyac duyurdu. Bu zaman Amerikada belə lozunqlar da geniş yayılmışdır: “məktəblərdə özümüzün Platonlarımızın itməməsinə şərait yaradaq”. Əlbəttə ki, bu istər inkişaf etmiş, yaxud inkişaf etməkdə olan dövlətlər üçün çox vacib olan bir problemdir və o ölkə xoşbəxtdir ki, onların istedadlı, talantlı alimləri, mühəndisləri, müəllimləri, incəsənət xadimləri və s. vardır.

Lakin bütün ömrünü istedadın, intellektin ölçülməsinə həsr edən Germanın uzun sürən eksperimentlərinin nəticəsi tamamilə gözlənilməz oldu. Belə ki, o, yüksək bal (140) və ən yüksək (180) bal toplamış 1000-dən çox məktəblinin müvəffəqiyyətini 25 il izləmiş və nəticədə onların arasında Nobel mükafatına layiq olanlar yetişməmişdir. Nobel mükafatı laureatı olan Uilyam Şokli (tranzistoru kəşf edən) və fizik Lui Alvares heç də bu eksperimentdə iştirak etməmişdirlər. XX əsrin dahisi hesab olunan A. Eynşteyn heç də məktəb illərində fizika fənnindən əla qiymətlər almamışdır. German 26 ən yüksək bal və 26 yüksək bal toplamışların sonda müvəffəqiyyətli biznesmen, həkim, siyasətçi olduqları qənaətinə gəlsə də, bunlardan məşhur aktyor, şair, incəsənət xadimləri, ixtiraçıların olmadığını göstərmişdir. Bu eksperimentdə iştirak edənlər arasında bir nəfər olsa da dahi olmamışdır. Beləliklə Germanın tədqiqatları nəticəsində əsasən “ümumi qabiliyyətlərin” səviyyəsini müəyyən etmək mümkün ola biləcəyi müəyyənləşdirilmişdir.

Uşaq istedadının tədqiqatçısı Amerika psixoloqu E.Viner “intellektin ölçülməsi” sahəsində tədqiqatlar aparanları məyus etdi. Onun fikrincə: “Riyaziyyat sahəsində” talantı olanlar əsasən rəqəmlər, fəza və vizual materialları ilə əlaqədar informasiyaları yadda saxlayırlar. Digər sahələrdə olan informasiyalar onları maraqlandırmır və ona görə də bu informasiyaları riyaziyyatçılar yadda saxlaya bilmirlər. Buradan belə fikrə gəlmək olar ki, heç də istedadlı insan bütün sahələrdə istedadlı ola bilməz. Lakin həyatda elə insanlar olmuşdur ki, onlar elmin incəsənətin bütün istiqamətlərində istedadlı, talantlı və dahi olmuşlar. Məsələn, dahi Azərbaycan bəstəkarı Ü. Hacıbəyovun həm dünya səviyyəli bəstəkar, dramaturq, jurnalist və pedaqoq olmuşdur. Lakin belə insanları təbiət tək-tək yaradır və onlar dahi adlanırlar. İstedadlı, qabiliyyətli, talantlı insanlar isə yalnız özlərinin məşğul olduqları sahələrdə böyük müvəffəqiyyətlər əldə edirlər.

Beləliklə: “Bir sahədə yüksək qabiliyyətin olması, heç də başqa sahələrdə də yüksək qabiliyyətin olması deyildir.

Görkəmli adamlar, əvvəldə qeyd etdiyimiz kimi öz sahələrində hər şeyi tez mənimsəyirlər. Bu insanlar nə qədər tənbəl olsalar da, əgər bir problemin həllinə başlarsa, onu çox tezliklə və yüksək səviyyədə həll edə bilirlər.

Görkəmli insanlar başqalarının hesablarla oxuduğunu bir başa sözlərlə və ifadələrlə oxuyurlar. Belə insanların öz sahələrində hafizələri və yaddaşları da çox inkişaf etmiş olur. Məsələn, görkəmli Azərbaycan şairi, professor, fəlsəfə elmləri doktoru Rəfiq Zəka Nizaminin, Nəsiminin, Xəyyamın və digər böyük şairlərin bütün yaradıcılığını əzbərdən bilirdi. Lakin tarix heç də onların bacarıqlı, işgüzar olduqlarına deyil, insanların ixtiralarına, kəşflərinə, ağlına və fantaziya genişliyinə görə qeyd edir, həm də yadlarda saxlayır.

XX əsrin müxtəlif zamanlarında bir sıra insanlar arasında aparılan psixoloji eksperimentlər sübut etmişdir ki, heç də yüksək intellektə malik insanların hamısı yaradıcılıqla məşğul ola bilmirlər, kəşflər, ixtiralar etmirlər, yəni bir şey yarada bilmirlər.

Neyropsixoloq Helmut Petse 76 insanlara əvvəlcə intellektual tapşırıqlar vermiş və sonradan onlar arasında intellektinə görə fərqlənənlərə şəkil çəkməyi, melodiya, yaxud şer yaratmağı tapşırmışdır.

Nəticədə məlum olmuşdur ki, əksər hallarda intellektualların yaratdıqları incəsənət nümunələri arasında heç də uyğunluq, yenilik yoxdur və intellektlər malik olduqları bilik-bacarıqların əhatəsindən kənara çıxa bilmirlər. Yəni bu insanlarda təfəkkürün inkişafı heç də təfəkkürün, fantaziyanın inkişafına səbəb olmur.

Əqlin və qəlbin, ruhun sehrli qabiliyyəti heç vaxt köhnə, hamıya məlum olan bir şey yaratmır. Məhz bu qabiliyyətə “yaradıcılıq” deyilir. Ona görə gözəl melodiyaya malik olan mahnı haqqında çox zaman deyirlər ki, “bu mahnı qəlbdən, ürəkdən yazılıb”. Elmi dairələrdə yaradıcılıq “creativity”

adlanır. Yaradıcılığı yaxşı başa düşmək üçün Amerika alimlərindən Torrens və Torndayk əqli məhsulların miqdarına və orijinallığına əsaslanan xüsusi testlər yaratdılar.

Onlara görə kreativ (yaradıcı) şəxsiyyətlər ideya mənbələrinə malik olanlar, adi bir şeydən müxtəlif sürətdə istifadə etmək imkanlarını və yollarını göstərə bilənlər hesab oluna bilərlər. Məsələn, adi qəzet təkcə oxumaq üçün deyil, həm də ondan başa qoymaq üçün papaq, uşaq gəmisi, göyərçin, çərpələng və s. düzəltmək üçün vasitə ola bilər. Lakin bütün bunlar heç də insan həyatı üçün vacib olan "Gələcəkdə hansı sənət sahibi ola bilərəm?" sualına düzgün cavab verə bilmirdi. Yəni, Allah insana, fərdə hansı istedadı bəxş edib? Əgər bu problem düzgün həll olunarsa, heç olmazsa psixoloq və pedaqoqların verdikləri proqnozlar, diaqnozlar heç olmazsa 70%-ə düzgün həyata keçərsə bunu elmdə böyük nailiyyət hesab etmək olar. Təəssüflər olsun ki, o dövrün psixoloq-pedaqoqları bu sual qarşısında susur və çiyinlərini qaldırırdılar. Lakin cəmiyyət, valideynlər alimlərdən bu problemin həllini gözləyirdilər. Yəni, lap uşaq yaşlarından böyüməkdə olan nəslin, ona bəxş edilmiş istedadını düzgün təyin edəcək, hər bir fərdi bu istiqamətdə inkişaf etdirmək dünənin, bu günün və sabahın vacib problemi olaraq müasir dövrdə də bütün cəmiyyəti, eyni zamanda psixoloji-pedaqoji elmi narahat etməkdədir.

XX əsrin 70-ci illərində aydın oldu ki, praktik psixologiya və psixodiaqnostika özü-özlüyündə hər bir fərdin parlaq gələcəyi haqqında düzgun proqnozlar vermək iqtidarında deyildir. Bu dövrdə verilmiş proqnozlar çox zaman sosial vəziyyətdən, tərbiyədən və qazandığı təcrübədən asılı olurdu. Ona görə də fərdi fərqlənmə və əqli fəaliyyətin sahəsində formalaşmış psixoloji elmin terminləri bir də nəzərdən keçirilməlidir.

İngilis dilində "abilities" Azərbaycan dilində "qabiliyyətlər" adlanan termin çox geniş yayılmışdır. Təhsildə qabiliyyətli verilən informasiyaları tez və keyfiyyətlə mənimsəyənlər hesab olunur. Sovet dövründən qalmış *zadatki* termini dəqiq tərcümə olunmur. Bu terminə görə hər bir insanda potensial şəklində qabiliyyətlər mövcuddur və məhz məqsədyönlü fəaliyyət onların inkişafına səbəb olur. İngiliscə *giftedness*, rusca *odaryonnost*, Azərbaycan dilində "istedad" termini də mövcuddur. Belə termin bir və ya bir necə sahədə görkəmli nailiyyətlər əldə etmiş insanlarla əlaqədar istifadə edilir. Belə uşaqlar özlərinə xüsusi diqqət olmasına böyük ehtiyac duyurlar.

Bunlardan əlavə *talant* adlanan bir termin də tez-tez işlədilir. Bu termin beynəlxalq termin olduğu üçün Azərbaycan dilində də elə belə adlanır. "Talantlı" adi insanlardan fərqli olaraq elm, incəsənət-mədəniyyət, idman, biznes və s. sahələrdə beynəlxalq nailiyyətlər qazanmış insanlara deyilir. Psixologiyada "intellekt" adlanan bir termin də vardır. Rus dilində "intellekt" sözü "*um*" (*əql*) sözü ilə yanaşı dayanır. Rus psixoloqu Sergey Rubinşteyn buna belə bir açıqlama verib. "Əql - olanları görə bilmək qabiliyyətidir". Nəhayət, psixologiyada işlədilən "kreativ" terminidir ki, bu ixtiraçılığa, yaradıcılığa, innovasiyaya meyil göstərən insanlara aid edilir.

Beləliklə beş anlayışı belə göstərmək mümkündür: qabiliyyət, istedad, talant, intellekt və kreativlik.

Bu beş keyfiyyətin cəmi insanın həyatda müvəffəqiyyət qazanmasına səbəb ola bilər. Əlbəttə ki, bu keyfiyyətlərin işləməsi və inkişaf etdirilməsi üçün müntəzəm, mütəmadi, sistemli və məqsədyönlü insan fəaliyyəti olmalıdır. Əgər insanın bu istiqamətdə fəaliyyəti olmazsa, həmən keyfiyyətlər potensial haldan kinetik vəziyyətə keçə bilməz.

**Məqalənin aktuallığı.** İnsanın inkişafı onun həyatda qazandığı bilik və dünyagörüşü ilə bağlıdır. Bu inkişafda intellekt yaranır. İntellektli adam elmli olması ilə yanaşı ictimai həyatın ən təsirlə amillərindən biridir. Bu hər yerdə - məktəbdə, ali məktəblərdə, işə qəbul zamanı özünü göstərir. Bu baxımdan intellekt sahəsi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Müasir dövrdə intellekt böyük əhəmiyyətə malikdir. Məqalə bu sahə üzrə əhəmiyyət kəsb edən məqalələrdəndir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə praktik əhəmiyyətinə görə idarə və müəssisələrdə, ali və orta məktəblərdə və s. yerlərdə hər bir şəxsin dünyagörüşünün öyrənilməsində həyata keçirilə bilər.

**ƏDƏBİYYAT**

1. Киранрская Д.К. Музыкальные способности. М.: Талант - XX век, 2004.
2. Rəcəbov O. Ümumtəhsil məktəblərində musiqi tədrisinin metodikası. Bakı: Mütərcim, 2007
3. Алиев Ю.Б. Развитие способностей. Воронеж: Наука, 1996

**Ф. Хидаятова**

**КОЭФФИЦИЕНТ ИНТЕЛЛЕКТА**

**РЕЗЮМЕ**

В статье говорится о том, что в каждом человеке заложены способности, одаренности в потенциальной форме. Но именно в процессе активной деятельности эти потенциальные способности могут превращаться в кинетическое состояние. Именно таким образом можно развивать ту или иную способность человека. По мнению автора, активная деятельность является залогом формирования и развития способностей у человека.

**F. Hidayatova**

**INTELLIGENCE QUOTIENT**

**SUMMARY**

In the article says that every man laid ability? Talent in potential form. But it is in the process of vigorous activity of these potential abilities can be converted into kinetic state. It is thus possible to develop this or that person`s ability. In the author`s activism is the key to the formation and development.

*Redaksiyaya daxil olub: 02.04.2014*

# L.S. VIQOTSKİNİN ƏSƏRLƏRİNDƏ ALİ PSİXİ FUNKSİYALARIN İNKİŞAFI PROBLEMİ

**Minarə Məmmədova,**
*psixologiya üzrə fəlsəfə doktoru*
*ARTPİ*
E-mail: minara62@list.ru

**Rəyçilər:** *ped.f.dok.* **T.İ. İsmayılova,**
*ped.f. dok.* **X.A. Talıbova**

***Açar sözlər:*** *defektologiya, xüsusi psixologiya, psixi funksiyalar, interpsixoloji, intrapsixoloji*
***Ключевые слова:*** *дефектология, специальная психология, психические функции, интерпсихологический, интрапсихологический*
***Key words:*** *defectology, special psychology, mental functions, intrapsychological, interpsychological*

Dünya psixologiyasının klassiklərindən biri olan L.S. Vıqotskinin (1896-1934) həyat və yaradıcılığının bəzi səhifələrindəki, məlumatlara nəzər yetirmək istərdik. Yerusəlimdə İ.M. Feyqenberqin redaktəsi ilə nəşr olunan əsərdə bəzi məlumatlarla tanış olduq . Müəllifin qeyd etdiyinə görə Lev Semyonoviçin (Simxoviç) atası Semyon (Simxi) Lvoviç dövrünə görə qabaqcıl kommersantlardan sayılırdı. O, birləşmiş bankın şöbə rəhbəri idi. L.S. Vıqotski qədim yəhudi mədəniyyəti və onun ənənələri, dili, fəlsəfəsi və ədəbiyyatı ilə sıx bağlı olan, yaşadığı mühitlə əlaqədar təlim-tərbiyə görmüş bir şəxs idi. Semyon (Simxi) Lvoviç Birləşmiş Bankın və "Rus yəhudiləri arasında maarifçiliyin genişləndirilməsi üzrə cəmiyyət"-in yerli şöbəsinin rəhbəri idi(5). Bu təşkilatın himayəsi altında yaradılan ictimai kitabxana Vıqotskilərin yaşadıqları evin birinci mərtəbəsində yerləşirdi. Həmin ictimai təşkilatın əsas şüarı belə idi "Öz evində yəhudi ol, kənarda isə insan". L.S. Vıqotskinin gələcək həyat mövqeyi belə mühitlə qaynaqlanırdı. "O, dövrdə Rusiyada yaşayan bir çox ziyalı yəhudi intellegentləri kimi Lev Semyonoviç də öz spesifik yəhudiliyini itirməmək şərtilə rus cəmiyyətinə uyğunlaşırdı. Belə həyat prinsipi gənc Vıqotski üçün şəxsi xarakter daşıyır və onun gələcək həyat yolunu müəyyən edirdi".

Vıqotskilər ailəsində əsas dil idiş olmasına baxmayaraq, Lev Semyonoviçin valideynləri bir neçə dil bilirdilər. Özü isə altı dil bilməklə yanaşı, qədim yəhudi dilində danışır, Tövratı sərbəst və mükəmməl olaraq öyrənmişdir. Tövratın öyrənilməsi, oradan duaların seçilib əzbər deyilməsi əbəs deyildi. Məlumdur ki, yəhudi millətində oğlan uşağının yeniyetməlik dövrünə qədəm qoyması münasibətilə ailə möhtəşəm ənənəvi mərasim "Bar-mitsva" keçiridir, Lev Semyonoviç üçün keçirilən belə mərasimdə o, söyləyəcəyi nitqi heç kimin köməyi olmadan Tövratdan seçmiş və hazırlamışdır. Lev Semyonoviç Tövratdan başqa Talmud da yaxından öyrənmişdi (7).

B. Kotik-Fridqut və T.Fridqut qeyd edirlər ki, Lev Semyonoviçin dünya görüşünün formalaşmasında B.Spinozanın fəlsəfəsi böyük rolu olmuşdur. Bu fəlsəfənin mahiyyəti insanın milliyyətçi, dindar yox, ağıllı, materialist, universal, intellektual bir varlıq olaraq reallaşmasından ibarət idi.

1917-ci ilə qədər L.S. Vıqotskinin əsərlərində yəhudi məsələsi, ədəbiyyat və teatr məsələləri prioritetlik təşkil edirsə, 1917-1920 illərdə yaradılan əsərlərdə "inqilbi ruh" daha çox təzahür edirdi.

L.S. Vıqotski 1924-cü ildə Moskva şəhərinə köçür. Bu dövrdə marksist ideologiyası üstünlük təşkil edirdi. Psixologiyaya institutunun əməkdaşı olan L.S. Vıqotski psixologiya elminə bir sıra yeniliklər gətirdi. O, Psixologiya institutunun nəzdində fəal seminarlar təşkil edir, Defektologiya İnstitutunun və Moskva Dövlət Pedaqoji İnstitutunda (indiki MDPU) psixologiya kafedrasının yaradıcısı oldu.

1924-ci ildə L.S. Vıqotski RSFSR-in Xalq komissarları sovetinin sosial tərbiyə üzrə baş idarəsində sosial-hüquq mühafizəsi şöbəsinin müdiri təyin olunur. Bu şöbədə fiziki qüsur və əqli geriliyi olan uşaqların təlim-tərbiyəsi üzrə işlər aparır və bilavasitə xüsusi psixologiya sahəsini inkişaf etdirir (1; 2; 3).

Artıq XIX əsrin 20-ci illərinə kimi dünyada xüsusi psixologiyanın sahələri (əqli geriliyi olan insanların psixologiyası, korların psixologiyası, karların psixologiyası) formalaşmağa başlamışdı. Məsələn, K.Byurklenin "Korların psixologiyası" adlı əsər 1924-ci ildə işıq üzü gördü və bir neçə ildən sonra müxtəlif dillərə tərcümə olundu.

Psixologiyanın bu sahələri üzrə ayrı-ayrılıqda müxtəlif tədqiqat işləri aparılırdı, amma bu sahələrin hələ də konsolidasiyası yox idi. L.S. Vıqotski bu boşluğu özünün "Müasir defektologiyanın əsas problemləri", "Çətin uşaqlıq dövrünün pedaloji klinikası və inkişafın diaqnostikası" və s. əsərində əks etdirdi. Bu əsərlərdə o, müxtəlif çatışmazlığı olan uşaqların inkişafındakı qanunauyğunluqları, çatışmazlığın səbəbini, şəraitini və asılılığını təsvir edirdi. L.S. Vıqotski yazırdı "...nə qədər ki, xüsusi psixologiya xarici təzahürlülüyü tədqiq edəcək, o qədər də o, emprik bilik səviyyəsində qalacaq, amma sözün əsl mənasında o, elm ola bilməyəcək"(4).

Xüsusi psixologiyanın inkişafı üçün zəruri şərtlərdən biri də, aparılacaq tədqiqatlara dair adekvat metodikalar yaratmaq idi. L.S. Vıqotskinin sözləri ilə desək, adekvat metodikalar "sadə elməbənzər empriyadan əsil elmi təfəkkür və şüur metoduna keçid" deməkdi.

L.S. Vıqotski xüsusi psixologiya sahəsində prinsip etibarilə mühüm sayılan, ideyalar irəli sürürdü. Q.Y. Troşin tərəfindən irəli sürülən normal uşaqların inkişaf qanunauyğunluqları ilə müxtəlif fiziki və əqli qüsuru olan uşaqların inkişaf qanunauyğunluqları eynilik təşkil etməsi haqqında nəzəriyyəni L.S. Vıqotski daha da genişləndirərək bu prosesdə anomal inkişafın bəzi ümumi qanunauyğunluqlarını göstərmişdi (7).

Dizontogenezin psixoloji təhlilini (orqanizmin bətindaxili struktur formalaşması zamanı normal inkiafa nisbətən geriləməsini 1927-ci ildə fransız alimi Şvalbye "dizontogenez" adlandırmışdı) ilk dəfə olaraq L.S. Vıqotski (1936) vermişdi. O, uşaqlarda zədələnmiş inkişafın psixoloji mexanizmlərini ayırd etmiş və onu normal psixi inkişaf modelinin fəaliyyətinə uyğun şəkildə əsaslandırmışdı. Bu səbəbdən o, bioloji və psixososial inkişafın qarşılıqlı əlaqəsindən əmələ gələn təsirin uşağın psixi funksiyası üçün əhəmiyyətini yüksək qiymətləndirmişdi (3).

***Sxem 1.***



Əqli gerilik modeli üzərində bir sıra ümumnəzəri mövqelərə aydınlıq gətirməklə L.S. Vıqotski gələcəkdə anomal inkişafın öyrənilməsi üçün geniş imkanlar açmış oldu. Yəni:

**I.** Anomal uşağın inkişafı ilə normal uşağın inkişafını xarakterizə edən əsas qanuna-uyğunluqlar eynilik təşkil edir.

**II.** L.S. Vıqotski anomal uşaqda olan qüsurları qruplara ayırd etmişdi: əgər ilkin qüsur baş be-yin və ya mərkəzi sinir sisteminin zədələnməsi ilə əlaqədardırsa, bu zaman ilkin qüsurun təsirindən doğan əks etdirən ikinci qüsur yaranmış olur (4).

"İstənilən qüsur nəinki insanın dünyaya münasibətini dəyişdirir, həmçinin insanlarla münasibətində özünü göstərir. Təbii, bioloji qüsur və ya çaışmazlıq sosial anormal davranış kimi həyata keçir".

Bundan əlavə L.S.Vıqotski psixi funksiyaların kompensasiya prosesini bioloji və sosiaoloji faktorların sintezində görürdü. O bunları aşağıdakı şəkildə mərhələlərə bölmüşdü:

I. L.S. Vıqotski anomal uşaqları *müxtəlif sosial əhəmyyətli fəaliyyətə sövq edilməsinə* əhəmiyyət verirdi. O deyirdi ki, hər hansı bir hiss orqanı öz fəaliyyətini dayandırarsa, bu zaman digər orqanlar pozulmuş funksiyanı əvəz etməklə kompensator rolunda çıxış etmiş olur.

II. L.S. Vıqotski *qüsurun strukturu* anlayışını elmə gətirmişdir. İlkin pozuluş, məsələn, eşitmənin, görmənin pozulması psixi inkişafda ardıcıl olaraq ikinci, üçüncü pozuluşları gətirir. Erkən, körpə və məktəbəqədər yaş dövrlərində müxtəlif ilkin qüsur səbəbləri ilə ikincili qüsurlar oxşar xüsusiyyətə malik olurlar. İkinci qüsurlar sistemli xarakter daşıyaraq, uşağın psixi inkişafının bütün strukturunu dəyişdirir.

III. L.S. Vıqotskinin irəli sürdüyü növbəti nəzəriyyə *tərbiyə ilə xüsusi metodikalar arasında olan əlaqələr* haqqındadır. İstənilən pozuntu ilə əziyyət çəkən uşağın xüsusi təhsilinə xüsusi pedaqoji texnikanın, metodikaların və üsulların tədbiq olunması vacibdir. Məsələn, L.S. Vıqotski qeyd edirdi ki, kar-lal uşağın şifahi nitqinin inkişaf etdirilməsi nəinki onun artikulyasiyası ilə aparılan xüsusi metodika ilə əlaqədardır həmçinin, bu məsələ eyni zamanda surdapedaqoqikanın tərkib sahələlərindən sayıla bilər.

IV. Müxtəif pozuntuya malik insanların əsas kompensasiya yolunu L.S. Vıqotski onların aktiv əmək fəaliyyətinə qoşulmasında görürdü. Onun fikrincə bu yol onlarda əməkdaşlığın ali formalarının inkişafına dəlalət edir. L.S. Vıqotski kompensasiyanın fiziki imkanlarını yüksək qiymətləndirirdi. Məsələn, sensor pozuntusu olan şəxslər (eşitmə və ya görmə problemi zamanı onların bioloji qüsurları ilə əlaqədar sahələri çıxmaq şərti ilə) üçün bir çox əmək fəaliyyəti növləri ilə məşğul olması məqsədi ilə onların cəmiyyətə inteqrasiyasını təmin edilməsi vacibdir.

V. "......karlıq, korluq və s. kimi xüsusi qüsurlar həmin insanların qüsurlu olmasına hələ dəlalət etmir" L.S. Vıqotskinin növbəti nəzəriyyəsinin böyük praktik və elmi mənası vardır. Onun fikrincə, şəxsiyyətin həyatını qüsur yox, onun sosial-psixoloji fəaliyyəti təşkil edir (8).

L.S. Vıqotski ilk dəfə olaraq uşağın psixikasının dəyişməsinə və inkişafına bilavasitə təsir göstərən mühit mexanizminin əhəmiyyətini qeyd etməklə ali psixi funksiyaların hər bir insan üçün spesifik olmasını göstərmişdir. L.S. Vıqotski belə mexanizmi *interiorizasiya* adlandırmışdı. İnsan özünün və digərlərinin davranışını idarə olunması üçün süni surətdə yaratdığı stimul-vəsaitini isə interiorizasiya *əlamətləri* adlandırmışdı.

"Ali psixi funksiyaların inkişafı" adlı əsərində o, insan psixikasının formalaşma prosesini sxemləşdirərək psixi fəaliyyətin tənzimlənməsi zamanı *əlamətlərdən* istifadə vasitəsini göstərmişdi (8).

L.S. Vıqotski deyirdi ki, natural və ali psixi funksiyalar müxtəlif ixtiyarilik səviyyəsinə malikdirlər. İnsan tərəfindən tənzim olunmayan natural psixi funksiyalardan fərqli olaraq ali psixi funksiyalar şüurlu surətdə insanlar tərəfindən idarə olunur. Bunu sxem 2-də müşahidə etmək olar. Bu idarə olunma, bilavasitə xarakterlə əlaqəlidir. Onlar stimul-vasitə və ya əlamət ilə ifadə olunaraq insanın reaksiyası ilə əlaqə yaradırlar.

Əlamətlər uşaqlar tərəfindən icad olunur və böyüklərlə ünsiyyət zamanı istifadə edirlər. Beləliklə, əlamət əvvəlcə xarici - ünsiyyət planında yaranır sonra isə daxili-şüur planına keçmiş olur.

L.S. Vıqotski qeyd edirdi ki, hər bir ali psixi funksiya səhnədə iki dəfə çıxış edir: bir dəfə xarici – interpsixoloji, ikinci dəfə isə daxili – intrapsixoloji. Əlamətlər *interiorizasiyaların* hesabına uşaqlarda *şüurun əlamət funksiyası* kimi formalaşır. İnsanda xüsusi psixi proseslər olan məntiqi təfəkkürün, iradənin, nitqin inkişafı şüurun əsas funksiyası olaraq formalaşır. Yəni *interiorizasiya* uşağın psixi funksiyasını formalaşdıran mexanizmdir (7).

Bununla yanaşı, inkişafın müxtəlif tipləri arasında hələ də keyfiyyət fərqləri mövcuddur. Yuxarıda qeyd etdiyimiz kimi bu fərqlərin anlanılması L.S. Vıqotskinin inkişafda olan ilkin, ikinci və sonrakı qüsur sıralarında əks olunmuşdur. Pozulmuş inkişafın hər tipinə xas olan bu çatış-mazlıqlar sistemi özünəməxsus inkişaf strukturu yaradır (yəni ancaq bu tipə aid olan çatışmazlıq.

**Sxem 2**



Məhz ilkin, ikinci və digər sıralama ilə olan pozuntuların özünəməxsus uyğunluğu inkişafın spesifik strukturunu təyin edir.

Bunun əsasında psixi inkişaf ləngiməsi, ümumi nitq inkişafsızlığı və ya yüngül dərəcəli əqli geriliklə əziyyət çəkən uşaqlarda bir çox oxşar cəhətlər olmasına baxmayaraq, pedaqoq uzun müddətli müşahidələrdən sonra onları fərqləndirməyi bacarmalıdır. Lakin belə emprik differensasiyanı formal olaraq təqdim etmək düzgün deyil.

**Məqalənin aktuallığı.** Psixoloqun başlıca məqsədi elmi əsaslanmış şəkildə L.S. Vıqotskinin irəli sürdüyü psixi funksiyalar haqqında nəzəriyyələr əsasında müxtəlif pozuntusu olan uşaqların psixi inkişafında olan problemləri fərqləndirməklə qüsur üçün diaqnostik metodları tərtib etmək və onlardan gələcək işlərində səmərəli istifadə etməkdir ibarətdir (6).

**Məqalənin elmi yeniliyi.** Ətraf mühitlə, insanlarla qarşılıqlı münasibətin pozulması anomal inkişafın ən mühüm qanunauyğunluğudur. Yuxarıda qeyd etdiklərimizi 1-ci sxemdə də ğörmək olar.

Ali funksiyaların inkişafını müşahidə edərkən biz gördük ki, hər bir psixi funksiya ciddi olaraq eyni qanunauyğunluqlara tabedir. Yəni hər bir ali psixi funksiya inkişafında iki dəfə təzahür edir. Birinci dəfə kollektiv davranış funksiyası, qarşılıqlı təsir, əməkdaşlıq forması və sosial uyğunlaşma vasitəsi kimi yəni *interpsixoloji* olaraq çıxış edir. İkinci dəfə isə fərdi davranış, fərdi uyğunluq üsulu, davranışın daxili prosesi kimi, yəni *intrapsixoloji* meyar olaraq özünü göstərir" (8).

**Məqalənin praktik əhəmiyyəti.** Yuxarıda qeyd olunanların təhlili bizim üçün imkanları məhdud olan uşaqların sosiallaşmasında və inklüziv təhsilə cəlb olunmasında L.S. Vıqotskinin irəli sürdüyü *interpsixoloji* və *intrapsixoloji* nəzəriyyələri mühüm əhəmiyyət kəsb edir. "...: idiot və imbesil, imbesil və dərin debillik ən arzu olunan sosial kombinasiyalardır ki, uşaqlar daha çox bundan istifadə edirlər. Sosial münasibətlərdə sanki qarşılıqlı xidmət həyata keçirilir. Süst, azhərəkətli insana nisbətən intellekti inkişaf etmiş insan öz sosial akivliyini daha çox təzahür etdirmək imkanına malik olur". Bu fikirləri o, problemli uşağın normal cəmiyyətə inteqrasiya etməsini və gələcək həyatını özü müstəqil yaşamasını öz nəzəriyyələrində də qeyd etmişdir (5).

## ƏDƏBİYYAT

1. ARTPİ. Korreksion pedaqoqikanın müasir məsələləri, Bakı: Mütərcim 2012.
2. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir b vəziyyəti. Bakı: Nurlan, 2007.
3. Выготский Л.С. Собрание сочинений. В 6-и т.Т.5. М.: Педагогика, 1983.
4. Выготский Л.С. Психология. М.: ЭКСМО - Пресс, 2000.
5. Завершнева Е.Ю. Еврейский вопрос в неопубликованных рукописях Л.С.Выготского // Вопросы психологии, 2012, № 2
6. Лурия А.Р. Об изменении психических функций в процессе развития ребенка // Вопросы психологии, 1962, № 3
7. Сарычев С. В. История психологии в таблицах и схемах. П.: Феникс, 2010.
8. Субботский Е.В. Подход Выготского – Лурии к изучению сознательного действия и современные исследования исполнительской функции. // Вопросы психологии, 1962, № 3

**М. Мамедова**

## ПРОБЛЕМЫ РАЗВИТИЯ ВЫСШИХ ПСИХИЧЕСКИХ ФУНКЦИЙ В ПРОИЗВЕДЕНИЯХ Л.С. ВЫГОТСКОГО

### РЕЗЮМЕ

В статье были описаны некоторые моменты из жизни и творчества классика мировой психологии Л.С. Выготского (1896-1934). Семья сыграла очень важную роль в формировании его как ученого. В начале XX века, наряду с работой на руководящих должностях в Совете Народных

Комиссаров, Л.С. Выготский оказал значительное влияние на мировую психологию, дал психологической науке очень ценные мысли, разработал проблемы методологии и теории психологии. Л.С. Выготский также указал на способы использования признаков расстройства при регулировании психической деятельности. Он дал важную оценку биологическим и социологическим факторам, исследовав проблемы развития и расстройства психических функций.

**M. Mammadova**

**DEVELOPMENTAL ISSUES OF HIGHER MENTAL FUNCTIONS IN THE WORK OF VYGOTSKY**

**SUMMARY**

The article provides some moments of the life and work of the world psychology classic L.S. Vygotsky (1896-1934). Family has played a very important role in his formation as a scientist. In the early twentieth century, along with the work in senior positions in the Council of People's Commissars, Vygotsky had a significant impact on the world psychology, by providing valuable ideas developing the problem of methodology and theory of psychology. Vygotsky also pointed out ways of use of the features of the disorder in the regulation of mental activity. He gave a critical assessment to the biological and sociological factors by examining the problems of development and disorders of mental function.

*Redaksiyaya daxil olub: 02.04.2014*

# NƏRİMAN NƏRİMANOVUN VƏ MİRZƏ ƏLƏKBƏR SABİRİN ƏSƏRLƏRİNDƏ GENDER BƏRABƏRSİZLİYİNİN SOSİAL-PEDAQOJİ KONTEKSTDƏ TƏHLİLİ

**Elza Mollayeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*AMİ*
E-mail: elzamollayeva@rambler.ru

**Rəyçilər**: *prof.* **F.A. Rüstəmov,**
*dos.* **K.R. Quliyeva**

***Açar sözlər:*** *gender bərabərsizliyi, gender ölçüsü, gender təhlili*
***Ключевые слова:*** *гендерное неравенство, гендерное измерение, гендерный анализ*
***Key words:*** *gender inequality, gender dimension, gender analysis*

XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış Azərbaycan maarifçilərinin öz əsərlərində toxunduqları ağrılı problemlərdən biri də cəmiyyətdə mövcud olan cinslərarası bərabərsizlik, qadın təhsili və qadın hüquqları məsələsi idi. "Maarifcilər qadınların savadlanması və maariflənməsi məsələsinə bütün müsəlman cəmiyyətinin yenidən qurulması kimi yüksək əhəmiyyət verirdilər" (3, 117).

Maarifçilər haqlı olaraq qeyd edirdilər ki, qadının iştirak etmədiyi cəmiyyət "təkayaqlı adama" bənzəyir. Ümumiyyətlə, "XIX əsrin sonu, XX əsrin əvvəllərindəki Azərbaycanda içtimai-pedaqoji və maarifçilik hərəkatının təsiri imkanlarından bəhs edərkən qızların məktəbə yazılması və qadın təhsilinin bu sahədə, ilk başlanğıc yol olduğunu da qeyd etməliyik" (2, 21). Maarifçilərin ədəbi-pedaqoji irsinin təhlili göstərir ki, onlar qadının kişi ilə bərabər hüquqlara malik olmasını tərbiyə və tərəqqi işinin zəruri amillərindən biri kimi qəbul etmişlər.

Cəmiyyətin modernləşməsini və müasirləşməsini maariflənmədə və təhsildə görən, bu yolda öz köməyini əsirgəməyən ziyalılardan Nəriman Nərimanov geniş mədəni-maarif və ədəbi-siyasi fəaliyyətini məhz bu istiqamətə yönəldirdi. Vətənin xoşbəxt gələcəyini onun gənclərinin yaxşı tərbiyəsi ilə bağlayan böyük demokrat bu gələcəyə gedən yolun məktəbdən keçəcəyini həmişə deyirdi. Onun vətəndaşlıq tərbiyəsi problemləri ilə bağlı irəli sürdüyü tədbirlər arasında qadın təhsili və onlara kişilərlə bərabər hüquqların verilməsi ümdə yer tuturdu. O, bu ictimai problemləri, kişi və qadın münasibətlərinin qeyri-normal vəziyyətini, cəhalət və avamlığa əsaslanan nikah məsələlərini özünün "Nadanlıq", "Bahadır və Sona" əsərlərində geniş açıqlamış və kəskin tənqid etmişdir. Qadınlara qarşı sosial ədalətsizliyi və öz insani hüquqlarından məhrum edilmiş qadınların dövrə qarşı üsyanı ədibin "Pir" povestində geniş əksini tapmışdır. B. Babayev yazır: "O dövr qadınlarımızın ümumiləşdirilmiş surəti olan Gülbadam kimsəsiz, köməksiz olduğu qədər, fəqir və məzlumdur. Povestin əvvəlində fəqir görünən Gülbadam, ...ərinin təfəkkürünün çirkab qoxusu verdiyini duyub dərk etdiyindən, pirin bünövrəsinin necə qoyulduğunun şahidi olduğundan get-gedə mənən və şüurca dəyişir" (1, 117). Gülbadam kimi müti, avam bir qadının məhz "pir"də, mömin insanlar üçün müqəddəs sayılan bir yerdə ürəyindən keçənləri deyə bilməsi zəmanənin əxlaqi-mənəvi qaydalarına qarşı çıxmaq demək idi və bu addımın necə cəsarətli olduğunu demək yerinə düşər. İllərlə qəlbində saxladığı dəhşətli sirri bir kimsəyə deməyə cürət etməyən qadın, nəhayət, qəlbini gəmirən tərəddüdlərə qalib gəlib mənən dəyişir və qadına kölə münasibət bəsləyən mənfur zəmanənin daxili iyrəncliklərini açıb tökür:"...Namusumu təmiz saxlamaq üçün mən hənuz burada Qurana and içdim ki, o yatan bədbəxtin hiyləsini ölənədək söyləməyim -əlini mollanın qəbrinə uzadır – haman bu yerdə mənim ismətimə, namusuma əl uzatdı. Mən çığırdım, qəşş etdim. Ayılandan sonra Qurana and içdim ki, ölənədək bunun hiyləsini aşkar etməyim... Fəqət çoban olmasaydı, bu pir də olmazdı" (8, 212). Gülbadamın bu sözləri dövrünün gender baxımından ədalətsizliyindən cana doymuş bir qadının, ananın və vətəndaşın qəlbindəki fırtınalardan xəbər verir. Gülbadamın çıxışı beyinlərdəki həqiqət qığılcımını alova çevirdi və bu çıxış maarifçilik

dövründə yazılmış əsərlər içərisində gender aspektindən seçilir. “Gülbadamın çıxışından sonra dini ayin və mərasimlər də sarsılır. O, ədəbiyyatımızda ana obrazının bəlkə ən mübarizidir. Ədəbiyyatımızda sevillər, almazlar, pəricahanlar məhz Gülbadamdan sonra yarandı” (1, 120).

N. Nərimanovun sosial tərəqqi və milli azadlıq haqqında olan fikirləri qadın azadlığı, qadının özünü cəmiyyətdə dəyərli insan kimi saymasında onlara kişilərlə bərabər sosial və ictimai hüquqların verilməsi ideyaları ilə üst-üstə düşürdü. Öz ədəbi və içtimai fəaliyyətində kütləəri oyadıb inqilaba hazırlamaq missiyasını əsas götürən N. Nərimanov öz dövrünün mətbuatında qadın məsələsinin necə işıqlandırılmasını diqqətlə izləyirdi və bu mövzuda olan yazıları yüksək qiymətləndirib, həmin müəlliflərə dəstək verirdi. Bu xüsusda özünün “Əliqələmli müsəlman ziyalıları haqqında bir neçə söz” məqaləsində bütün ziyalıları belə müəlliflərə səs verməyə çağırırdı: “Başqa bir müəllif qadın təhsilindən danışarkən analarımızı çox pis qələmlə təsvir edib deyir ki, analarımız öz uşaqlarına çox pis tərbiyə verirlər və tərbiyə verməyi bacarmırlar. Buna görə də məqalənin möhtərəm müəllifi gələcəkdə ana olacaq qızlarımız üçün təhsil almağı lazım sanır və ümid edir ki, onun səsinə səs verən olacaqdır” (7, 238).

Qadın təhsilini gələcək nəslin düzgün tərbiyə edilməsində, uşaqların erkən yaşlardan pedaqoji cəhətdən düzgün yetişdirilməsində və əsl vətəndaş kimi böyüməsində əsas amillərdən biri kimi qiymətləndirən görkəmli mütəfəkkir, qadınların hüquqsuzluğunun inkişafa vurduğu zərbəni ürək ağrısı ilə qələmə alırdı: ”Uşaqların ibtidai tərbiyəsi anaların öhdəsində olub, analarımızdan dəxi lazım olan tərbiyəni gözləyə bilmərik. Çünki hal-hazırda biçarə analarımız ev işlərindən başqa bir şey bilməyirlər” (7, 239). Onun fikrincə hər bir ata və ana öz uşağının bədbəxtliyini onun ağlının naqisliyində yox, öz şəxsi tərbiyəsində görməlidir. Öz dövründə mövcud olan gender asimetriyasını geniş işıqlandıran N.Nərimanovun içtimai tərəqqi ideyalarının əsasında duran fikirlərdən biri də sosial tərəqqi olduğundan onun qadın azadlığına dair inqilabi çağırışları öz dövründə böyük əhəmiyyət kəsb edirdi və bir maarifpərvər kimi onun pedaqoji fikirlərinin əsas qayəsini təşkil edirdi. Məhz onun daxil olduğu “ Hümmət” siyasi təşkilatı 1904-1905-ci illərdə qadın probleminə daha tez-tez toxunub qadınlara aid tələblərlə (qadınların iş saatının azaldılması, neftçi qadınlara tibbi yardım göstərilməsi və s.) çıxış edirdilər.

XX əsrin əvvəllərində qadın məsələsini dövlət səviyyəsinə qaldırmağı cəmiyyətin ümdə vəzifələrindən biri sayan N. Nərimanov, qadınlar üçün açılan məktəbləri tərəqqi üçün zəruri sayıb alqışlayırdı. Çünki onun fikrincə bu həm sosial, həm də ailə-nikah baxımından cinslər arası ədalətsizliyin aradan qaldırılmasına böyük yardım edər. “Mədəniyyət dalınca gedib mərifətdə tərəqqi edən” oğlanların sayı artdığı halda qızların tərbiyəsinin qeydinə qalmamaq ailə daxili münasibətlərin pozulmasına gətirib çıxarırdı, çünki “əqilli övrət pis kişini həmişə yaman yoldan saxlar”.

Böyük demokrat görkəmli xeyriyyəçi H.Z. Tağıyevin yubileyi münasibətilə yazdığı məqaləsində onun Bakıda açdığı qız məktəbini müsəlman aləmində böyük tarixi hadisə və millətə edilən qiymətsiz bəxşiş sayırdı.

Azərbaycanda və bütün müsəlman Şərqində demokratik satirik poeziyanın banisi M.Ə. Sabir nadanlıq və dini xurafata qarşı yorulmadan mübarizə aparmışdır. Onun yaradıcılığında qadın azadlığı mövzusu xüsusi yer tutur və Sabir yaradıcılığı gender baxımından böyük əhəmiyyətə malik olan mütərəqqi fikirlər toplusudur, desək yanılmarıq. M.Ə. Sabir öz dövründə mövcud olan “qadın-kişi” münasibətlərindəki eybəcərlikləri bütün yaradıcılığı boyu kəskin tənqid atəşinə tutmuşdur və cəsarətlə demək olar ki, kəskin, çılpaq tənqidi ilə o özünün bütün müasirlərindən fərqlənirdi. Qadın azadlığı, maarif və məktəb məsələləri, azyaşlı qızların zorla ərə verilməsi M.Ə. Sabir yaradıcılığının əsas qayəsini təşkil edir. Şairin “Qoca cadugərin qızlara nəsihəti”, “Xandostu, amandır, qoyma gəldi”, “Gavur qızı”, “Qadının şikayəti”, “Çatlayır, Xanbacı, qəmdən ürəyim”, “Ey vah” və bu kimi digər əsərlərində cinslərarası münasibətlər daha parlaq və eyni zamanda kəskin formada verilmişdir. Bu şeirlərin hər biri öz dövrünün sosial bərabərsizliyini ittiham edir. Onun qadın azadlığını təbliğ edən “Xandostu, amandır, qoyma gəldi” şeiri şeirin yazıldığı dövrün sosial-ictimai və siyasi mənzərəsini ustalıqla göz önündə canlandırır. Şeirdəki obrazları gender baxımından təhlil etsək, görərik ki, daha çox tənqid atəşinə tutulan bir neçə arvadı və uşaqları olduğu halda 12 yaşında qızla

evlənmək istəyən 50 yaşlı "qəhrəman"dır. Şair ürəkağrısı ilə hələ dünənə qədər gəlinciklə oynayan bədbəxt, balaca qızcığazın böyüklər tərəfindən mənəvi, fiziki əzablara məruz qalmasını həmin qızcığazın özünün dililə belə ifadə edir:

*Dudkeş kimi bir papaq başında,*
*Ağ tükləri bəllidir qaşında.*
*Gərçi qocadır babam yaşında,*
*Xortdandı, xoxandı, qoyma gəldi!*
*Kirdarı yamandı, qoyma gəldi!* (5, 182)

Azadlığı, şərəf və ləyaqəti qəddar dövrdə tapdalanan qadınların ümidsizliyi və kədəri M.Ə. Sabirin "Daş qəlbli insanları neylərdin, ilahi?" şerində böyük ustalıqla əks etdirilmişdir.

Qadının ailədəki vəzifələrini, uşaqların tərbiyəsindəki qayğılarını bədii şəkildə verən böyük şair, bütün bu çətinliklərə və qayğılara görə onun heç bir ixtiyar sahibi olmadığını, hətta ərinin evə ikinci arvad gətirməsinə etiraz etmək hüququndan məhrum olmasını "Gavur qızı" satirasında ürəkağrısı ilə belə verir:

*Sal başını aşağə sən, ancaq işində ol,*
*Paltar yu, ev süpür, elə xidmət, gavur qızı!*
*Yoxsa nə borcuna ki, ər övrət alır yenə,*
*Övrətsən, ancaq eylə itaət, gavur qızı!*
*Ərdir, özü bilər, neçə övrət alar, alar,*
*Heyvan kimi durar, baxar övrət, gavur qızı!* ( 5, 177 )

Qadın hüquqları uğrunda cıxış edən maarifçi şair başa düşürdü ki, qadınların kişilərlə bərabər savadlanması və inkişaf etməsi zamanın zəruri tələbidir. Şeirin hər sətrində əsarətdə saxlanan, ərləri başqa qadınlarla əyləndiyi halda, nəsil artımı və ev işlərində bir vasitə kimi istifadə olunan müsəlman qadınlarının acı naləsi, göz yaşları duyulur.

Dövrünün gender bərabərliyi probleminə kəskin tənqidi münasibət bəsləyən M.Ə. Sabir "qadın azadlığı" problemi ilə yanaşı "qadın-tərbiyəçi" problemini də cəmiyyətin qarşısında duran əsas vəzifələrdən biri kimi verirdi. Qadın yalnız həyat yoldaşı deyil, həm də anadır. Ana uşağı dünyaya gətirməklə bərabər, həm də onun tərbiyəsində məsuliyyət daşıyan tərbiyəçidir. Sabirə görə tərbiyəçisi nadan, savadsız qadın olan bir xalqın tərəqqisindən danışmağa dəyməz və bu fikrini şair özünün "Analar bəzəyi" şeirində ifadə etmişdir:

*Gəc olsa nisadə, elmü irfan,*
*Övlada edə o yolda iman.*
*Əksi olaraq bu müddəanın,*
*Olmaz isə elmi bir ananın,*
*Övlada çatar haman çəhalət.* (5, 235)

Qatı xurafata əsaslanan mürtəce ruhlu adət-ənənələrə qarşı mübarizə aparan şair, cəmiyyətdə qadın hüquqlarını tapdalayan qaydalara qarşı üsyan edib bu misralarla qadın və qızların təlim-tərbiyə işindəki geriliyi özünəməxsus şəkildə belə verirdi: "Qıza lazımdır əgər bilmək o da ev işi, paltar tikişi, köhnə yamaq, yun daramaq, don yamamaq...və s. Biri həm axırı, ən ümdəsi damda bacanın, həm xoxunun, xortdanın adlarını bilməkdə gərək səy edə övrət..." (6, 351).

Sabir öz əsərlərində bir tərəfdən ailə, qadın azadlığı, böyüməkdə olan nəslin tərbiyəsində qadının oynayacağı rola münasibətdə mühavizəkar və mürtəce mövqe tutan ziyalıları kəskin satira atəşinə tuturdusa, digər tərəfdən özlərinin kölə vəziyyətləri ilə barışan, mübarizə aparmayan, cəhalətin qurbanı olduqlarını dərk etməyən, azadlığa çan atmayan qadınları tənqid edirdi.

Sabir yaradıcılığının maraqlı tərəflərindən biri də odur ki, o qadın təhsilinin olmaması ilə bərabər, oğlanların oxumasına cəmiyyətin biganə münasibətini kəskin tənqid atəşinə tutur. Bu baxımdan onun "Oxutmuram, əl çəkin!" şeiri xarakterikdir və bu sahədə cinslərin sosial vəziyyətlərindəki pedaqoji oxşarlığı aydın sezmək olar.

Beləliklə maarifçilər üçün "qadın azadlığı məsələsindən danışmaq, bu məfkurəni yaymaq, qız məktəbləri açmaq, oxumuş analar, gözəl tərbiyəçilər yetişdirməklə, xalq kütlələrinə maarifin, elmin

əhəmiyyətini başa salmaq, onlara əsil həqiqəti və öz hüquqlarını anlatmaq günün ən vacib məsələsi idi" (2.99). Dövrü inqilabi yolla deyil, maarifin ziyası ilə dəyişməyə çalışan maarifçilər "ümid edirdilər ki, qızların məktəbi bitirməsi ilə öz vəzifəsini yaxşı başa düşən təhsilli evdar qadınlar və analar meydana gələcək və tədricən müsəlman həyat tərzi istər ailədə, istərsə də cəmiyyətdə yaxşılığa doğru gedəcək" (3, 117). Zəmanənin qadına qarşı kölə münasibətinin aradan qaldırılması və cinslər arasında sosial bərabərliyə nail olmaq üçün çıxış yolu axtaran maarifçilər bu istiqamətdə qadınların təhsilini və maariflənməsini ön plana çəkirdilər.

**Problemin aktuallığı.** Görkəmli Azərbaycan mütəfəkkirləri Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir qadınların kişi ilə bərabər hüquqlara malik olmasını göstərmiş, tərbiyə və tərəqqi üçün zəruri amillərdən biri kimi qəbul etmişlər. Bu baxımdan məqaləni aktuallığa malik hesab edirik.

**Problemin elmi yeniliyi.** Məqalədə müasir dövrdə qadın hüquqlarının inkişafı və gender məsələsinin həllində əhəmiyyəti vardır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən məsələlər təlim-tərbiyə müəssisələrində gənc müəllimlərə, ayrı-ayrı siniflərdə tədris prosesində və sinifdənkənar-məktəbdənxaric tədbirlərin icrası zamanı əhəmiyyətlidir.

## ƏDƏBİYYAT


1. Babayev B. Azərbaycan realist nəsrində satira. Bakı: Elm, 2008.
2. Bəşirov V. Azərbaycan pedaqoji fikrində milli tərəqqi ideyaları (XIX əsrin sonu, XX əsrin əvvəlləri) Bakı: Oka-Ofset, 2008.
3. Rzayeva N. Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası: Psix.elm. nam. ...dis. Bakı, 2004.
4. Molla Nəsrəddin jurnalı. I cild. Bakı, 1988.
5. Sabir M.Ə. Hophopnamə. I I cild. Bakı: Şərq-Qərb, 2004.
6. Sabir M.Ə.(Tahirzadə M.Z.) Hophopnamə. III c. Bakı: Akademnəşr, 1965.
7. Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Elm, 1973.
8. Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1985.


**Е. Моллаева**

## АНАЛИЗ ГЕНДЕРНОГО НЕРАВНОПРАВИЯ В СОЦИАЛЬНО-ПЕДАГОГИЧЕСКОМ КОНТЕКСТЕ В ПРОИЗВЕДЕНИЯХ Н.НАРИМАНОВА И М.А. САБИРА

### РЕЗЮМЕ

Воспитание гендерного равноправия можно считать новой областью в педагогике, одной из приоритетных задач, возникающих в области воспитания в современном периоде. На сегодняшний день наше государство, берущее за основание демократически ценности во всех областях, принимает социальное равноправие между женщинами и мужчинами в качестве основной части таких ценностей. Поскольку в обществе, которое далеко от свободы женщин, никогда нельзя установить демократию. Сегодня педагогические идеи азербайджанских просветителей в области прививания гендерного равноправия подрастающему молодому поколению могут играть роль ценного источника. Поскольку их мышления о межполовом равноправии, образовании и обучении женщин, существовавшие еще сто лет назад, на сегодняшний день остаются актуальными.

**E. Mollayeva**

**ANALYSIS OF GENDER INEQUALITY IN SOCIAL-PEDAGOGICAL CONTEXT OF N. NARIMANOV AND M.A. SABIRIS WORKS**

**SUMMARY**

Gender equality training may be considered as a new aspect of pedagogics as one of foreground tasks arisen in the field of education in modern period. As of today, our state considering democratic valuable as the base for all aspects adopts social equality between women and men as the basic component of such valuables. Because democracy may be never established in a society being far from freedom of women. Today, Azerbaijani educators pedagogical ideas with regard to gender equality training for rising young generation may play the role of valuable source. Because their thoughts with respect to intergender equality, education and training of women existing as far bacs as one hundred years ago are still urgent for today.

*Redaksiyaya daxil olub: 02.04.2014*

# AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİL MENECERİ HAZIRLIĞININ MÖVCUD NORMATIV-HÜQUQİ BAZASI

**Mətanət Qurbanova**,
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*ARTPİ*
E-mail: metanetgurban@gmail.com

**Rəyçilər**: *prof.* **A. N. Abbasov,**
*prof.* **H. H. Əhmədov**

***Açar sözlər:*** *təhsil meneceri, islahat, idarəetmə, sistem, normativ sənədlər*
***Ключевые слова:*** *менеджер образования, реформа, управление, система, нормативные документы*
***Key words:*** *educational manager, reform, management, system, normative documents*

İntensiv olaraq dəyişən sosial-iqtisadi münasibətlər zəminində cəmiyyətin təhsil sahəsində tələblərinin ödənilməsi planlı, strateji idarəetmə tələb etdiyi kimi, idarəedici korpusun da əsaslı, çevik, sistemli hazırlığını tələb edir. Bu məqsədlə təhsil meneceri hazırlığı üzrə işin sistemli təşkili və aparılması AR Təhsil Nazirliyinin 04.02.2004-cü il tarixli 84 nömrəli kollegiya qərarının 13.6-cı bəndinin tələbləri əsasında tərtib edilmiş müvafiq konsepsiya layihəsi və nazirliyin 10.02.2004-cü il tarixli 111 nömrəli əmri əsasında *Azərbaycan Respublikasında Təhsil Menecerləri Hazırlığının Konsepsiyası*, ümumi müddəaları tərtib edilmişdir. Sənəddə müxtəlif təhsil pillələrində təhsil meneceri hazırlığı, bu sahədə fasiləsiz təhsilin reallaşdırılması üçün vahid mərkəz - Təhsil menecerlərinin hazırlıq Mərkəzinin yaradılması, ixtisasın xüsusiyyətləri nəzərə alınmaqla müvafiq blok, ixtisaslaşma fənlərinin daxil olduğu bazis tədris planı, təhsil menecerinin təqdim olunan professioqramında isə ümumi və xüsusi tələblər öz əksini tapır. Bu sahədə pedaqoji kadrların hazırlanması, müvafiq təhsil modelinin qurulması, vacib resurs təminatı və onun möhkəmləndirilməsi, nəhayət Konsepsiyanın müddəalarının reallaşdırılması üçün hazırlanan normativ-hüquqi baza ötən on il ərzində mərhələ-mərhələ yenilənməkdədir. Konsepsiya imzalandığı tarixdən bu günədək mövcud normativ-hüquqi bazanın xronologiyasını izlədikcə mərhələlərlə görülən işin məzmunu haqqında fikirlər aydınlaşır.

Təhsil sahəsində idarəedici korpusun - təhsil menecerlərin hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılmasını müasir tələblər səviyyəsində təşkil etmək üçün əsas sənəd "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" hesab olunur. Təhsilin idarə olunmasında inzibati - amirlik prinsiplərinin üstünlük təşkil etdiyi islahataqədərki üçün real vəziyyət təhlil edilmiş, proqramın əsas konseptual ideya və təməl prinsipləri müəyyənləşdirilmişdir. Bu, idarəetmənin dövlət-ictimai xarakterinin gücləndirilməsi, inhisarsızlaşdırma, funksiyaların yuxarıdan aşağı paylanması, ağırlıq mərkəzinin aparatdan sinfə — auditoriyaya keçməsi, əsas hədəfin təhsil verənə və alana yönəlməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi idi.

Proqram qəbul olunduğu tarixdən etibarən bir neçə il müddətində təhsilin idarə edilməsi sahəsində perspektiv inkişafı nəzərdə tutan üç əsas mərhələni əhatə edirdi. Müasir idarəetmə prinsiplərinin və funksiyalarının tətbiqinin təşkil edilməsi, bunları həyata keçirmək üçün təhsilin idarə edilməsi sahəsində təhsil menecerlərinin yenidən hazırlanması və ixtisaslarının artırılmasını təmin edən təhsil menecerlərinin hazırlanması mərkəzinin yaradılması proqramın prioritetidir. Sənəddə təhsil sistemində idarəetmənin bazar iqtisadiyyatının tələblərinə və demokratikləşmə prosesinə uyğun qurulmasından, planlaşdırma, əlaqələndirmə, tənzimləmə, nəzarət və s. funksiyaların yeni məzmun və formalarda tətbiq olunmasından bəhs olunur. Yeni idarəetmə modeli dövlət siyasətinin və strategiyasının həyata keçirilməsini, təhsil sisteminin fəaliyyətinin hüquqi tənzimlənməsini, təhsilin maliyyələşdirilməsinin yeni mexanizminin yaradılmasını tələb edir. Təhsil

sisteminin idarəetmə orqanlarının dövlət, qeyri-dövlət və digər təşkilatlarla əlaqələndirilməsini təmin etmək vurğulanır [1].

Təhsil islahatlarının nəzərdə tutulan zaman və resurs imkanları ilə müvəffəqiyyətlə həyata keçirilməsi üçün hazırlanmış tədbirlər planının tərkib hissəsi olaraq Azərbaycan Respublikasında Təhsil Menecerlərinin Hazırlanması Konsepsiyası bu sahədə əsas sənəddir.

Təhsil menecerləri hazırlığının ümumi müddəaları blokların (idarəetmə, pedaqoji, iqtisadiyyat, hüquqi), təhsil pillələrinin (bakalavr, magistratura, elmi-pedaqoji kadr hazırlığı, yenidənhazırlanma və ixtisasartırma təhsili) və ixtisaslaşma fənlərinin (təhsilin iqtisadiyyatı, sosiologiya, valeologiya, pedaqoji menecment, sosial sahədə marketinq, maliyyə- pul dövriyyəsi və kredit, təhsil müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin təşkili, mühasibat uçotu, sosial psixologiya, idarəetmənin psixologiyası, inzibati və mülki hüququn əsasları, təhsilin idarə olunmasının hüquqi əsasları, əmək hüququ, idarəetmə sisteminin təhlili və modelləşdirilməsi, təhsil sisteminin idarə olunmasının nəzəri əsasları, şəxsi heyətin idarə olunması, innovasiya menecmenti, işgüzar münasibətlər, təhsil müəssisələrində dəftərxana işinin təşkili, təhsildə idarəetmənin informasiya texnologiyaları,... təhsildə statistika, ixtisasartırma fənləri, seçmə kursları, təcrübə, diplom işi və onun müdafiəsi, dövlət attestasiyası və s.) təsnifatında əksini tapmışdır.

Müxtəlif təhsil pillələrində təhsil menecerlərinin hazırlanmasında aşağıdakı nəticələrin əldə olunması gözlənilir:

- təhsil sistemində çalışan rəhbər kadrların fəaliyyət nəticələri - keyfiyyət göstəriciləri yüksəlir, rəhbər kadrlar ən müasir metod və texnologiyalara yiyələnir, onları idarəetmə prosesinə tətbiq edir, yaranan təhsil menecerlərinin hazırlıq mərkəzində rəhbər strukturların əməkdaşları idarəetmə elminin əsasları və nailiyyətləri ilə tanış olur, müasir idarəetmə mexanizmlərinə keçid təmin edilir, təhsil menecerlərinin yüksək səviyyəli fasiləsiz təhsilə cəlbi tam təmin edilir, rəhbər işçilərin əməyinin qiymətləndirilməsi prosesində istifadə olunan meyarlar müasirləşdirilir, fasiləsiz təhsilin menecer hazırlığı üzrə ixtisasartırma və yenidənhazırlanma pilləsində məzmun və formaca dünya standartları səviyyəsində yeni plan və proqramlar tətbiq olunur, xüsusi proqramların tətbiqi nəticəsində təhsil menecerləri direktiv sənədləri, mövcud reqlamentləri öyrənir, qanunvericilik aktlarını, maliyyə əməliyyatlarını və s. mənimsəyirlər, yeni təyin olunmuş rəhbər kadrlar fəaliyyətlərinə hazırlıqlı şəkildə başlayır, yüksək hazırlıqlı menecer korpusunun yaranması idaretmə funksiyalarının aşağı ötürülməsi prosesini mümkün edir.

Qarşıya qoyulan məqsədlərin reallaşdırılması üçün əsas komponentlər aşağıdakılardır:

-təhsil menecerlərinin hazırlıq mərkəzinin yaradılması, menecer hazırlığı ilə əlaqədar müasir tələblərə cavab verən tədris planı və proqramların hazırlanması, təhsil menecerinin professioqramı, xidməti vəzifə və ixtisas tələblərinin tərtib edilməsi, ixtisas proqramı üzrə təhsilini başa çatdıran və fəaliyyətə başlayan şəxslərin hazırlıq səviyyəsinə qoyulan tələblərin müəyyənləşdirilməsi və onlara əsasən attestasiyanın keçirilməsi [2].

Konsepsiyada əksini tapan məqamlardan əlavə, hazırda digər, qonşu ölkələrin mövcud təcrübəsi fonunda mübadilə sınaq və səhvlər metodu ilə işin aparılmasının ləngiməsinin qarşısını alacaq. Buna misal Azərbaycan Respublikasının Təhsil Nazirliyi Qafqaz Universiteti ilə əməkdaşlıq çərçivəsində məktəb direktorları və gələcəkdə bu vəzifədə çalışmaq istəyən pedaqoji kadrlar üçün təlimlərdir. İki aya yaxindır ki, davam edən təlim pilot xarakteri daşıyır.

Əlaqədar normativ-hüquqi akt olaraq Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 102 qərarı (2007-ci il 25 iyun) ilə təsdiq olunmuşdur. Müəllim (pedaqoji işçi) hazırlığı kurikulumunun məzmunu baxımından strateji tədbir fənlərin məzmunun (muəllimin fəaliyyəti üçün çox vaxt faydalı olmadığından) yenidən nəzərdən keçirilməsi və duzəlişlər edilməsidir.

2.14.2. Rəhbər pedaqoji kadr (menecer) hazırlığı. Fasiləsiz pedaqoji təhsil və muəllim hazırlığı sisteminin səmərəli idarə olunması üçün rəhbər pedaqoji kadr (menecer) hazırlığı fasiləsiz pedaqoji təhsil və muəllim hazırlığı proqramının vacib tərkib hissəsi kimi təşkil edilir. Bu vəzifənin həyata keçirilməsi üçün fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində təhsil

menecerlərinin hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması həyata kecirilir. Fasiləsiz pedaqoji təhsilin baza peşə-ixtisas təhsili pilləsində təhsil menecerlərinin hazırlanması pedaqoji ali təhsil müəssisələrində müvafiq ixtisasların açılması və müəllim hazırlığı proqramlarına təhsilin idarə olunması üzrə fənlərin daxil edilməsi ilə həyata keçirilir. Fasiləsiz pedaqoji təhsilin diplomdan sonrakı və əlavə təhsil pillələrində təhsil menecerlərinin hazırlanması, yenidənhazırlanması və ixtisaslarının artırılması pedaqoji ali təhsil müəssisələrində və əlavə pedaqoji təhsil müəssisələrində həyata keçirilir [3].

3.2.6. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin idarə olunması və menecer hazırlığı. Fasiləsiz pedaqoji təhsil və muəllim hazırlığı sisteminin idarə olunması və menecer hazırlığı üzrə aşağıdakı tədbirlərin həyata kecirilməsi nəzərdə tutulur:

- müəllim hazırlığı proqramlarına təhsilin idarə olunması uzrə fənlərin daxil edilməsi, bakalavr və magistr təhsili pilləsində təhsil menecerlərinin hazırlanması uzrə yeni ixtisasların açılması, təhsil sisteminin idarə olunması üzrə qısamuddətli təhsil proqramlarının hazırlanması və həyata kecirilməsi,

- yenidənhazırlanma təhsili pilləsində müxtəlif kateqoriyalı təhsil menecerlərinin hazırlanması üzrə tədris proqramlarının hazırlanması və prosesə tətbiqi, ixtisasartırma təhsili pilləsində muxtəlif kateqoriyalı rəhbər pedaqoji işcilərin ixtisaslarının artırılması üçün tədris proqramlarının hazırlanması və prosesə tətbiqi, təhsilin idarə olunması üzrə elmi-pedaqoji kadr hazırlığının həyata keçirilməsi,

- Tətbiqi Tədqiqat Mərkəzində təhsilin idarə olunması problemləri uzrə tətbiqi tədqiqatların aparılmasının təmin edilməsi, pedaqoji təhsilin idarə olunmasında müasir yanaşmaları əks etdirən standartların hazırlanması, yeni pedaqoji yanaşmalar, fasiləsiz pedaqoji təhsil sisteminin və onun idarə olunmasının problemləri uzrə konfransların, seminarların, müzakirələrin keçirilməsi [3].

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"na əsasən təhsil sahəsində islahatların strateji istiqaməti idarəetmə sistemində demokratik modellərə keçid və yeni mexanizmlərin tətbiqi ilə tövsif olunur. Təhsil Nazirliyində bəzi struktur dəyişikliklərin aparılması və yeni şöbələrin yaradılması ilə ölkənin təhsil strategiyasının müəyyənləşdirilməsi istiqamətində strateji təhlil və planlaşdırmasında siyasətin müəyyənləşdirilməsi, eləcə də idarəetmə strukturunun əks-mərkəzləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilməkdədir. Təhsil menecerlərinin hazırlanması üçün təşkil ediləcək təlimlər də bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsinə imkan verəcəkdir.

Təhsil müəssisələrinin maliyyələşmə mexanizminə əsasən vəsaitlərin bölüşdürülməsi və istifadəsini təkmilləşdirmək üçün bu sahədə adambaşına maliyyələşdirmə prinsipinin tətbiq olunması zəruri hesab edilir. Yeni modelə əsasən, müəyyən olunmuş vəsait birbaşa təhsil müəssisəsinin özünə yönəldilərək, vəsaitin hara xərclənməsi müstəqil olaraq müəyyənləşdiriləcəkdir. Yeni normativ hüquqi baza əsasında yaradılmış Məktəb Şuraları aparıcı rol oynayacaqlar ki, bu da idarəetmənin ictimai xarakterini xeyli gücləndirməlidir [4].

Təhsil müəssisələrinin idarə olunması sisteminin təkmilləşdirilməsinə yeni tələblər qoyulduğu şəraitində mexanizmin səmərəsini artırmaq, mövcud vəziyyəti operativ təhlil etmək, qiymətləndirmək və nəticədə əsaslandırılmış optimal qərarlar qəbul etmək üçün təhsilin idarəolunmasının məlumat sisteminə [education management information system, EMIS] ehtiyacın olması idi. Sistemin yaradılmasında məqsəd informasiya texnologiyaları əsasında təhsilin səmərəli idarəolunması sistemini formalaşdırmaq, təhsilin inkişafı üçün dövlət proqramlarının hazırlanması, reallaşdırılması və monitorinqi proseslərini idarə etmək, təhsil sisteminin qısamüddətli və uzunmüddətli perspektiv üçün inkişafını proqnozlaşdırmaqdır.

Tam və ətraflı şəkildə təsviri yaradılmış Təhsilin İdarəolunmasının Məlumat Sistemləri bazasının Milli Təhsil Məlumat Bazası (MTMB) ilə məlumat mübadiləsi təmin olunmuşdur. MTMB çərçivəsində müxtəlif göstəricilər üzrə hesabatlar hazırlamaq üçün məlumatlar toplayan, unifikasiya və müqayisə edən proqram alətləri modulu tətbiq edərək məlumatlar sinxronlaşdırılmışdır. Milli Təhsil Göstəriciləri proqramı (MTMB-də istifadə edilən proqram

təminatı üstünlükləri, dəqiqliyi və təhlil keyfiyyətinə görə 2007-ci ilin Avropanın eDövlət Mükafatının (eGovernment Awards 2007) "Müsbət təcrübə" nişanını ("Good practice label") almışdır), Məktəb İdarəetmə Proqramı, GSM modul və "Məktəb xəritəsi" proqramı Azərbaycanın təhsil sektorunda Milli Təhsil Sisteminin idarə edilməsi və dövlət-ictimai xarakterinin təmin olunması səciyyəsi daşıyır [11].

2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə dövlət proqramı təhsildə İKT-nin tətbiqi sahəsində yerli özünüidarə və dövlət orqanlarının fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi, təhsil sahəsində effektiv idarəetmə üçün zəruri olan elektron məlumat bazası sistemi hazırlanmasına xidmət edir. Ölkənin təhsil sisteminin yüksək İKT bilik və bacarıqlarına malik pedaqoji və inzibati kadrlarla təminatının müasir standartlar səviyyəsinə çatdırılması həmçinin təhsil menecerlərinin fasiləsiz olaraq yenidənhazırlanma və ixtisasartırma təhsili pilləsində həyata keçirilmişdir.

Proqramın həyata keçirilməsi üzrə tədbirlər planı [6, s. 15]. 2.14. Təhsil sisteminin pedaqoji və inzibati-idarəetmə heyətinin İKT üzrə savadlılığının artırılmasına yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi Təhsil Nazirliyi və aidiyyəti orqanlar tərəfindən 2008-2012-ci illəri nəzərdə tuturdu. Bölgə və paytaxtda yerləşən tam orta ümumtəhsil məktəbi, kollec, ali təhsil müəssisələrinin inzibati-idarəetmə heyətini, R(Ş)TŞ və metodkabinələrin müdirləri, R(Ş)TŞ məsləhətçilərini əhatə etmişdir

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (2009-cu il 19 iyun tarixli 833-IIIQ) otuzuncu maddə bütünlüklə təhsil müəssisəsinin idarə olunmasından və təhsil müəssisəsinə rəhbərliyin şərtlərindən bəhs edir. Təhsil müəssisəsi aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsasında bu Qanuna, digər normativ huquqi aktlara və öz nizamnaməsinə uyğun idarə edilməsi göstərilir. Qanunda dövlət, bələdiyyə, özəl təhsil müəssisələrinə rəhbərliyin necə həyata keçirildiyi təsbit edilmişdir. Təhsil müəssisəsinin idarə olunmasının demokratikliyini və şəffaflığını təmin etmək məqsədi ilə təhsil müəssisəsində idarə və özünüidarə orqanları yaradıla bilər. Bu qurumların yaradılması qaydaları və səlahiyyətləri təhsil müəssisələrinin nizamnaməsi ilə müəyyən edilir.

Təhsil müəssisəsinə rəhbərlik həmin müəssisənin statusuna uyğun olaraq rektor, direktor, müdir tərəfindən təhsil müəssisəsinin nizamnaməsinə uyğun həyata keçirilir [5].

Prezidentin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamına əsasən 2009-2013-cu illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar uzrə Dövlət Proqramının icra olunmasının əsas istiqamətlərindən bir qismi aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- ali təhsildə kadr hazırlığı məqsədilə elmi, elmi-pedaqoji və pedaqoji kadrların attestasiyasının, müəllim fəaliyyətinə başlamaq üçün sertifikatlaşdırılma mexanizmlərinin, ali təhsil muəssisələrində keyfiyyəti təmin edən menecment sisteminin, əmək bazarının monitorinqinin və işəduzəltmə mərkəzlərinin, professor-muəllim heyətinin ölkə daxilində və xaricdə treninqlərinin təmin olunma sistemlərinin yaradılması nəzərdə tutulmalıdır [8].

Dövlət Proqramının yerinə yetirilməsindən gözlənilən digər nəticə ali təhsil müəssisələrində funksional idarəetmə modelini həyata kecirən menecerlər heyətinin formalaşdırılmasıdır. Eyni zamanda proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planı aşağıdakı cədvəldə əksini tapmışdır:

| | | | |
|---|---|---|---|
| Ali təhsilin strukturu və idarə olunması | | | |
| 2.22.3 | Ali məktəb və biznes subyektlərinin əlaqələr sisteminin strateji menecment prinsiplərinə əsaslanan iqtisadi və huquqi bazasının yaradılması | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil muəssisələri olan digər dovlət qurumları, ali təhsil muəssisələri | 2013 |
| 2.26 | Ali təhsildə elektron idarəetmə sisteminin ("Elektron Universitet") qurulması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 2013 |
| Ali təhsildə kadr hazırlığı | | | |
| 2.41 | Ali təhsil uzrə idarəetməni təmin edən menecer sisteminin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, ali təhsil muəssisələri | 2009-2013 |

Təhsil Nazirliyinin fəaliyyət planında göstərilir ki, strateji təhlil, planlaşdırma və kadrların idarə olunması ali və orta ixtisas təhsili şöbəsi və ali təhsil muəssisələri tərəfindən icra edilməli, nəzərdə tutulmuş aşağıdakı məsələlər 2013-cü ilədək yekunlaşdırılmalıdır:

- Ali təhsil üzrə idarəetməni təmin edən menecer sisteminin yaradılması, ayrı-ayrı təhsil müəssisələrində təhsil menecerlərinin hazırlanmasının təşkili, Rektorlar Şurasının fəaliyyətinin təkmilləşdirilməsi və onun ali təhsilin idarə edilməsindəki rolunun gücləndirilməsi, ali təhsil müəssisələrinin idarə edilməsində tələbə özünüidarəetmə qurumlarının geniş iştirakına şəraitin yaradılması və qurumların fəaliyyətini tənzimləyən normativ sənədlərin hazırlanması [8].

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin həyata keçirilməsi üçün 2008-ci ilin 24 sentyabr tarixində Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Layihənin ümumi büdcəsi 45.4 milyon dollarlıq "4394AZ nömrəli İnkişaf üçün Kredit Saziş"i imzalanmışdır. Bu məbləğin 20.4 milyonu Azərbaycan hökumətinin payına düşmüşdür. Birinci Layihədə Azərbaycan hökumətinin payı təqribən 13 faiz təşkil edirdisə, İkinci Layihədə iştirak payı 45 faizə çatdırılmış, məbləğlə ifadə etsək, yeddi dəfə artırılmışdır.

Layihənin beşinci komponenti təhsil siyasətinin hazırlanması və idarəolunması imkanlarının gücləndirilməsindən bəhs edir. Alt-komponent (5.1) olaraq təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi nəzərdə tutulmuşdur. Məsələ Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinə tapşırılmışdır [7].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 244 qərarına əsasən (Bakı şəhəri, 22 oktyabr 2012-ci il) "Dövlət büdcəsindən maliyyələşdirilən ali təhsil müəssisələrində çalışan işçilə-rin yeni vəzifə maaşlarının və vəzifə maaşlarına əlavələrin təsdiq edilməsi haqqında" 2008-ci il 12 sentyabr tarixli 210 nömrəli qərarı ləğv edildi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 oktyabr 2012-ci il tarixli 244 nömrəli qərarının icrası haqqında Azərbaycan Respublikası təhsil nazirinin əmrində dövlət ali təhsil müəssisələrinin rəhbərlərinə aşağıdakı məsələlərin tapşırılması göstərilir:

2.1. «Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli Fərmanın icrası olaraq dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişi ilə ali təhsil müəssisələrində kadr hazırlığı adambaşına maliyyələşdirmə prinsipi əsasında həyata keçirildiyi üçün rəhbərlik etdikləri ali təhsil müəssisəsində çalışan işçilərin vəzifə maaşlarının əmək qanunvericiliyinin və müvafiq normativ-hüquqi aktların tələbləri gözlənilməklə sərbəst şəkildə müəyyən etsinlər,

2.2. işçilərlə əmək qanunvericiliyinin tələblərinə uyğun müqavilələrin bağlanılmasını təmin etsinlər... [10].

Ali təhsil müəssisəsində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi, həmçinin menecer peşəkarlığı zərurətini meydana çıxarır. Bu zaman səmərəli və düzgün "hesablanmış" planlaşdırma növbəti illəri də əhatə etməlidir.

Dünyada yeni istehsal və mülkiyyət münasibətlərinə çevik adaptasiya təhsilin keyfiyyəti və səmərəli edilməsini dovlətin, ümumiyyətlə cəmiyyətin zəruri tələbatına çevrilir. Təhsil sahəsində islahatların tətbiqi, məzmun və forma dəyişikliklərinin aparılması elmi-pedaqoji tədqiqatların dərinləşməsi və genişləndirilməsi fonunda təhsil meneceri hazırlığının aparılması müəyyən müddət ərzində müvafiq mərhələlərdən keçməlidir. Prinsipial məsələlərin reallaşdırılması normativ-hüquqi aktlarda yekunlaşıb qalmadan mərhələlərlə və sistemli şəkildə həyata keçirilməli, yenilənən sənədlərin çevik və operativ tətbiqini tənzimləməlidir.

**Problemin aktuallığı**. Təhsil sahəsində idarəetmənin yeni iqtisadi, sosioloji, psixoloji tələblər zəminində inkişafının təmin edilməsi üçün idarəedici korpusun müvafiq qaydada hazırlığı zəruridir. Bu sahədə kadr-təhsil meneceri hazırlığı sisteminin taksonomik ardıcıllıqla inkişafını təmin edən ayrı-ayrı hüquqi və normativ sənədlər zəruri bazanı təşkil edir.

**Problemin elmi yeniliyi.** Məqalədə təhsil meneceri hazırlığı sisteminin iyerarxik inkişafını təmin edən ayrı-ayrı hüquqi və normativ sənədlər təhlil olunur

**Problemin praktik əhəmiyyəti.** Məqalədə təhsil meneceri hazırlığında mövcud normativ-hüquqi bazanın tələblərinin öyrənilməsi və ödənilməsi zamanı istifadə oluna bilər.

### ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu, 1999.
2. Azərbaycan Respublikasında təhsil menecerlərinin hazırlanması Konsepsiyası "Azərbaycan müəllimi" qəz., 2004, 11 iyun.
3. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası. http://www.edu.gov.az/upload/file/fasilesiz-pedaqoji-tehsi-%20konsepsiyasi.pdf
4. "2008 - 2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2011-2015-ci illər). "Azərbaycan" qəz., 2011, 29 iyun
5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan" qəz., 2009, 8 sentyabr.
6. 2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı // Təhsil xəbərləri, 2008, № 5
7. Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (2009-2014). Bakı: [s, n], 2010.
8. "2009-2013-cu illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar uzrə Dovlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il, 295 № li sərəncamı, fəaliyyət planı. "Azərbaycan müəllimi" qəz., 2009, 5 iyun
9. H. H. Əhmədov. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.
10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 oktyabr 2012-ci il tarixli 244 nömrəli qərarının icrası haqqında Azərbaycan Respublikası təhsil nazirinin əmri. 12 noyabr 2012-ci il, № 2030. http://edu.gov.az/view.php?lang=az&menu=299&id=6078
11. "Təhsil sistemində idarəetmənin informasiyalaşdırılması". http://www.ict.edu.az/az/tehsil-sisteminde-idareetmenin-informasiyalasdirilmasi.html

**М. Курбанова**

### СУЩЕСТВУЮЩАЯ НОРМАТИВНО-ПРАВОВАЯ БАЗА ПОДГОТОВКИ ОБРАЗОВАТЕЛЬНЫХ МЕНЕДЖЕРОВ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

### РЕЗЮМЕ

В этой статье проанализирована существующая нормативно-правовая база по обучению менеджеров образования в Азербайджанской Республике. Образовательный менеджмент требует фундаментального обучения персонала на основе современных экономических отношений. История обучения менеджеров образования в Азербайджанской Республике охватывает истекшие десять лет. В течение этого время некоторые из существующих нормативно-юридических документов послужили улучшеную эффективности и интенсивности работы.

**M. Gurbanova**

### THE EXISTING NORMATIVE-LEGAL BASE OF TRAINING OF EDUCATIONAL MANAGERS IN THE REPUBLIC OF AZERBAIJAN

### SUMMARY

In this article is analyzed existing normative-legal base of training of educational managers in the Azerbaijan Republic. Educational management demands fundamental training of the personnel on the basis of the modern economic relations. The history of training of managers of education in the Azerbaijan Republic covers expired ten years. During it time some of existing standard and legal documents served improved to efficiency and intensity of work.

# NƏSİLLƏRƏ NÜMUNƏ

## *HƏSƏN AĞAYEV – 100*

## AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİNİN TƏŞKİLATÇISI

Həyatda gəncləri öyrətməyi özünə peşə seçən insanlar çox xösbəxtdir. Belə insanlar həmişə xalqın sevimlisinə çevrilir, həyatda olsa da, olmasa da yaddan çıxmır, yaddaşlarda əbədi qalırlar.

Ömrünün 40 ilini şərəfli işə - fəhlə sinfinin gənc nəslinin təlim-tərbiyəsinə həsr etmiş, müəllimlikdən Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədrinin müavini, sonralar isə həmin komitənin sədri vəzifəsini icra etməyə qədər yüksəlmiş Həsən Salman oğlu Ağayev də belələrindəndir.

H.S. Ağayev 1913-cü ildə Ağcabədidə anadan olmuşdur. Onun atası Salman kişi rayonun sayılıb seçilən şəxslərindən idi. Qarabağ tarixdə görkəmli şəxsiyyətlər, müxtəlif ixtisaslı kadrlar: mühəndislər, musiqişünaslar, alimlər, aqronomlar yetişdirmişdir.

H. Ağayev II Dünya müharibəsi illərində 2 nömrəli sənət məktəbində tərbiyə işləri üzrə direktor müavini işləmişdir. O, məktəbin digər rəhbərləri ilə birlikdə geniş təçkilatçılıq işi apararaq, arxa cəbhənin yüksək ixtisaslı neftçi fəhlələrilə əməkdaşlıq etmiş, ön cəbhənin hərbi məhsullarla təmin edilməsində öz qüvvə və bacarığını əsirgəməmişdir.

1945-ci ilin aprel ayında H.Ağayev Azərbaycan KP MK aparatında kadrlar şöbəsinin təlimatşısı vəzifəsinə irəli çəkilir. İki ildən sonra respublika texniki peşə təhsili sisteminin ən böyük təhsil müəssisələrindən biri olan 2 nömrəli sənət məktəbinə direktor təyin edilir. Onun təçkilatçılıq bacarığı və təlim-tərbiyə sahəsindəki işgüzar fəaliyyəti nəticəsində bu məktəb ölkədə ən qabaqcıl məktblər sırasına çıxır. Həsən müəllimin rəhbərlik etdiyi kollektivdə Sosialist Əməyi Qəhrəmanı Mirzəbaba Abtalıb oğlu, Azərbaycan SSR Ali Sovetinin deputatı Qırmızı Əmək Bayrağı ordenli, leytenant Şmidt adına Maşınqayırma zavodunun tanınmış qəlibçisi Əli Əsədov, əməkdar səmərələşdirici, Lenin ordenli Yəhya Hacıyev, SSRİ-nin əməkdar təyyarəçisi Viktor İskəndərov kimi adlı-sanlı əmək bahadırları yetişdirmişdir.

Həsən Ağayev 25 il fasiləsiz olaraq respublika Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədr müavini vəzifəsində çalışmış, texniki – peşə təhsilinin mühüm sahəsi olan tədris-istehsalat işlərinə rəhbərlik etmişdir. Bu illər ərzində təlim-tərbiyə prosesinin təçkilində çoxlu dəyişikliklər baş vermiş, müasir istehsalatın tələblərinə cavab verən orta təhsilli ixtisaslı fəhlələr hazırlanması işi həyata keçirilmiş, məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, gələcək fəhlələrin ixtisas və ümumtəhsil hazırlığının səviyyəsi yüksəldilmişdir. Bütün bu tədbirlərin həyata keçirilməsində Həsən müəllimin xüsusi xidmətləri olmuşdur.

Hökumət H.Ağayevin əməyini yüksək qiymətləndirmişdir. O, Qırmışı Əmək Bayrağı oirdeni, Azərbaycan SSR Ali Sovetinin və SSRİ Dövlət Texniki Peşə Təhsili Komitəsinin Fəxri Fərmları ilə təltif edilmişdir.

1960-cı ildə Həsən Ağayev Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

1978-ci ildən təqaüdə çıxan H.Ağayev 1994-cü ildə Bakı şəhərində vəfat etmişdir.

**Məmməd Mirzəliyev**
*ARTPİ-nin baş mütəxəssisi*

# MÜNDƏRİCAT

## *Təhsilin ümumi məsələləri*

**Abdulla Mehrabov.** Müəllimin karyera inkişafında və innovativ fəaliyyətə hazırlığında pedaqoji monitorinqin imkanları ........ 3
**İntiqam Cəbrayılov.** Pedaqoji kadr hazırlığının bəzi məsələləri ........ 9
**Müseyib İlyasov.** Pedaqoji dəstək, onun mahiyyəti və təşkili yolları ........ 14
**Xudayar Sultanlı.** Ekoloji təhsil və tərbiyənin təşəkkülü və inkişafının tarixi-pedaqoji təhlili ........ 19
**Нигяр Мурадова.** Подготовка педагогических кадров: зарубежный опыт ........ 24
**Səbinə Əliyeva.** Məktəbdaxili idarəetmə sisteminin təşkilinə müasir yanaşmalar ........ 28

## *Məktəbəqədər təhsil və tərbiyə*

**Laləzar Cəfərova.** Müasir mərhələdə məktəbəqədər təhsilin yeni məzmunu ........ 32
**Könül Şıxəliyeva.** Məktəbəqədər yaşlı uşaqların ümumi inkişafında fiziki tərbiyənin rolu ........ 38

## *Metodika: fənlərin tədrisi*

**Vaqif Qurbanov.** Dil təlimində inteqrasiya və inteqrativ nəticələr haqqında ........ 42
**Gülşən Piriyeva.** Həyatla əlaqəli tədris əsasında kimyanın öyrənilməsinə marağın formalaşdırılması metodikası ........ 47
**Esmira Məmmədova**. İbtidai siniflərdə morfologiyanın tədrisi prosesinin nitq inkişafı problemləri ...... 51
**Baloğlan Quliyev**. Fiziki tərbiyənin tədrisində fəal təlim metodlarından istifadənin psixoloji aspektləri ........ 55
**Aysəba Məmmədova, Gülzar Şadlinskaya**. Kimyanın tədrisində müasir yanaşmalar ........ 59
**Лариса Колесникова**. Система упражнений с опорой на учебный текст ........ 64
**Nərgiz Qarayeva.** Azərbaycanın rəmzi bitkilərinin şagirdlərə öyrədilməsi ........ 68
**Səidə Bayramova**. Orta ixtisas təhsili sistemində tədrisin keyfiyyətinin yüksəldilməsi üsulları ........ 71
**Yeganə Məmmədova**. Kiçikyaşlıların təhsilində nitq inkişafı üzrə işin məzmunu ........ 74
**Ülviyyə Seyfullayeva, Mehriban Əliyeva.** Tədris prosesində məntiqi məsələlərdən istifadənin şagirdlərin riyazi təfəkkürünün inkişafına təsiri ........ 80
**Xumarə Qurbanova**. Şagird nailiyyətlərinin inkişafında təlim formalarının rolu ........ 84
**Leyla Quliyeva.** Müasir təhsil siyasətində şagird nailiyyətinin qiymətləndirilməsi məsələləri ........ 87
**İlqarə Əskərova**. Tarixin tədrisində innovasiyalardan istifadə ........ 90
**Şəfəq Cəbrayılov**. İnformatika fənninin tədrisində MS Access mühitində verilənlər bazasının layihələnmə və yaradılması metodologiyası ........ 93
**Sevinc Axundova**. Sinifdənxaric tədbirlərdə həyat bilgisinin digər fənlərlə əlaqələndirilməsi ........ 100
**Ufuk Sağlam**. Yeniyetmələrlə aparılan bədən tərbiyəsi dərslərində nəzəri biliklərin mənimsədilməsi metodları ........ 104
**Elmira Щасыбяйова**. Зоолоэийанын тядрисиндя шаэирдляря щелминтоз хястяликлярин юйрядилмяси ........ 107
**Нязакят Новрузова, Zəhra Muradova.** Кимйанын тядриси просесиндя шаэирдлярин биликляринин цмумиляшдирилмяси имканлары ........ 111
**İradə Məmmədova, Elnurə Səfərova**. Ümumtəhsil məktəblərinin zoologiya kursunun tədrisində bitki zərərvericilərinin öyrədilməsi ........ 115
**Ceyran Orucova.** İnformasiya-kommunikasiya texnologiyalarının məktəbəqədər təhsildə tətbiqinin mahiyyəti və xüsusiyyətləri ........ 119
**Leyla Səlimova.** Azərbaycan dili fənni həm də tərbiyə vasitəsidir ........ 124

### *Psixologiya və korreksiya pedaqogikası*

**Talıb Paşayev.** Sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri ilə iş ....................................129
**Sevda Həsənova.** Didaktik oyunların təşkili zamanı musiqi nümunələrindən istifadə etməklə şagirdlərin ekoloji tərbiyəsinin formalaşdırılması yolları ............................................132
**Mehparə Əhmədova.** Məmməd Araz yaradıcılığında mənəvi tərbiyənin pedaqoji-psixoloji əsasları....................................................................................................................136
**Ayaz Həsənov.** Akademik Həsən Əliyev irsinin öyrənilməsinin şagirdlərin ekoloji tərbiyəsinin formalaşmasına təsiri.........................................................................................140
**Vaqif Kərimov.** Kiçik yaşlı məktəblilərin tədris prosesində tərbiyəsi mühüm pedaqoji problem kimi ...........................................................................................................144

### *Müəllimin özünütəhsili*

**Novruz Nəsirov, Akif Sadıxov.** Parametr daxil olan bərabərsizliklərin həlli .......................................150
**Eltac Əliyev.** Boksçuların yarış fəaliyyətinin modelləşdirilməsində hipnoz və musiqinin tətbiqi ...........157
**Ellada Tağıyeva**. İdman leksikasının üslubi diferensiasiyası probleminə dair ......................................163
**Лейла Адыгезалова**. Из истории сложения национального английского языка ...........................175
**Татьяна Соболева.** Развитие устной речи учащихся на уроках литературы .................................180
**Лала Иманова**. Профилактика заикания у детей ..........................................................................185
**Диларя Достузадя**. İнклцзив тящсилин проблемляри вя вязифяляри ............................................189
**Zülfiyyə Şiriyeva**. Deviant davranışın təzahür formaları və onların korreksiyası..................................194
**Şəlalə Nəbiyeva**. Tədris prosesində şagird intellektinin inkişaf etdirməyin zəruriliyi ............................198
**Елмира Кяримова**. Психофизики инкишафын позулмаларынын диагностикасы еффектив тялим-тярбийянин ясас шярти кими..................................................................................204
**Aygün Rüstəmova**. Məktəbəqədər yaşlı uşaqların təlim fəaliyyətinə adaptasiyasının psixoloji xüsusiyyətləri.......................................................................................210
**Günel Əhmədova**. Əqli geriliyi olan uşaqların hafizəsinin inkişafı üçün təmrinlər ..............................213
**Firəngiz Hidayətova.** İntellektin koeffisenti..........................................................................................217
**Minarə Məmmədova**. L.S. Viqotskinin əsərlərində ali psixi funksiyaların inkişafı problemi ...............221
**Elza Mollayeva**. Nəriman Nərimanovun və Mirzə Ələkbər Sabirin əsərlərində gender bərabərsizliyinin sosial-pedaqoji kontekstdə təhlili .................................................................227
**Mətanət Qurbanova**. Azərbaycan Respublikasında təhsil meneceri hazırlığının mövcud normativ-hüquqi bazası ...........................................................................................232

### *Nəsillərə nümunə*

**Həsən Ağayev – 100.** Azərbaycanda peşə təhsilinin təşkilatçısı .........................................................238

*“Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap edilmişdir.*

Чапа имзаланыб: 18.08.2014
Формат: 60x84 1/8. Гарнитур: Тимес.
Щяъми: 15, 25. Тираж:300. Сифариш №142.

MÜTƏRCİM

ТЯРЪЦМЯ
ВЯ НЯШРИЙЙАТ-ПОЛИГРАФИЙА
МЯРКЯЗИ

Аз 1014, Бакы, Рясул Рза кцч., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az

*Təqdim olunan məqalələrə tələblər*

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.
2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.
3. Məqalələrdə problemin aktuallığı, elmi və praktik dəyəri, irəli sürülən nəzəri ideyalardan təcrübədə istifadə imkanları və istiqamətləri öz əksini tapmalıdır.
4. Məqalənin mətni təxminən 6-8 səhifə olmalıdır. Azərbaycan, rus və ingilis dillərində məqaləyə aid açar sözlər verilir.
5. Məqalələr üç dildən - Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Yazıldığı dildən əlavə digər iki dildə məqalənin xülasəsi təqdim edilir. Xülasədə müəllifin soyadı, adı, atasının adı, məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.
7. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
8. Məqalənin mətni Azərbaycan (yaxud ingilis və rus) dilində A4 formatlı ağ kağızda (Times New Roman) yazılmış halda, elektron variantı ilə birlikdə təqdim olunmalıdır. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).
9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.
10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s. 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
13. Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla yığılmalıdır.
14. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
15. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
16. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
17. Məqalə müəlliflərinin hüquqları qorunur.
18. Jurnalda «ardı növbəti nömrədə» adı altında seriya məqalələr dərc olunmur.
19. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.
20. Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.